**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

# MOLLA PƏNAH VAQİF VƏ FOLKLOR

**MÖVZUSUNDA ELMİ KONFRANSIN**

# MATERİALLARI

**21 iyun 2017-ci il**

**BAKI – 2017**

**ELMİ REDAKTORU: Muxtar KAZIMOĞLU**
*AMEA-nın həqiqi üzvü*

**TƏRTİBÇİLƏR:** **Kamran ƏLİYEV**
*AMEA-nın müxbir üzvü, professor*

**Fidan QASIMOVA**
*filologiya üzrə fəlsəfə* doktoru, *dosent*

**"Molla Pənah Vaqif və folklor" mövzusunda Elmi Konfransın materialları.** Bakı, Elm və təhsil, 2017, -236 səh.

Kitabda 21 iyun 2017-ci ildə Bakı şəhərində AMEA Folklor İnstitutunun təşkilatçılığı ilə keçirilən "Molla Pənah Vaqif və folklor" mövzusunda Elmi Konfransın materialları toplanmışdır.

folklor.az

M $\frac{4603000000}{\text{N-098-2017}}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2017

# BÖYÜK AZƏRBAYCAN ŞAİRİ MOLLA PƏNAH VAQİFİN 300 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ildə böyük Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi tamam olur. Adının YUNESKO-nun "2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş bu qüdrətli söz ustasının yaradıcılığındakı humanist dəyərlərə verilən yüksək qiymətin təzahürüdür.

Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır. O, əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermişdir. Azərbaycan şeiri Vaqifin sayəsində tarixinin növbəti mərhələsinə qədəm qoymuşdur. Onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir. Azərbaycan tarixinə həmçinin siyasi xadim kimi daxil olan Vaqif taleyüklü məsələlərin həllində müdriklik və uzaqgörənlik nümayiş etdirmişdir.

Vaqifin yaradıcılığı daim tədqiq obyektinə çevrilmiş, əsərləri kütləvi tirajla nəşr edilmiş və yubileyi keçirilmişdir. 1982-ci il yanvarın 14-də ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində şairin məzarı üzərində ucaldılmış əzəmətli məqbərənin açılışı olmuşdur. 1992-ci il mayın 8-də Ermənistanın silahlı quldur dəstələri işğala məruz qoyduqları Şuşada bütün beynəlxalq hüquq normalarını pozaraq mədəniyyət nümunələrinə qarşı vandalizm aktları törətmiş və 600-ə yaxın tarixi-memarlıq abidə-

sini talayıb məhv etmiş, o cümlədən Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ev-muzeylərini və Molla Pənah Vaqifin məqbərəsini dağıtmışlar.

Vaqif irsinin azərbaycançılıq məfkurəsi işığında daha dərindən araşdırılıb öyrənilməsi bu gün də aktuallığını qoruyan və həllini gözləyən mühüm məsələlərdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Molla Pənah Vaqifin 300 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 12 yanvar 2017-ci il.**

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

*Sədarət:*

**Akad. İsa Həbibbəyli** – AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru

**Akad.Teymur Kərimli** – AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, Füzuli adına Əlyazmalar İnstitutunun direktoru

**Akad. Muxtar İmanov** – AMEA Folklor İnstitutunun direktoru

*Elmi heyət:*

**AMEA-nın müxbir üzvü, prof. Kamran Əliyev** - AMEA Folklor İnstitutunun şöbə müdiri

**Fil.ü.e.d., prof. Füzuli Bayat** - AMEA Folklor İnstitutunun şöbə müdiri

**Fil.ü.e.d. Ramazan Qafarlı -** AMEA Folklor İnstitutunun şöbə müdiri

**Fil.ü.e.d. Seyfəddin Rzasoy** - AMEA Folklor İnstitutunun şöbə müdiri

**Sən.ü.e.d., prof. Nailə Rəhimbəyli -** AMEA Folklor İnstitutunun şöbə müdiri

**Fil.ü.e.d. Əfzələddin Əsgər** - AMEA Folklor İnstitutunun şöbə müdiri

**Fil.ü.e.d. İslam Sadıq** - AMEA Folklor İnstitutunun elmi işçisi

**Fil.ü.f.d. Elxan Məmmədli** - AMEA Folklor İnstitutunun şöbə müdiri

**Fil.ü.f.d. Ağaverdi Xəlil -** AMEA Folklor İnstitutunun şöbə müdiri

**Fil.ü.f.d. İlkin Rüstəmzadə** - AMEA Folklor İnstitutunun şöbə müdiri

**Fil.ü.f.d. Elçin Abbasov** - AMEA Folklor İnstitutunun elmi katibi

**Fil.ü.f.d. Afaq Ramazanova** - AMEA Folklor İnstitutunun şöbə müdiri
**Fil.ü.f.d. Əziz Ələkbərli** - AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi
**Fil.ü.f.d.Rza Xəlilov** - AMEA Folklor İnstitutunun şöbə müdiri
**Əli Şamil** - AMEA Folklor İnstitutu direktorunun xarici əlaqələr üzrə müşaviri

***Katiblik:***
**Fil.ü.f.d., dos. Fidan Qasımova -** AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi
**Nigar İmaməliyeva** - AMEA Folklor İnstitutunun böyük laborantı

# KONFRANSIN AÇILIŞ MƏRUZƏLƏRİ

## QÜDRƏTLİ NOVATOR SƏNƏTKAR

**Akademik İsa Həbibbəyli**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Molla Pənah Vaqifin anadan olmasının 300 illiyinin ölkə miqyasında qeyd olunması haqqında Sərəncam imzalayıb. Həmin Sərəncamın işığında ölkəmizdə müxtəlif tədbirlər keçirilib və keçirilməkdədir. Bu tədbirlər ilin sonuna qədər davam edəcəkdir. Məlumat üçün deyim ki, Türksoy təşkilatı da türk dünyasında Molla Pənah Vaqifin 300 illiyinin keçirilməsi barədə qərar qəbul edib. Türksoy xətti ilə ilk təqdimat fevral ayının əvvəllərində Ankara şəhərində oldu, mən orada məruzə ilə çıxış etdim. Daha sonra Sakarya Universitetində tədbir keçirildi, orda da çıxış etdim. Türksoyun xətti ilə bu il Molla Pənah Vaqifin 25 şeiri Avropa və türk dövlətlərində çap olunacaqdır. Artıq tərcümə işi başa çatıb. Bu il YUNESKO-da Vaqifin 300 illiyinin dünya miqyasında qeyd edilməsi ilə bağlı qərar qəbul edib. YUNESKO-nun Baş iqamətgahında da böyük bir tədbirin keçirilməsi planlaşdırılıb. Keçən həftə Astanada Molla Pənah Vaqifin yubileyi Türksoy xətti ilə geniş şəkildə qeyd olundu. Orda Azərbaycanı akademik Nizami Cəfərov və Kərim Tahirov təmsil ediblər. Şimali Kiprdə də belə bir tədbirin keçirilməsi nəzərdə tutulur. Ölkəmizdə ilk dəfə olaraq mart ayında Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu "Molla Pənah Vaqif və Azərbaycan realizmi" mövzusunda elmikonfrans keçirib. Burada maraqlı məruzələr dinlənilib. Bu gün dəAMEA Folklor İnstitutu "Molla Pənah Vaqif və folklor" adlı tədbir keçirir. Bunun ardınca Fəlsəfə İnstitutunda, Dilçilik İnstitutunda tədbirlərin keçirilməsi nəzərdə

tutulub. İlboyu bu tədbirlər davam edəcək. Yəqin ki, noyabr ayında Milli Elmlər Akademiyası üzrə yekun tədbir – geniş elmi sessiya keçirəcəyik.

Biz Molla Pənah Vaqiflə bağlı təşkilati addımlar da atmışıq. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "XVII-XVIII əsrlər ədəbiyyatı" şöbəsi yaradılıb. Şöbə daha çox Molla Pənah Vaqifi öyrənəcəkdir. Çünki XVII əsrdən başlayaraq ədəbiyyatda klassik ənənələr dəyişir. Füzuli səviyyəsində yazan sənətkarlar meydana çıxmır, ədəbiyyatda yavaş-yavaş təqlidçilik özünü göstərməyə başlayır. İkinci tərəfdən, XVII əsrdə Saib Təbrizinin ədəbiyyata gətirdiyihind səpkisi adlanan bir üslub klassik romantik şeiri həyata yaxınlaşdıran, məişətə bağlayan bir üslub kimi ortaya çıxır. Klassik romantik şeirin vəzni, ölçüləri qorunmaq şərti ilə onun məzmununda həyata, insana, məişətə yaxınlıq qüvvətlənməyə başlayır. Məlumdur ki, o vaxta qədər Azərbaycanda ədəbiyyat daha çox saraylarda cəmləşmişdi. Sənətkarlar öz əsərlərini saraylara göndərirdilər. Hindistanda isə artıq bu dövrdə əruz vəznində yazılan şeirləri aşıq şeiri kimiçayxanalarda oxuyurdular. Orada ədəbiyyat xalqa yaxınlaşmışdı. Saib Təbrizinin də tərcümeyi-halından bilirik ki, o, siyasi təzyiqlərə görə Təbrizdən İsfahana köçməli olub, orda yaşayıb. Hind ədəbiyyatından, "Kəlilə və Dimnə"dən gələn əlamətlər Saib Təbrizi yaradıcılığında da özünü göstərdi.Ədəbiyyatda klassik romantizmin tilsimi sındı. Füzulinin, Nəsiminin şeiri ilə müqayisədə Saib Təbrizinin şeiri həyata, insana, mühitə daha yaxın şeir kimi ortaya çıxdı. Saib Təbrizinin, Qövsi Təbrizinin, Məhəmməd Əmaninin, Ağaməsih Şirvaninin yaradıcılığındakı həyata yaxınlıq, məişətə bağlılıq, nəsihət notları Vaqifi yetişdirən keyfiyyətlərdən biri oldu. XVII-XVIII əsrlər ayrıca ədəbi dövrdür. Biz onu erkən yeni dövr Azərbaycan ədəbiyyatı mərhələsi adlandırırıq. Ədəbiyyat İnstitutunda "Erkən yeni dövr Azərbaycan ədəbiyyatı" şöbəsi yarandı. Filologiya üzrə elmlər doktoru Mahirə Quliyeva həmin şöbənin müdiri təyin olundu. İndiyə qədər

Molla Pənah Vaqifi Ədəbiyyat İnstitutunun "Orta əsrlər Azərbaycan ədəbiyyatı" şöbəsi öyrənirdi. Füzulişünaslar, orta əsrşünaslar Vaqifə bir növ "yad" kimi baxırdılar. Çünki Vaqifin yaradıcılığı onların tədqiqat işinə uyğun gəlmirdi. Yeni şöbə yarandı və artıq Molla Pənah Vaqifi öyrənməklə məşğuldur.Bu şöbə həmçininMolla Vəli Vidadini, Saib Təbrizini, Qövsi Təbrizini, Məhəmməd Əmanini və başqalarını öyrənməklə də məşğul olacaqdır. Bu da onu göstərir ki, Molla Pənah Vaqifin yubileyinin keçirilməsi istiqamətində təkcə konfranslar keçirməklə işimizi bitmiş hesab etmirik. Hazırda Ədəbiyyat İnstitutunda Molla Pənah Vaqifin həyat və yaradıcılığı haqqında monoqrafiya hazırlamaq istiqamətində iş aparılır. Molla Pənah Vaqifin həyat və yaradıcılığına həsr edilmiş sonuncu tədqiqat işi – mərhum Araz Dadaşzadənin monoqrafiyası1974-cü ildə nəşr edilib. 50 ildən çoxdur ki, Vaqif haqqında kitablar yazılmır. Bu il Molla Pənah Vaqifə həsr olunmuş akademik Nizami Cəfərovun kitabı çıxıb. Akademiyada "Erkən yeni dövr Azərbaycan ədəbiyyatı" şöbəsində artıq "Molla Pənah Vaqifin həyat və yaradıcılığı"mövzusunda geniş tədqiqat işi də hazırlanmaqdadır.

Vaqif Azərbaycan ədəbiyyatında yenilikçi, novator sənətkarlardan biridir. Vaqif xalq ədəbiyyatı ilə əruz vəznli klassik-romantik şeir arasındakı baryeri ortadan qaldırmağa nail oldu. Xalq ədəbiyyatı və yazılı ədəbiyyatdakı eyni vəznli və eyni ruhlu şeirləri yaradıb, onları bütövləşdirməklə heca vəznli şeirin sistemini formalaşdırmışdır. Vaqif Azərbaycan ədəbiyyatını klassik əruz sistemindən çıxarıb modern dünya ədəbiyyatı səviyyəsinə qaldırdı. Eyni zamanda Vaqif Azərbaycan ədəbi dilinin yaradıcısıdır. Azərbaycan ədəbiyyatında XIII əsrdə Həsənoğlundan başlayaraq ana dilində şeirlər yazılmışdır. Ancaq, dilçilərin də qeyd etdiyi kimi, Azərbaycan ədəbi dilinin banisi məhz Molla Pənah Vaqifdir. O, şifahi ədəbiyyatda olan xalq şeiri janrlarını, xüsusən qoşmanıyazılı ədəbiyyata doğmalaşdırdı. Vaqif neçə yüz illik romantik şeir qəliblərini dağıtdı, daha doğrusu, romantik əlaqələrin

qalması şərti ilə Azərbaycan realist şeirini, Azərbaycan realist ədəbiyyatını yaratdı. Realist meyillər, müəyyən realist elementlər Xaqanidə, Xətaidə, Füzulinin "Şikayətnamə"sində, Saib Təbrizi və Qövsi Təbrizidə də vardı. Amma bu sənətkarlar bütövlükdə realist ədəbiyyatı tam halda yarada bilmədilər. Azərbaycan realizminin banisi Molla Pənah Vaqif oldu. Vaqifin realizmiilkin realizmdir ki, biz onu erkən yeni dövr Azərbaycan realizmi kimi mənalandırdıq. Molla Pənah Vaqif erkən yeni dövrAzərbaycan realizminin banisidir.

Molla Pənah Vaqif eyni zamanda tanınmış dövlət xadimidir. Əvvəlcə Qarabağ xanlığında eşik ağası, sonra baş vəzir kimi sarayda çalışıb, xanlığın siyasi həyatında, beynəlxalq əlaqələrinin genişlənməsində əhəmiyyətli rol oynaya bilib. Öz həyatı və övladının həyatı faciəvi sonluqla bitsə də, Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatına öz möhürünü vurub. Ulu öndərimiz Heydər Əliyev Qarabağda, Şuşa şəhərində ən çətin zamanlarda şairin məqbərəsini ucaltmışdır. Bu gün Molla Pənah Vaqifin 300 illik yubileyi münasibətilə ölkəmizdə müxtəlif tədbirlər keçirilir. İnanıram ki, həmin tədbirlər sırasında təşkil olunan bu konfrans Molla Pənah Vaqif irsinin tədqiqi və təbliği işində öz tohvəsini verəcəkdir. Çünki Molla Pənah Vaqifin şeirləri öz mənşəyini xalqdan, folklor qaynaqlarından, aşıq şeirindən almışdır. O, xalq şeiri ənənələrindən yaradıcı şəkildə istifadə etməklə yeni tipli poeziya, realist şeir yaratmağın mümkünlüyünü isbat etmişdir. Molla Pənah Vaqifin vəsf etdiyi el gözəlləri "Kitabi-Dədə Qorqud" dastanlarındakı Banuçiçəklərin, Burla xatunların yeni tarixi şəraitdəki davamçılarıdır. Molla Pənah Vaqif Məhəmməd Füzuli ilə Səməd Vurğun poeziyası arasında körpüdür. Vaqifin adı və şənəti ilə bağlı dayanıqlı sənət ənənələri davam etməkdədir. Vaqifi dərindən öyrənmək Azərbaycan ədəbiyyatını yenidən öyrənməyə böyük töhfə verir. Bugünkü konfransda Molla Pənah Vaqif sənətinə və onun xidmətlərinə yeni elmi qiymət veriləcəyinə inanıram.

# VAQİF ŞEİRİNİN ÜZÜ VƏ ASTARI

**Muxtar Kazımoğlu (İmanov)**
*AMEA-nın həqiqi üzvü,*
*AMEA Folklor İnstitutunun direktoru*
*mukhtarkazimoglu@gmail.com*

**Özət**

Aydın bir dillə yazması, yaradıcılığında qoşmanı aparıcı janra çevirməsi, klassik şeir janrlarını, xüsusən də müxəmməsi forma və məzmunca sadələşdirməsi Molla Pənah Vaqif şeirini aşıq poeziyasına bağlayan səciyyəvi cəhətlərdir. Bütün bu cəhətləri nəzərə almaqla yanaşı, bir sualı da aydınlaşdırmaq lazım gəlir: Molla Pənah Vaqif şeiri aşıq poeziyasına, bütövlükdə folklora ruh etibarilə nə dərəcədə bağlıdır? Folklorun mahiyyətinə əsaslanıb qeyd etmək lazım gəlir ki, hədsiz kədərli və hədsiz nikbin olmaq aşıq sənətinin təbiətinə uyğun gəlmədiyi kimi, Vaqif yaradıcılığı üçün də səciyyəvi deyil. Vaqifin ən nikbin şeirlərində belə həmdəmsizlik nisgilinin, təklik-tənhalıq üzüntüsünün ifadəsini görürük.

**Açar sözlər:** Vaqif, folklor, şeir, aşıq, şair

**Мухтар Казымоглы**

**Слово и изнанка стиха Вагифа**

**Резюме**

Выражение ясным и понятливым языком, избрание гошма (лирический жанр ашугского творчества) ведущим жанром своего творчества, упрошение классических поэтических жанров, в особенности жанра мухаммас являются характерными особенностями связывающими творчество Молла Панах Вагифа с ашугской поэзией. Принимая во внимание все эти особенности, необходимо выяснить и этот вопрос: до какой степени стих Молла Панах Вагифа по духу связан с ашугской поэзией в частности и с фольклором, в

общем? Основываясь на сущность фольклора необходимо отметить, что, как беспредельный оптимизм и беспредельный пессимизм чужды природе ашугского искусства, так и не свойственны творчеству Вагифа. Даже в самом оптимистическом стихотворении Вагифа можно проследить выражение томности одиночества и печаль.
**Ключевые слова:** Вагиф, фольклор, стих, ашуг, поэт

**Mukhtar Kazimoglu – Imanov**

**The word and ground of Vagif's poem**

**Summary**

To write clearly, making the quatrains as a main genre in his activity, making the classic poem genres, especially the "mukhammas" (Middle Ages eastern poem of five lines) easier according to their form and subject are the characteristic points connecting Molla Panah Vagif's poem to the ashug poetry. Paying attention to all these points it is necessary to clear up the following question: How well does Molla Panah Vagif poem connect with the ashug poetry, in general to the folklore virtually? Basing on the folklore essence it is necessary to mention that as being unlimited gloomy and unlimited happy doesn't harmonize the ashug art, it is not characteristic for Vagif's activity either. One can see the expression of the languor of the disloyalty, the sorrow of the loneliness in Vagif's most optimistic poems.
**Key words:** Vagif, folklore, poem, ashug, poet

Aydın məsələdir ki, XVII-XVIII əsrlərdə şeirimizin xalq dilinə və xalq ruhuna yaxınlaşmasına aşıq poeziyası əsaslı şəkildə təsir göstərib. Şair kimi məhz aşıq mühitində yetişən M.P.Vaqif dostu M.V.Vidadi ilə birlikdə qoşmanı yazılı poeziyamızın aparıcı janrına çevirə bilib. Bunu nəzərə alan ədəbiyyatşünaslarımız M.P.Vaqif yaradıcılığını araşdırarkən aşıq poeziyası ilə müqayisələr aparmağı vacib sayıblar. Belə müqayisələr bu gün də aparılır

və M.P.Vaqifin özünəqədərki ustad aşıqlarımızdan kimlərin hansı şeirlərindən təsirlənməsi konkret faktlarla üzə çıxarılır. Məsələn, Güney Azərbaycandan olan həmkarımız Məhəmməd Qaraxanlı Alışıq «Xəstə Qasım» kitabına yazdığı «Ön söz»də ustad aşığın «Gözəl, sən» qoşması üzərində xüsusi dayanır və M.P.Vaqifin həmin qoşmadan təsirlənməsi məsələsini diqqətə çatdırır. Xəstə Qasımın adı çəkilən qoşmasının möhürbəndi belədir:

Gözəl namus, gözəl qeyrət, gözəl ar,
Gözəl ilqar, gözəl vəfa, gözəl yar,
Gözəl Qasım, gözəl əcəb, gözəl var,
Gözəl vurul, gözəl mərdə, gözəl sən.

Xəstə Qasımın bu qoşmasına M.P.Vaqif təcnislə «cavab verir» və həmin təcnisin möhürbəndi belədir:

Gözəl qapındadır, gözəl hey dərin,
Gözəl sev demişəm gözəl hey, dərin,
Gözəl, Vaqif qulun, gözəl Heydərin,
Gözəl, yetiş dadə, gözəl alı sən.

Bu cür təsirlənmə və «cavab vermə» faktları olmadan da M.P.Vaqif və aşıq poeziyası əlaqələrindən gen-bol danışmaq mümkündür. Özü də bu əlaqələri yalnız aşıq şeiri şəkilləri üzrə yox, həm də klassik şeir şəkilləri üzrə izləmək olar. Yazılı poeziyadan aşıq poeziyasına keçən müxəmməs janrını M.P.Vaqif mümkün qədər aşıq müxəmməslərinə yaxınlaşdırmağa çalışır. Aşıq müxəmməsləri üçün səciyyəvi olan misraların iki yerə bölünməsi M.P.Vaqif müxəmməslərinin də bir çoxunda özünü göstərir:

Gədə, mən qurban olum qaşları kaman bacına,
Belə bir şux baxan kirpiyi peykan bacına,
Məməsi misli-şəkər, gözləri ceyran bacına,
Dişi dür, ağzı sədəf, ləbləri mərcan bacına,
Məst damənkəşü xəndanü xuraman bacına.

Gətirilən nümunədə hər misrasının 7+8 şəklində bölünüb oxunmasını və bununla müxəmməsin aşıq müxəmməslərinə yaxınlaşmasını müşahidə etmək çətin deyil.Belə nümunələr üzərin-

də geniş dayanmadan qeyd etməyi vacib bilirik ki, M.P.Vaqif şeirləri yalnız dil-üslub, forma-şəkil baxımından deyil, həm də ruh etibarilə aşıq şeirlərinə yaxındır.

Qurbanidən üzübəri tanıdığımız aşıqlardan hər birinin kədərli şeirləri də var, nikbin ruhlu şeirləri də. Amma M.V.Vidadi kimi hədsiz kədərli, M.P.Vaqif kimi hədsiz nikbin aşıq tapmaq çətindir. Aşığın hədsiz kədərli ola bilməməsi onun funksiyası, sənətinin mahiyyəti ilə bağlıdır. Başlıca funksiyası hücrəsinə çəkilib şeir yazmaqdan yox, məclislərdə çalıb-çağırmaqdan, söz oxuyub, dastan söyləməkdən ibarət olan aşığın hansı ruhda köklənməsi özündən daha artıq dərəcədə çalıb-oxuduğu auditoriyadan asılıdır.Bunu çox gözəl bilən aşıq məclisdə ağlaşma qurmaqdan çəkindiyi kimi, şit danışıqdan da çəkinməli olur, qəmli əhvalatdan qaravəlliyə, zarafatdan ciddi mətləbə keçidlər etməyi bir normaya çevirir.Deməli, M.V.Vidadinin qəmli, M.P.Vaqifin nikbin olmağını birbaşa aşıq ədəbiyyatının ayağına yazmaq olmaz.M.P.Vaqifin şuxluğunu sarayla, sarayda gün-güzəranın xoş keçməsi ilə də məhdudlaşdırmaq doğru deyil. Saraya qalsa, M.V.Vidadi də bir müddət II İrakli sarayı ilə bağlı olub. Sarayla bağlılıq M.V.Vidadinin üzünü güldürə bilməyibsə, onda M.P.Vaqifin üzügülər olmasının kökünü başqa yerdə, məsələn, onun sarayaqədərki şeirlərində axtarmaq lazımdır:

Bayram oldu, heç bilmirəm neyləyim,
Bizim evdə dolu çuval da yoxdur.
Dügiylə yağ, hamı çoxdan tükənmiş,
Ət heç ələ düşməz, motal da yoxdur.

Bu, M.P.Vaqifin yoxsulluqdan acı yox, məzəli bir şikayətidir. Şikayətin məzəli məzmunu ondadır ki, şair yoxsulluğa güldüyü kimi, özünə də gülür:

Bizim bu dünyada nə malımız var,
Nə də evdə sahibcamalımız var.
Vaqif, öyünmə ki, kamalımız var,
Allaha şükür ki, kamal da yoxdur.

Yoxsulluğun günahını başqalarından daha çox özündə, öz «kamalsızlığında» − fərasətsizliyində axtarmaqla şeirə yumoristik məzmun verən M.P.Vaqif, avtoportretinin mühüm bir cəhətini təqdim etmiş olur.Bu cəhət həyatsevərlikdir. Nə yoxsulluq, nə qəriblik, ayrılıq, nə də başqa ağrı-acılar bu həyatsevərliyin qarşısını ala, yaşamaq-yaratmaq şövqünü azalda bilmir:

Ta cəsədin cüda olmayıb candan,
Bil özünü artıq sultandan, xandan,
Qəriblik, ayrılıq nədir ki, ondan
Bu qədər çəkibən azar, ağlarsan?

M.V.Vidadi ilə bu məşhur deyişmədə M.P.Vaqif həyatsevərliyini çox sadə fakt əsasında da izləmək olar. Fakt ondan ibarətdir ki, M.P.Vaqif dərd əlindən «zar-zar ağlayan» M.V.Vidadini də baməzə danışmağa sövq edə bilir:

Vaqif, nə çox yan, baş-ayaq atarsan...

Yaxud:

Neylərsən söyləmiş buzov-inəyi,
Bizimlə eyləmiş belə hənəyi,
Həzrətqulu bəyin ağ dəyənəyi –
Alıbsan əlinə məgər, ağlarsan?

M.P.Vaqifə «yan, baş-ayaq atarsan» deməsi, buzov-inəkdən, əldə dəyənəkdən söz açması həyatsevər dostuna qoşulub M.V.Vidadinin də baməzə bir üslubda danışmasından xəbər verir. Yeri gəlmişkən qeyd edək ki, M.P.Vaqiflə M.V.Vidadinin mənzum məktublaşmasının digər nümunələrində də az-çox zarafat ahənginin olduğunu görürük. M.P.Vaqif şair dostuna ünvanladığı «Düşər» rədifli qəzəlində yenə zarafatından qalmır, «Eşqə düşmək sənə düşməz, qocalıbsan, belə dur, Belə işlər yenə Vaqif kimi oğlanə düşər» deyir. M.V.Vidadi cavab məktubunda «qoca və cavan» məsələsinin üstündən heç də sükutla keçmir və zarafata zarafatla cavab verib «Nə qədər olsa qoca gərçi Vidadi xəstə, Yenə Vaqif kimi, əlbəttə, yüz oğlanə dəyər» misralarını

işlədir. Və M.P.Vaqifin başladığı, M.V.Vidadinin davam etdirdiyi zarafat yaddaşlara həkk olunur, Ü.Hacıbəyov sövq-təbii Məşədi İbadı həmin zarafatdan gələn bir ifadə ilə danışdırır: «Mən nə qədər qoca olsam da, min buğu burma cavana dəyərəm».

Yenidən «Ağlarsan» deyişməsinə qayıtsaq, qeyd etməliyik ki, həmin deyişmədə M.P.Vaqifin təhriki ilə nəinki inək-buzov, dəyənək-filan kimi xırda məişət məsələləri, həmçinin çox ciddi mətləblər zarafat mövzusuna çevrilir.Bir-birinin xətrini çox əziz tutan iki şair dünyaya fərqli baxışlarını yumoristik biçimdə ifadə edirlər.Fərqli baxış heç də dünyanın fani olub-olmaması üstündə deyil.Bu dünyanın fani dünya olduğunu M.V.Vidadi kimi M.P.Vaqif də bilir. Belə olmasaydı, M.P.Vaqif deyişməni «Ey Vidadi, sənin bu puç dünyada Nə dərdin var ki, zar-zar ağlarsan?» sözləri ilə başlamazdı. M.P.Vaqif bəri başdan dünyanın faniliyinə işarə edirsə, onda iki şairin dünyagörüşündəki başlıca fərqi fani dünyanın naz-nemətindən doyunca dadıb-dadmamaq məsələsinə münasibətdə axtarmaq lazımdır.Həmin məsələyə münasibətdə M.P.Vaqifin M.V.Vidadi ilə apardığı mübahisə, əslində, o vaxta-qədərki şairlərimizlə, o şairlərimizdən isə daha çox M.Füzuli ilə aparılan mübahisə deməkdir. M.P.Vaqif dünyaya sufiyanə baxan, gözəli Allahın yerdəki təcəssümü sayan, ilahi nişanəli gözəldən zövqü səfa yox, cövrü cəfa uman, vüsal sevincini yox, hicran əzabını başlıca mövzuya çevirən füzulilərin yolu ilə getmək istəmir.Real həyatda rastlaşdığı gözəllərin vəslini, vüsaldan doğan sevinc və nəşəni başlıca mövzuya çevirməklə, həmin mövzunu təmiz ana dilində kifayət qədər bədii bir biçimdə əks etdirməklə M.P.Vaqif yeni yol tutur. Söz yox ki, bu yolun xeyli hissəsini M.P.Vaqif M.V.Vidadi ilə birlikdə addımlayır.Xalq dilinə yaxın bir dillə real hadisələrdən yazmaq, aşıq şeiri şəkillərinə üstünlük vermək bu iki sənətkarın qoşa addımladığı yolun ədəbi faktlarıdır. M.P.Vaqif sufiyanə məhəbbətdən uzaqdırsa, M.V.Vidadini də sufiyanə məhəbbətin tərənnümçüsü saymaq olmaz. M.V.Vidadi ilə M.P.Vaqifin yolları real gözəllərə münasibətdə ayrılır. Düzdür,

M.V.Vidadi «Ağlarsan» rədifli deyişmədə öz «ağlamağını» məhəbbətlə əlaqələndirir, M.P.Vaqifə «Sənin də başında məhəbbət beyni; Əgər olsa, eylər əsər, ağlarsan» deyir, amma buna baxmayaraq, heç kim M.V.Vidadini məhəbbət şairi adlandırmır. Çünki M.V.Vidadi «ağlamaq ki, vardır, məhəbbətdəndir» deyərkən gözəllərə məhəbbəti nəzərdə tutmur.M.V.Vidadinin nəzərdə tutduğu məhəbbət Allaha, Peyğəmbərə və qadınlı-kişili bütün insanlara məhəbbətdir. Təsadüfi deyil ki, M.V.Vidadi «məhəbbət» sözünü «mərhəmət», «mürüvvət» sözləri ilə qoşa işlədir:

Ağlamaq ki, vardır, məhəbbətdəndir,
Şikəstəxatirlik mərhəmətdəndir,
Əsil bunlar cümlə mürüvvətdəndir,
Olsa ürəyində, betər ağlarsan!

İxtiyar sahiblərinin mürüvvətsiz olduğu, insanlara mərhəmət göstərilmədiyi, məhəbbətlə yanaşılmadığı bir dünyada M.V.Vidadi özünü qürbətdəki qərib kimi tənha hiss edir və o məhz qürbətin və qəribliyin kədərini qələmə alır.Gözəlin yer üzündə Tanrı təcəssümü olması barədə mistik baxışlara meyl göstərməyən M.V.Vidadi M.Füzulidəki aşiq-arif kədərini sadəcə olaraq arif kədəri ilə əvəz edir.

Son şeirləri də göstərir ki, qəriblik, tənhalıq hissi M.P.Vaqif üçün də yad deyil, bəlkə də, dünyanın ən tənha şairlərindən biri elə M.P.Vaqifin özüdür.Bəlkə də, mistik məhəbbət mövzusu kimi qəriblik-tənhalıq mövzusunu da M.P.Vaqif bilərəkdən bir qırağa qoyur, kədərin ifadəsinə xidmət edəcək mətləblərdən məqsədyönlü şəkildə imtina edir. İmtina etdiyi əzabkeş aşiq obrazının yerinə M.P.Vaqif məhz zövqü səfa sahibinin obrazını gətirmək istəyir.Bu zövqü səfa sahibini M.P.Vaqif az-az hallarda «aşiq» adlandırır. Çünki aşiqin Tanrı təcəssümü olan gözələ can atmaqdan, əzabkeşlikdən başlayan məlum əlamətləri, nişanələri var. Bunu M.V.Vidadi də çox gözəl bildiyindən M.P.Vaqifi heç də eşqdən, məhəbbətdən yazmaqda yox, gözəlləmə yazmaqda, durub-oturub «canan», «dilbər» deməkdə qınayır:

Gəl danışma müxəmməsdən, qəzəldən,
Şeiri-həqiqətdən, mədhi-gözəldən,
Sənin ki halını billəm əzəldən,
Elə deyib canan, dilbər, ağlarsan.

M.V.Vidadi canan, dilbərlə gün keçirməyi ötəri bir şey saysa da, bu cür kef-damağın, «ləzzətin», «dadın» əvvəl-axır zəhərə dönəcəyini bildirsə də, M.P.Vaqif dediyindən dönmür, «toy-bayramdır bu dünyanın əzabı» deyib durur. Ədəbiyyatşünaslarımız M.P.Vaqifdən danışarkən bu misranı tez-tez misal çəkməkdə haqlıdırlar.Doğrudan da, bu misra M.P.Vaqif fəlsəfəsini başa düşməkdə açar rolu oynayır. Aydın olur ki, özünün tək-tənha olduğu fani dünyada, hansı yolla olur-olsun, əzablara sinə gərib sevincə can atmaq və qəm-qüssəni bir qırağa qoyub sevincdən-nəşədən yazmaq M.P.Vaqifdə insan gücünü göstərməyin, insanı həyata bağlamağın bir yolu kimi düşünülüb. N.Cəfərovun sözləri ilə desək, «Füzuli şeirindəki kədər Füzuli müdrikliyinin göstəricisidirsə, Vaqif şeirindəki şuxluq da Vaqif müdrikliyinin şərtidir».

M.P.Vaqifi tanımaqda mühüm əhəmiyyət daşıyan «Ağlarsan» rədifli deyişmədə bir sünni-şiə mübahisəsi var. Bu məzəli mübahisədən yan keçmək olmur. Əvvəla, ona görə ki, həmin mübahisə əsasında M.P.Vaqif həyatsevərliyinin başqa bir cəhəti də açılır: M.P.Vaqif nəinki real predmetləri, hətta Əzrayıl, Şeytan, İnkir, Minkir və s. mövhumi qüvvələri, ölümün özünü zarafat mövzusuna çevirmək kimi bir genişlik nümayiş etdirir. İkincisi, ona görə ki, sünni-şiə mübahisəsi M.P.Vaqifin həyatındakı bəzi qaranlıq nöqtələrə işıq salır.

Ölümlə, ölülərlə, mövhumi qüvvələrlə zarafat ilk növbədə folklordan gəlir. Xalq ədəbiyyatında ölülərin, Əzrayılın, Şeytanın komik biçimdə təqdim edildiyi nə qədər süjet var! Aşıq ədəbiyyatında ölülərin o dünyaya yola salınması işləri ilə məşğul olan dünyagir mollalara aid neçə məzəli şeir var! Folklorla, eləcə də aşıq şeiri ilə möhkəm bağlı olan M.P.Vaqif «Bir gün çökər qabağına Əzrayıl», «Bu yanından çıxar o zalım Şeytan»,

«Münkir-nəkir necə olsa ötüşər» və s. kimi misralar işlətməkdən, həmin misralarla başlayan bəndlərdə mövhumi obrazları yarızarafat-yarıciddi bir ahəngdə təqdim etməkdən çəkinmir:

Bu yanından çıxar o zalım şeytan,
Su göstərər, səndən ta ala iman,
Nə Ömər tapılar, onda nə Osman,
Hər biri bir yanda batar, ağlarsan.

Sünni məzhəbi ilə bağlı Ömər, Osman kimi simaların «hər biri bir yanda batar» şəklində qələmə alınmasını M.V.Vidadi, təbii ki, cavabsız qoymur və «tərk edibsən peyğəmbərin sünnətin» deyə M.P.Vaqifi məzəmmət edir, onun kef-damaq dalınca qaçmasının heç şiəliklə də bir araya sığmamasını xatırladır:

İmamlar ha deyil sənin yoldaşın,
Olsaydı, gözündə olardı yaşın.

Doğrudan da, qırx gün İmam Hüseynə göz yaşı tökən şiəlikdə M.P.Vaqifi cəlb edən nədir?Bəlkə, M.P.Vaqif şiəlik məzhəbini İbrahim xana xoş gəlsin deyə qəbul edib? Salman Mümtaz bu məsələyə belə aydınlıq gətirir: «İbrahim xan Cavanşirə çox yaxın olmaq üçün qəsdən məzhəbinə təqyir vermişdir» deyənlər, bizcə, yanılırlar. Çünki Vaqifin mərsiyə və məşhur zikrləri səmimi şiə olduğunu göstərir». M.P.Vaqifin səmimiyyətinə biz də şübhə etmirik, amma Qarabağ sarayına can atan və uzun müddət sarayda yaşayan bu şairimizin konkret şəxsi məqsədlər naminə siyasət işlətdiyini də istisna etmirik:

Şafeini imamlardan ayırma,
Əmmə xanı görüb riya qayırma.

«Ağlarsan» rədifli deyişmədə M.V.Vidadinin dediyi bu sözlər məzhəb məsələsində M.P.Vaqifin müəyyən siyasət işlətməsinə bir işarədir.M.P.Vaqifin siyasət işlətməsində təəccüblü bir şey yoxdur.Çünki onun hərdən siyasət naminə şeirlər yazması da məlum həqiqətdir.Amma mənsəb sahibi olmaq üçün «ali-Cavanşir»i mədh edən qəzəl yazması, ölümdən yaxa qurtarmaq üçün Məhəmməd bəy Cavanşirə «Məhəmməd» rədifli qoşma həsr et-

məsi M.P.Vaqifi qınamağa yox, onu başa düşməyə gərək olan faktlardır.Belə faktlar göstərir ki, M.P.Vaqif həyat eşqi ilə dolu bir poeziya yaratmaqla kifayətlənməyib, eyni zamanda şəxsi həyatını nikbin ruhlu şeirinə uyğun şəkildə qurmaq istəyib. M.P.Vaqif həm sözdə, həm də əməldə qəm-qüssəyə təslim olmamağa çalışıb.

M.P.Vaqifin bir mərsiyəsi var − İbrahim xanın oğlu Cavadın vaxtsız ölümü münasibətilə yazılıb.Bu mərsiyə hansısa bir mərsiyədən çox M.Ə.Sabirin «Səttarxana» mədhiyyəsini yada salır. Bu fikrə inanmaq üçün mərsiyənin bir bəndinə nəzər salmaq kifayətdir:

Od düşüb, köşkü saraylar guyiya tağlar yanar,
Səs verir səngü şəcərlər, od tutub dağlar yanar,
Yasa girmiş səbzələr, geymiş qara bağlar yanar,
Cümleyi-xəlqi-cahan qan-yaş töküb ağlar, yanar,
Səndən ötrü, xan Cavad, sərdar Cavad, sultan Cavad,
Sərbəsər geysin qara bundan geri dövran, Cavad!
Oldu cün nazik vücudin xak ilə yeksan, Cavad!

Bu mərsiyənin «Səttərxana» mədhiyyəsini yada salmasını qeyd etməkdə məqsədimiz M.P.Vaqif – M.Ə.Sabir əlaqələrindən, M.P.Vaqifin özündən sonrakı poeziyamıza, həmçinin mollanəsrəddinçi şeirimizə güclü təsir göstərməsindən danışmaq deyil. Məqsədimiz mərsiyə kimi ən kədərli şeir nümunəsində belə M.P.Vaqifin dirilik ifadə etməsini nəzərə çatdırmaqdır. «Səttarxana» şeirini (bir vaxt Təbrizdə Səttarxan əsgərlərinin qəhrəmanlıq marşı kimi oxuduqları şeiri) xatırladan da mərsiyədəki dirilik ruhudur.Mərsiyədəki misralar, xüsusən də hər bənddə təkrar olunan və «xan Cavad, sərdar Cavad, sultan Cavad» sözləri ilə başlayan parça sanki bir qəhrəmanlıq nəğməsi kimi səslənir.

Qəhrəmanlıqdan söz düşmüşkən qeyd edək ki, Firidun bəy Köçərli M.P.Vaqifin təbiət etibarilə cəsur adam olmasını xüsusi olaraq diqqətə çatdırır: «Vaqifin özü həm molla və şair isə də, vaxtın təqazasına görə onun meyl və könlü silah və əsləhəyə dəxi olub, igidlik iddiasına həm düşürmüş və məqami-zərurətdə özü

yaraq götürüb davaya çıxarmış». M.P.Vaqifin təbiət etibarilə cəsur adam olması az-çox şeirlərindən də görünür. Məhəbbət şairi kimi tanıdığımız M.P.Vaqif igidlik, igid adamlar, onların nəcib insani keyfiyyətləri barədə şeir yazmağa mənəvi ehtiyac duyur:

İgidlik iddiasın edənə layiq deyil yalan,
Vəfasızlıq nisalərdə, deyildir bab igidlərdə.

Məhəbbət şairinin tüfəng haqda ayrıca müxəmməs yazmasına da təsadüfi hal kimi baxmaq olmaz:

Dəhridə oldu mənə dildarü dilbər bir tüfəng,
Xoş qədi ayineyi-simü səmənvər bir tüfəng…

İgidlikdən bəhs edən qəzəli və tüfəngə həsr olunan müxəmməsi ilə M.P.Vaqifin məhəbbət şeirləri arasında məna-məzmun yaxınlığı ilk növbədə lirik «Mən»in qabarıq təqdim olunmasındadır. Bu qabarıqlıq, nəinki şeirlərin məzmununda, həmçinin müxtəlif forma elementlərində, məsələn, rədiflərdə də özünü büruzə verir. Şair bir çox şeirlərini «Vaqif» rədifi üstündə qurur. Məsələn, «Ey Məkkəni, Mədinəni yaradan, Bir fikir çək əhvalına Vaqifin»; «Bir ayna qabaqlı, tər sinəli yar, Çox müştaqdır sizin camala Vaqifi»; «Ey səba, yarə de kim, avarə gördüm Vaqifi» misraları ilə başlayan şeirləri başdan-başa «Vaqif» rədifi üstündə qurulub. Şair bir sıra qoşmalarının möhürbəndində üç dəfə, bir sıra müxəmməslərinin möhürbəndində isə dörd dəfə «Vaqif» rədifindən istifadə edir.

İgidliyə qəzəl, tüfəngə müxəmməs həsr edən, öz adını şövqlə bir çox şeirlərinin rədifinə çevirən M.P.Vaqif bir qüdrət qarşısında acizlərin acizi, məğlubların məğlubudur.Belə bir qüdrət sahibi ay qabaqlı gözəldir.M.P.Vaqif şeirinin baş qəhrəmanı olan bu gözəl M.P.Vaqif yaradıcılığında gözəlləmələrin başlıca forma-məzmun istiqamətinə çevrilməsinə səbəb olur. M.P.Vaqif nəinki qoşmalar, həm də klassik seir janrları əsasında gözəlləmənin nadir mətn tiplərini yaradır.Nadirlik ilk növbədə ondadır ki, şair mətni başdan ayağa, yaxud mətnin böyük bir hissəsini büsbütün bir cümlə üstündə qurur.Məsələn, müxəm-

məslərindən birini şair «Nə xoşdur» ifadəsi ilə başlayır. Şeiri oxuyub qurtarırsan və məlum olur ki, böyük bir şeir başdan-başa bircə cümlədən ibarətdir:

Nə xoşdur baş qoymaq bir güləndamın qucağında,
Tamaşa eyləmək ol həlqə zülfəağ buxağında…

Bu, şeirin ilk iki misrasıdır.

…O zülfi-yasəməndən həsrətilə ayrılıb naçar,
Gənə Vaqif kimi bir dəxi olmaq iştiyarğında.

Bu isə şeirin son iki misrasıdır.Əvvəlinci iki misra ilə sonuncu iki misra arasındakı böyük bir parça yarla «xoş» olan nə varsa, onların sadalanmasından ibarətdir.

Yaxud qoşmalarının birini M.P.Vaqif «Əyibdir qəddimi, dəlib bağrımı» misrası ilə başlayır və qoşmanın dörd bəndi ardıcıl olaraq kimin, hansı gözəlin qədd əyib, bağır dəlməsindən bəhs edən bir cümlədən ibarət olur:

Əyibdir qəddimi, dəlib bağrımı,
Bir kirpiyi oxlu, qaşı kamanlı,
Gözləri can alan cəlladi-sərməst,
Baxışı hərami, qəmzəsi qanlı.

Bir nazik kamallı, bir nazik işli,
Şirin gələcili, şəkər gülüşlü,
Bir mərcan baxışlı, dürdanə dişli,
Bir cəvahir sözlü, sədəf dəhanlı.

Yaxud qoşmalarının birində ilk bənd «Sənsən candan əziz cananım mənim» misrası ilə bitir və şeirin sonrakı beş bəndi həmin «sənsən» xəbərinin mübtədalarının sadalanmasından ibarət olur:

Sözüm, ixtilatım, hər qalü qilim,
Mətləbim, muradım, xatirim, meylim,
Şəkkərim, Şirinim, Gülşahım, Leylim,
Züleyxam, Yusifi-Kənanım mənim.

M.P.Vaqifin aydın və canlı dil, yüksək bədiilik nümunəsi olan gözəlləmələrində lirik qəhrəmanı bir tərəfdən qadına «gəl-

gəl» deyən erkək timsalında görürüksə, başqa bir tərəfdən ümidini qadın ülfət və ünsiyyətinə bağlayan naçar timsalında görürük:

Xublar arığından yarımaq olmaz,
İgidin həmdəmi gərək çağ ola…

Bir mayabud gərək, baldırı yoğun,
Sərasər ət basa dizin, topuğun,
Əl dəyəndə dura buğunbabuğun,
Titrəyə, quyruqdan çox yumşaq ola.

Bu nümunədə və buna bənzər bir çox başqa nümunələrdə naçarlıqdan əsər-əlamət yoxdur. Lirik qəhrəman hərarətli bir insan kimi özünə bab gözəl arzusundadır. Həm də elə gözəl ki, qaş-gözü, günəş camalı, bal dodağı, lalə yanağı, sərv boyu, şirin sözü… ilə can alan olsun. Şairin arzusu gözündə qalmır. Bir sıra şeirlərindən göründüyü kimi, o, unudulmaz vüsal anları yaşaya bilir.Bu, öz yerində.Amma məsələ bununla bitmir.Yarla bir yerdə olmağın şirin anlarını xüsusi həvəslə qələmə almasına əsaslanıb M.P.Vaqifi «vüsal şairi» adlandıranların fikrinə etiraz etmədən diqqəti hicran məsələsinə yönəltmək istəyirik. Qeyd etməyi vacib bilirik ki, M.P.Vaqifin məhəbbət mövzulu şeirlərinin çoxusu məhz hicran hissinin ifadəsinə həsr olunub.

Əlbəttə, bu hicran M.Füzuli hicranından fərqlidir. M.Füzulidə hicran mütləq hicrandır və onun vüsala çevrilmək ehtimalı yoxdur. M.P.Vaqifdə isə hicran müvəqqəti hicrandır və lirik qəhrəmanın dərdi bu hicranı vüsala çevirməkdən ibarətdir. Hicranın vüsala çevrilməməsi M.P.Vaqifdə lirik qəhrəmanı hövsələdən çıxarır və o, öz sevgilisini acılamaqdan qalmır:

Nə anlağın vardır, nə bir kəlamın,
Onun üçün hərgiz sözü qanmazsan!
...Ay bimürvət, məgər daşdır ciyərin,
Müdam sızıldaram, heç usanmazsan!

Bəllidir ki, «usanmaq» qafiyəsi M.P.Vaqifə M.Füzulidən gəlir. Amma M.Füzulidə aşiq «cəfadan yar usanmazmı?» de-

məklə kifayətlənirsə, M.P.Vaqifdə aşiq məşuqəni vüsala imkan yaratmamaqda ittiham edir və ona lənət yağdırır:

Vaqif, lənət gəlsin yarın canına,
Nə dərdinə meyl et, nə dərmanına,
Onun təki bivəfanın yanına
Əgər igid olsan, heç dolanmazsan!

Göründüyü kimi, M.P.Vaqifin lirik qəhrəmanı gözəlin vüsaldan qaçmasını bivəfalıq sayır və belə bivəfa yarın nə dərdinə, nə də dərmanına meyl göstərmək istəyir.Bu şeirdə və buna bənzər bir çox başqa şeirlərdə lirik qəhrəmanın səsi ötkəm, sözü yenə naçarlıq duyğusundan uzaqdır.Amma bu sözləri şairin həsrətdən-hicrandan söz açan bütün şeirlərinə aid etmək olmaz. M.P.Vaqifin həsrətdən-hicrandan söz açan elə şeirləri var ki, onlarda kifayət qədər dərd var, göz yaşı var: yarın fərağında olan aşiq bülbül kimi ah-zar edir, onun ünündən tamam vilayət titrəyir, bir sözlə, qəm aşiqi ayağa salır. Yarın həsrətindən könül qana, göz yaşı çaylara dönür. «Dağılmış» ayrılıq aşiqi «yanar-yanar» odlara salır.Hicran aşiqdən ötrü məhşərdir. Aşiqin naləvü zarı gecələr asimana dayanır. M.V.Vidadiyə «ağlama» deyən M.P.Vaqif özü hicran əlindən nəinki arabir «ağlaram», «sızlaram» deyir, hətta «Ağlaram» rədifli ayrıca qəzəl yazır:

Ey güli-xəndan, fərağından sənin qan ağlaram,
Eylərəm şamü səhər çaki-giriban, ağlaram.

…Yaxşı həmdəm olmasa, şad olmaq olmaz, Vaqifa,
Ağlaram ta ömrüm olduqca firavan, ağlaram.

Bütün bu misallar göstərir ki, M.P.Vaqifin məhəbbət mövzulu şeirlərinin bir çoxunda qəm-qüssə ifadə olunub.Bu qəm-qüssə dilbilməz və dərdanlamazlar arasında tək qalmağın, biçarə dolanmağın qəm-qüssəsidir. Diqqət yetirdikdə aydın olur ki, «mayabud» və «yoğunbaldırlar»la işrət anları yaşamaq M.P.Vaqifdə lirik qəhrəmanın hərarət və enerjisinin bir göstəricisi olsa da, qəm-qüssəyə çarə qılmağın vasitəsi ola bilmir. Yuxarıdakı

qəzəldən də aydın olur ki, qəm-qüssədən çıxmağın yolunu şair həmdəmin, həmdərdin olmasında görür. Belə bir fikrin M.P.Vaqif lirikası üçün səciyyəvi olduğunu şairin müxəmməs və qoşmaları da açıq-aydın göstərir:

Vaqif, sənin işin müdam ah olsun,
Səg rəqibin ömrü qoy kütah olsun.
Həmdəmsiz kimsənə əgər şah olsun,
Gədadır o kimsə dilənmək gərək.

«Həmdəm» dedikdə, M.P.Vaqif, heç şübhəsiz, hər gözəli yox, dilbilən və dərdanlayan gözəli nəzərdə tutur və həmin fikri qoşmalarının birində daha aydın şəkildə ifadə edir:

Gəl sev bir dərd bilən, əhli-məhəbbət.

M.P.Vaqifin M.V.Vidadidən başlıca fərqi bu məqamda ortaya çıxır: M.P.Vaqif dərd bilən gözəl sevib onun vüsalında dərdinə dərman axtarır. Özünə «xəstə» deyən M.V.Vidadi isə bu cür dərman barədə o qədər də düşünmür. M.P.Vaqif, dərdinə dərman tapdığına görə sevinir. Dərmansız M.V.Vidadi isə qəm-qüssə içindədir.

M.P.Vaqif tapılan dərmanın dərdə əlac edəcəyinə tam inanırmı?Əlbəttə, yox. M.P.Vaqif «əhli-məhəbbət»in qüdrətinə tam inansaydı, ölüm kəlməsini dilinə gətirməzdi:

Bu necə zülmdür mənə eylərsən,
Adam məgər bir insafa gəlməzmi?
Bir gün görərsən ki, vallah, ölmüşəm,
Bu qədər dərd çəkən axır ölməzmi?

Yaxud başqa misal:

Axır cana yetirərsiz Vaqifi,
Ağlayıban götürərsiz Vaqifi,
Bir gün olur itirərsiz Vaqifi,
O qədər gəzərsiz əli çıraqlı.

Əlbəttə, bu sayaq misallarda ölümdən danışmaq tapılan dərmana ümidin, inamın itməsi ilə yox, dərmanın dərdliyə yetişməməsi ilə bağlıdır. Amma o da var ki, günlərlə, aylarla dər-

manın intizarında olmaq tədricən dərmandan əl üzmək ovqatına gətirib çıxarır:

Ey səba, yarə de kim, avarə gördüm Vaqifi,
Qəm əlindən bikəsü biçarə gördüm Vaqifi,
Bağrı olmuş sərbəsər sədparə gördüm Vaqifi,
Aqibət salmış özün odlarə gördüm Vaqifi,
Gecə-gündüz müntəzir dildarə gördüm Vaqifi.

«Qəm əlindən bikəsü biçarə» olmaq, bəlkə də, M.P.Vaqifin saraya can atmasının səbəblərindən biridir.«El tamam yağıdır, yoxdur bir adəm»deyib öz tənhalığına işarə edən M.P.Vaqif, bəlkə də, biçarəlik, kimsəsizlik sıxıntısından sarayın müəyyən imtiyazlarına güvənməklə qurtarmaq istəyir. «Hər kəsin yox isə ağlı, kamalı, Dünyada alıbdır sahib camalı» deyib dilbər, canan nisgili yaşayan M.P.Vaqif saraya gəlməklə, bəlkə də, bu nisgilinə son qoymaq niyyətindədir.

İnsan taleyinin hər an tükdən asılı olduğu sarayda M.P.Vaqif öz ağlı ilə xanın etimadını qazana bilir, dilbər-canan məsələsində xanın həmfikrinə çevrilə bilir:

Vaqif, yaxşı canan gərək can üçün,
Nədir çox çalışmaq bu cahan üçün,
Bir gözəl lazımdır bizim xan üçün,
Vali qulluğunda ərz edən gərək.

Bu cür şeirlər yazıb Gürcüstan valisindən İbrahim xana gürcü gözəlləri istəməsi xanla M.P.Vaqif arasında məhrəmanə münasibətin olmasını təsdiq edir. Amma İbrahim xanla yaxınlıq heç də hər şeyi yoluna qoymur. Ağa Məhəmməd şah Qacarın hücumu ilə İbrahim xanın Qarabağı tərk etməsi M.P.Vaqifi daha ağır imtahanlardan keçirir. Tarixi mənbələr bu ağır imtahanlardan M.P.Vaqifin mümkün qədər ləyaqətlə çıxmağa çalışdığını göstərir. Məsələn, Mirzə Camal «Qarabağnamə»sində əsir M.P.Vaqifin Qacar sərkərdələrindən Məhəmməd Hüseyn xanla qarşılaşması səhnəsi maraq doğurur. Sərkərdənin nalayiq sözləri müqabilində M.P.Vaqif sınmır: «Əgər dustağəm, dustaği-şahəm. Sən naçisən

ki, mənə bir zərrəcə asib yetirəsən». Ağa Məhəmməd şah Qacarın ölümündən sonra Məhəmməd bəy Cavanşir fəlakəti başlayır və bu fəlakətdən yaxa qurtarmaq mümkün olmur.

Məhəmməd bəy Cavanşirin M.P.Vaqifi qətlə yetirməsində səbəb kimi göstərilən faktlardan biri qadın məsələsi ilə bağlıdır. Mirzə Adıgözəlbəy «Qarabağnamə»sində deyilir: «Molla Pənahın bir yaxşı, gözəl övrəti var idi ki, çox şöhrətli idi və Məhəmməd bəy dəxi onun tərifin eşidib ona əlaqə bağlamışdı. Övrət cahilə və cavan idi.Axund qoca pir və natəvan idi və əlavə Məhəmməd bəyin rəşadət və şücaəti, xoşəndamı, kəmalü fərasəti və padşah xəzinəsi əlində olmağı ona ziyadə əlaqə bağlatmışdı.Övrət Məhəmməd bəyə demişdi ki, Molla Pənah ölməyib, hali-həyatda olsa, mən şərən sənə gedə bilmənəm». Mirzə Adıgözəlbəyin nişan verdiyi bu qadının adı mənbələrdə Qızxanım kimi xatırlanır. Bu, həmin Qızxanımdır ki, M.P.Vaqif ona neçə-neçə gözəlləmə həsr edib.S.Mümtazın verdiyi məlumata görə, «Əyibdir qəddimi, dəlib bağrımı», «Dəhanın sədəfdir, dişlərin inci», «Düyün oldu, bütün xublar yığıldı» misraları ilə başlayan gözəlləmələrini M.P.Vaqif məhz Qızxanıma yazıb. «Dəhanın sədəfdir, dişlərin inci» gözəlləməsinin belə bir yeri var:

Yağıdır müjganın, cadudur gözün,
Cəllad kimi qəmzən qəsdədir, ay qız!

Əlbəttə, şairin bir çox digər gözəlləmələrində qadına müraciətlə deyilən «padşahım», «sultanım» sözləri kimi, bu şeirdəki «yağı», «cəllad» sözləri də məcazi mənadadır. Amma taleyin hökmü ilə bu sözlər bir gün məcazi mənadan çıxıb həqiqi məna qazanır. «Padşah», «sultan» adlandırdığı, kirpiyini yağı, naz-qəmzəsini cəllad saydığı, hər əmrinə müntəzir olduğu gözəl, günlərin bir günü həqiqi mənada yağıya, düşmənə çevrilib şairin ölümünə fərman verir. Bir vaxt M.P.Vaqif yazmışdı:

Deməsin, Vaqif, əcəl kim, gəlsə məndən can alır,
Kimdir ona can verən, fərmani-yarım gəlməmiş?

Bəli, M.P.Vaqif ölümə məhz yarın «fərman»ından sonra təslim olur.Özü də bu ölüm Xəzinə qayasındakı qətlə qədər artıq baş verir. «Həmdəmi-sahibcamal»ından etibarsızlıq görüb büs-bütün sarsılan M.P.Vaqif «Görmədim» müxəmməsində yazır:

Zülfü ruyü xəttü xalın axırın gördüm tamam,
Həmdəmi-sahibcamalın axırın gördüm tamam…
…Qədr bilməz həmdəm ilə eylədim ömrü təbah…

Taxt-tac sahibindən və «həmdəmi-sahibcamal»dan tutmuş oğul-uşağa qədər hamıdan və hər şeydən əlini üzən M.P.Vaqif «Bax» qəzəlində yazır:

Baş götür, bu əhli-dünyadan ayaq tutduqca qaç,
Nə qıza, nə oğula, nə dusta, nə yarə bax!

Bəli, «Bax» qəzəlində və «Görmədim» müxəmməsində deyilənlər Xəzinə qayasındakı qətlə qədər M.P.Vaqifin artıq ölümə boyun əyməsindən xəbər verir.

Son iki şeiri M.P.Vaqifin ölümə təslim olmasıdırsa, onda həmin şeirlərlə M.P.Vaqifin əvvəlki şeirləri arasında əlaqə nöqtələrini tapmaq çox vacibdir. Belə nöqtələrdən birini Y.Qarayev M.P.Vaqif lirikasının empirik səciyyə daşımasında görür: «Şair ucdantutma tərənnüm etdiyi eyni gözəllik, ədalət və əxlaq həqiqətlərini indi də eyni yolla – ucdantutma saxta elan edir, «hər şey yaxşıdır!» − əvəzində indi də «hər şey pisdir», − deyir. Poetik ideya yenə də «yaxşı»nın və «pis»in dialektikasından kənarda qalır».M.P.Vaqif lirikasında müşahidə etdiyi bu cəhətin folklordan gəldiyini göstərməkdə də Y.Qarayev haqlıdır. Həqiqətən, bəzi istisnalar (məsələn, xalq gülüşündə müsbət-mənfi, yaxşı-pis çulğalaşması ilə bağlı məqamlar) nəzərə alınmazsa, ağ və qara rənglərin mürəkkəb qarşılıqlı əlaqəsi yox, bu rənglərin ayrı-ayrılıqda təqdim olunması folklor, o cümlədən aşıq ədəbiyyatı üçün daha səciyyəvidir. Folklordan gələn «empiriklik» M.P.Vaqifin son bədbin şeirləri ilə əvvəlki nikbin şeirləri arasında ortaq cəhətə çevrilirsə, onda ortaq cəhətləri başqa məqamlarda da axtarmaq olar. Belə məqamlardan biri məhəbbət mövzulu

şeirlərinin bir çoxunda M.P.Vaqifin qəm-qüssəyə yer verməsidir. Doğrudur, kədər notları şairin məhəbbətini azalda, müəllifi ümidsizlik, tərki-dünyalıq hissinin ifadəsinə yönəldə bilmir. Amma fakt faktlığında qalır. Fakt budur ki, Y.Qarayevin realist sənət üçün vacib bildiyi cəhət, yəni yaxşı ilə pisin, müsbətlə mənfinin «dialektikası» M.P.Vaqif lirikasında özünü tam şəkildə göstərə bilməsə də, M.P.Vaqif məhəbbət mövzulu şeirlərinin bir çoxunu hicran və vüsal duyğularının qarşılıqlı əlaqəsinə həsr edir və hicran kədəri ilə vüsal sevinci həmin şeirlərdə qaynayıb-qarışır. Biz bir az əvvəl M.P.Vaqifin hicran şeirlərindəki qəm-qüssə notlarından konkret misallar əsasında danışdığımıza görə deyilənlərə təkcə onu əlavə etmək istəyirik ki, həmin qəm-qüssə notları ilə «Bax» qəzəli və «Görmədim» müxəmməsindəki motivlər arasında müəyyən səsləşmə var. Səsləşmənin mahiyyəti ondadır ki, «həmdəmi-sahibcamal»ın vəslinə ümid bəsləyən aşiqdən «həmdəmi-sahibcamal»ın etibarsızlığını görüb sarsılan aşiqə doğru bir yol gəlir. Bu yol zövqü səfaya can atıb tənhalıqdan yaxa qurtarmaq istəyən, amma sonda büsbütün «bikəsü biçarə»yə çevrilən bir şairin yoludur.

# MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA REALİST BƏDİİ TƏFƏKKÜR VƏ FOLKLOR

**Kamran Əliyev**
*Əməkdar Elm Xadimi,*
*AMEA-nın müxbir üzvü*
*kamran.aliyev.53@mail.ru*

**Özət**

Məqalədə Molla Pənah Vaqif yaradıcılığında realist bədii təfəkkürün folklorla əlaqələri bir neçə aspektdən təhlil olunur. Vaqifin qoşmalarındakı bənövşə və mələk obrazları, ölüb-dirilmək motivi geniş öyrənilmişdir. Folklordan istifadə üsulları Vaqif yaradıcılığının realizmin erkən dövrü kimi səciyyələndirməyə imkan verir.

**Açar sözləri:** Vaqif, realizm, folklor, bənövşə, mələk, ölüb-dirilmə

**Камран Алиев**

**Художественно-реалистическое мышление и фольклор в творчестве Молла Панах Вагифа**

**Резюме**

В статье с нескольких аспектов анализируются связи художественно- реалистического мышления с фольклором в творчестве Молла Панах Вагифа. Широко изучаются образы фиалки и феи, мотив воскресения в гошмах (поэтическая форма стихотворения с парными рифмами, наподобие частушек) Вагифа. Способы использования фольклора дает возможность характеризовать творчество Вагифа как раннюю форму реализма.

**Ключевые слова:** Вагиф, реализм, фольклор, фиалка, фея, воскресенье

**Kamran Aliyev**

**The realist artistic thinking and folklore in Molla Panah Vagif's activity**

**Summary**

In the article the relations of the realist artistic thinking with the folklore in Molla Panah Vagif's activity are analyzed in some aspects. The characters of the violet and angel, the motif "die-revive" in Vagif's quatrains have been investigated in details. The usage methods from the folklore give opportunity to characterize Vagif's activity as the early period of the realism.

**Key words**: Vagif, realism, folklore, violet, angel, die-revive

Yazılı ədəbiyyatın folklorla əlaqəsi sənətkarın dünyagörüşündən, həyat hadisələrinə münasibətindən və daha çox xalqa bağlılığından asılıdır. Yazıçı və folklor əlaqələri təbiiliyə əsaslanmalıdır. Yazıçının folklordan istifadəsi heç vaxt məqsədli xarakter daşımamalıdır. Müəllif xalq yaradıcılığı nümunələrinə folklordan istifadə etmək xətrinə yanaşarsa, bu, poetika baxımından bədii mətnin zərərinədir və həmişə sünilik effekti yaradar.

M.P.Vaqif bir sənət adamı kimi öz dövrünün folklora bağlı olan klassiklərindəndir. Onu sələflərinə bağlayan cəhətlərlə yanaşı, onlardan fərqləndirən xüsusiyyətlər də vardır. Bu fərqlilik, hər şeydən əvvəl, gerçəkliyə və insana baxışda, bədii düşüncə və bədii dildə, poetik söz və poetik obrazda özünü göstərir. Hətta belə bir fərqliliyi sənətkarın folklorla əlaqələrində də tapmaq mümkündür.

M.P.Vaqif yaradıcılığının aparıcı istiqaməti realizmlə bağlıdır. Realist düşüncə tərzi daha çox onun şeirlərindəki tərənnümdə özünü göstərir. M.P.Vaqifin şeirlərində realizmin mənzərəsi gözəlin portretinin yaradılmasında daha aydın ifadə olunmuşdur. Sənətkarın fikrincə, məhəbbətin də nüvəsində elə gözəl-

lik dayanır. Şairin şeirlərində gözəlin qaşının və gözünün, dilinin və dodağının, boy-buxununun, zülfünün və kəkilinin dönə-dönə vəsf olunması gözəllik və məhəbbəti qarşılıqlı vəhdətdə duymağın nəticəsidir. Vaqif realizminin folklorla əlaqəsini fantastik elementlər və simvolik obrazlarda aramaq faydasızdır. Onu şairin yaradıcılığında ehtiva edilən xalq şeir üslubunda, xalq deyim və ifadələrində, xalq adət-ənənələrində, xalqın təbiətlə bağlı təsəvvürlərində axtarmaq lazımdır.

Bizim ədəbiyyatımızda bənövşə əsl folklor obrazıdır. Qurbanidən başlayıb aşıq yaradıcılığından keçən, M.P.Vaqifdə bədii güc qazanan bənövşə obrazı müəlliflə oxucu arasında ünsiyyət yaradan, oxucunu şeirə daha da yaxınlaşdıran və xalqın hiss və duyğularının içindən qopub gələn bir vasitədir. Şairin ayrıca qələmə alınmış "Bənövşə" şeiri bir tərəfə qalsın, bu poetik obraz onun bütün yaradıcılığına səpələnmişdir. Hətta həmin obraza öyrəşən oxucunun bəzən ondan ötrü darıxmağı da var. Heç də təsadüfi deyildir ki, "İki dəstə tər bənövşə" şeirin bütün ruhuna hakim kəsilir. Oxucuda gözəlin saçlarını, şairin öz dili ilə desək, zülfünü bənövşə kimi görmək vərdişi yaranır:

> Bənəfşətək ənbər zülfün buy verir,
> Hər yuyub sərəndə həvayə, Zeynəb! (1, 17).

Yaxud:

> Vaqif zülflərini tərif edəndə,
> Gərəkdir ki, əvvəl yaza: bənəfşə (1, 33).

Bəzən də sevilən gözəlin otağından Aşiqi məst eyləyən bənövşə ətri gəlir:

> Keçmə o dilbərin sən otağından,
> Tər bənəfşə qoxar hər bucağından (1, 22).

M.P.Vaqif şeirində bənövşə boynu bükük, yazıq simalı bir obraz deyil. Realist düşüncəyə görə, bənövşə həyat mənbəyidir, sevgililəri bir-biri ilə qovuşduran mənəvi dayaq nöqtəsidir. Bu mənada o, aşıq şeirindəki bənövşələrdən də yetərincə fərqlənir.

Romantik ədəbiyyatda Aşiq öz sevgilisinin xəyalı ilə rahatca yaşayır, hətta ondan ürəkdolusu həzz də ala bilir. M.P.Vaqif realizminin mahiyyətində isə lirik qəhrəmanının daha çox öz sevgilisini görmək, onunla həmdəm olmaq istəyi dayanır. "Aşıq gödüyünü çağırar" fikri Vaqif şeirində lirik qəhrəmanın fəlsəfəsinə çevrilmişdir. Şairin "Görəydim" adlı iki qoşmasından birində həsrətli insanın vüsal istəyi ifadə edilmişdir:

Çox zamandır yarın həsrətindəyəm,
Gələydi, bir onu barı görəydim (1, 60).

Başqa bir nümunədə Aşiq: "Sərv boylum bir çıx, görüm boyunu",-söyləyir və burada yalnız sevgilinin qəddü qamətinin həsrəti var. "Pəri" qoşmasında isə lirik qəhrəmanın yarını görmək istəyi sevilənin bütün gözəlliyini – gül camalını, cadu gözlərini, yay kimi qaşlarını, saçını və xalını əhatə edir və beləliklə, təsvirdə bütövlük və tamlıq yaranır.

Bəs lirik qəhrəmanın öz sevgilisini görmək istəyinin arxasında nə dayanır? M.P.Vaqifin şeirlərində onun da cavabı var:

Görməyəndə din-imanım dağılır;
Gecə-gündüz mən didara aşiqəm (1, 54).

Öz sevgilisinə sədaqət, onun həsrəti ilə yanmaq – Vaqif şeirinin lirik qəhrəmanının folklorun Kərəm kimi qəhrəmanları ilə bir sırada dayanmasını təsdiqləyir. Şeyx Sənan və Xızır kimi obrazların Vaqif yaradıcılığında özünə yer tapması da həmin daxili əlaqənin məntiqi davamıdır.

M.P.Vaqif realizminin mahiyyətində lirik qəhrəmanın həsrətdən bezmək, öz sevgilisinə tez yetmək, istəyinə sürətlə nail olmaq motivi var. Belə bir motiv nağılların "dərələrdən sel kimi, təpələrdən yel kimi" gedib mənzil başına çatmaq, "nağıl dili yüyrək olar" kimi formullarına tam uyğun gəlir. Hətta bu, o səviyyədədir ki, bəzən nazlı-qəmzəli gözəl həsrətində olan lirik qəhrəman naz-qəmzəni də rədd edir: "Olmaya aşiqə nazü qəmzəsi" ("Gərək"), "Tez ol, çıxdı canım, naz vaxtı deyil" ("Deyil") misraları bu fikrin təsdiqidir.

M.P.Vaqifin qoşmalarını mifoloji düşüncəyə daha çox bağlayan Mələk obrazıdır. Mələk M.P.Vaqif yaradıcılğında həm məcazilik yaradır, həm adi bir söz kimi tərənnümün vasitəsinə çevrilir, həm də sırf mifoloji obraz kimi görünür. Mələk obrazı ilə bağlı belə bir çoxfunksiyalılq M.P.Vaqif realizminin mahiyyətindən irəli gəlir. "Mələk" sözünün məcazilik yaratmaq funksiyası lirik qəhrəmanla sevilən arasındakı vurğunluğu təzahür etdirir:

Ustad səni çəkib manəndi-mələk,
Bundan artıq həqqü say ola bilməz (1, 35).

Yaxud:

Mələkdən də səni billəm ziyadə,
Tay etmərəm heç insanı mən sənə (1, 28).

M.P.Vaqif şeirində "mələk" sözü bəzən adi məzmun daşıyaraq tərənnümün vasitəsinə çevrilir, başqa sözlə, burada məcazilikdə olduğu kimi mifoloji başlanğıcdan danışıla bilməz: "Ya mələksən, ya hurisən, ya pəri, İnsanda sən təki can görməmişəm", yaxud: "Huri nədir, qılman nədir, mələk nə, Hamıdan əladır mənim sevdigim" və yaxud: "Pəridən əlasan, mələkdən göyçək".

Müəyyən məqamlarda isə Mələk obrazı insanla qarşılaşdırılır və bu qarşılaşmada artıq mifoloji əsas kifayət qədər özünü göstərir, eyni zamanda poetikliyin gücü də artmış olur:

Göydən yerə enmiş mələkdir məgər
Yoxsa insan olmaz belə surətdə (1, 24).

Digər şeirdə isə bu fikir daha da qüvvətli şəkildə ifadə edilmişdir:

Ya bədrlənmiş bir mahi-tabansan,
Ya cənnət bağında güli-xəndansan,
Ya mələksən, ya da huri qılmansan,
Ey sevgilim insan kim deyər sənə? (1, 29).

Bir həqiqət də təsdiq olunur ki, M.P.Vaqif realizmində Mələk şeirin üst qatında üzür, Vaqif şeiri mifoloji qatın dərinliklərinə yönəlmir. "Mənim" qoşmasının birinci bəndində mələk,

huri, pəri görünür, sonra gövhərim, yaqutum, bir az sonra Xosrovum, padşahım,şahi-əzəmim, ondan sonra Çinim, Yəmənim, Hindistanım, Rumum, İranım, daha sonra isə Şəkkərim, Şirinim, Leylim, Züleyxam, Yusifi-Kənanım gəlir. Şeir mələk, huri, pəri ilə - mifoloji obrazlarla başlayıb Züleyxa və Yusifi-Kənanla – folklor qəhrəmanları ilə bitir. Vaqifin real düşüncəsi mifologiya ilə folklorun arasında sıxılır.

M.P.Vaqif şerində yarına qurban olmaq motivi də güclüdür. Hətta şairin "Qurban olduğum" adlı iki şeiri vardır. Lirik qəhrəman öz canını sevgilisinə qurban etmək istəyir. Boyuna, qaşlarına, sərxoş yerişinə qurban olmaq istəyən Aşiq çox səmimidir. Vaqif yaradıcılığında lirik qəhrəmanın qurban olmaq istəyi məntiqi olaraq ölümə də yol açır. İnam və etibar müstəvisində ölüm Vaqif realizminin xüsusiyyəti kimi meydana çıxır. Hətta Vaqifin realist poeziyasında lirik qəhrəman öz sevgilisini ölümlə qorxutmaqdan çəkinmir:

Bir gün görərsən ki, vallah, ölmüşəm
Bu qədər dərd çəkən axır ölməzmi? (1, 45).

Görünür ki, bu hal lirik qəhrəmanın bütün cəhdlərinin boşa çıxmaq ərəfəsidir. Burada bir az "hədə-qorxu", bir az yalvarış, bir az da rəhm diləmək var, amma misralarda bütövlükdə şairin vüsala çatmaq istəyi yer almışdır.

M.P.Vaqifdə lirik qəhrəmanın ölüm arzusu onun istəyinin reallaşma nəticəsi kimi özünü göstərir və birbaşa xalq təfəkkürünə söykənir:

İndən belə ölsəm, arzu çəkmənəm,
Şükr Allaha, arzumana yetişdim (1, 59).

Vaqifin ölüm haqqında düşüncələri məcazi xarakter daşıyır və elə məcaz arxasında da gizlənir:

Canandan ayrılan candan ayrılır,
Xalq içində bir misaldı, sevgilim (1, 56).

Ölümlə qorxutmaq, ölüm arzusu, ölümün məcaziliyi son ucda ölüb-dirilmə ilə yekunlaşır. Vaqifdə öz sevgilisinin vüsalına yetmək üçün ölüb-dirilmə hadisəsi müşahidə olunur:

Həsrətindən çıxdı canı Vaqifin,
Nolur ki, gələsən buraya, Zeynəb! (1, 17).

Yaxud:

Çoxları getdi iltimasa gəlmədin,
Üzüm üstə qədəm basa gəlmədin,
Vaqif öldü, neçin yasa gəlmədin?
Ya zahir olmadı bu xəbər sənə? (1, 29).

Zeynəbə müraciət də, ölüm haqqında xəbərin soraqlanması da ölüb-dirilmənin əlamətləridir. Çünki şeirdə canı çıxan Vaqif Zeynəbə müraciət edir, ölən Vaqif sevgilisinin yasa gəlməməsindən gileylənir. Hatta başqa bir nümunədə poetik vasitə olsa belə ölüb-dirilmə açıq şəkildə ifadə olunur: "Həsrətindən öldüm, öldüm, dirildim".

M.P.Vaqif realizmində mifoloji başlanğıc kimi, ölüb-dirilmə motivi də dərin laylara doğru yönəlmir. Bu da çox təbiidir, ona görə ki, M.P.Vaqif realizmi bədiiliyin digər ölçüləri ilə yanaşı, folklora münasibətdə də öz ilkinliyini qoruyub saxlayır.

## QAYNAQLAR

1. Vaqif M.P. Əsərləri. Bakı, "Şərq-Qərb", 2004

# MOLLA PƏNAH VAQİF VƏ MUSİQİ FOLKLORU

**Nailə Rəhimbəyli**
*Sənətşünaslıq üzrə elmlər doktoru, professor*
*AMEA Folklor İnstitutu*
*nrahimbeyli@yahoo.com*

**Özət**

Məqalədə Molla Pənah Vaqifin yaradıcılığından bəhs edilir. Onun Azərbaycan klassik ədəbiyyatında yeri və rolu qeyd olunub. M.P.Vaqifin yaradıcılığı aşıq sənəti və muğam sənəti ilə sıx bağlıdır. Vaqifin qoşmaları aşıq və xanəndələr tərəfindən el məclislərində ifa olunur və sevilir. Burada Vaqifin məşhur qoşmalarından və qəzəllərindən söz açılır. O cümlədən, şairin şeirlərinə bəstəkarların müraciəti də qeyd olunur.

**Açar sözlər:** qoşma, qəzəl, gözəlləmə, musiqi folkloru.

**Наиля Рахимбейли**

**Мола Панах Вагиф и музыкальный фольклор**

**Резюме**

В статье освещается творческая деятельность Мола Панах Вагифа. Подчеркивается роль и значение поэта в Азербайджанской классической литературе. Творчество Мола Панах Вагифа тесно связано с ашугским и мугамным искусством. Его Гошма любимы, и часто, исполняются ашугами и ханендэ. В данной статье особое внимание уделяется его Гошма и Газелям. А также отмечаются песни некоторых композиторов на стихи поэта.

**Ключевые слова:** гошма, газель, гезеллеме, музыкальный фольклор.

**Naila Rahimbayli**

## Mola Panah Vagif and musical folklore

**Summary**

The article highlights the creative activity of Mola Panah Vagif. The role and importance of the poet in the Azerbaijan classical literature is underlined. The work of Mola Panah Vagif is closely connected with ashug and mugam art. His Goshma is loved, and often, performed by ashugami and khanende. In this article, special attention is paid to his Goshma and Gazelles. And also the songs of some composers are noted for the poems of the poet.

**Keywords:** goshma, gazel, gozelleme, musical folklore.

Azərbaycan ədəbiyyatının parlaq simalarından biri, XVIII əsrin görkəmli şairi və dövlət xadimi Molla Pənah Vaqifin yaradıcılığı əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri ilə zəngindir. Vaqifin yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının tarixində yeni inkişaf mərhələsi başlamış, milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermişdir. Onun əsərlərində əxlaqi-mənəvi dəyərlərin təbliği və insan mənəviyyatının kamilləşməsinə xidmət edən mövzular yer almış, lirik şeirin ən zərif nümunələrində Azərbaycan dilinin bütün zənginliyi öz ifadəsini tapmışdır.

Azərbaycan ədəbiyyatında realist şeirin ilk nümunələrini yaradan şairin lirikası ilə poeziyada yeni bir səhifə açılır, poeziyamızda nikbin bir əhval-ruhiyyə, həyati və dünyəvi gözəlliyə pərəstiş hissləri qüvvətlənir. Onun şeirlərində yüksək zövq, incə hisslər, dərin və nikbin duyğular yer alır. Vaqifin şeirlərində məhəbbət lirikası əsas yer tutur. Onun yaradıcılığında xüsusi yer tutan qoşmaların əksəriyyəti gözəlliyin vəsfinə həsr olunur.

Həyata nikbin münasibət Vaqifin bütün şeirlərində hiss olunur. Zəmanənin haqsızlıqlarından danışan şair həyatın özəl nemət olduğunu və onu yaşamağın böyük bir zövq olduğunu di-

lə gətirir. Bu cəhət də Vaqifi müasirlərindən əsaslı surətdə fərqləndirir.

Vaqifin yaradıcılıq üslubunun xalqa yaxınlığı həm də onun aşıq sənəti ilə bağlılığından irəli gəlir. Aşıq sənəti ilə yaxınlıq şairin müraciət etdiyi poetik janrlarla yanaşı, şeirin dil üslubunda, rədif və qafiyələrdə, istifadə etdiyi ifadələrdə, təşbeh və bənzətmələrdə də aydın hiss olunur. Bu səbəbdən də Vaqifin qoşmaları aşıq və xanəndələr tərəfindən el məclislərində ifa olunmuş, xalq tərəfindən böyük məhəbbətlə sevilmişdir. Onun yaradıcılığı bir çox aşıqların ilham mənbəyinə çevrilmişdir.

Millilik, xəlqilik, realizm, sadəlik və nikbinlik Vaqif lirikasının əsas xüsusiyyətləri, eyni zamanda onu sələflərindən və müasirlərindən fərqləndirən, ədəbi məktəb yaratmaq imkanı verən əsas keyfiyyət göstəriciləridir. Vaqifin bədii təfəkkürünün və qələminin qüdrəti ənənəvi mövzunun istər forma-şəkil əlamətlərini, istərsə də mahiyyət-məzmun tərəfini köklü şəkildə dəyişə bilməsidir. Vaqifin lirikasının məzmunu məhəbbət, insan gözəlliyinin tərənnümü, insanlar arasında xoş münasibətin, səmimiyyətin, bədii sözün ecazkar gücü ilə ifadə olunmuşdur. Vaqifin əsərlərində Azərbaycan xalqının adət-ənənələri, yerli və məhəlli xüsusiyyətləri özünü parlaq şəkildə əks etdirir. Şairin yaradıcılığında ruh yüksəkliyi və həyata bağlılıq əsas motivlərdən biridir. O xalqdan qüvvət almış, xalq ədəbiyyatının nikbin əhval-ruhiyyəsindən qidalanmışdır. O, uzun müddət şəhər mühitində yazıb-yaratmasına baxmayaraq, gözəllik meyarı kimi həmişə kənd həyatını, təbiətini üstün tutmuşdur.

Vaqifin şeirlərində Azərbaycan dilinin geniş poetik imkanları canlı şəkildə yaşayır. Bu, geniş mənada ədəbiyyatın dilində islahatlar aparmaq demək idi. Çünki klassik Azərbaycan ədəbiyyatında möhkəm yer tutan əruz vəzninin qəlibləri xalqın canlı danışıq dilindən istifadənin genişlənməsinə imkan vermirdi. Molla Pənah Vaqifin islahatları sayəsində əruz vəznində yaradılmış qəzəl-qəsidə ədəbiyyatının yerində sadə, canlı və və aydın

dildə, heca vəznində yazılmış qoşma-gəraylı şeirləri aparıcı istiqamətə çevrilmişdir.

Eyni şəkildə Vaqifin yaradıcılığı aşıq sənətində yüksək qiymətləndirilmişdir. Onun qoşmaları üstündə havalar bəstələyən aşıqlar şairin şirin dilindən, dərin mənalı fikirlərindən ilham almış, çalıb-çağırmışlar. "Onun müasiri olmuş Aşıq Əli ona şeirlər yazaraq yaradıcılığını tərif etmişdi. XIX-XX əsrin aşıqlarının çoxu Vaqifin mövzularını təkrar etmiş, onun kimi qoşmalar yaratmağa cəhd göstərmiş, rədiflərini, bədii ifadələrini dönə-dönə təkrar etmişdilər. Xüsusən Aşıq Ələsgərdən sonra məşhur ustad aşıq kimi tanınan Bozalqanlı Aşıq Hüseynin yaradıcılığında Vaqifin qüvvətli təsiri hiss olunur. Onun qoşmaları içərisində Vaqifin misralarına çox rast gəlmək olur". (1, s.10) Aşıqların repertuarında yer alan "Vaqif gözəlləməsi", "Vaqifi", "Vaqif laylası" kimi havalar bu gün də sevilərək ifa olunur. Bu havaların mətni şairin qoşmalarına əsaslanmaqla yanaşı, aşıqlar onun adını havaya verməklə xalq şairini ölümsüzləşdirməyə, tərənnüm etməyə çalışmışlar.

Vaqifin qoşmalarında əsas etibarilə gözəllərin tərifi yer aldığına görə onun şeirlərini aşıqlar daha çox lirik havalar üstündə oxuyurlar. Bu da şairin qoşmalarında lirik oxunaqlılıq, havanın melodikasına, ritminə uyarlılıq cəhətlərinin olmasından irəli gəlir. Onun qoşmalarının nəzmlə deyilişində belə həzin reçitativlik hiss olunur. Buradan irəli gələrək, Vaqifin qoşmalarını müəyyən hava üstündə oxuyarkən aşıqlar şeirin quruluşundakı səlislik, istifadə edilmiş ifadələrin, kəlmələrin melodiyaya yatması, aydın başa düşülən diksiya ilə ifa olunmasında heç bir çətinlik çəkmir.

Vaqifin ən məşhur qoşmalarından biri "Hayıf ki, yoxdur" qoşmasıdır. Molla Pənah Vaqifin "Hayıf ki, yoxdur" şeiri şairin yaradıcılığındakı nikbin ruhun təzadlı məqamlarını meydana qoyur. Şeirdəki "Kür qırağının əcəb seyrəngahı", "Qış günü qışlağı", "Gözəl obası", "Adamlıq ədası" cümlə-cahana örnək olan

vətən torpağı idealının tərənnümüdür. Azərbaycan milli-mənəvi varlığını, "Ellər yaraşığı, ölkə gözəli"ni, Kür qırağı obasını ədəbiyyatın əsas mövzusuna çevirmiş şairin yaradıcılığı azərbaycançılığın ən mühüm qaynaqlarından biridir.

Qoşmanın yaranma səbəbləri ilə bağlı rəvayət hamıya məlum olduğu üçün, bu barədə təfərrüata varmağa lüzum görmürəm. Lakin qoşmanın məzmunu ilə bağlı qeyd etmək lazımdır ki, şairin bu qoşmada istifadə etdiyi ifadələr, məzmunlu kəlmələr xalq danışıq dilinə yaxın olması ilə yanaşı, musiqiyə uyğunluğu, yatımlılığı ilə də səciyyəvidir. Bu baxımdan qoşmanın müxtəlif havalar üstündə oxunması aşıqların seçimindən asılı olaraq dəyişə bilər. Məsələn, Aşıq İmran bu qoşmanı "Çuxur oba" havası üzərində ifa etmişdir. Şairin məşhur "Durnalar" qoşması isə aşıqlar tərəfindən El havası, Qaraçı, Dərvişi kimi müxtəlif havalar üstündə oxunur. İlk növbədə havaların lirik xarakterli melodiyası, ritmik xüsusiyyətləri qoşmanın təbiətinə uyğun gəlir. Digər tərəfdən qoşmanın məzmunu, sözlərin qafiyələnməsi, dilinin aşıq poeziyasına yaxın olması onun aşıq havalarının musiqinə uyğunlaşmasına şərait yaradır. Aşıq Altayın ifasında bu qoşma "Yüngül Şərili" aşıq havası üstündə ifa olunmuşdur. Havanın lirik və həzin melodiyası qoşmada duyulan həsrət və kədər hisslərini tərənnüm etməyə imkan verir. Qeyd edək ki, eyni hava üstündə Aşıq Əkbər şairin "Əgər yarsan gəl sarmaşaq" rədifli qoşmasını ifa etmişdir.

Vaqifin qoşmalarında əvvəldə də qeyd etdiyimiz kimi, daha çox gözəllik vəsf olunur. Burada həm ayrı-ayrı qızlar, gəlinlər, həm də təbiət gözəllikləri yer alır. Bu baxımdan Şairin qoşmaları daha çox gözəlləmələr üstündə ifa olunur. Aşıq Altayın ifasında onun "Oynamasın" qoşması "Göyçə gülü" havası üstündə oxunmuşdur.

Vaqifin yaradıcılığı fəlsəfi dərinliyi ilə muğam ifaçılarının da diqqət mərkəzindədir. Bildiyimiz kimi muğam dəstgahlarının ifasında xanəndələrimiz qəzəllərdən istifadə edir. Əsas etibarilə

Füzulinin, Nizaminin, Vahidin qəzəlləri ilə yanaşı, Molla Pənah Vaqifin qəzəlləri də sevilərək ifa olunur. Buna səbəb ilk növbədə şairin dil üslubu, ifadə etdiyi məna, mövzu dairəsi muğamın fəlsəfi, psixoloji, emosional məzmununa uyğunlaşmasından asılıdır. Təbii ki, xanəndə ifa edəcəyi muğam üçün onun xarakterinə, ritminə uyğun qəzəl seçimi etməlidir.

"Dildarım neyçün ağladın" qəzəli Şahnaz muğamında istifadə olunur. Xanəndə öz səs imkanlarına və muğamın xarakterinə uyğun olaraq bu qəzəli başqa muğamlarda da istifadə edə bilər. Çahargah muğamının "Bəstə-nigar" şöbəsində, "Rast"ın Dilkeş, Vilayəti, Şikəsteyi-fars şöbələrində, Şurun Şur-Şahnaz şəbəsində, Zabul Segahda şairin məhəbbət mövzulu qəzəllərindən istifadə oluna bilər.

Molla Pənah Vaqif həm də Azərbaycan tarixində yüklü rol oynamış tarixi və siyasi xadimlərdən biri olmuşdur. O, Qarabağ xanlığının daxili və xarici siyasətində həlledici qərarların qəbul olunmasında yaxından iştirak etmiş, ölkə əhəmiyyətli məsələlərin, hakimiyyət dairələrinin xalq münasibətində mövcud olan haqsızlıqların qarşısının alınmasında mühüm rol oynamışdır. Xalqın ağır həyatından xəbərdar olan, onun dərdini anlayan mərhəmətli insan kimi, Vaqifin şəxsiyyəti xalqın böyük məhəbbətini qazanmışdır. Vaqifin obrazı bir sıra ədəbi əsərlərin qəhrəmanına da çevrilmişdir. Xalq şairi Səməd Vurğunun "Vaqif" dramı, Yusif Vəzir Çəmənzəminlinin "İki od arasında" romanı böyük sənətkara olan ehtiramın bariz nümunəsidir.

Öz yaradcılığında həm xalq, həm də klassik poeziyanın bir sıra janrlarına müraciət etmiş şairin əsərləri bəstəkarların da diqqətindən yayınmamışdır. İstedadlı Azərbaycan bəstəkarı Ramiz Mustafayev onun şərəfinə "Vaqif" operası bəstələmişdir.

Vaqifin nəğməkar şair kimi tanınmasında, həm də onun qoşmalarına yazılan bəstəkar mahnıları da bir göstəricidir. Gözəl mahnılar müəllifi Cahangir Cahangirovun məşhur "Durnalar" mahnısı, Əşrəf Abbasovun "Heyran olmuşam", Qəmbər Hü-

seynlinin “Sonalar kimi”, “Tel nazik” mahnıları şairin qoşmalarına bəstələnmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1982-ci ildə Azərbaycanın qədim Şuşa şəhərində Molla Pənah Vaqifə ucaltdığı böyük məqbərə bu ölməz sənətkarın ədəbiyyatımızın inkişafı sahəsindəki xidmətlərinə və ictimai-siyasi fəaliyyətinə dövlət səviyyəsində verilmiş yüksək qiymətin parlaq ifadəsidir.

Görkəmli Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin anadan olmasının 300 illik yubileyinin doğma ölkəsi ilə birlikdə UNESCO və TÜRKSOY miqyasında beynəlxalq səviyyədə qeyd olunması böyük ümumilli və bəşəri ideallara xidmət edən sənətin təntənəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında”kı 12 yanvar 2017-ci il tarixli sərəncamı müstəqil dövlətimizdə sənətə və sənətkara bəslənilən əbədi ehtiramın parlaq və əməli nümunəsidir. Dövlət sərəncamında öz əksini tapmış aşağıdakı sözlər Molla Pənah Vaqifin ölməz sənətinin yüksək qiymətini ifadə etməklə bərabər, qarşıda duran mühüm vəzifələri də nəzərə çarpdırır: “Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır...Azərbaycan şeiri Vaqifin sayəsində tarixinin növbəti mərhələsinə qədəm qoymuşdur. Onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir” (Həmid Araslı. M.P.Vaqif. Əsərləri. B: Şərq-Qərb, 2004 ).

# MOLLA PƏNAH VAQİF İRSİ VƏ XIX ƏSR AZƏRBAYCAN AŞIQ ŞEİRİ (AŞIQ HÜSEYN ŞƏMKİRLİ, AŞIQ ƏLƏSGƏR VƏ AŞIQ HÜSEYN BOZALQANLININ YARADICILIĞI ƏSASINDA)

**İslam Sadıq**
*filologiya üzrə elmlər doktoru,*
*AMEA Folklor İnstitutu*
*islamsadiq1953@yahoo.com*

**Özət**

Molla Panlar Vaqif şifahi xalq ədəbiyyatı, aşıq poeziyasından ustalıqla qidalanmış böyük Azərbaycan şairlərindən biridir. Vaqif eyni zamanda özündən sonra yaşayıb yaratmış aşıqların yaradıcılıqlarına da güclü təsiri göstərmişdir.

Bu məqalədə Vaqifin Hüseyn Şəmkirli, Aşıq Ələsgər və Aşıq Hüseyn Bozalqanlı yaradıcılığına təsiri öyrənilmiş və konkret nümunələr əsasında bu təsirin istiqamətləri aşkar edilmişdir.

**Açar sözlər:** Molla Pənah Vaqif, Aşıq Hüseyn Şəmkirli, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı, poeziya, təsir, bəhrələnmə

**Ислам Садыг**

**Наследие М.П.Вагифа и Азербайджанская ашугская поэзия XIX века (Ашуг Гусейн Шемкирли, Ашуг Алескер, Ашуг Гусейн Бозалганлы)**

**Резюме**

Молла Панах Вагиф один из великих Азербайджанских поэтов, питавшихся устной народной литературой, ашугской поэзией с высоким мастерством. Вагиф одновременно оказал сильное влияние к творчествам ашугов, проживших и творивших после себя.

В данной статье изучено влияние Вагифа к творчествам Ашуга Гусейна Шемкирли, Ащуга Алескера и Ашуга Гусейна Бозалганлы и выявлены пути этого влияния на конкретных примерах.

**Ключевые слова:** М.П.Вагиф, Ашуг Гусейн Шемкирли, Ащуг Алескер, Ашуг Гусейн Бозалганлы, влияние, питание

**Islam Sadig**

**Heritage of Molla Panah Vagif and Azerbaijani ashug poem XIX century (Ashug Huseyn Shamkirli, Ashug Alesker and Ashug Huseyn Bozalganli)**

**Summary**

Molla Panah Vagif is one of the great poet, very skillfully derived advantage from folk-lore, ashug poetry. At the same time Vagif influenced ashug activities lived and created after himself.

In this article was learned Vagif's influence to the activities of Ashug Huseyn Shamkirli, Ashug Alesker and Ashug Huseyn Bozalganli, on the basis of concrete examples was discovered this influence ways.

**Key words:** M.P.Vagif, Ashug Huseyn Shamkirli, Ashug Alesker, Ashug Huseyn Bozalganli, derived advantage, influence.

Molla Pənah Vaqifin poeziyası dilinin saflığı, axıcılığı, fikrin poetik ifadəsinin aydınlığı, bədii təsvir və ifadə vasitələrindən istifadənin zənginliyi ilə seçilir ki, bütün bunlar onun şeirlərinə xüsusi bir gözəllik donu geyindirmişdir. Vaqif xalq yaradıcılığından, özündən əvvəl yaşayıb-yaratmış ustad aşıqların şeirlərindən böyük məhəbbətlə və yüksək sənətkarlıqla bəhrələnmişdir. Bu da onun şeirlərinin sevilməsinə, yaddaşlardan-yaddaşlara köçürülə-köçürülə dildə-ağızda gəzməsinə səbəb olmuşdur. Dillər əzbəri olan bu poeziya Vaqifdən sonra yaşayıb-yaratmış aşıqlarımızın yaradıcılığına bu və ya digər dərəcədə təsir göstərmişdir. Bu təsir nəfəs yaxınlığı, fikrin poetik ifadəsinin aydınlığı, dilin saflığı, axıcılığı, ayrı-ayrı misraların, beytlərin, hətta bəndlərin bir-birilə yaxından səsləşməsi, eyni rədifli qoşmalara rast gəlinməsi, çoxlu rədiflərin, qafiyələrin eyniliyi, nəzirələr yazılması və s. şəkillərində özünü göstərir. Ustad aşıqlarımızdan

Aşıq Hüseyn Şəmkirlinin, Aşıq Ələsgərin və Aşıq Hüseyn Bozalqanlının yaradıcılığında da Vaqifin təsiri aydın görünür.

Öncədən demək lazımdır ki, Vaqifin aşıq şeirinə təsiri şifahi yaddaşdan gəlirdi. Aşıqlar sənəti öz ustadlarından şifahi şəkildə öyrənirlər. Burada kitabdan öyrənmək ənənəsi yoxdur. Ona görə də Vaqifin aşıq yaradıcılığına kitab vasitəsilə təsirindən danışmaq olmaz. Deməli, Vaqifin bir sıra qoşmaları aşıqların dilinin əzbəri olmuş, onlar bu şeirləri saz havaları üstündə oxumuşlar. Aşıqlar saz havalarına yatmayan şeirləri əzbərləyib yadda saxlamırdılar. Aşıqların yaddaşındakı bu şeirlər də istər-istəməz onların öz yaradıcılığına təsir göstərirdi.

Vaqifin Aşıq Hüseyn Şəmkirlinin, Aşıq Ələsgərin və Aşıq Hüseyn Bozalqanlının yaradıcılığına təsiri məsələsinə akademik Həmid Araslı da toxunmuşdur. O, Aşıq Hüseyn Şəmkirlinin "Olar" rədifli qoşmasını nümunə göstərərək yazmışdır: "Bu qoşma mövzusu, ifadə xüsusiyyətləri ilə Vaqifi xatırladır. Təsadüfi deyildir ki, Vaqiflə Hüseynin bir qoşması bir-birinə qarışdırılmışdır" (1, s. 87). H.Araslı başqa bir yazısında deyirdi: "XIX və XX əsr aşıqlarının çoxu Vaqifin mövzularını təkrar etmiş, onun kimi qoşmalar yaratmağa çalışmış, onun qafiyələrini, rədiflərini və bədii ifadələrini dönə-dönə işlətmişlər. Xüsusən Aşıq Ələsgərdən sonra məşhur ustad aşıq kimi tanınan Bozalqanlı Aşıq Hüseynin yaradıcılığında Vaqifin qüvvətli təsiri hiss edilir. Onun qoşmaları içərisində Vaqifin misralarına çox rast gəlmək olur" (2, s. 10).

Həmid Araslı müxtəlif yazılarında bu fikirləri söyləməklə yetərlənmiş, məsələnin dərinliyinə varmamışdır. Ona görə də Vaqifin Aşıq Hüseyn Şəmkirli, Aşıq Ələsgər və Aşıq Hüseyn Bozalqanlının yaradıcılığına təsirini geniş şəkildə araşdırmağa, təhlil etməyə, Vaqifin və Aşıq Hüseyn Şəmkirlinin hansı qoşmalarının "bir-birilə qarışdırıldığını" üzə çıxarmağa ehtiyac duyulur.

Aşıq Hüseyn Şəmkirlinin "Olar" rədifli qoşması üç bənddir və M.P.Vaqifə nəzirədir. Ayrı-ayrı nəşrlərdə onun nəzirə olduğu göstərilmişdir. Ancaq Vaqifin hansı şeirinə nəzirə oldu-

ğu haqqında heç nə deyilməmişdir. Aşıq Hüseyn Şəmkirlinin kitabını nəşrə hazırlamış R.Rüstəmzadə də "Olar" qoşmasının Vaqifə nəzirə yazıldığını göstərmiş, lakin kitaba yazdığı ön sözdə bu məsələyə toxunmamışdır.

Aşıq Hüseyn Şəmkirlinin "Olar" qoşması Vaqifin "Olur" qoşmasına nəzirədir. Əksər hallarda nəzirələrin adları, hətta bəndlərin sayı və janrı nəzirə yazıldığı şeirlə eyni olur. Bu tələb indiki halda tam gözlənilməmişdir deyə bilərik. Adlardakı bir sait səsin fərqi elə kəskin məna fərqi yaratmır. Burada ilkin gözə çarpan fərq odur ki, Vaqifin qoşması altı, Aşıq Hüseyn Şəmkirlinin qoşması üç bənddir. Bəndlərin sayındakı bu kəskin fərq şeirlər arasında da aydın görünən fərqlər yaratmışdır. Lakin bu qoşmalar arasındakı oxşarlıqlar da göz qabağındadır. Hər iki qoşmanın ilk bəndinə baxaq:

*Vaqifdə*

Hər yetən gözələ gözəl demənəm,
Gözəldə bir qeyri əlamət olur:
Zülf bir yana düşər, gərdən bir yana,
Özün bilməz, bir özgə babət olur.

*Aşıq Hüseyn Şəmkirlidə*

Hər yetən gözələ gözəl demərəm,
Gözəldə özgə bir əlamət olar.
Zülf dağılar, çin-çin düşər gərdənə,
Qaşınan, gözünən işarət olar.

Göründüyü kimi, ilk misralar bir-birinin eynidir. İkinci misralardakı yeganə fərq "qeyri" sözünün "özgə" sözü ilə əvəzlənməsidir. Üçüncü misralarda zülfün gərdənə tökülməsindən söhbət açılır və buradakı fərq özünü yalnız fikrin ifadəsində göstərir. Hər iki misrada zülf, düşər və gərdən sözü var. Bir-iki söz fərqi misralar arasındakı oxşarlığı əridə bilmir. Üç sözün və fikrin eyniliyi bu oxşarlığı qoruyub saxlayır. Digər bəndlərdə birinci bəndlərdəki qədər oxşarlıq yoxdur. Ancaq burada bir incəliyə diqqət yetirmək lazımdır. İkinci bəndlərin arasında həm qafiyələrin, həm də fikirlərin ey-

niliyi gözlə görünən oxşarlıqdan çox görünməyən oxşarlıqdan danışmağa əsas verir. Ona görə hər iki bəndi yanaşı qoymaq lazımdır:

*Vaqifdə*

Oynayanda pərvaz edər nimtənə,
Zülf dağılar, üzdə dönər xərmənə.
Sərəndazın ucu düşər gərdənə,
Açılsa bel-buxun, qiyamət olur.(2, s. 123)

*Aşıq Hüseyn Şəmkirlidə*

Əl dəyəndə fəryad edər nimtənə,
Tel tökülər, üzü dönər gülşənə.
Vərəndazı başdan salar gərdənə,
Görünsə məmələr qiyamət olar. (3, s. 25)

Burada söz-söz, sətir-sətir tutuşdurmalar aparmaq olar. Lakin bəndləri bu cür yanaşı qoyub baxanda hər şey aydın görünür deyə buna ehtiyac yoxdur.

Vaqifin qoşmasının qalan dörd bəndindəki fikir, hiss və duyğuları Aşıq Hüseyn Şəmkirli bir bəndə yerləşdirmişdir. Bu bəndlər arasındakı oxşarlıqlar üzdə yox, misraların alt qatlarındadır. Məsələn, Aşıq Hüseyn Şəmkirlinin "Hüseynin butası tərlan cilvəli, Bir şirin ədalı, bir naz-qəmzəli" misralarında deyilən fikirlər Vaqifin "Sözü duzlu olur, dodağı şəkər", "Hər qıya baxanda canlar üzülür, Sürmələnmiş siyah gözlər süzülür", "Niqab çəkən, zülfü pərişan gələr, Səhər seyrə çıxar, gülüşan gələr" misralarına səpələnmişdir. Aşıq da, şair də gözəlin işvə-nazını, baxışını, ədasını təsvir etmişdir.

Eyni ruhu, ovqatı Aşıq Ələsgərin "Ola" rədifli qoşmasında da görürük. Bu qoşma Vaqifin "Olur" və "Gözəlin" rədifli qoşmaları ilə yaxından səsləşir. Maraqlıdır ki, Aşıq Ələsgərin "Ola" rədifli qoşması da Vaqifin "Olur" və Aşıq Hüseyn Şəmkirlinin "Olar" qoşmalarında olduğu kimi, "Hər yetən gözələ gözəl deməirəm" misrası ilə başlayır. Hər üç şeirin eyni misra ilə başlanması təsadüfi deyil və onların arasındakı bağlılığın gözlə görünən ilk əlamətidir. Bundan başqa, Aşıq Ələsgərin "Deyə, gülə, şirin-şirin danışa" və Vaqifin "Sözü duzlu olur, dodağı şəkər"

kimi bir-birilə yaxından səsləşən misraları da aşığın şairdən bəhrələndiyini söyləməyə əsas verir. Vaqifin "Gözəlin" qoşması ilə Aşıq Ələsgərin "Ola" şeirini yanaşı qoyanda birincinin ikinciyə təsiri daha aydın görünür. Vaqifin "Güləş üzlü, şirin sözlü, xoşqılıq", "Ağzı, burnu, dili, dodağı nazik", "Yanağı gül, zülfü yasəmən gərək" (2, s. 82), Aşıq Ələsgərin "Deyə, gülə, şirin-şirin danışa", "Buxağından ətri-bənövşə gələ", "Əndam büllur, bədən güldən saf gərək", "Ağzı-burnu nazik, dodaq kip gərək" (4, s. 26) misralarındakı fikir və düşüncə yaxınlığı, poetik ifadələrin doğmalığı, aydınlığı bu şeirləri bir-birinə daha çox bağlayır.

Vaqifin Aşıq Ələsgərin yaradıcılığına təsirini xalq şairi, sazın-sözün gözəl bilicisi, Aşıq Ələsgər haqqında sanballı bir kitab yazmış Osman Sarıvəlli də duymuşdur (5, s. 14).

Vaqifin "Olur" və "Gözəlin", Aşıq Hüseyn Şəmkirlinin "Olar", Aşıq Ələsgərin "Ola" şeirlərində gözəlin təsviri üçün demək olar ki, eyni sözlər seçilməmişdir. Lakin müxtəlif sözlərlə az qala eyni fikir deyilmişdir. "Olur", "Gözəlin", "Olar" və "Ola" qoşmaları Vaqifin, Aşıq Hüseyn Şəmkirlinin və Aşıq Ələsgərin "gözəl necə olmalıdır" sualına cavablarıdır. Heç də təsadüfi deyil ki, bu cavablar demək olar ki, üst-üstə düşür.

Bəs Həmid Araslının Vaqifin və Aşıq Hüseyn Şəmkirlinin "bir-birinə qarışdırılmışdır" dediyi şeirləri hansılardır? Həm Vaqifin, həm də Aşıq Hüseyn Şəmkirlinin "Oynasın" rədifli qoşması var. Bu qoşma Vaqifdə dörd, Aşıq Hüseyn Şəmkirlidə beş bənddir. Şair də, aşıq da istəyir ki, toyda onun sevgilisi oynasın. Burada həm gözəllər bir-birinə oxşayır, həm də aşıqla şairin duyğuları, düşüncələri üst-sütə düşür, barmaqları eyni hava çalır. Bunu bəndləri yan-yana qoyanda daha aydın görmək olur:

*Vaqifdə*

Başına döndüyüm toy adamları,
Siz də deyin: toya gələn oynasın.
Adını demirəm eldən ayıbdı,
Filankəsin qızı filan oynasın.

*Aşıq Hüseyn Şəmkirlidə*

Başına döndüyüm toy adamları,
Siz də deyin, toya gələn oynasın.
Adını demirəm, eldən ayıbdı,
Qəmzəsi bağrımı dələn oynasın.

Göründüyü kimi, hər iki qoşmanın ilk bəndində yalnız dördüncü misralar bir-birindən fərqlənir. İlk üç misra isə tamamilə bir-birinin eynidir. Vaqifin ikinci bəndi ilə Aşıq Hüseyn Şəmkirlinin dördüncü bəndi bir-birinə oxşayır:

*Vaqifdə*

Nə müddətdi ona güvənən bizik,
Həsrətlər çəkməkdən canımız üzük.
Hər əlinə alıb bir danə üzük,
Üzüyü dəstinə alan oynasın.

*Aşıq Hüseyn Şəmkirlidə*

Əyninə geyibdi bərpadan dizlik,
Dostlar arasında itməyə düzlük.
Hər əlində vardır bir ala yüzlük,
Yüzlüyü əlinə alan oynasın.

Bu bəndlərdəki oxşarlıq üçüncü-dördüncü misralardadır. Birinci-ikinci misralar tamam fərqlidir. Üzük və yüzlük fərqi sonuncu misralardakı oxşarlığı azaltmır. Onlar bir qəlibə tökülmüş iki üzük qədər oxşardır.

Vaqifin üçüncü bəndi Aşıq Hüseyn Şəmkirlinin ikinci bəndiylə xurcuntayıdır:

*Vaqifdə*

Bir tuba boyludur, boyu novrəstə,
Həsrətin çəkməkdən olmuşam xəstə.
İşarət eylərəm anlayan dosta,
Dostunun qədrini bilən oynasın. (2, s. 94)

*Aşıq Hüseyn Şəmkirlidə*

Bir tuba boyludu zülfləri dəstə,
Dərdini çəkməkdən olmuşam xəstə.

Əhdindən dönməyən ucuz söz üstə
Dostunun qədrini bilən oynasın. (3, s. 17)

Hər iki bənddə şeirin poetik düzümü eynidir. Sözlərin sıralanması, qafiyələr, fikirlərin poetik ifadəsi arasında fərq axtarmağa ehtiyac yoxdur. Dördüncü misralar bir-birinin təkrarıdır. Birinci misralar eyni cür başlayır. Şairin "boyu novrəstə" deyimini aşıq "zülfləri dəstə" deyimi ilə əvəzləmişdir. Həsrət də dərddi, ona görə ikinci misralarda fərq yoxdur deyə bilərik. Üçüncü misralarda üzdə olan fərq görünməyən eyniliyə geyindirilmiş dona bənzəyir. "Anlayan dost" elə "əhdindən dönməyənə" deyirlər. Hər iki misrada sevgilinin əhdindən dönmədiyinə, sədaqətinə, dostunu anladığına işarə vurulmuşdur.

Hər iki qoşmanın möhürbəndləri də eynidir:

*Vaqifdə*

Mən Molla Vaqifəm, eylərəm əfğan,
Gözlərim də yaş yerinə tökər qan.
Uzun boylu, yeniyetmə, növcavan-
Məni bu dərdlərə salan oynasın. (2, s. 94)

*Aşıq Hüseyn Şəmkirlidə*

Şəmkirli Söyünəm, eylərəm fəğan,
Yaş yerinə didələrim tökər qan.
Filankəsin qızı-özü mahtaban
Məni bu dərdlərə salan oynasın. (3, s. 18)

Yenə dördüncü misralar eynidir. Birinci misralarda yalnız şairin və aşığın adları eyni deyil. Bu möhürbənddir, belə də olmalıdır. İkinci misralarda göz və didə sözlərini fərq adlandırmamaq da olar. Yaş yerinə şairin gözlərindən, aşığın didələrindən qan tökülür ki, hər ikisi eyni fikrin ifadəsidir. Burada bir incəlik də var ki, Vaqifin birinci bənddə işlətdiyi "filankəsin qızı" ifadəsi Aşıq Hüseyn Şəmkirlinin möhürbəndinə düşmüşdür.

Deməli, möhürbəndlərdəki bu cür xırda fərqləri ciddiyə almaya bilərik.

Bu qoşmalardakı ən ciddi fərq Aşıq Hüseyn Şəmkirlinin onu beş bənd eləməyidir. Bununla şeir aşıq yaradıcılığının tələblərinə uyğunlaşdırılmışdır. Həm də aşığın qoşmasının üçüncü bəndi olan bu artırma Vaqifin bəndlərinin heç biri ilə birbaşa səsləşmir və təkcə buna əsaslanıb demək olar ki, Vaqiflə Aşıq Hüseyn Şəmkirlinin "Oynasın" rədifli qoşmaları bir-birilə qarışdırılmamışdır. Sadəcə olaraq Aşıq Hüseyn Şəmkirli Vaqifin dillər əzbəri olan qoşmasının təsiri altında ona həm bədəncə, həm də geyindiyi donla çox oxşayan yeni bir şeir düzüb-qoşmuşdur. Bu iki qoşmanı ərişi, arğacı eyni olan, eyni çeşni əsasında ayrı-ayrı sənətkarların öz xanalarında toxuduqları xalçalara bənzətmək olar.

Aşıq Ələsgərin Vaqifin təsiri ilə yazdığı şeirlərindən biri də "Görmədim" qoşmasıdır. Bu şeir Vaqifin "Görmədim" müxəmməsinin təsiri ilə düzülüb-qoşulmuşdur. Şeirlər arasındakı əsas fərq birinin qoşma, digərinin müxəmməs olmasında və bəndlərin sayındadır. Aşıq Ələsgərin öz fikirlərini qoşmada ifadə etməsi ilk baxışda onun Vaqifin "Görmədim" müxəmməsindən bəhrələndiyini gözdən yayındırır. Formanın müxtəlifliyi məzmunlar arasındakı yaxınlığın üstünə bir şübhə dumanı çökdürsə də, onlar eyni dağın döşündən süzülüb gələn iki bulağın suyu qədər bir-birinə oxşayır. Bu oxşarlıq isə təkcə onların adlarında yox, hər iki şeirin ruhunda, ovqatındadır. Hər iki sənətkar bu şeirləri düzüb-qoşarkan öz qələmini zəmanədən, gördükləri haqsızlıqlardan, ədalətsizliklərdən, etibarsızlıqdan, əyriliklərdən, böhtanlardan, zülmlərdən, doğruluğun, düzlüyün, haqqın olmadığından şikayət motivinə kökləmişdir. Buna əmin olmaq üçün hər iki şeirdən götürülmüş aşağıdakı misraları yanaşı qoymaq kifayətdir:

*Vaqifdə*

Bəndələrdə simü bəylərdə ədalət görmədim. (2, s. 199)

*Aşıq Ələsgərdə*

Şahiddə iman yox, bəydə ədalət. (4, s. 73)

*Vaqifdə*

Hər kəsə hər kəs ki, etsə yaxşılıq, olur yaman,

Bulmadım bir dost ki, ondan bir ədavət görmədim (2, s.199)

*Aşıq Ələsgərdə*

Əbəs yerə bivəfaya can dedim,
Zəhmətin çox çəkdim, karın görmədim. (4, s. 72)

*Vaqifdə*

Aşinalar ixtilatında sədaqət görmədim. (2, s. 199)

*Aşıq Ələsgərdə*

Bivəfanın, müxənnəsin, nakəsin
Doğru sözün, düz ilqarın görmədim.

Yaxud:

Namərdi özümə dost eylədim,
Yolunda canıma çox qəsd eylədim. (4,s.72)

Bu misraların hamısı eyni duyğu və düşüncələrlə yoğrulmuşdur. Onların arasındakı ruh və ovqat yaxınlığını görməmək mümkün deyil. Aşıq Ələsgər bu dünyada axtardığı haqqı, ədaləti, etibarı, sədaqəti, doğruluğu, düzlüyü tapmadığını, hər şeyi əyri gördüyünü "Şahiddə iman yox, bəydə ədalət, Qazıların düz bazarın görmədim" (4,s.73) misralarında çox dolğun və gözəl ifadə etmişdir. Aşığın zamanında dünyanın tarazlığını, haqqı, ədaləti qazılar saxlayırdılar. Qazıların bazarında da düzlük yoxdursa, onda onu dünyanın heç yerində axtarmağa dəyməz. Bu fikri Vaqif belə demişdir:

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim. (2, s. 199).

Hər iki sənətkarın dünya, onda gördükləri əyrilik, oğruluq, yalançılıq, haqsızlıq haqqında düşüncələri də, bu duyğuların ifadəsi də bir-birinin eynidir deyə biləcəyimiz qədər yaxındır.

Vaqifin duyğu və düşüncələri ayrı-ayrı misralar, ifadələr şəklində Aşıq Ələsgərin şeirlərinə səpələnmişdir. Məsələn, Vaqifin "Dindirməmiş verə könüldən xəbər, İşarə anlayıb hal bilən gərək" (2, s. 51) misralarına Aşıq Ələsgərdə "İşarət eylədim, dərdimi bildi, Gördüm həm gözəldi, həm əhli-dildi" (4, s. 7), "İşarətnən, qaş-gözünən anlıya, Nəinki demədən söz qanan ola",

“Dilin tərpənməmiş dərdini bilə, Qurbanam gözünə, göz qanan ola” (4, s. 14) şəkillərində rast gəlinir. Yaxud yenə Vaqifin “Bir xəlvət yer ola, əğyar olmaya, Onda söhbət edək ikimiz belə” (2, s.28) misralarındakı fikirləri Aşıq Ələsgər “Bir o ola, bir sən, bir otaq yalqız, Deyib-danışmağın nə damağı var” (4, s. 25) şəklində ifadə etmişdir. Vaqifin və Aşıq Ələsgərin yaradıcılığında bu cür yaxından səsləşmələr yetərincə çoxdur. Onları sadalamağa ehtiyac yoxdur. M.P.Vaqifin Aşıq Ələsgərin yaradıcılığına təsiri haqqında aydın təsəvvür yaratmaq üçün bunlar da bəs eləyir.

Aşıq Hüseyn Şəmkirlinin kitabına yazdığı ön sözdə R.Rüstəmzadə Vaqifin aşığın yaradıcılığına təsirini də unutmamış, hətta “Oynasın” qoşmalarının hərəsindən üç bəndi misal da çəkmişdir. R.Rüstəmzadə bu zaman yanlışlıqlara da yol vermişdir. O yazır: “Aşıq Hüseyn (Şəmkirli-İ.S.) yaradıcılığında M.P.Vaqifin çox böyük təsiri vardır. Aşığın M.P.Vaqifə bu qədər aludə olması məhz onun Molla Pənah Vaqiflə yaxın qohum olduğunu göstərən əsas dəlillərdir. Onun “Yoxdur”, “Oynasın” və s. qoşmaları Vaqifin eyni adlı qoşmaları ilə həmahəngdir” (6, s. 4). R.Rüstəmzadə elə həmin yazısında Aşıq Hüseyn Şəmkirlinin Vaqifin doğma bacısı oğlu olduğunu yazmışdır. Halbuki Vaqiflə Aşıq Hüseyn Şəmkirlinin arasında yüz ilə yaxın yaş fərqi var. Bu cür kəskin yaş fərqi onların dayı-bacıoğlu olduqlarına şübhə yaradır. Yəqin ki, bu məsələni daha dərindən araşdırmaq lazımdır. Burada uzaq qohumluqdan da danışmaq olar. Birinci yanlışlıq budur. İkinci yanlışlıq odur ki, R.Rüstəmzadə Aşıq Hüseyn Şəmkirlinin “Yoxdur” rədifli qoşmasının adını çəkir. Çap olunmuş kitabların heç birində aşığın bu adda şeirinə rast gəlinmir. R.Rüstəmzadənin tərtib edib ön söz yazdığı kitabda da bu adda şeir yoxdur. Bəs bu dolaşıqlıq hardan gəlir? “Yoxdur” qoşması Aşıq Hüseyn Bozalqanlınındır, azacıq diqqətsizlik üzündən yuxarıdakı yanlışlığa yol verilmişdir. Aşıq Hüseyn Bozalqanlının “Yoxdur” qoşmasının Vaqifin eyni adlı qoşması ilə yaxından səsləşməsi də bu fikri söyləməyə əsas verir.

Eyni rədifli bu qoşmalar M.P.Vaqifdə üç, Aşıq Hüseyn Bozalqanlıda beş bənddir. Bu iki qoşma arasındakı oxşarlıq özünü mövzuda, məzmunda, fikrin ifadə formasında daha qabarıq göstərir. Şeirin hər ikisində Novruz bayramını varlıların və kasıbların necə keçirdiklərindən danışılır. Hər iki qoşmada zəmanədən, haqsızlıqdan, bayramı hamının eyni cür keçirə bilmədiyindən açıq-aşkar giley motivi var. Qoşmalar gileylə başlayır və eyni ovqatla da qurtarır:

*Vaqifdə*

Bayram oldu, heç bilmirəm neyləyim,
Bizim evdə dolu çuval da yoxdur.
Dügilə yağ hamı çoxdan tükənmiş,
Ət heç ələ düşməz, motal da yoxdur. (2, s. 118)

*Aşıq Hüseyn Bozalqanlıda*

Bayram oldu, hamı geydi zər-ziba,
Bizdə qədəh, nə bez, nə şal da yoxdur.
Qocaların şövqü olmaz söhbətə,
Bir başı eşqili cahal da yoxdur. (7, s. 25)

Hər iki qoşma "Bayram oldu" deyimi ilə başlayır və bunun ardınca giley notları ilə yüklənmiş misralar gəlir. Şair "Bizim evdə dolu çuval da yoxdur" misrasıyla unun olmadığını söyləyir. Aşıq Hüseyn Bozalqanlı bu fikri ikinci bənddə "Un da yoxdu kəsdirəydik əriştə" şəklində daha açıq ifadə etmişdir. Hər iki qoşmanın sonrakı bəndlərində də bu ovqat yaxınlığı saxlanmışdır. Şairin "Dügilə yağ hamı çoxdan tükənmiş", "Xalq batıbdır noğla, şəkərə, qəndə" misralarını Aşıq Hüseyn Bozalqanlının "Düyü alınmayıb, yuyula teştdə,", "Nə odun var, öydə ocaq qalıyax, Nə də yağ var, plov üstə calıyax, Gedək kimin sinisini yalıyax" misraları ilə üz-üzə qoyanda hər şey aydın görünür. Hər iki qoşmanın ruhundan aydın duyulur ki, şair də, aşıq da bu gözəl bayramı keçirə bilməyən kasıbların durumuna acıyır, halına yanır. Şeirləri bir-birinə doğmalaşdıran da məhz bu ovqatdır.

Vaqifin qoşması çox maraqlı bir sonluqla bitir:

Bizim bu dünyada nə malımız var,
Nə də evdə sahibcamalımız var.
Vaqif, öyünmə ki, kamalımız var,
Allaha şükür ki, kamal da yoxdur. (2, s. 118)

Burada şeirin qınaq hədəfi Vaqifin özüdür. Əgər xalq yoxsuldursa, Novruz bayramını keçirə bilmirsə, bunun günahı həm də Vaqifdədir. Vaqif Qarabağ xanlığının baş vəziridir. Bir çox məsələləri o həll eləyir. Deməli, Vaqifin dərin ağlı, kamalı olsaydı, xalq belə yoxsul yaşamazdı. Halbuki Vaqifin ağlının, kamalının dərinliyinə görə xalq arasında "Hər oxuyan Molla Pənah olmaz" məsəli də yaranmışdır. Əslində Vaqif kamalının yoxluğundan gileylənəndə məhz bu məsələ işarə vurmuşdur. Həm də fikrini xalq yumoru üslubunda gözəl ifadə etmişdir.

Aşıq Hüseyn Bozalqanlının yuxarıdakı qoşmanı M.P.Vaqifin təsiri ilə düzüb-qoşduğunu təsdiqləyən tutarlı bir fakt da var. Bu, şairin və aşığın "Bu gün" rədifli qoşmalarıdır. Bu qoşma şairdə dörd, aşıqda üç bənddir. Onların birinci bəndləri yenə eyni cür başlayır:

*Vaqifdə*

Yenə bayram oldu xublar bəzəndi,
Sanasan açılıb tazə gül bu gün.
Bənəfşə gülləri alasan ələ,
Şanə tək gəzəsən telbətel bu gün.

*Aşıq Hüseyn Bozalqanlıda*

Yenə bayram oldu xublar öyündə,
Şükür yaradana, nə cəlal bu gün.
Ay qabaqda hilal qaşlar çatılmış,
Şux salıb buxağa qoşa xal bu gün.

Bu bəndlərdəki oxşarlıq yalnız birinci misraların eyniliyində deyil. Bayram günündə gözəlin təsvirini verən digər misralar da sanki bir ürəkdən süzülüb gəlmişdir. Bu oxşarlığı rədiflərdən öncə gələn qafiyələrin yaxınlığı (gül, telbətel, cəlal, xal) daha da gücləndirmişdir. Hər iki qoşmanın sonluğu daha çox maraq doğurur. Şair də, aşıq da bu bayram günündə sevgilisiylə görüşür, bayram bayrama qarışır:

*Vaqifdə*

Tamaşa qılasan qaşa, qabağa,
Sürtəsən üzünü züsfə, buxağa.
Yar bəzənib gəlir canlar almağa,
Ölməli günündür, Vaqif, öl bu gün. (2, s. 92)

*Aşıq Hüseyn Bozalqanlıda*

Xoş oldu yar ilə şam yeməyimiz,
Küsüşüb, barışıb gülüşməyimiz.
Söyün deyər, bizim görüşməyimiz
Qoşa bayram oldu dalbadal bu gün. (8, s. 16)

Yarın bayram günündə bəzənib görüşə gəlməyi də, canlar almağı da sevən üçün bayramdır. Deməli, bu qoşmaların misralarına hopmuş bayram ovqatı, gözəlin bəzənib-düzənib görüşə gəlməyi, bu görüşün sevən üçün ikiqat bayram olmağı hər iki qoşmada əvvəldən axıra qədər aydın sezilir ki, bu da aşığın öz şair ustadından bacarıqla, yüksək sənətkarlıqla bəhrələndiyini göstərir.

Gözəlin boy-buxununun, ağıl-kamalının, naz-qəmzəsinin, ay qabağının, bal dodağının, büllur buxağının, gülgəz yanağının, yay qaşlarının, ox kirpiklərinin, qara xalının, ənbər qoxulu tellərinin və s. təsvirində də M.P.Vaqifin, Aşıq Hüseyn Şəmkirlinin, Aşıq Ələsgərin və Aşıq Hüseyn Bozalqanlının şeirləri arasındakı nəfəs oxşarlıqlarını, səsləşmələri aydın görmək olur. M.P.Vaqif sevdiyi gözəli huri, mələk, pəri adlandırır və onu yer insanından ayırıb göylərə qaldırır:

Ya mələksən, ya hurisən, ya pəri,
İnsanda sən təki can görməmişəm (2, s. 67)

Yaxud:

Ya mələksən, ya da huri qılmansan,
Ey sevdiyim, insan kim deyər sənə (2, s. 32).

Yaxud:

Göydən yerə enmiş mələkdir məgər,
Yoxsa insan olmaz belə surətdə (2, s. 26).

Gözələ eyni yanaşmanı Aşıq Hüseyn Şəmkirlinin, Aşıq Ələsgərin və Aşıq Hüseyn Bozalqanlının yaradıcılıqlarında da görürük. Aşıq Hüseyn Şəmkirlinin "Bu gələn" adlı cığalı müxəmməsində gözəlin təsviri Vaqifin təsvirlərindən seçilmir və sonda o da öz gözəlini göylərə qaldırır:

Bağlayıb gümüş kəmər,
Üstü tamam danə nişan.
Geyinib qəddi-dala
Tər libası tər yaraşan.
Ağ əndam başdan-başa
Ətiri-gül, müşk-fəşan.
Al yanax, ayna qabax,
Siyah zülfü ənbər əfşan.
Həm didarı şirindi,
Həm göftarı şirindi.
Bağça-barı şirindi,
Qoşa narı şirindi.
Bir belə gözəl olmaz,
Huri-qılmandı bu gələn. (9, s. 334)

Aşıq Hüseyn Şəmkirlinin bu misralarının hamısını bir yerdə yox, səpələnmiş şəkildə Vaqifin ayrı-ayrı şeirlərində tapmaq mümkündür.

Aşıq Hüseyn Bozalqanlı da gözəlləri çox zaman huri, qılman, mələk adlandırır, onları yerdən uzaqlaşdırıb göylə bağlayırdı:

Təəccüb elədim, bu necə candı,
Belə bəşər olmaz, allah amandı.
Huridi, mələkdi, yoxsa qılmandı,
Sonalar səfində sana yeridi. (8, s. 11)

Yaxud:

Ağ libas, ağ bədən, bir mahcamaldı,
Huridi, pəridi, mələk misaldı.
Mürğü-ruhum uçdu, rəngim saraldı,
Söyünə çəngəlin çaldı, qayıtdı. (7, s. 54)

Yaxud:

Həzarat, yaxşı baxın
Qarşıda duran gözələ.
Naz satan, müjgan atan,
Qaşları kaman gözələ.
Baxışınnan qəmzə satır
Ərşdəki qılman gözələ.
Bu surətdə, bu camalda
Kim deyər insan gözələ. (7, s. 87)

Aşıq Ələsgərin gözəlləri də cənnətdən gəliblər, o qədər gözəldirlər ki, aşığın onlara yer adamı deməyə dili gəlmir. O da gözəlləri huriyə, qılmana bənzədir. "Sallanışın bənzər hüri-qılmana" (4, s. 10), "Behiştdən gəlibsən, ay huri-qılman" (4, s. 12), "Əslin mələk, cismin huri, qılmandı" (4, s. 15), "Mələklər şahıdı, gözəl sərvəri"(4, s. 18), "Gözəllər sultanı, mələklər xanı" (4, s. 20), "Mələksən, çıxıbsan cənnət bağından" (4,s.30) kimi misralardan görürük ki, Aşıq Ələsgərin gözəlləri də Vaqifin, Aşıq Hüseyn Şəmkirlinin və Aşıq Hüseyn Bozalqanlının gözəlləri ilə bir sırada dururlar. Bu gözəllərin hamısını "Tanrı öz qüdrətindən yaradıb" (4, s. 23), "öz nurundan xəlq eləyib" (4, s. 21). "İnsanda sən təki can görməmişəm", "İnsan kim deyər sənə", "İnsan olmaz belə surətdə" (Vaqif), "Bir belə bəşər olmaz" (Aşıq Hüseyn Şəmkirli), "Əslin mələk, cismin huri, qılmandı", "Mələksən, çıxıbsan cənnət bağından" (Aşıq Ələsgər), "Belə bəşər olmaz", "Bu surətdə, bu camalda kim deyər insan sənə" (Aşıq Hüseyn Bozalqanlı) misralarında Vaqifin, Aşıq Hüseyn Şəmkirlinin, Aşıq Ələsgərin və Aşıq Hüseyn Bozalqanlının gözəl haqqında duyğu və düşüncələrinin eyniliyi aydın görünür.

Aşıq Hüseyn Şəmkirli, Aşıq Ələsgər və Aşıq Hüseyn Bozalqanlının şeirlərində Vaqifin ayrı-ayrı misralarına tam və ya yarımçıq şəkildə rast gəlinir. Vaqifin "Ləblərindən axar balı gözəlin" (2, s. 82) misrası Aşıq Hüseyn Şəmkirlidə "Möcüzədir ləbinin balı Fatmanın" (3, s. 21), Aşıq Ələsgərdə "Ləblərin şirəsi

abi-səlsəbil, Ləzzəti dünyada bala əvəzdi" (4, s. 9), "Ləblərinin şəhdi bala dönübdü" (4, s. 29), Aşıq Hüseyn Bozalqanlıda "Söyünü yandırır ləbinin balı" (8, s. 19), "Şəkər dahanlıdır, ləbi ballıdır" (8, s. 15) şəkillərində boy göstərir. Vaqifin bənzətmələri, epitetləri və s. də aşıq poeziyasında öz izlərini buraxmışdır. Bunlara da bir neçə örnək göstərmək olar:

*Vaqifdə*

Sərasər əndamın təzə qar kimi,
Zülfün gərdənində şahimar kimi.
Rəngi bəyaz, özü xırda nar kimi,
Qoynundakı əcəb nəstədir, ay qız. (2, s.39)

*Aşıq Hüseyn Şəmkirlidə*

Mənə cəfalar verməyə
Yoxdumu arın bu qədər.
Tökülüb dal gərdənə
Telləri marın bu qədər.
Dolanasan başına
Sinəsi qarın bu qədər.
Yenicə baş veribdi
Xırdaca narı bu qədər.
Alasan qadasını
Bir belə yarın bu qədər (9, s.333).

Bu şeirlərdəki bənzətmələr bir-birinin eynidir. Üstəlik gözəlin döşlərini nara bənzədən hər iki sənətkar onun yanında bir "xırdaca" sözü də işlətmişdir ki, bu, bənzətmələr arasındakı oxşarlığı daha da gücləndirmişdir. Vaqifin, Aşıq Hüseyn Şəmkirlinin, Aşıq Ələsgərin və Aşıq Hüseyn Bozalqanlının yaradıcılığında bu cür eyni, yaxud oxşar, bir-birilə səsləşən məcazlar yetərincə çoxdur.

Vaqifin şeirlərində sevənin öz canını yarına qurban vermək motivi də maraq doğurur. Şairin "Qurban olduğum" rədifli iki, "Qurbanıyam mən" rədifli bir şeiri var. Digər şeirlərində də canını yarına qurban verməkdən söz açılır. Vaqifin canını yarına qurban vermək düşüncəsində saxtakarlıq duyulmur, fikir o qədər

ürəkdən deyilir ki, onun səmimiyyətinə inanmamaq olmur. Şairin öz canını yarına qurban vermək duyğularına Aşıq Hüseyn Şəmkirlinin, Aşıq Ələsgərin və Aşıq Hüseyn Bozalqanlının şeirlərində də rast gəlinir. Vaqifin "Harda görsəm bir şux, kaman qaşlını, İstərəm canımı qurban eyləyəm" (2, s. 57), "Göydə mələk, yerdə insan gözəli Sənsən xoş xoyinə qurban olduğum" (2, s. 69), "Durub qurban olmaq sən tək qonağa Nuşdur canımıza, qurban olduğum" (2, s. 74), "Bir cənnət kuylunun, tuba boylunun, Bir şümşad qollunun qurbanıyam mən" (2, s. 80), "İkisi də bir-birindən öyməli, Can qurban eylərəm ikisinə də" (2, s. 121), Aşıq Hüseyn Şəmkirlinin "Verəsən canını yolunda qurban, Gör necə göyçəkdi teli Fatmanın" (3, s. 21), "Yazıq Hüseyn, dərdin ötər bir yüzə, Canan gəlsə canım verrəm bir yüzə" (3, s. 30), "Canını qurban edəsən Bir belə cənnət quşuna" (3, s. 34), "Nazik əlinə qurban, Qara telinə qurban, İncə belinə qurban, Danış, dilinə qurban, Gələn yoluna qurban" (3, s. 34), "Tikilib qolla bədən, sərindəki şalına qurban! Danışır tuti kimi, Şirin, şəkər dilinə qurban! Qurşayıbdır zər kəməri, O incə belinə qurban! Görünür ağ üzündə Bir cüt qoşa xalına qurban! Tökülüb bulud kimi Gərdəndə telinə qurban!" (3, s. 44), Aşıq Ələsgərin "Yolun sadağası canınan başdı, Qurban sənin kimi dosta, xoş gəldin" (4, s. 32), "Belə gözəllərin xaki-payına Mənim kimi çox qurbanlar dolanır" (4, s. 4), "O köynəyə nar məmələr bürünür, Onçun qurban olluq biz köynəyinə" (4, s. 18), "Layiq deyil qurban kəsəm qoyundan, Sana qurban canım, getmə, amandı!" (4, s. 19), "Bir canım var, yara qurban eylərəm, El desin: "Aşıq da qurban öldürür" (4, s. 28), Aşıq Hüseyn Bozalqanlının "Bağışla taxsırım, məni əfv qıl, Hüseyn kimi dost qurbana gələndə" (8, s. 38), "Bir gözəlin başdan görsən vəfasın, İstəsə canını ver şirin-şirin" (8, s. 37), "Canım qurban olsun belə canana, Hüseynə hörməti var, bizə gəldi" (8, s. 21) misraları arasındakı oxşarlığı yalnız qurban sözünün işlənməsilə bağlamaq doğru olmazdı. Birincisi, burada hər gözələ can qurban eləməkdən danışılmır. Hər dörd sənətkar

öz canını yalnız vəfalı yara qurban etməyə hazırdır. İkincisi, bu sözlər gözəlin könlünü almaq üçün deyilmir. Misralardan aydın görünür ki, deyilən sözlərin arxasında gerçəklik dayanır.

Beləliklə, Molla Pənah Vaqifin Aşıq Hüseyn Şəmkirlinin, Aşıq Ələsgərin və Aşıq Hüseyn Bozalqanlının yaradıcılığına təsiri ayrı-ayrı şeirlərdə, bənd və misralarda açıq-aydın görünsə də, onun izləri daha dərin qatlardadır. Onların həyata baxışları, bir çox məsələlərlə bağlı duyğu və düşüncələri əksər hallarda üst-üstə düşür, fikirlərin poetik ifadəsi bir-birilə yaxından səsləşir. Bu da o deməkdir ki, bu dörd sənətkarın qəlbi eyni hava üstündə köklənmişdir. Onlar ruhca bir-birinə çox doğmadılar. Yaradıcılıqlarındakı bu qədər yaxından səsləşmələrin də kökündə məhz bunlar dayanır.

## QAYNAQLAR


1. Araslı Həmid. Aşıq yaradıcılığı. Birləşmiş nəşriyyat. Bakı. 1960
2. Molla Pənah Vaqif. Əsərləri (Tərtib edəni Həmid Araslı). Azərbaycan Dövlət Nəşriyyatı. Bakı. 1968.
3. Aşıq Hüseyn Şəmkirli. (Tərtib edəni R. Rüstəmzadə). “Yazıçı”. Bakı. 1991.
4. Aşıq Ələsgər. Gözüm bir alagöz xanıma düşdü (Toplayanı İslam Ələsgər, Tərtib edəni Muxtar Qaradaşlı). “Yazıçı”. Bakı. 1993.
5. Osman Sarıvəlli. Qüdrətli şair, ustad sənətkar. Bakı. 2011.
6. Rüstəmzadə R. Şəmkirli Aşıq Hüseyn (Ön söz) // Aşıq Hüseyn Şəmkirli. Bakı. 1991. s.3-12
7. Aşıq Hüseyn Bozalqanlı. Bakı. 2003.
8. Aşıq Hüseyn Bozalqanlı. Şeirlər (Tərtib edəni və ön sözün müəllifi Şəmşad Rza). “Gənclik”. Bakı. 1973.
9. Azərbaycan aşıqları və el şairləri (Tərtib edəni Əhliman Axundov). II cilddə. Birinci cild. “Elm”. Bakı. 1983.

# MƏRUZƏLƏR

## MOLLA PƏNAH VAQİFİN RƏVAYƏTLƏRDƏ YAŞAYAN ŞƏXSİYYƏTİ

**Almaz Həsənqızı**
*filologiya üzrə elmlər doktoru*
*AMEA Folklor İnstitutu*
*gunsel_gunsel@yahoo.co.uk*

**Özət**

Dünyanın digər xalqlarında olduğu kimi, Azərbaycanda da görkəmli şair və yazıçılarla bağlı xeyli rəvayətlər yaranmışdır, bu proses bu gün də davam etməkdədir. Haqqında üç əsrdən bəri rəvayətlər dolaşan şairlərdən biri də Molla Pənah Vaqifdir.

Məlum olduğu kimi, Molla Pənah Vaqif kasıb bir ailədən çıxmış, lakin mükəmməl təhsil almış ziyalı idi. Bunu xalq arasında bu gün də yaşayan: “Hər oxuyan Molla Pənah Vaqif olmaz” sözləri də sübut etməkdədir. O, bir müddət müəllim kimi fəaliyyət göstərmişdir.

Təbii ki, Molla Pənah Vaqifi Azərbaycan xalqının sevimlisinə çevirən isə onun saf ana dilinin şirinliyinə bürünmüş şeirləri olmuşdur. Məhz həmin sadəlik, gözəllik, incəlik “Vaqifin şirin dili” ifadəsini Azərbaycan türkcəsinin sinoniminə çevirmişdir. Onun şeirlərinin əksəriyyətinin şairin faciəli ölümündən sonra ayrı-ayrı adamların yaddaşından yazıya alınması faktı da Molla Pənah Vaqifə olan ümumxalq sevgisinin göstəricilərindəndir.

Bundan əlavə, M.P.Vaqif həm də Qarabağ xanlığının ən önəmli simalarından biri, müdrikliyi və təcrübəsilə şöhrət qazanmış siyasi xadim idi.

Beləliklə, Molla Pənah Vaqiflə bağlı xeyli rəvayət dillərdə dolaşmaqdadır. Bu rəvayətlərdə müəllim, şair, siyasi xadim olan görkəmli bir Azərbaycan ziyalısının həm xoş, həm də əzabla keçən ziddiyyətli ömrünün müxtəlif anları öz əksini tapmışdır.

Məruzədə Molla Pənah Vaqifin rəvayətlərdə yaşayan keşməkeşli həyatı və zəngin fəaliyyəti təhlilə cəlb ediləcəkdir.

**Açar sözlər:** Molla Pənah Vaqif, şair, siyasi xadim, xalq yaddaşı

**Алмаз Гасанкызы**

**Личность Молла Панах Вагифа живущая в преданиях**

**Резюме**

Как и у других народностей мира, и в Азербайджане существуют много преданий об известных поэтах и пиСАтелях. Этот процесс продолжается и по сей день. Предания сказанное вот уже на протяжении третьего столетия посвящена одному из видных поэтов своего времени Молла Панах Вагифу.

Как известно, Молла Панах Вагиф выходец из бедной семьи, но он получил хорошее образование, интеллигент своего времени. Образованность его на устах людей стало притчей во языцех: "Не всякий грамотей может стать Молла Панах Вагифом". Эти слова подтверждают, какими глубокими знаниями он владел. Некоторое время своей деятельности он посвятил учительствованию.

Естественно, как его сладострастные стихи, написанные на родном языке и превратил поэта в народного любимца. Именно выражение "Сладострастности слога Вагифа", его простота, красота и тонкость передачи мысли в стихах и превратились в синоним Азербайджанского языка. После трагической гибели Вагифа, большинство его стихов живущие в памяти отдельных людей были перенесены на бумагу, это и является показателем всеобщей любви народа к своему поэту.

Помимо этого, Молла Панах Вагиф являлся важной персоной, и народ Карабаха его любил и уважал. Он славился своей мудростью и навыками большого политика, поэтому и заслужил уважение в определенных кругах.

Таким образом, предания связанные с деятельностью Молла Панах Вагифа стали переходить из уст в уста. В этих преданиях рассказывались о трудном и противоречивом жизненном пути учителя, поэта, политического деятеля, известного во всем Азербайджане великого Молла Панах Вагифа.

В докладе будет анализироваться личность Вагифа живущий в преданиях, также будет рассказываться о его бурной деятельности, и о трудном жизненном пути великого поэта.

**Ключевые слова:** Молла Панах Вагиф, поэт, политический деятель, народная память.

**Almaz Hasankizi**

**Molla Panah Vagif's personality living in the legends**

**Summary**

Like in other nations there are a lot of legends related with the eminent poets and writers of Azerbaijan and this process is proceeding nowadays too. One of the poets about whom a lot of legends were created is Molla Panah Vagif.

As it is known, Molla Panah Vagif was born and brought up in a poor family, but despite of this he was an intellectual who had got perfect education. A saying as "Not every literate person can be Molla Panah Vagif " proves it obviously. For some period of time he worked as a teacher.

It is natural it is his poems that was covered with the purity and sweetness of mother tongue that made him be loved by all. Just the simplicity, beauty, thinness turned the phrase of "Vagif's sweet language" into the synonym of Azerbaijani Turkish. There is such a fact that most of his poems were written by some people after his tragic death. This also proves that Molla Panah Vagif gained the love of all the people.

Alongside with all these, Molla Panah Vagif was one of the eminent personalities of Qarabagh khanate and he was political figure who was famous by his wisdom and experience.

So, there are a number of legends living about Molla Panah Vagif. In these legends different moments of the inconsistent and happy life of Azerbaijani intellectual who was a teacher, a poet, and political figure have been reflected.

In the lecture the hard life and rich activity of Molla Panah living in legends will be drawn to analysis.

**Key words:** Molla Panah Vagif, political figure, memory of people

**Rəvayətlərin şəxsiyyətlərin tanınmasında rolu**

Dünya mədəniyyəti tarixində bir çox yaradıcı şəxsiyyətlərin kimliyi, həyatı və fəaliyyətilə bağlı xalq arasında müxtəlif rəvayətlər dolaşır və uzun illər onların adını yaşadır. Bu bütün dünya mədəniyyətində, demək olar ki, eynidir. Belə ki, ingilislərin məşhur söz ustası Uilyam Şekspir, yaxud hind yazıçısı Rabindranat Taqor, görkəmli rus yazıçısı Lev Tolstoy, yaxud dünya şöhrətli Fyodor Dostoyevskinin adı ilə (hətta bəzən onların əlaqədə olduğu insanlarla da) bağlı xeyli rəvayət yaranmışdır. Təbii ki, uzun müddət bu rəvayətlər dildən-dilə keçərək dəyişikliklərə uğrayır, lakin bütün hallarda həmin əhvalatlarda yaşanmışlığın izləri müəyyən qədər qorunmuş olur.

Fikrimizcə, rəvayətlər iki halda hər hansı bir şəxsiyyətlə bağlı əsas sənəd qədər əhəmiyyət kəsb edir:

1. Əldə yazılı sənədlər olmadıqda hər hansı bir şəxsiyyət haqqında müəyyən məlumatı aydınlaşdırmaq məqamında rəvayətlər vacib mənbəyə çevrilir. Başqa sözlə desək, dillərdə dolaşan rəvayətlər belə hallarda müxtəlif faktları dəqiqləşdirmək üçün əsas sənədlərdən biri kimi tədqiqatçıya yardım edir.

2. Avtoritar rejimlərdə bir sıra şəxsiyyətlərə siyasi məqsədlərə müvafiq münasibət göstərildiyi üçün xalqın yaddaşı doğruları mühafizə edən əsas məlumat bazasından birinə çevrilir. Yaxın keçmişimizdə sovet ideoloji sisteminin təzyiqilə yazılan sənədlərdənsə, dillərdə dolaşan rəvayətlərin nə qədər böyük əhə-

miyyətə malik olduğu buna ən tutarlı dəlildir. Belə rejimlərdə bəzən də siyasi baxışları fərqli olan şəxsiyyətlərin unutdurulmasına cəhd edilir. Məsələn, uzun illər Əhməd bəy Ağaoğlunun, Əli bəy Hüseynzadənin, Məhəmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Mirzə Bala Məmmədzadənin və onlarla milli ruhlu ziyalının adının belə çəkilməsinin yasaqlandığı günlərdə xalq övladlarını yaddaşında yaşadır. Bu zaman onlarla bağlı dillərdə dolaşan mətnlərin əhəmiyyəti daha da artmış olur.

## Molla Pənah Vaqif – müəllim – siyasi xadim – gözəllik aşiqi şair

Azərbaycan ədəbiyyatının inkişafında xidmətləri böyük olan şəxsiyyətlər haqqında xeyli rəvayətlər dildən-dilə dolaşmaqdadır. Haqqında çox əhvalatlar yaranan şəxsiyyətlərdən biri də Molla Pənah Vaqifdir. Onun haqqında rəvayətlərin daha çox yayılması təbiidir. Əvvəla, Molla Pənah Vaqif sadə, axıcı dili və hər kəs tərəfindən anlaşılan, sevilən şeirlərilə dövrünün tanınmış şairi idi. H.Araslı onun xalqa bağlı yaradıcılığını belə səciyyələndirmişdir: "Vaqif yaradıcılığı lirik poeziyanın artıq inkişaf yolu keçib formalaşmaqda olduğu bir dövrə təsadüf edir. Vaqif isə formalaşmaqda olan lirik şeiri yeni realist inkişaf yoluna salaraq, onu xalq ruhuna, xalq zövqünə yaxınlaşdırmış, özünəqədərki fərqli bir yola istiqamətləndirmişdir" (9,6).

Digər tərəfdən, Molla Pənah Vaqif iyirmi yeddi ilə yaxın Qarabağ xanının sarayında əvvəl eşik ağası, daha sonra isə vəzir kimi siyasi fəaliyyət göstərmişdi. Bu da onun şöhrətinin geniş yayılmasına, həm hakim dairələr, həm də ətraf xanlıqlar və hətta xarici dövlətlər tərəfindən tanınmasına səbəb olmuşdur.

Məhz bu xüsusiyyətləri nəzərə alaraq, Vaqiflə bağlı yaranan rəvayətləri məzmunca belə qruplaşdırmaq mümkündür:

1. Məktəbdarlığı ilə bağlı yarananlar;
2. Şairliyi və fərdi həyatı ilə bağlı yarananlar;
3. Siyasi fəaliyyətilə bağlı yarananlar.

Molla Pənah Vaqiflə bağlı əhvalatlardan birini təxminən qırx il bundan qabaq Ordubadda yaşayan Məhcəbin Ağasıyevadan yazıya almışıq: "Vaqif hələ Şuşaya xan sarayına gedəndən əvvəl mollalıq edirmiş. Uşaqlara Quran dərsləri verirmiş. Bir gün bir qadın onun yanına gəlir və deyir: "Ay molla, mənə bir dua yaz. Nehrəni nə qədər çalxalayıram, yağı az olur",

Vaqif xanıma belə bir dua yazıb yola salır:
Ay xanım, xanım, xanımağa,
Dua neyləsin yağa?
Bas dabanı çatdağa,
Başla hey çalxamağa"(7).

Bu rəvayət, bir tərəfdən, M.P.Vaqifin insanlara olan münasibətini, daha doğrusu, ona pənah gətirənləri naümid geri qaytarmaq istəməməsini göstərir. Digər tərəfdən, təbiəti etibarı ilə zarafatı sevən, şən bir xarakterə malik olduğu qənaətini doğurur. Əlavə olaraq, Qarabağdan xeyli uzaqda belə bir əhvalatın dillərdə dolaşması şairin şöhrətinin Azərbaycanın bütün bölgələrinə yayıldığını xəbər verir.

Molla Pənah Vaqif çox hazırcavab bir xarakterə malik olmuşdur. Bunu onunla bağlı bir neçə əhvalatda görmək mümkündür. Yeri gəlmişkən, onlardan birini burada xatırladaq. Belə ki: "Şahsevənli Fərəcullah xan, İbrahim xanın qızı Kiçik Bəyimlə evlənmişdi. Bir gün o, qayınatası İbrahim xanı qonaq çağırır. Lakin xan başqa işlə məşğul olduğundan, vəziri Molla Pənahı qonaqlığa göndərir. Uzaqdan atlıların gəlməsini görən Fərəcullah xan onların qabağına çıxır, dəstənin başında İbrahim xanı görmədikdə, tutulur:

– Məgər xanın bir adamı yoxmudur mənim yanıma göndərsin?

Vaqif dərhal cavab verir:

– Xeyr, xanın adamı çox idi, adamı adam yanına, bizi də sənin yanına göndərdi.

Fərəcullah xan Vaqifi tanıyıb pərt olur, ondan üzr istəyir" (6)

Bu mətn Molla Pənah Vaqifin hər hansı bir gözlənilməz məqamda təmkinini pozmamaq, özünü itirməmək qabiliyyətini və hazırcavablığını göstərir. Öz ağlı, sözü məqamında işlətmək bacarığı həmin əhvalatda şairin vəziyyətdən çıxmasına səbəb olur. Daha dəqiq desək, qarşıdakı onu aşağılamaq istəsə də, verilmiş iti və kəskin cavabın nəticəsində özü namünasib duruma düşür, üzr istəməkdən başqa çarəsi qalmır.

Azərbaycan ədəbiyyatında Molla Pənah Vaqif gözəllik aşiqi, nikbin bir şair kimi tanınmaqdadır. Onun şeirlərində Azərbaycan qadını bütöv bir şəkildə – geyimi, bəzəyi, xarici görünüşü, hətta çox vaxt daşıdığı adı ilə birlikdə böyük bir məhəbbətlə təsvir edilir. Şairin adı ilə bağlı yaranan bəzi rəvayətlərdə də bu böyük sevgi və heyranlıq öz əksini tapmışdır. Əyanilik üçün onlardan birinə nəzər salaq: "İbrahim xan Quba xanı Fətəli xanın hücum edəcəyini ehtimal edərək qoşunu ilə Əsgəranda qərargah salmış, çadırlar qurdurtdurmuşdur. Vaqif də xanın hüzurunda olmaq məcburiyyətində idi. Lakin onun ruhu şəhərdə, Mədinəsinin yanında idi. O dözə bilməyib gecələrin birində bir qoşma yazır. Qoşmanı şair belə qurtarır:

Ləblərin bağrımı pirxun eyləmiş,
Axıtmış göz yaşım, Ceyhun eyləmiş.
Həsrətin Vaqifi Məcnun eyləmiş,
Onun üçün gəzər, çöllər dolanır.

Sonra şair nökəri çağırıb deyir:

– Atı min, bu kağızı bu saat apar Qalaya, Mədinə xanıma ver, tez qayıt!

Çapar tez gedib tez də Mədinədən cavab gətirir. Məktubada yalnız bir bayatı yazılmışdı:

Ahular mələr, gələr,
Dağları dələr, gələr.
Yar yarını istəsə,
Gecəni yarar, gələr.

Vaqif elə o saat atını yəhərlədib Qalaya, gözəl Mədinəsinin görüşünə gedir"(6).

Bu rəvayətdə isə sevgiyə dəyər verən, həmçinin adi eyhamdan belə mətləbi anlayan bir insan xarakteri göz önündə canlanmaqdadır. Eyni zamanda, Molla Pənah Vaqifin Mədinəyə olan münasibəti də burada öz əksini tapmışdır.

Akademik Nizami Cəfərov Molla Pənah Vaqifi, haqlı olaraq, yaşadığı dövrün, mühitin övladı kimi xarakterizə edərək yazır: "M.P.Vaqif öz-özlüyündə (təbiətən) istedadlı, müdrik olsa da, onun şəxsiyyəti, ümumiyyətlə, dövrün, mühitin tarixi reallığının məhsuludur ki, böyük şairin, dövlət xadiminin yaşadığı həmin dövr Azərbaycanda milli intibah dövrü, mühit isə milli intibah mühiti idi" (4).

Bu, doğrudan da, belə idi. Qarabağ, tarixin əksər vaxtlarında olduğu kimi, həm daxili, həm xarici güclərin müdaxiləsi nəticəsində özünün çox çətin bir dövrünü yaşayırdı. Vaqif Qarabağın belə bir dövründə xanlığı həm daxili, həm xarici hücumlardan qorumağa çalışırdı. Belə ki, 1795-ci ildə otuz üç gün Ağa Məhəmməd Şah Qacar Şuşanı mühasirədə saxlayır, lakin onu işğal edə bilmir. Bu ağır və məşəqqətli günlərlə bağlı "Qarabağnamələr"də bir-birinə bənzəyən məlumatlar öz əksini tapmışdır.

Məlumdur ki, bir sıra folklor mətnləri məhz ayrı-ayrı səyahətnamə, cüng və ya salnamələrə salındığına görə dövrümüzə qədər gəlib çatmışdır. Hətta bəzi folklor janrları, o cümlədən, rəvayətlər daha çox yazılı mənbələrin içərisində mühafizə olunmuşlar. Folklorun bu janrının özəllikləriilə bağlı professor İsrafil Abbaslı haqlı olaraq yazır: "Xalq rəvayətlərindən istər ilkin orta əsrlərdə, istərsə də sonrakı yüzilliklərdə Azərbaycanın bir sıra tarixçi, etnoqraf, arxeoloq və salnaməçiləri, həmçinin klassik şair və yazıçıları tarixi qaynaq kimi faydalanmışlar. Bu ədəbi-mədəni prosesin özü onlarla xalq rəvayətlərinin qorunmasına, onların əbədiləşdirilib dövrümüzə qədər gəlməsinə səbəb olmuşdur" (1,214).

Xatırladaq ki, Molla Pənah Vaqiflə bağlı məlumat almaq üçün tədqiqatçıların müraciət etdiyi əsas mənbələrdən biri də o dövrün hadisələrini özündə əks etdirən "Qarabağnamələr"dir. Bu qiymətli əsərlərin əsasında şəxsi müşahidələrlə yanaşı, müxtəlif

adamlardan toplanan rəvayətlər dayanır. Bu faktı həmin əsərlərin müəllifləri özləri də etiraf edirlər. Bundan əlavə, İbrahim xanın vəziri olmuş Mirzə Camal bəy Cavanşirin və Mirzə Adıgözəl bəyin yazdıqlarını müqayisə edən Əli Hüseynzadə onların arasındakı oxşarlıqlar haqqında yazır: "Bu iki əsərin bir-birinə bənzəməsi heç də müəlliflərdən birinin digərindən istifadəsini söyləməyə haqq vermir. Bizcə, hər iki müəllif öz əsərini əsas etibarilə *xalq arasında dolaşan şifahi rəvayətlər,* yaşadıqları dövrün tarixi hadisələrini isə öz müşahidələri əsasında yazmış olduqlarından bu oxşayış təsadüfi bir səciyyə daşıyır" (Seçmə bizimdir – A.H. (5, 105).

Yuxarıda söylənənləri nəzərə alaraq, "Qarabağnamələr"də Şuşanın mühasirə günlərilə bağlı verilən belə bir əhvalata diqqət yetirək:

"Ağa Məhəmməd şah otuz üç gün Şuşanı mühasirə etdi. Qalanın ətrafını əzəmətli ordugah edərək, çadırlar qurdurub oturdu. O, elçi və məktublar göndərdi... Axırda şirazlı Seyid Mühəmməd Ürfinin...qəsidəsindən... bir beytin bəzi sözlərini dəyişərək xanı qorxutmaq üçün yazıb göndərdi:

Fələyin mancanağından fitnə daşı yağır,
Sən axmaqcasına Şişə içərisinə sığınmısan...

Molla Pənah Vaqif o saat Ağa Məhəmməd şahın məktubunun dalına ənbər qoxulu qələmilə bu şeiri yazıb göndərdi:

Əgər məni qoruyan mənim bildiyimdir,
(O), Şişəni daşın qoltuğunda mühafizə edər.

Ağa Məhəmməd şah məktubun cavabın nəzərdən keçirdi. Qəzəbinin buxarı başına vurub ağlı başından çıxdı" (5, 51).

Aydındır ki, "Şişə" deyilərkən dağların qucağına sığınmış keçilməz və əzəmətli Şuşa nəzərdə tutulur. Bu əhvalatda M.P.Vaqifin qeyri-adi şairlik istedadı, hazırcavablığı ilə yanaşı mübarizliyi, cəsarəti də açıqca görünməkdədir. Tünd xarakterə malik bir hökmdarın – Ağa Məhəmməd şah Qacarın qəzəbinin çox dəhşətli bir intiqamla bitəcəyini bir siyasət adamı kimi Molla Pənah Vaqif yaxşı bilirdi. Əgər mühasirə yarılarsa, verdiyi ca-

vabın bədəli çox ağır olacaqdı. Lakin heç bir təhdid böyük şairin cəsarətinin qarşısında maneəyə çevrilmir.

Rəvayətlərdən bəhs edilərkən, digər bir məqam diqqəti cəlb edir. Bir çox hallarda söz ustalarının həyat-fəaliyyəti və ya yaşadıqları dövrün müəyyən hadisələrini dəqiqləşdirmək üçün onların öz əsərlərinə müraciət olunur. M.P.Vaqifin şeirlərinin bəziləri yazıldığı zamanın hadisələrini aydınlaşdırmağa qadirdir. Onlardan biri məşhur "Bax" qəzəlidir. Bu əsər Allahın möcüzəsilə ölümün pəncəsindən xilas olan şairin düşüncələri – dünyanı artıq dərk etmiş müdrik bir insanın ömrünün ən böyük həqiqətlərinin etirafı kimi səslənir. Molla Vəli Vidadiyə yazılmış bu qəzəlin hər beyti ayrıca təhlil obyekti kimi əhəmiyyətlidir. Onlardan birinə nəzər salaq:

Taci-zərdən ta ki ayrıldı dimaği-pirğürur,
Payimal oldu təpiklərdə səri-sərdarə bax!

Əhməd bəy Cavanşirin "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair" əsərində bu beytlə bağlı belə bir şərh verilmişdir: "Rəvayətə və canlı şahidlərin dediyinə görə, Ağa Məhəmməd xanın başsız bədənini və kəsilmiş başını küçələrdə gəzdirdilər. Döyüşlərdə həlak olmuş əsgərlərin hiddətə gəlmiş dul arvadları və yetim uşaqları nəşi və başı ayaq altına salıb təpikləyirdlər" (5, 174).

Göründüyü kimi, M.P.Vaqifin yazdığı həmin beytdə dəhşət saçan günlərin acı bir səhnəsi öz əksini tapmışdır. Ümumiyyətlə, şairin "Hayıf ki, yoxdur", "Tüfəng" və başqa şeirləri, həmçinin sevdiyi qadınlar və oğlu ilə birlikdə edamı ilə bağlı müxtəlif rəvayətlər hələ də xalq arasında yaşamaqdadır.

## Nəticə

Molla Pənah Vaqifin həyatını, fəaliyyətini, həmçinin mühitinin tam mənzərəsini yaratmaq üçün müxtəlif mənbələrdən istifadə oluna bilər. N.Cəfərov həmin mənbələrdən bəhs edərkən belə bir qənaət irəli sürür: "Molla Pənah Vaqifin dövrünü, həyatını, dünyagörüşünü mümkün qədər təfsilatı ilə öyrənmək, təsəvvürdə canlandırmaq üçün istinad edilən əsas mənbələrdən birincisi müx-

təlif elmi və ya elmi-kütləvi araşdırmalardırsa, ikincisi, şairin heç də bütün miqyası ilə bizə gəlib çatmamış və ya sona qədər toplanmamış yaradıcılığıdır. Lakin əslində bu mənbələrdən hansının daha mötəbər olması üzərində mübahisə etmək də mümkündür. Çünki Vaqif öz tərcümeyi-halını həm yaratmış, həm də onun ən mühüm məqamlarını qələmə almış şair-mütəfəkkirdir. Əgər Vaqif haqqında təzkirələrdə, Qarabağ tarixinə dair əsərlərdə –"Qarabağnamə"-lərdə bu və ya digər dərəcədə dəyərli məlumatlar olmasaydı belə onun həyat yolunu yaradıcılığı əsasında kifayət qədər aydın şəkildə təsəvvür etmək olardı. Təsadüfi deyil ki, böyük şəxsiyyətin başına gələn əhvalatlardan bəhs edən nəinki ədəbiyyatçılar, hətta tarixçilər də həmin əhvalatların məzmun-məndərəcəsini daha mükəmməl çatdırmaq üçün məhz ayrı-ayrı şeirlərinə müraciət etməli olmuşlar. Görünür, böyük şair, mütəfəkkir və dövlət xadiminin ömür yolunu (ümumən şəxsiyyətini) öyrənərkən müraciət olunacaq üçüncü əsas mənbə Vaqifin obrazını yaratmış yazıçıların əsərləridir ki, buraya ilk növbədə Yusif Vəzir Çəmənzəminlinin "Qan içində" (və ya "İki od arasında") romanı, Səməd Vurğunun "Vaqif" dramı, eləcə də bir sıra digər ədəbi yaradıcılıq məhsulları daxildir" (4).

Fikrimizcə, Molla Pənah Vaqifi yaxşı tanımaq üçün bu söylənən mənbələrlə yanaşı, onunla bağlı yaranan rəvayətlər də diqqətdə saxlanılmalıdır. Çünki Molla Pənah Vaqif, sözün həqiqi mənasında, şeirləri geniş yayılan bir söz ustadı olmaqla yanaşı, xalq məhəbbətini qazanmış nadir şəxsiyyətlərdən biridir. Həmid Araslı Molla Pənah Vaqiflə bağlı həmin məqama diqqət yetirərək yazır: "Vaqif edam edildikdən sonra onun evi talan olunur. Bütün bunlar Vaqif irsinin bizə qədər gəlib çatmamasına səbəb olur. Talan zamanı şairin əsərlərinin çox hissəsi itib-batmış, divan və əlyazmaları məhv olmuşdur. Lakin xalq sevimli şairininin şeirlərini hafizələrində yaşatmış, müxtəlif vasitələrləVaqifin əsərlərinin müəyyən qismini mühafizə etməyə müvəffəq olmuşdur" (9, 6).

Molla Pənah Vaqiflə bağlı rəvayətlərdən bəhs edərkən, iki istiqamət diqqətdə saxlanmalıdır:

1. Şair, müəllim, siyasətçi Vaqiflə bağlı yaranan rəvayətlər;

2. M.P.Vaqifin əsərlərində əksini tapan rəvayətlər.

Beləliklə, Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatında özünəməxsus mövqeyi olan bir söz ustadı, ən əsası isə xalqının qüdrətli və sevimli şairidir. Ömrünün çox hissəsini mühacirətdə keçirmək məcburiyyətində qalan məşhur folklorşünas alim Əhməd Cəfəroğlu (1899-1975) "Azərbaycan dil və ədəbiyyatının dönüm nöqtələri" əsərində Vaqifin xalqla olan bağlılığını obrazlı bir dillə səciyyələndirərək yazır: "Hələ Vaqif xalqa enməkdən, onunla "sənli-mənli olmaq"dan o qədər zövq almışdır ki, haqqında "Hər oxuyan Molla Pənah olmaz" şəklində bir ata sözü də xalq arasında geniş bir yayım sahəsi bulmuşdur. Böylə bir mükafatı qazanan, əcəba, neçə türk şairinə rastlanmışdır? Məncə, Vaqif bu xüsusda türk ədəbiyyatının yeganəsidir" (2, 19).

"Türk ədəbiyyatının yeganəsi" kimi dəyərləndirilmək isə hər sənətkara nəsib olmayan böyük bir xoşbəxtlikdir.

Molla Pənah Vaqifin əsərləri ilə yanaşı, fikrimizcə, onunla bağlı yaranan mətnlərin toplanıb nəşr edilməsinə, təhlilə cəlb olunmasına ehtiyac vardır.

## QAYNAQLAR


1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, I c., Bakı: Elm, 2004
2. Cəfəroğlu Ahmet. Azerbaycan dil ve edebiyatının dönüm noktaları, Ankara, Yeni Cezaevi Matbaası, 1953
3. Cəfərov Nizami. Vaqifin dövrü, həyatı, dünyagörüşü, "Azərbaycan" jurnalı, 2017, sayı 2-3
4. Cəfərov Nizami. Xalqın böyük şairi, "Azərbaycan" qəzeti 19 aprel 2017
5. Qarabağnamələr, (tərtib edən: A.Fərzəliyev), Bakı:Yazıçı, 1989
6. "Sənət. az", 08 avqust 2015
7. Şəxsi arxiv
8. Vaqif M.P. Əsərləri, (tərtib edən: H.Araslı), Bakı: Azərnəşr, 1968
9. Vaqif Molla Pənah. Əsərləri, (tərtib edən: H.Araslı), Bakı : Şərq-Qərb, 2004

# MOLLA PƏNAH VAQİFİN "DURNALAR" QOŞMASININ FOLKLOR SPESİFİKASINA UYĞUN MOTİVASİYASI

**Atif İslam oğlu İslamzadə**
*filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*atif.islamzade@mail.ru*

**Özət**

Bu yazıda Molla Pənah Vaqifin "Durnalar" qoşmasının folklor spesifikasına uyğun motivasiyası diqqətlə araşdırılmışdır. Durnalar motivinin folklorda necə yayğın olması folklor örnəklərinin təqdimiylə aydınlaşdırılmışdır. Eyni zamanda xalq dastanlarından alınan bu motivin M.V.Vidadi istisna olmaqla M.P.Vaqif tərəfindən yazılı ədəbiyyata gətirilməsi və özündən sonrakı sənətkarların yaradıcılığında bir motiv kimi sabit şəkildə daşınması izah olunmuşdur.

**Açar sözlər:** Vaqif, xalq ədəbiyyatı, durnalar, folklor motivi

**Атиф Исламзаде**

**Соответствующая специфике фольклора мотивация гошмы «Журавли» Моллы Панаха Вагифа**

**Резюме**

В настоящей статье тщательно была исследована соответствующая фольклорной специфике мотивация гошмы «Журавли» Моллы Панаха Вагифа. На материале фольклорных образцов была выявлена степень распространения мотива журавлей в фольклоре. В то же время было указано, что данный мотив, взятый из народных эпосов, исключая М. В. Видади, был внесен в письменную литературу М.П. Вагифом и как мотив постоянно использовался в творчестве последующих мастеров искусства.

**Ключевые слова:** Вагиф, фольклор, журавли, фольклорный мотив

**Atif Islamzade**

**The definite motivation to the folklore specification of the quatrain named “Durnalar” (“Cranes”) by Molla Panah Vagif**

**Summary**

In this article the definite motivation to the folklore specification of the quatrain named “Durnalar” (“Cranes”) by Molla Panah Vagif is investigated in details. The spread of the motif “durnalar” (“cranes”) is cleared up with the introduction of the folklore examples. At the same time bringing this motif from the folk eposes by M.P.Vagif except M.V.Vidadi and carrying this motif constantly in the activity of the masters coming after him are explained.

**Key words:** Vagif, folk literature, cranes, folklore motif

Görkəmli Azərbaycan mütəfəkkiri, siyasi xadim və diplomat kimi fəaliyyət göstərən böyük şair Molla Pənah Vaqifin demək olar ki, bütün yaradıcılığı folklorumuzla bağlıdır. Yazılı ədəbiyyatın nümayəndələrindən sayılan şair təsadüfi olaraq xalq şairi kimi tanınmamışdır. Onun yaradıcılığında xalq şeirinin bütün şəkilləri özünü göstərməkdədir. Bizim mövzumuz folklor motivi olaraq geniş yayılmış “Durnalar” motivinin Vaqifin yaradıcılığında məhz folklor spesifikasına uyğun şəkildə necə təsvir olunmasıdır. Şairin şöhrətli “Durnalar” şeiri yazılı ədəbiyyatda yazılan bu mövzulu bir çox eyni rədifli şeirlərdən daha məşhurdur. Durna motivi folklor motivi olsa da, yazılı ədəbiyyatdan da keçir. Durna motivi ya el şairliyini, ya da xalq ədəbiyyatının təsiri altında olan yazılı ədəbiyyatı işarələyir. Bu şeirlərdə durnaya üz tutan şəxs ya qürbət ovqatını, ya da həsrət göynərtilərini dilə gətirir. Məhz M.P.Vaqifin “Durnalar” şeiri də folklor motivinə uyğun şəkildə yazılmışdır. Bu şeirdə folklor motivinin spesifikası olduğu kimi saxlanmışdır. Belə ki, bütün xalq örnəklərində durna qatarına həsr olunan nümunələr qürbətdə yazılır və durna

qürbəti işarələyir. "Əsli-Kərəm", "Koroğlu" və s. dastanlarda biz bunun bariz nümunələrini görürük. M.P.Vaqifin "Durnalar" şeirinin də mövzusu elə qürbət və həsrət motivi üzərində qurulmuşdur:

Xeyli vaxtdır yarın fərağındayam,
Pərvanə tək hüsnün çırağındayam,
Bir ala gözlünün sorağındayam,
Görünürmü, görün gözə, durnalar! ( 1, 69).

Bundan əlavə bu şeirin saz üstündə köklənən xalq şeiri formasında yazılması da M.P.Vaqifi folklorumuzla bağlı sənətkar kimi dəyərləndirir. Yazılı ədəbiyyatın özəyində folklor motivinin və hətta şeir poetikasının etolon səviyyədə daşınması Vaqif yaradıcılığında bir daha təsdiq olunur.

Biz bu motivin Vaqif yaradıcılığında folklor spesifikası olaraq daşınmasını izah etmək üçün öncə konkret örnəklərə müraciət etmək istəyirik. Nüfuzlu folklorşünas alim və toplayıcı M.Həkimovun meydana çıxardığı "Ağ Aşıq və Süsənbər" dastanında məhz durna motivinin parlaq proyeksiyasını görürük. Dastanda durna və kəklik motivinə təsadüf olunur ki, bu da təsadüfi kompozisiya xətti deyil, dastanın mətn sturukturunda mövcud olan arxitektonikdən irəli gəlir. Durna və kəklik motivi dastanda binar oppozisiyanı təşkil edir. Durna qürbəti işarələyir, kəklik vətəni. Durna həsrət acısıdır, kəklik vüsal şirinliyi. Durna vətəndən ayrılığı göstərir, kəklik vətənə qovuşmanı. Məhz Sərdar Hüseyn yuxuya getdikdən sonra ölüm həyəcanlarının üstündən sovuşan Ağ Aşıq namüəyyən vəziyyətdə qaldıqda həsrət nisgili daha qabarıq görünür. Bu nisgil durnalar olmasa da, nisgil olaraq qalır, lakin eyni məqamda göydən keçən durnalar qəlbi qubarlandırır, göynərtini artırır. Göydən keçən durnalarla yara-Süsənbərə salam göndərən Ağ Aşıq üçün durna qürbətdən vətənə gedən xəbərçi poçtalyondur. Türk xalqlarının ən əski inanclarında durnanın funksiyası elə bu anlamdadır. Mifik təsəvvürlərdə

“durna, göyərçin və qarğa həm xəbər gətirən, həm də poçtalyon vəzifəsi daşıyırdılar” (2, 24).

Durna motivinin digər dastanlarımızda da eyni anlamda işlənməsinin şahidi oluruq. “Əsli Kərəm” dastanında Kərəm də durnaları qürbət eldə, Əslini axtaranda görür və ona salam göndərir. Durna motivi bu dastanda “Ağ Aşıq və Süsənbər” dastanındakı durna motivi ilə nəinki, eynidir, hətta hisslərin yaxınlığı misraların yaxınlığını da ifadələndirir. Eyni situasiya oxşar əlamətlər doğurur. “Əsli Kərəm”də:

Durna, gedərsiz haraya,
Mənnən yara salam deyin! ( 3, 112)
“Ağ Aşıq və Süsənbər”də:
Qərib-qərib ötən durna,
Durna, yara salam söylə (4, 333).

Durnaların görünməsi həsrətlənən, yalqızlanan, uzaq eldə məcburi şəkildə öz elindən təcrid olunanların ovqatına bağlanır. “Koroğlu” dastanında düşmən təqibindən uçurum kənarında oğulluğu Eyvaz ilə çıxılmaz vəziyyətdə qalan Koroğlunun gərgin vəziyyətində yenə durnalar görünür. Sanki assosiativ şəkildə adama elə gəlir ki, bu durnalar elə həmin durnalardır, qatarlanıb dastan düşüncəsində min illərdir yol gedir: “Koroğluya yalqızlıq əl verdi. Çənlibel, dəlilər yadına düşdü. Bu ağır vaxtda onları yanında görmək istəyirdi. Bir də baxdı ki, budur, Çənlibel tərəfdən bir dəstə durna gəlir” ( 5, 87).

Burada durna vətəndən gəlir. “Ağ Aşıq və Süsənbər”də: “Baxdı ki, budur, bir dəstə durna səf çəkib vətənə sarı” (4, 333). Burada durna vətənə gedir. “Əsli və Kərəm”də “Onlar getməkdə olsunlar, bu tərəfdən göydə bir qatar durna göründü” (3, 112). Burada isə nə vətəndən gəlmir, nə vətənə getmir, eləcə göydə görünür. Çünki Kərəm vətənə getmir, yar vətəndə deyil, vətənsizdir. Kərəm də vətəndə deyil. Ancaq yarın yeri də məlum deyil, məkansızdır. Kərəm eləcə salam göndərir, özü tapa bilmədiyinə durnanın yetişəcəyinə inanır. Göründüyü kimi, bütün hal-

larda durna məkanı işarələyir. Bu məkan həmişə qürbət olur. Bu duyğu həmişə həsrət üstündə köklənir. Eyni zamanda durna özü həmişə minnətçi düşülən qanadlı çapar olur. Durna ona üz tutanı öz ovqatından qurtarmır. Onun ovqatını başqasına götürməyə ismarış simsarı olur. Durna iki tərəf arasında üçüncü tərəfi-mediatoru təmsil edir. Tamamlayıcılıq durnadan keçir. Çünki bir tərəf digər tərəfə rabitədən təcrid olunur, yarım qalır. Bütövləşmək üçün maneə, dairə cızmaq üçün çatışmamazlıq yaranır. Bu çatışmamazlığı aradan qaldırmaq üçün üçüncü tərəfə ehtiyac ortaya çıxır. Məhz yerdə olan iki tərəfin bütövləşə bilməsinə göydə olan üçüncü tərəf yardım etməlidir. Durna bu rabitəni yaradan üçüncü tərəfdir. Bu üçlüyün əski izi üçlü türk dünya modelidir.

Qeyd etdiyimiz kimi "Durna motivi" yazılı ədəbiyyatdan da keçir. Durna motivi ya el şairliyini, ya da xalq ədəbiyyatının təsiri altında olan yazılı ədəbiyyatı işarələyir. Bu şeirlərdə də durnaya üz tutan şəxs ya qürbət ovqatını, ya da həsrət göynərtilərini dilə gətirir. Molla Vəli Vidadidə:

Bir baş çəkin dərmandənin halinə,
Ərzə yazsın, qələm alsın əlinə,
Vidadi xəstədən Bağdad elinə,
Siz yetirin bir nişana, durnalar! ( 6, 7)

Molla Pənah Vaqifdə:
Xeyli vaxtdır yarın fərağındayam,
Pərvanə tək hüsnün çırağındayam.
Bir ala gözlünün sorağındayam,
Görünürmü, görün, gözə, durnalar! ( 1, 69).

Qasım bəy Zakirdə:
Diyari-qürbətdə müddətdi varam,
Gecə-gündüz canan deyib ağlaram.
Mən də sizin kimi qəribi-zaram,
Eyləməyin məndən haşa, durnalar! ( 7, 160).

XX-XXI əsrin görkəmli sənətkarlarından biri olan B.Vahabzadə də durnalara şeir həsr etmişdir:

Şahindən, şonqardan qorunun, ancaq,
Bir xətər gəlməsin qoy dəstənizə.
Kim deyə bilərdi qismət olacaq,
Bu qərib ölkədə görüşmək bizə ( 8, 127).

Görkəmli ədəbiyyatşünas alim, böyük tədqiqatçı Firidun bəy Köçərli M.V.Vidadinin, M.P.Vaqifin və Q.B.Zakirin "Durnalar" şeirini tutuşdurmuş, şeirin yaranma səbəbi kimi şair ovqatını əsas götürmüş, xüsusilə Zakirin "Durnalar" şeirini məhz Bakıda sürgün həbsində olarkən yazdığını güman etmişdir: "Çox ehtimal var ki, bu şeirləri Zakir Badkubədə məhbusvar sakin olanda yazıbdır" (9, 211, 12, 13). Ağ Aşığın da "Durnalar" şeiri məhz Sərdar Hüseynə məhbus olduğu zamanda yaranır.

Yuxarıda göstərilən bu üç şeir nümunəsinə diqqət edərkən aydın görünür ki, durnalarla bağlı qoşqular bir motiv kimi Vidadi, Vaqif, Zakir, eləcə də B.Vahabzadə də folklor spesifikasına uyğun şəkildə struktur komponentlərini eyniliklə saxlamışdır. Biz B.Vahabzadə şeirində də aydın görürük ki, durnalara həsr olunan bu nəzm nümunəsi məhz qeyd etdiyimiz kimi qürbət ölkədə - İraqın Bəsrə şəhərində qələmə alınmışdır. Elə şeirin qürbətdə yazılması verdiyimiz nümunədə də aşkar nəzərə çarpır.

Dastanlarda durna epik düşüncənin motivi kimi iştirak edirsə, yazılı ədəbiyyatda konkret şair yaradıcıllığının sərbəst mövzusu kimi çıxış edir. Lakin buna baxmayaraq bu motiv yenə də öz ilkin substratlığını (dəyişməzliyini) qoruyub saxlayır. Məhz qeyd etdiyimiz kimi M.P.Vaqifdə folklor motivinin normativinə ciddi şəkildə əməl olunması da bundan xəbər verir. Eyni zamanda unutmaq lazım deyil ki, M.P.Vaqif "Durnalar" qoşmasını Qazaxda deyil, Şuşada yazmaqla bu motivin məkan tələblərinə də əməl etməklə xalq mədəniyyətinə, folklora bağlılığını bir daha təsdiq etmişdir. Bundan əlavə yazılı ədəbiyyatda folklor spesifikasının daşınmasında Molla Pənah Vaqifin mü-

hüm rolu olmuş (M.V.Vidadi istisna olmaqla), özündən sonrakı sənətkarlara nümunə göstərməklə bu motivin folklor motivi kimi yazılı ədəbiyyatda saxlanmasını da təmin etmişdir. Əks halda şeir ovqatdan meydana gəldiyi üçün vətəndə də, qürbətdə də yazıla bilərdi. Ancaq xalq ədəbiyyatına bağlı olan Vaqif folklor spesifikasının dəyişməzliyini əsas götürmüşdür. Yəni xalq ədəbiyyatına bağlı olan şair folklor motivinin struktur komponentlərini nəzərə almış, bu motivi xalq ədəbiyyatına uyğun şəkildə məhz qürbətdə - Qazaxda deyil, Şuşada qələmə almışdır. Eyni zamanda xəlqi şair Şuşada Qazaxa bağlılığını, doğulub böyüdüyü yurda həsrətini də mətnaltı laylarda düşüncə materialı kimi yerləşdirmiş, bunun xalq düşüncəsinə uyğunluğunu təmin etmiş, mövzu səviyyəsində isə təbiidir ki, lirik qoşmasını sevgili həsrəti üzərində qurmuşdur. Beləliklə konkret bir mətn səviyyəsində şairin xalq ədəbiyyatına bağlılığını öyrənmək olur. Təsəvvür edin ki, M.P.Vaqif yaradıcılığı bunun üçün başdan-başa əsas verir. Bu baxımdan M.P.Vaqif bu və digər kontekstdən diqqətlə araşdırılıb öyrənilməli, şairin yaradıcılığının folklora qanunauyğun şəkildə bağlılığı geniş səviyyədə tədqiq olunmalıdır.

## QAYNAQLAR


1. Vaqif M.P. Əsərləri (şeirlər), Bakı: Yazıçı, 1988.
2. Vəliyev K.Elin yaddaşı, dilin yaddaşı. Bakı: Gənclik, 1988.
3. Azərbaycan məhəbbət dastanları / tərtib edənlər: M.H.Təhmasib, T.Fərzəliyev, İ.Abbasov, N.Seyidov. Bakı: Elm, 1979
4. Göyçə dastanları və aşıq rəvayətləri. Toplayanı və tərtib edəni H.İsmayılov. Bakı: Səda, 2001.
5. Koroğlu dastanı. Çapa hazırlayan M.H.Təhmasib. Bakı: Gənclik, 1982.
6. Vidadi M.V. Əsərləri. Bakı: Azərnəşr, 1977.
7. Zakir Q.B. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1984.
8. Vahabzadə B. Seçilmiş əsərləri, II cilddə, I cild. Bakı, Yazıçı, 1983.
9. Köçərli F.B. Azərbaycan ədəbiyyatı, II cilddə, I c., Bakı: Elm, 1978.

# MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA ETNOQRAFİK DETALLAR

**Aynur Aydın qızı İbrahimova**
*filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*ibrahimova_a@mail.ru*

**Özət**

Molla Pənah Vaqif yaradıcılığında Azərbaycanın təbiəti, xalq məişəti və adətlərinin realmənzərəsi, gözəllərinin təbii-mənəvi aləmi tam milli xüsusiyyətləri, təntənəsi və özünəməxsusluğu ilə seçilən Novruza hazırlıqzəngin koloriti ilə təsvir olunur. Sənətkarın yaradıcılığında milliliyin və xəlqiliyin təsdiqi etnoqrafik elementlərin çoxluğunda öz əksini tapır. Molla Pənah Vaqif yaradıcılığında XVIII əsrin Azərbaycan gözəlləri bütün etnoqrafik detalları ilə öz geyimi, canlı boyaları, real cizgiləri ilə təsvir olunur, mərasim folkloruna müracət edərək, ritualın yaşamasına da xidmət edilir. Vaqif yaradıcılığında qadın obrazlarının vasitəçiliyi ilə gender münasibətləri açılır, aydınlaşır. Bərabər partnyor münasibətləri, harmonik münasibətlərinin inkişafı üçün müsbət şəraitin yaradılması yolları müəyyən edilir.

**Açar sözlər:** Vaqif, xalq məişəti, etnoqrafik detal, folkor.

**Айнур Ибрагимова**

**Этнографические детали в творчесте Молла Панах Вагифа**

**Резюме**

В творчестве Молла Панах Вагифа богатым колоритом описывается реальная картина природы, народного быта и традиций, природно-духовный мир красавиц Азербайджана, а также, подготовка к Новрузу, отличавшаяся своими национальными особенностями, торжеством и своеобразием. На-

личие национальности и народности в творчестве мастера слова, находит свое отражение в обилии этнографических элементов. В творчестве Молла Панах Вагифа красавицы Азербайджана XVIII века, описываются со всеми этнографическими деталями, живой окраской, реальными очертаниями своей одежды, обращаясь к обрядовому фольклору, также обеспечивается существование ритуала. В творчестве Вагифа, при посредничестве женских образов раскрываются и проясняются гендерные отношения. Определяются способы создания благоприятного условия для развития равного партнерства и гармоничных отношений.

**Ключевые слова:** Вагиф, народный быт, этнографическая деталь, фольклор.

**Aynur İbrahimova**

**The ethnographic details in Molla Panah Vagif's activity**

**Summary**

In Molla Panah Vagif's activity the Azerbaijan nature, the real sceenery of folk life and traditions, the natural-spiritual world of beauties, national characters, peculiarities, the preparation to Novruz holiday are described with the rich colouring. In the master's activity the affirmation of nationalism and folk character find its reflection in ethnographic elements. In Molla Panah Vagif's activity the 18th of the Azerbaijan beauties are described with all ethnographic details, with the clothes, the alive colours, the real features, addressing the ceremony folklore it services the formation of the ritual. The gender relations are investigated with the help of the woman characters in Vagif's activity. The equal partner relations, the formation of the positive condition in order to develop the harmonic relations are determined.

**Key words:** Vagif, folk life, ethnograpic detail, folklore

Vaqif öz ədəbi və siyasi fəaliyyəti ilə xalqa bağlı mütərəqqi şəxsiyyət, qüdrətli sənətkardır. Onun yaradıcılığı ilə Azərbaycan şeiri tarixində yeni bir dövr başlayır.

Şairin bəhrələndiyi janrlardan qoşma və təcnis xalq ədəbiyyatının poetik şəkilləridir. O, heca vəznində yazdığı şeirlərində xalq dilinin zəngin xəzinəsindən sənətkarlıqla istifadə edərək, onu ədəbi-bədii dil səviyyəsinə qaldırmışdır.

Firudin bəy Köçərli Vaqifi haqlı olaraq milli şair adlandırırdı: "Onun şeir və qəzəliyyatı bizim Azərbaycan türklərinə ziyadə xoş gəlir və hər nə onun qələmindən şairlərimizdən onun kimi sadə və açıq lisanda və ana dilimizin şivəsində şeir və qəzəl yazan az olub".

M.P.Vaqif klassik poeziyanın ənənəvi janrlarını yeni janrla, qoşma ilə məharətlə əvəz edir, deyim tərzini və ifadə üsulunu təzələyir, bədii metodu dəyişir, mahiyyəti mücərrədlikdən xilas edir, ona yeni, real məzmun verir. Bütün bunlar isə millilik, xəlqilik, realizm və sadəlik elementlərinin vəhdəti və təzahürü hesabına baş verir. Deyilən fikirlər Vaqif yaradıcılığında konkret nümunələrlə öz təsdiqini tapır. Molla Pənah Vaqif yaradıcılığı nəinki Azərbaycan poeziyası tarixində eyni zamanda Dünya poeziyası tarixində də çox mühüm və yeni mərhələdir. Sənətkarın bədii təfəkkürünün və qələminin qüdrəti məhəbbətin, gözəlin və insan gözəlliyinin tərənnümü kimi ənənəvi mövzunun istər forma-şəkil əlamətlərini, istərsə də mahiyyət-məzmun tərəfini köklü şəkildə dəyişə bilməsindədir.

Çağdaş dövrümüzdə prioritet sayilan, Qərbi Avropadan gələn genderalogiyanın elmi istiqamət kimi xüsusi əhəmiyyətindən tez-tez danışırıq.

Vaqif poeziyasında qadın obrazlarının zənginliyi onun yaradıcılığına qender tədqiqatının obyekti kimi baxmağa imkan verir və sübut edir ki, o qadın problemlərini işıqlandırmaqla qender mövzusunun açılmasında böyük bədii ümumiləşdirməyə nail olub.

Gender özü qadın və kişinin cəmiyyətdəki sosial rolunu və vəziyyətini təyin edən sosial model olaraq əslində Vaqif poeziyasının özülündədir.

Cəmiyyətdə kişi və ya qadın olmaq yalnız bu və ya digər anatomik xüsusiyyətlərə sahib olmaq deyil, həm də cəmiyyət tərəfindən müəyyən edilmiş bu və ya digər gender rolunu icra etmək deməkdir.

Bütün bu fikirləri nəzərə alıb, demək olar ki, gender qadın və kişilərin sosial - mədəni mühitdə qarşılıqlı münasibətlərini öyrənirsə, elə Vaqif yaradıcılığı da bizə genderi öyrədir.

M.P.Vaqif bütün yaradıcılığı boyu cinslərarası münasibətlərə müqəddəs dəyər qazandır.

Vaqifin qoşmalarında gözəl obrazına təriqət meylli poeziyadan və çağdaşlarından fərqli yanaşması ,cinsi mənsubiyyətdə şərtiliyi aradan götürürməsi çox maraqlıdır.

Bulud zülflü, ay qabaqlı gözəlin,
Duruban başına dolanmaq gərək.
Bir evdə ki, belə gözəl olmaya,
O ev bərbad olub talanmaq gərək (4, 49).

Kamran Əliyev "Şairin şeirlərində gözəlin qaşının və gözünün, dilinin və dodağının, boybuxununun, zülfünün və kəkilinin dönə-dönə vəsf olunması gözəllik və məhəbbəti qarşılıqlı vəhdətdə duymağın nəticəsidir.Öz sevgilisinə sədaqət, onun həsrəti ilə yanmaq – Vaqif şeirinin lirik qəhrəmanının folkorun Kərəm kimi qəhrəmanları ilə bir sırada dayanmasını təsdiqləyir. Şeyx Sənan və Xızır kimi obrazların Vaqif yaradıcılığında özünə yer tapması da həmin daxili əlaqənin məntiqi davamıdır" qənaətinə gəlir.

O, gözəli orta əsrlərin islami tələblərindən gələn, yaşmaqsız, niqabsız, görmək istəyir, Vaqif gözəli mücərrədlikdən qurtarır, abstrakt məkanı Yer üzündəki konkret məkanla əvəz edir. Beləliklə, məkani mənsubiyyətdə də milliləşmə baş verir. Artıq Qazağın, Qarabağın, Kür qırağının, Tiflisin gözəlləri təsvir obyektindədir .

“Bir bölük yaşılbaş sonalar kimi,
Yığılıb gəlibdir Qazağa qızlar…” (4, 97)

“M.P.Vaqif dünyaya sufiyanə baxan, gözəli Allahın yerdəki təcəssümü sayan, ilahi nişanəli gözəldən zövqü səfa yox, cövrü cəfa uman, vüsal sevincini yox, hicran əzabını başlıca mövzuya çevirən füzulilərin yolu ilə getmək istəmir. Real həyatda rastlaşdığı gözəllərin vəslini, vüsaldan doğan sevinc və nəşəni başlıca mövzuya çevirməklə, həmin mövzunu təmiz ana dilində kifayət qədər bədii bir biçimdə əks etdirməklə M.P.Vaqif yeni yol tutur” (3,3)

Vaqif, qoşmalarının mühüm hissəsini gözəllərin və gözəlliyin təsvirinə həsr edir. O, dövrə alışıq olmayan sevgili təsviri Vaqif yaradıcılığında özünəməxsusdur.

Zülflərin sünbüldür, yanağın lalə,
Baxışı tə’n edir vəhşi qəzalə,
Gözləri məstanə, ağzı piyalə,
Gərdəni minadır mənim sevdiyim.
Boyu yaraşıqlı sərvi xuraman,
Əndamıdır ağ gül, sinəsi meydan
Kələğayı gülgəz, libası əlvan,
Bir güli-rə’nadır mənim sevdiyim (4, 8).

Vaqif təsviri yeni qender oriyentasiyalarını özündə cəmləyən və” qadın kişi dünyası” stereotipinin dağılmasına səbəb olan aktiv amildir.

Vaqif yaradıcılığında qadın obrazlarının vasitəçiliyi ilə gender münasibətləri açılır, aydınlaşır. Bərabər partnyor münasibətləri, harmonik münasibətlərinin inkişafı üçün müsbət şəraitin yaradılması yolları müəyyən edilir.

Molla Pənah Vaqif şeirlərini oxuyarkən XVIII əsrin Azərbaycan gözəlləri bütün etnoqrafik detalları ilə öz geyimi, canlı boyaları, real cizgiləri ilə göz qabağına gəlir:

“ Zər haşiyə al nimtənə üstündə,
Xallar üz yanında, çənə üstündə,

Buxağın altında, sinə üstündə
Zülfün burulması, hayıf ki, yoxdur" (4,114).

Sənətkarın yaradıcılığında milliliyin və xəlqiliyin təsdiqi etnoqrafik elementlərin çoxluğunda öz əksini tapır.

Şair qız-qadınlarınelat xüsusiyyətlərini böyük zövq və sevgi ilə təqdim etməklə xüsusi məharət nümayiş etdirir:

"Bu diyarda kəlağay yox, katan yox,
Sinəm buta, müjgan oxun atan yox,
Sərxoş durub bir nəzakət satan yox
Heç sövdagar fayda bulmaz bu yerdə."

Bəzək bilməz bu diyarın göyçəyi,
Tanımaz al carqat, zərrin ləçəyi,
Ağ buxaq altından həlqə birçəyi
Tər məmə üstündə salmaz bu yerdə (4,23).

Təsvirdəki sadəlik, təbiilik, dilin aydınlığı, duruluğu milliliyin ilk göstəricisidir. Kəlağay, katan, carqat, ləçək kimi geyimlər sırf milli-etnoqrafik ovqatdan xəbər verir. "*Zərrin ləçək*", "*həlqə birçək*" ifadələri şeirdə təbiiliyin xəlqi görünən elementləri kimi diqqəti cəlb edir.Aşiqə buta verilməsi də folklor yaddaşından gələn əlamətdir.

Vaqif yaradıcılığında gözəl, başdan-ayağa, libası, geyim əşyaları ilə təsvir olunur. Sənətkar poetik obrazı carğat, güləbətin köynək, kətan, kəlağay, qəsabə, tirmə şal, diba, nimtənə, cıqqa, tomağa, yaylıq kimi milli ornamentlərlə bəzəyir.

Ucu əşrəfili, bulut kimi sac,
Dal gərdəndə hər hörüyü bir qulac,
Kəlağayı əlvan, qəsabə qıyğac,
Altından cunası, hayıf ki yoxdur!... (4, 114)

Maraqlıdır ki, Vaqif orta əsr qadınını tam mililəşdirərək, kəlağayısı, qəsabəsi, cunası, tomağası, hətta yaşmağı ilə göz önünə gətirir.

Laçın təki başda ala tomağa,
Yaşmağı tutmaya dişə, dodağa,
Cəllad kimi durub qabaq-qabağa
Baxıb can almağı, hayıf ki, yoxdur (4,114)

Vaqif gözəlini orta əsrlərin islami tələblərindən fərqli olaraq pərdəsiz, niqabsız, yəni təbii görkəmi ilə görmək istəyir.

Mən sənə olmuşam didar aşiqi,
Sən üzünü bürüməyin nədəndir?
Şirin sözlərinin çox müştaqiyəm,
Danışmayıb kiriməyin nədəndir?

Əlin dalda tutub, başın yanında,
Hərgiz tel görünməz qaşın yanında.
Mənim kimi bir sirdaşın yanında
Qayım-qayım sarınmağın nədəndir (4,106)

"Düyün oldu bütün xublar yığıldı "qoşmasında Vaqif gəlinin boyunu sevərək, mərasim folkloruna xalq oyunlarına müraciət edərək , ritualın yaşamasına da xidmət edir.

"Bir qədəm bas ki, toy sənin toyundur,
Toylar yaraşığı sənin boyundur,
Mollalar məskəni səri-kuyundur,
Onu görən dönər Kəbədən, gəlin!

Gəl oyna, əlinə kələğay dola,
Buyur, şabaş versin, Vaqif tək qula!
Mat qalıb desinlər: kimindir ola
Kəklik kimi səkib, bu süzən gəlin!" (4,80)

Vaqifin "Bayram oldu, heç bilmirəm neyləyim", və " Yenə bayram oldu xublar evində" şeirlərində Azərbaycanın təbiəti, xalq məişəti və adətlərinin real mənzərəsi, gözəllərinin təbii-mənəvi aləmi tam milli xüsusiyyətləri, təntənəsi və özünəməxsusluğu ilə seçilən Novruza hazırlıq zəngin koloriti ilə təsvir olunmuşdur.

Bayram oldu, heç bilmirəm neyləyim,
Bizim evdə dolu çuval da yoxdur
Dügiylə yağ hamı çoxdan tükənmiş,
Ət heç ələ düşməz, motal da yoxdur (4,113).

Maraqlısı odur ki, Vaqif yaradıcılığı öz növbəsində şifahi xalq ədəbiyyatına da qüvvətli təsir göstərir. Həmid Araslı yazırdı ki, "Onun əsərləri hələ XVIII əsrdən başlayaraq aşıqlar və xanəndələr tərəfindən məclislərdə, yığıncaqlarda oxuna-oxuna davam etməkdədir. Aşıqlar, xalq şairləri Vaqif irsini məhəbbətlə sevib onun yaradıcılığını yüksək qiymətləndirmişlər.

XIX və XX əsr aşıqlarının çoxu Vaqifin mövzularını təkrar etmiş, onun kimi qoşmalar yaratmağa çalışmış, onun qafiyələrini, rədiflərini və bədii ifadələrini dönə-dönə işlətmişlər. Xüsusən Aşıq Ələsgərdən sonra məşhur ustad aşıq kimi tanınan Bozalqanlı Aşıq Hüseynin yaradıcılığında Vaqifin qüvvətli təsiri hiss edilir. Onun qoşmaları içərisində Vaqifin misralarına çox rast gəlmək olur" (1. 9).

Vaqif xalqdan gələn nə varsa onu qəbul edərək , yaradıcılığını zənginləşdirir. Ana dilli poeziyamızın inkişafında böyük xidmətləri olan Vaqif milli folklordan gələn mövzulara, xalq yaradıcılığına, el sözünə, folklor qaynaqlarınatoxunaraq xalqın təfəkküründə əbədiləşirərək, özündən sonrakı şifahi xalq ədəbiyyatına qüvvətli təsir edir.

Şair bütün yaradıcılığı boyu folklora, el sözünə müraciət edir, xalqdan bəhrələnir və bu yolla yaradıcılığını xalqın milli yaddaşında el arasında məşhur olan "hər oxuyan Molla Pənah olmaz" məsəli ilə əbədi yaşada bilir.

## QAYNAQLAR

1. Araslı H. Molla Pənah Vaqif . Əsərləri Bakı , Azərnəşr, 1968
2. Əliyev K. Molla Pənah Vaqif realizmi və folklor, Bakı, Kaspi qəzeti, 12.06.2017 https://artkaspi.az/az/molla-penah-vaqif-realizmi-ve-folklor

3. Kazımoğlu M. M.P.Vaqif : Aşıq şeiri və tənha şairin zövq-səfası, Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, 41 ci kitab, Bakı, Elm və təhsil, 2012
4. Vaqif M.P. Əsərləri. Bakı , Şərq – Qərb , 2004
5. Vaqif M.P. Əsərləri. Tərtib edəni A.Dadaşzadə. Bakı, Yazıçı, 1988
6. Cəfərov N. Füzulidən Vaqifə qədər. – Seçilmiş əsərləri. 5 clddə, II cild. Bakı, Elm, 2007
7. Əfəndiyev P. Azərbaycan folklorşünaslığının problemləri. Bakı, Elm və təhsil, 2014

# MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA VƏ FOLKLORDA PƏRİ OBRAZI

**Aytac Abbasova**
*filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*folklorgirl@mail.ru*

**Özət**

Araşdırmada Molla Pənah Vaqif yaradıcılığında “mələk”, “pəri” obrazlarının çoxfunksiyalı işlənmə məqamları göstəriləcəkdir. Bu obrazların müəllifin yaradıcılığında çoxfunksiyalı işlənmə məqamlarından bəhs ediləcəkdir. Birincisi, “mələk, pəri, huri” obrazları bədii-ifadə vasitəsi kimi məcazlıq yaratmaq məqsədi ilə işlədilmişdir. İknincisi isə həmin obrazlar mifoloji mətnlərdə olduğu kimi məxsus olduqları mifik-semantik funksiyanı qoruyub saxlamaqla şairin folklordan bəhrələnməsi açıq-aydın ifadə etmişdir

**Açar sözlər:** Molla Pənah Vaqif, mifoloj obraz, mələk, pəri, huri, qadın

**Айтадж Аббасова**

**Образ феи в творчестве Молла Панах Вагифа и фольклоре**

**Резюме**

В статье раскрывается многофункциональное употребление образов «ангел» и «фея» в творчестве Молла Панах Вагифа. Анализируется многофункциональное употребление этих образов в творчестве автора. Во первых, образы «ангел, фея, гурия» употреблены как средства образа художественного выражения, с целью создания метафоры. Во вторых, эти образы также как и в мифологических текстах, сохраняя свои мифические и семантические функции откровенно выражают обогащение поэта за счет фольклора.

**Ключевые слова:** Молла Панах Вагиф, мифологический образ, ангел, фея, гурий, женщина

**Aytaj Abbasova**

**Pari character in Molla Panah Vagif poetry and in folklore**

**Summary**

During the research period you will be acquainted with multi-functional usage places of "melek" and "pari" (both words in the meaning of angel) characters in Molla Panah Vagif poetry. You will find multi-functional usage stages of these characters in the poetry of the mentioned poet. First of all, "melek, pari and houri" characters have been used as the poetic expression for conveying the metaphor. Secondary, those characters, also as the way of preserving the mythic-semantic function in the mythological texts, and it clearly hints to the rich folklore background of the poet.

**Key words:** Molla Panah Vagif, mythological character, melek, pari, houri, woman

Folklor və yazılı ədəbiyyatın bir-biri ilə əlaqəsini klassik dövrdən müasir dövrə qədər yazıb-yaradan yazıçılarımızın əsərlərində açıq-aydın görə bilirik. Xalq ədəbiyyatı, onun xüsusiyyətləri, bədii dil, bədii nəzəri fikirlərdən istifadə etməklə yazıçı həm əsərini, həm də folkloru yaşadır. Belə yazıçılardan biri də Molla Pənah Vaqifdir. Orta əsrlər Azərbaycan ədəbiyyatına realist, şifahi xalq yaradıcılığına yaxın şeirlərlə gələn Molla Pənah Vaqif öz dövrünə, həmçinin gələcək dövr Azərbaycan poeziyasının inkişafina böyük təsir göstərmişdir. M.P.Vaqif yaradıcılığının araşdırarkən əsərlərinin bütöv bir qismini Azərbaycan gözəllərinin təsvirinə həsr edildiyini görürük. Şair bir çox şeirlərində qadının gözlərini, qaşlarını, saçlarını, yanaqlarını, əllərini, ayaqlarını, qədd-qamətini, can alan baxışlarını təsvir edir. Qadının gözəllik əlamətlərini sadəcə sadalayan şeirlər obrazları tam tə-

səvvür etmək imkanı yaradır. Qadın gözəlliyini təsvir edən şair folklordan geniş və yaradıcı şəkildə bəhrələmişdir. Müəllifin daha çox qadın obrazlarında işlətdiyi "mələk", "pəri", "huri" bənzətmələri mifoloji düşüncədən gələn mifik obrazlardır. Şair bəzən həmin obrazların mifik qatına toxunmur, yalnız obrazın adını çəkməklə şeirin poetik təsir gücünü artır, gözəlləri mələyə, pəriyə bənzədərək məcazilik yaradır. Bəzi şeirlərdə isə "mələk", "pəri", "huri" obrazına məxsus xüsusiyyətləri vurğulamaqla onun mifoloji qaynağını göstərir.

Ya mələksən, ya hurisən, ya pəri,
İnsandan sən təki can görməmişəm (8, 63).

Belə ki, bir çox məqamlarda hətta üç obarzı da eyni misrada işlədən şair həm məcazlıq yaratmaqla, həm də mifoloji personajdan yerli-yerində istifadə etməklə gözəlini oxucuya daha dəqiq və əyani çatdırmışdır.

Molla Pənah Vaqifin bütöv yaradıcılığında – qoşma, qəzəl, təcnis, müxəmməs və müstəzadlarının mütləq birində "mələk, pəri, huri" obrazlarına rast gələ bilərik. Hətta müəllifin "Pəri" rədifli qoşması da dillər əzbəri olmuşdur.

Boyun surahidi, bədənin büllür,
Gərdənin çəkilmiş minadan, Pəri!
Sən ha bir sonasan, cüda düşübsən.
Bir bölük yaşılbaş sonadan, Pəri! (8, 41)

Türk xalqlarının mifoloji düşüncəsində "mələk, pəri, huri" kimi varlıqların məkanı kimi Qaf dağı(4, 305) olaraq göstərilsə də, dini mətnlərdə, inanclar da isə göy-yerüzünün yuxarı təbəqəsi göstərilir. Şair də əsasən dini-mifoloji aspektdən yanaşaraq göydə yaşayan mələklərin yerə enməsini vurğulayıb gözəlini ona bənzətmiş, şeirin poetik təsirini artırmışdır.

Mifoloji obrazlarını yaşadığı məkanı işarə edən şair yazır:

Göydən yerə enmiş mələkdir məgər,
Yoxsa insan olmaz belə surətdə (8, 24).

Yaxud da:

Göydə mələk, yerdə insan gözəli,
Sənsən, xoş xoyinə qurban olduğum (8, 65).

Digər bir şerində“mələk, pəri, huri”nin məkanı cənnət olaraq göstərilir. Dini inanclarda mələklər, eləcə də pərilər iki qismə ayrılır: xeyirxah və bədxah mələklər. Onların da hər birinin məkanı var. Xeyirxah mələklər cənnətdə, bədxah mələklər isə cəhənnəmdə yaşayır. Hər iki mələyin daşıdığı missiya da fərqlidir.Cənnətdə yaşayan mələklər insanlara kömək edən, duaları eşidən, mehriban, mərhəmətli və xeyirxahdır. Cəhənnəmdə yaşayan mələklər isə can alan, cəza verən, əzazil, zalım və bədxahdır. M.P.Vaqifin “mələyi, pərisi” isə məkanı cənnət olan insanlar içərisində tayı-bərabəri olmayan gözəldir.

Ya bədirlənmiş bir mahi-tabansan,
Ya cənnət bağında güli-xəndansan,
Ya mələksən, ya da huri qılmansan,
Ey sevdiyim, insan kim deyər sənə? (8, 29)

Yaxud:

Yoxdur bərabərin insanda sənin,
Hurisən, pərisən –behşit məskənin (8, 124).

Yaxud da:

Özün pəri, xülqü xoyun fəriştə,
Harda olsan ora dönər behiştə (8, 32).

Professor Kamran Əliyev “Molla Pənah Vaqif realizmi və folklor” adlı məqaləsində yazır ki, “M.P.Vaqifin qoşmalarının mifoloji düşüncəyə daha çox bağlayan mələk obrazıdır. Mələk M.P.Vaqif yaradıcılığında həm məcazilik yaradır, həm adı bir söz kimi tərənnümün vasitəsinə çevrilir, həm də sırf mifoloji obraz kimi görünür. Mələk obrazı ilə bağlı belə bir çoxfunksiyalılıq M.P.Vaqif realizminin mahiyyətindən irəli gəlir. “Mələk” sözünün məcazilik yaratmaq funksiyası lirik qəhrəmanla sevilən arasındakı vurğunluğu təzəhür etdirir” (5, 15).

M.P.Vaqif bəzi məqamlarda hətta gözəlinin cinsini-soyunu mələk olduğunu vurğulayır.

Bir süsən muylunun, səmən boylunun,
Fərіştə xoylunun, mələk soylunun,
Bir cənnət kuylunun, tuba boylunun,
Bir şümşad qollunun qurbanıyam mən (8, 75).

Şairin gözəli adı insandan fərqlidir. O cənnət sakini, mələk cinsindən olan bir gözəldir. Həmin şeirin davamında digər bir məqam diqqəti çəkir. Adətən pəri obrazını biz mifologiyada ən çox rastladığımız "su pəriləri" adında su sitixyası ilə bağlı mifoloji varlıqlar olaraq daha çox rast gəlirik. Xalq yaradıcılığına yaxşı bələd olan Molla Pənah Vaqif pərilər övladından-nəslindən olan gözəlinin həsrətindən bağrı suya dönür və beləliklə, gözəlinə qovuşur. Çünki müəllifin pəri övladından olan gözəli suda yaşayan pəri cinsindəndir.

Həsrətindən bağrım dönər sulara,
Pərilər evladı derlər bulara(8, 70).

"Pəri, mələk, huri" obrazlarına biz şifahi xalq ədəbiyyatının daha çox nağıllar və əfsanələr, inanclar bölümündə rast gəlirik. Ən geniş qolu olan dastanlarda belə biz bu surətləri görə bilirik. "Kitabi-Dədə Qorqud" eposunda "Basatın Təpəgözü öldürdüyü boy"da Təpəgöz kimi bir divin Oğuz elinə gəlməsinin səbəbi onun pəri anasının olmasıdır (7, 266 ). Pəri övladı olan Təpəgöz pərilərə məxsus sehrli qüvvəyə malikdir. Nağıllarımızda "pəri" obrazı qəhrəmana kömək edən, onu dardan qurtaran qüvvədir. Nağıllardan "Paccahın nağılı" adlı nağılda pərilər ölkəsi və pəri qızları, pərilər padşahından söz acılır, (1, 266-274) "Yoxsul qız ilə şahzadə nağılı"nda pəri qızı (3, 334-347), "Qızıl saçlı gözəl" nağılında (2, 110), "Tapdıq" nağılı (2, 5), "Pərilər padşahının əhdi" (2, 78) müxtəlif funksiyalı pəri, mələk obrazlarına rast gəlirik. İnanclarda "su pərisi" (su əyəsi), meşə pərisi, sehrli güclərə malik mələklər (hurilər) və s. işlənir. Onu da qeyd edək ki, bu mifoloji obrazlar ümumi türk xalqlarının folklorunda geniş yayılmış obrazlardır. C.Bəydili yazır ki,"Pəri sözü fars dilində "görünməyən, gizli güc" mənası ifadə edir. Bir demonik

personaj kimi yalnız adı irandilli xalqların mifologiyasından gələn "pəri" ruhuna bir sıra türk xalqlarında nağıl obrazı şəklində təsadüf olunursa, digərlərində, məs., noqaylarda o, xalq inanışları ilə bağlı bir varlıqdır" (4, 305).

Qeyd etdiyimiz mifoloji obrazlar təkcə M.P.Vaqif yaradıcılığında deyil, eyni zamanda poeziya ilə yanaşı nəsrdə də geniş istifadə edilmişdir. Hüseyn Cavid yaradıcılığında mələk obrazına nəzər salsaq, görərik ki, bu obrazdan da müəllif mifoloji obraz kimi istifadə etmişdir.

Professor Muxtar Kazımoğlu yazır ki, "H.Cavid pyeslərindəki məhəbbət səhnələrini Mələksiz təsəvvür etmək çətindir. Həmin səhnələrdə Mələk obrazı ən azı təşbeh və metafora tərkibində tez-tez gözə (yaxud qulağa) dəyir. Müəllif qadın gözəlliyindən danışarkən "sən mələksin", "nazənin mələk", "dilbər mələk" tipli təşbeh və metaforalara təkrar-təkrar qayıdır. Bəzi pyeslərində isə müəllif məhəbbətdən bəhs edərkən Mələyi hadisələrin iştirakçısı, süjet xəttinə əsaslı təsir göstərən surət kimi qələmə alır (6).

M.P.Vaqif yaradıcılığında bədii ifadə vasitəsi kimi də gözəlini "mələyə, pəriyə, huriyə" bənzədir. Məcazlıq yaratmaqla şeirin və fikrin poetik gücünü artırmaq üçün müəllif mələyə tay etmədiyi gözəlini onun gözəlliyindən üstün bilir.

Mələkdən də səni billəm ziyada,
Tay etməm heç insanı mən sənə (8, 28).

Yaxud:

Səni xəlq eylədi gül dəstəsi tək,
Pəridən əlasan, mələkdən göyçək (8, 38).

"Mələksən", "pərisən" "huri-qılmansan" deyən şair öz real sevgilisini qeyri-real gözələ bənzədir. Başqa bir nümunədə isə "dönmüşəm mələkdən, tamam pəridən" (8, 31) deyərək müəllif real sevgilisini seçir.Sevdiyi gözəli gördükdən sonra mələkdən, pəridən üz döndərir.

Bədii ifadə və təsvir vasitəsi kimi biz bəzən şairin öz gözəlini mələk simalı, pəri simalı, huri simalı təqdim etdiyini və

onun simasını bu mifoloji obrazların məxsus olduğu gözəlliklərlə müqayisə etdiyini görürük.

Ey huri liqalım, mələk simalım (8, 43).
Bir mələk şəkilli, hüri simalı (8, 138)
Bir xoş qılıqlı, mələk misilli (8, 139).
Ey pərisima, sənin didarının müştağıyam (8, 183).
Bir pərisima gərəkdir dilbəri – şalvarduz (8, 178).
Huri nədir, qılman nədir, mələk nə,
Hamıdan əladır mənim sevdiyim (8, 68).
Sevdiyimdir huridən əla, mələklərdən gözəl (8, 45).

Molla Pənah Vaqif yaradıcılığında "mələk", "pəri" obrazlarının çoxfunksiyalı işlənmişdir. Bu obrazlar daha çox müəllifin yaradıcılığında bədii-ifadə vasitəsi kimi məcazlıq yaratmaq məqsədi ilə işlənib, eyni zamanda mifoloji mətnlərdə olduğu kimi məxsus olduqları mifik-semantik funksiyanlarını da qoruyub saxlamışdır.

## QAYNAQLAR:


1. Azərbaycan folkloru külliyyatı. I cild. Nağıllar (I kitab). Bakı: Səda, 2006, 400 s.
2. Azərbaycan folkloru külliyyatı. II cild. Nağıllar (II kitab). Bakı: Səda, 2006, 400 s.
3. Azərbaycan folkloru külliyyatı. III cild. Nağıllar (III kitab). Bakı: Səda, 2006, 400 s.
4. Bəydili C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 417 s.
5. Əliyev K. Molla Pənah Vaqif relaizmi və folklor. Kaspi qəzeti. 10 iyun 2017-ci il, s.15
6. Kazımoğlu M**.** "Hüseyn Cavid və mifoloji düşüncə" silsiləsindən ikinci yazı. 525-ci qəzet, 5 May 2010-cu il, № 091
7. Kitabi-Dədə Qorqud. Əsli və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 2004, 376 s.
8. Vaqif M.P. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 264 s.

# MOLLA PƏNAH VAQIF YARADICILIĞINDA MƏNZUM MƏKTUBLAŞMA

**Aytən Quliyeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*

**Özət**

Ədəbiyyat tariximizin dəyərli simalarından olan Molla Pənah Vaqif yaradıcılığında mənzum məktublaşma xüsusi yer tutur. Bu məktublaşmalarda şairin dünyagörüşü, ictimai-siyasi düşüncələrinə aydınlıq gətirilir. Məqalədə M.P.Vaqifin dövrünün müxtəlif görkəmli şəxsiyyətləri, xüsusilə M.V.Vidadi ilə yazışmaları tədqiq olunur.

**Açar sözlər:** Molla PənahVaqif, mənzum məktub

**Айтен Кулиева**

**Стихотворная переписка в творчестве Молла Панах Вагифа**

**Резюме**

В творчестве одного из виднейших поэтов в истории Азербайджанской литературы М.П.Вагифарифмованная переписка занимает особе место. В этих письмах проясняются мировоззрение и общественно-политические мысли поэта.

В статье исследуются творческие связи М.П.Вагифа с видными соратниками своего времени и особенно, уделяется вынимание его переписке с М.В.Видади.

**Ключевые слова:** Молла Панах Вагиф, письмов стихотворной форме

**Ayten Guliyeva**

**The rhymed letters in MollaPanahVaqif's activities**

**Summary**

Rhymed letters take a special place in M.P.Vaqif's creativity, one of the prominent poets in the history of Azerbaijan lite-

rature. These letters elucidate the outlook and social-political thoughts of the poet.

In the article is researched of M.P.Vaqif's letters with his prominent contemporaries, especially, with M.M.Vidadi, a famous poet of that period.

**Key words:** Molla Panah Vaqif, rhymed letter

Azərbaycan ədəbiyyatı tarixində məktublaşma ənənəsi dərin köklərə malik olmuşdur. Məktublaşmanın ilk nümunələrinə şifahi xalq ədəbiyyatımızda rast gəlmək mümkündür. Bu tendensiya yazılı ədəbiyyatımızda da özünə geniş yer tapmışdır. Qədim dövrlərə aid məktubların, əsasən, mənzum formada yazılması diqqət cəlb edən məqamlardandır. Fikrimizcə, bu hal dövrün ədəbi xüsusiyyətləri, Şərq ədəbiyyatında nəzmə verilən üstünlüklə bağlıdır. Məktubun yazı üslubunda ifadə və təsvir vasitələrinin adi insanların yazışmalarından fərqli şəkildə istifadəsi şair məktublarını digər məktublardan seçir.

Xaqani Şirvaninin "Töhfətül-İraqeyn", Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan poemalarının, Məhəmməd Füzulinin "Leyli və Məcnun", Əbdülqadir Marağainin "Eşqnamə", Marağalı Əhvədi, Şah İsmayıl Xətainin "Dəhnamə" əsərlərinin süjet və kompozisiyanın qurulması, qəhrəmanların psixoloji vəziyyətlərinin, duyğularının daha aydın ifadəsi üçün onların dilindən bir-birinə göndərilən məktublardan istifadə edilmişdir. Əsərlərdə obrazların dilindən verilən bu məktublar yazıldıqları dövrün məktublaşma ənənəsinə aid məlumatları əks etdirir.

Ədəbiyyat tariximizin dəyərli simalarından olan Molla Pənah Vaqif yaradıcılığında mənzum məktublar xüsusi yer tutur. Professor F.Qaraoğlu yaşadığı dövrün böyük şairi və ictimai-siyasi xadimi olan M.P.Vaqifin poeziyası haqqında haqlı olaraq yazır: "Vaqif yüksək zövq, incə hisslər, dərin və nikbin duyğular şairidir. Diqqətəlayiq cəhət odur ki, istər yaradıcılığın, istərsə də ictimai fəaliyyətin bütün sahələrində Vaqif istedadı həmişə özü-

nü göstərib. Onun dərin mənalı sözləri və tövsiyələri insanlar arasında və bütün məmləkətində təsirli olub. Hər kəsə yaxşılıq edər, kimsəyə sıxıntı yaratmazdı. O, həyatı sevən, xalqın böyük arzu və əməllərini tərənnüm edən bir şair idi" (4). Sadalanan bu xüsusiyyətlər M.P.Vaqifin dövrünün müxtəlif görkəmli şəxsiyyətlərinə ünvanladığı məktublarda da qabarıq şəkildə əks olunmuşdur. M.P.Vaqif yaradıcılığında məktublardan istifadənin müxtəlif formaları vardır. Belə ki, böyük şairin məhəbbət, eləcə də ictimai-siyasi lirikasında məktubun əhəmiyyəti böyükdür. Digər tərəfdən isə onun bir dövlət xadimi kimi yazdığı diplomatik xarakterli məktubları tarixi önəm kəsb edir.

Qeyd etdiyimiz kimi, M.P.Vaqifin məhəbbət lirikasında məktub bir çox məqamlarda istifadə olunur. Belə ki, yarının həsrətini çəkən aşiq ona göndərəcəyi "namə"yə, "məktub"a xitab edir:

Namə, gedər olsan yarın kuyinə,
Dərdi-dilim o canana degilən!
Bülbülüyəm qönçə gülündən ayrı,
Bağrım dönüb qızıl qana, degilən! (5, 74).

Məktub görkəmli şair üçün məhəbbətini, hicranını yarına çatdıra biləcəyi əhəmiyyətli bir vasitədir:

Qurbanam Vaqifin bu xaməsinə
Ki, yazar dərdini dost naməsinə,
Yetə bilməz yarın şamaməsinə,
Olsa bu dünyanın varı şamama! (5 ,15)

Bəzən məşuqəsinə əli çatmayan, ünü yetməyən aşiq onunla ünsiyyətin yeganə yolunu badi-səba ilə yollayacağı məktubda görür:

Doldu dimağıma zülfün ənbəri,
Valeh oldu könül həvadən sənə.
Əlim yetməz – namə yazıb dərdimi
Göndərirəm badi-səbadən sənə (5, 30).

Məşuqəsinin küsüb, incidiyini görən aşiq yenə də məktuba müraciət edir, ona ünvanladığı "namə"sində xoş sözlər söyləyərək könlünü almağa çalışır:

Eşitdim küsübsən, tərpəndi dərdim,
Yalvarıb könlünü almaq istərdim,
Qulluğuna namə yazıb göndərdim,
Bizdən sənə çox-çox dualar olsun (5, 91).

M.P.Vaqifin istər heca, istərsə də əruz vəznli şeirlərində məktuba müraciət hallarına rast gəlirik. Böyük şair qəzəllərinin birində sevgilisi tərəfindən göndərilmiş məktubu oxuduğunu, çox sevindiyini söyləyir, namənin, məktubun əhəmiyyətini yüksək qiymətləndirir:

Qeyri yarı, ey gözəl, qılma bədəl sən Vaqifə,
Yadigar saxla, bu olsun etibarın kağızı (5, 158).

Şair "Əzəldən biz də bir şəkkər ləbi sevdik sevənlər tək" başlıqlı qəzəlində həsrətini çəkdiyi yar ilə görüşmək üçün "qasidin boynundakı kağız" olmaq istəyən aşiqin dili ilə yazır:

Səfərdə yar yanından gələn kağızları bir-bir,
Öpər Vaqif, basar bağrına hərdəm gülbədənlər tək (5, 163).

M.P.Vaqif yaradıcılığındakı mənzum məktublardan daha çox diqqət çəkəni şairin M.V.Vidadi ilə olan yazışmalarıdır. N.Cəfərovun qeyd etdiyi kimi, "M.P.Vaqifin təbiətən ünsiyyətcilliyi, şuxluğu, zarafata meylliliyi ona çoxlu dost qazandırmaya bilməzdi ki, həmin dostlar içərisində ən sadiqi, ən çox təmasda olduğu və hər məsələni ən səmimi bir şəkildə müzakirə edə bildiyi məşhur Molla Vəli Vidadi idi" (2,15). Mənzum məktublarda iki dost arasında ailə-məişət, görüşmək istəyi, dövrə münasibət və s. kimi mövzular əsas yer tutur. Vaqifin qəzəllərinin birində Vidadidən gələn məktubun onda oyatdığı təəssüratı görürük:

Vidadidən gələn kağız məni fərxəndəhal etdi,
Bu halı gördü qəm filhal məndən intiqal etdi...
Səvadi namənin, ey dil, məgər zülmati-heyvandır,
Ki, ruhum Xızr tək ondan bəsa kəsbi-kamal etdi (5, 148).

Bu mənzum məktublaşmalarda hər iki şairin dünyagörüşünə, düşüncə tərzinə, yaşayış mühitinə aydınlıq gətirilir. Vidadinin "Vaqif, nə tez sənəmlərdən əl çəkdin!" başlıqlı mənzum

məktubu bu cəhətdən maraq doğurur. Məktubda Vidadi qocalıqdan şikayətlənərək yazır:

Vaqif, nə tez sənəmlərdən əl çəkdin,
Birini bir inəyə qiymət eylərsən?
Hələ sonra keçiyə də enərsən,
Alsa müştəriyə minnət eylərsən (5, 37).

Məlumdur ki, Vidadi bir müddət sarayda yaşamışdır. Bu mənzum məktubdan onun Gülüstan qalasında yaşadığı və bundan çox məmnun olduğu görünür. Vidadi Vaqifə yazdığı digər bir mənzum məktubunda da həmin faktı təsdiq edir.Lakin bu hal uzun sürməmişdir. Şair tezliklə sarayın iç üzünü görmüş, M.P.Vaqifə ünvanladığı "Çərxi-fələk zülmü ziyad eyləmiş" başlıqlı mənzum məktubunda zəmanəsinin, xalqı soyub talayan xanların, sultanların vəfasızlığını göstərmişdir.

İki böyük sənətkar arasında baş verən "Deyişmə" şairlərin həyata, cəmiyyətə olan münasibətini xarakterizə edir. Bu nümunədən M.P.Vaqif ilə M.V.Vidadinin dövr, zəmanə barədə düşüncələri, dərdləri, fikir ayrılıqları aydın görünür. Akademik İsa Həbibbəyli yazır:"Bu deyişmə tam mənası ilə "Vaqif və Vidadi dastanı" adlandırıla bilər. Əsərdə süjet əlamətlərinin olması, hərbə-zorba gəlmək meyillərinin ifadəsi, mübaliğələr "Vidadi ilə müşairə"nin dastanlaşmasını şərtləndirir. Bu, Azərbaycan yazılı şeirində deyişmə janrında yazılmış ilk bədii nümunə kimi də mühüm əhəmiyyət kəsb edir. "Deyişmə" şeirləşməsi Molla Pənah Vaqifin mühitinə və müasirləri ilə münasibətlərinə də işıq salır. Vaqifin əsəri kimi təqdim olunan bu əsər şairin böyük müasiri və məslək dostu Molla Vəli Vidadini Azərbaycan cəmiyyəti miqyasına çıxarmağa da xidmət edir" (3, 10).

Məlum olduğu kimi, Azərbaycanın tarixən ağır və keşməkeşli bir dövründə Qarabağ xanlığının hökmdarı İbrahim xan Cavanşirin sarayının vəziri olan, xanlığın xarici siyasətini idarə edən Molla Pənah Vaqif müxtəlif ölkə başçıları ilə diplomatik yazışmalar aparmışdır. "Xanlığın bütün diplomatik sənədləri

Vaqifin qələmindən çıxmışdır. Arxiv araşdırmalarından məlum olur ki, Qarabağ xanlığının Vaqif tərəfindən yazılmış diplomatik məktubları o zaman Rusiya çarının sarayında böyük təsir bağışlamış, bu məktublar diplomatik ustalıq baxımından Türkiyə və İrandan alınan məktublardan üstün tutulmuşdur" (7, 179).

Qarabağ xanlığının möhkəmlənməsi, digər xanlıqlarla diplomatik əlaqələrinin yaranması, xarici siyasətdə uğur qazanması kimi mühüm məsələlərdə M.P.Vaqifin yazışmalarının böyük tarixi əhəmiyyəti olmuşdur. Həm daxildə xanlıqlar arasındakı çəkişmələr, həm də xaricdən Ağa Məhəmməd şah Qacarın İran hakimiyyətini ələ alaraq Azərbaycan torpaqlarına hücum etməsi xalqın talan olmasına, əhalinin var-yoxdan çıxmasına səbəb olurdu. Bu isə vətənpərvər şairi düşündürməyə bilməzdi. M.P.Vaqif xalqı bu ağır vəziyyətdən qurtarmağın yolunu daxili birliyin yaradılmasında görür, bu məsələdən ötrü əlindən gələni edirdi. "Ölkənin azadlığını qorumaq və müstəqil Azərbaycan yaratmaq uğrunda siyasətə Vaqif rəhbərlik edirdi. Onun təşəbbüsü ilə İbrahim xan İrəvan hakimi Məhəmməd xanı, Talış hakimi Mir Mustafanı və Gürcüstan hökmdarı ikinci İraklini birləşməyə çağırır. Bu məqsəd ilə Vaqif Tiflisə gedir, İrəvanda olur, onlarla uzun müddət məktublaşır" (1, 554).

Şair ölümünə fərman verən Ağa Məhəmməd şah Qacarın keşikçisi tərəfindən qətlə yetirilməsini M.V.Vidadiyə mənzum məktub vasitəsi ilə çatdırmışdır. Dərin ictimai-fəlsəfi məzmun daşıyan bu məktub Vaqif lirikasının şah əsərlərindən sayılmaqdadır. O, xalqın işğalçı qüvvələrin əlindən qurtulmasını dostuna böyük sevinc hissi ilə bildirməklə yanaşı həyata, zəmanəyə olan fəlsəfi münasibətini, fikirlərini ifadə edir. Bu mənzum məktub şairin ömürünün son vaxtlarında yaşadığı hadisələr nəticəsində dünyagörüşündə, hiss və duyğularında baş verən dəyişikliyi göstərir.

Bunlardan başqa, M.P.Vaqifin Şəki xanı Hüseyn xan Müştaq ilə mənzum məktublaşması məlumdur. Bəlli olduğu kimi, Hüseyn xan Müştaq həm əruz vəznli qəzəl və müxəmməslər, həm də heca vəznli qoşma və təcnislər yaratmışdır. Günlərin bi-

rində Hüseyn xan Vaqifə bir tüfəng vəd edir. Şair vədinə vaxtında əməl edə bilməyən xana mənzum bir məktub ünvanlayaraq verdiyi sözü xatırladır:

Bu Qarabağ içrə çox çıxdım tələb meydanına,
Müşkül oldu çünki yol bulmaq onun imkanına,
Eylədim bu müşkülü izhar Şirvan xanına,
Göstərib lütfü kərəm mən bəndeyi-fərmanına,
Etdi vədə ol şəhənşahi-dilavər bir tüfəng (5, 180).

Bu məktubu Hüseyn xan cavabsız qoymamış, ona ətraflı, səmimi və nəzakətli, bədii sənətkarlıq cəhətdən yüksək bir şeirlə qarşılıq vermişdir.

M.P.Vaqifin yaradıcılığını tədqiq edərkən burada mənzum məktubların oynadığı rolu aydın dərk etmək mümkün olur. Şeir vasitəsi aparılmış bu yazışmaların dili aydın və səlisdir. E.Səfərov doğru olaraq qeyd edir ki, "Böyük şairimiz Molla Pənah Vaqiflə aramızda üç əsrə yaxın bir zaman kəsiyi olsa da, lirikasındakı sadəlik, doğmalıq və xəlqilik onu bizim müasirimizə çevirə bilib. Onun şeirlərindəki şirinlik, axıcılıq, lakoniklik, milli dilimizin saflıq və təmizliyini özündə ehtiva etmək xüsusiyyətləri poeziyasının əbədiyaşarlığını təmin edib və bu gün də oxucular tərəfindən sevilə-sevilə oxunmasını şərtləndirib" (6). M.P.Vaqif yaradıcılığının bir hissəsini təşkil edən mənzum məktubların tədqiqi ədəbiyyatşünaslıq baxımından maraq doğurur.

## QAYNAQLAR

1. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I c., B., Azərbaycan SSR EA nəşriyyatı, 1960.
2. Cəfərov N. Vaqifin dövrü, həyatı və dünyagörüşü. Azərbaycan, №2, 2017.
3. Həbibbəyli İ. Molla Pənah olan şair. Ədəbiyyat məcmuəsi (Nizami adına Ədəbiyyat İnstitutunun Əsərləri), XXIX c., Bakı, "Elm və təhsil", 2017.

4. Qaraoğlu F. Tarixdə iz buraxanlar: Molla Pənah Vaqif. Bakı xəbər qəz., 2016, 3 iyun.
5. M.P. Vaqif Əsərləri. Bakı, Şərq-Qərb, 2004.
6. Səfərov E. Molla Pənah Vaqifin sənətkarlığı və gözəllik anlayışı. 525-ci qəz., 2017, 9 iyun.
7. Zamanov A. Əməl dostları. B., Yazıçı, 1979.

# MOLLA PƏNAH VAQIF YARADICILIĞINA AŞIQ ŞEİRİNİN TƏSİRİ

**Çinarə Rzayeva**
*filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Naxçıvan Bölməsi*
*cinarerzayeva@yahoo.com.tr*

**Özət**

Azərbaycanın görkəmli şairi, məşhur siyasi və ictimai xadimi Molla Pənah Vaqifin yaradıcılığı təkcə yazılı ədəbiyyatın xüsusiyyətləri ilə diqqəti çəkmir, həmçinin onun yaradıcılığında işlənən şifahi xalq ədəbiyyatının janrları da xüsusi diqqət çəkir. Şairin yaradıcılığına xüsusi məna çaları qatan bu janrlar müxtəlifliyi ilə də seçilir. Hazırcavab və dərin düşüncəyə sahib olan M.P.Vaqif elə foklor nümunələrindən də düşünərək yerli-yerində işlətmişdir. Bu da şairin şifahi xalq ədəbiyyatına olan marağının və sevgsinin nəticəsidir. Görkəmli şairin yaradıcılığında folklor nümunələrinin bir çox növlərinə rast gəlirik. Məqalədə aşıq yaradıcılığı tədqiqata cəlb edilib. Aşıq yaradıcılığı ilə bağlı təhlillər apardığımız zaman M.P.Vaqifin yaradıcılığında aşıq yaradıcılığının qoşma janrına daha çox rast gəldiyimizi deyə bilərik.

**Açar sözlər:** M.P.Vaqif, folklor, aşıq yaradıcılığı

**Чинара Рзаева**

**Вагиф творческое влияние менестреля поэзии**

**Резюме**

Творчество великого Азербайджанского поэта, известного политического и общественного деятеля Молла Панаха Вагифа, привлекает внимание не только особенностями его письменной литературы, а так же жанры устной народной литературы. Эти жанры устной народной литературы придающие особое значение творчеству поэта отличаются своей разнообразностью. М.П.Вагиф, обладающий остроумием и глубоким мышлением, всегда использовал примеры

фольклора, что добавило особое значение его творчеству. Очевидно что, он очень любил устную народную литературу. Примеры фольклора встречаются в творчестве поэта очень часто. В этой статье фольклорные примеры были привлечены к глубокому исследованию. Статья посвящена ашыкскому творчеству. Анализируя ашыкское творчество жанр гошма больше встречается в творчестве Молла Панаха Вагифа.

**Ключевые слова:** М.П.Вагиф, фольклор, ашыкское творчество

**Chinara Rzayeva**

**Influence of Ashugh Poetry on MollaPanahVagif's Creation**

**Summary**

The work of the great Azerbaijani poet, well-known political and public figure Moll Panah Vagif, attracts attention not only by the peculiarities of his written literature, but also by the genres of oral folk literature. These genres of oral folk literature attaching special importance to the poet's work differ in their diversity. M.P.Vagif, who has wit and deep thinking, always used examples of folklore, which added special significance to his work. Obviously, he was very fond of oral folk literature. Examples of folklore are found in the poet's work very often. In this article, folklore examples have been drawn to in-depth research. The article is devoted to the Ashyk creativity. Analyzing Ashyk creativity, the genre of goshma is more common in the works of Moll Panah Vagif.

**Key words:** M.P.Vagif, folklore, Ashik creativity

Şeirimizin fəxri olan Molla Pənah Vaqif (1717-1797) yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur. Belə ki, “Vaqif lirikası ilə poeziyada yeni bir səhifə açılır, poeziyamızda nikbin bir əhvali-ruhiyyə, həyati və dünyəvi gözəlliyə pərəstiş hissləri qüvvətlənir” (4). Ağlı, zəkası və dərin düşüncəsi ilə seçilən M.P.Vaqif, həmçinin “xalqımızın orta əsrlər ənənələri

ruhunda və yeni tipli, realist, şifahi xalq poeziyasına yaxın şe-irlər yazmış görkəmli şairlərindəndir" (8).

Azərbaycanın görkəmli şairi Molla Pənah Vaqifin yaradıcılığı təkcə yazılı ədəbiyyatın xüsusiyyətləri ilə diqqəti çəkmir, həmçinin onun yaradıcılığında işlənən şifahi xalq ədəbiyyatının janrları da önəmli yer tutur. Görkəmli şairin yaradıcılığına xüsusi məna çaları qatan bu janrlar müxtəlifliyi ilə də seçilir. M.P.Vaqif şifahi xalq ədəbiyyatı janrlarından yerli-yerində işlədərək, oxucunun marağına səbəb olmuşdur. Şairin əsərlərində geniş yer tutan folklor nümunələrindən biri də aşıq yaradıcılığıdır.

"XVIII əsrdən etibarən aşıq yaradıcılığı daha da genişlənir, eyni zamanda aşıq şeiri tərzində yaranan ədəbiyyat daha da qüvvətlənib, əsrin istiqamətverici ədəbi cərəyanına çevrilir" (1, s. 9). Məhz bunun nəticəsidir ki, aşıq şeir şəkilləri yazılı ədəbiyyatda özünə geniş yer etmişdir. Bir çox Azərbaycanın görkəmli yazıçı və şairlərinin əsərlərində əks olunan, qədim kökləri şifahi xalq ədəbiyyatına və xalq yaradıcılığına gedib çıxan aşıq yaradıcılığı böyük şair, məşhur siyasi və ictimai xadim Molla Pənah Vaqif yaradıcılığından da yan keçməmişdir. Belə ki, böyük şairin yaradıcılığında daha çox əks olunan folklor nümunəsi aşıq şeirinin şəkilləridir.

M.P.Vaqif yaradıcılığında insanların musiqi ruhunu oxşayan, "şifahi şəkildə yaranan, canlı xalq danışıq dilinə əsaslanan" (5) aşıq şeir şəkillərinə geniş yer ayırmışdır.

Vaqif yaradıcılığı aşıq şeirinin ən geniş yayılmış janrlarından biri olan qoşmalarla zəngindir. Ədəbiyyatşünaslıqda qeyd olunduğu kimi: "Aşıq yaradıcılığında qoşma geniş və müxtəlif məzmun çevrəsini əhatə etmiş, onun imkanlarından istifadə edən sənətkarlar özlərinin mənəvi-əxlaqi, fəlsəfi-didaktik görüşlərini, öyüd nəsihət və digər əxlaqi dəyərləri onun vasitəsilə geniş yaya bilmişlər" (5). Belə görünür ki, insanın hiss və duyğularının yüksək bədii ifadəsi qoşmada öz əksini göstərir. Şairlərin daxili aləmi, xarici görkəmi, vətən sevgisi, məhəbbət hissləri, təbiət gözəllikləri, insanı ifadə edən bəzi xarakterlər və s. vəsf olunur. Qoşma janrından həmçinin

qəhrəmanlıq və məhəbbət dastanlarında da geniş istifadə olunur. Qoşma janrına həm klassik şairlər, həm saray şairləri, həm də müasir şairlər yaradıcılıqlarında tez-tez müraciət etmişdilər. M.P.Vaqif yaradıcılığında qoşmalar məna çalarları ilə xüsusi seçilir.

Zülfləri sünbüldür, yanağı lalə,
Baxışı tən edir vəhşi qəzalə,
Gözləri məstanə, ağzı piyalə,
Gərdəni minadır mənim sevdigim.

Ayna tutar, zənəxdana gül düzər,
Hər muyinə yüz min fitnə-fel düzər,
Bəyaz gərdəninə siyah tel düzər,
Sanasan sonadır mənim sevdigim.

Boyu yaraşıqlı sərvi-xuraman,
Əndamıdır ağ gül, sinəsi meydan,
Kəlağayı gülgəz, libası əlvan,
Bir güli-rənadır mənim sevdigim (4, s. 68).

Verilən nümunələrdə bəndlər arasında qafiyə bağlılığı da qorunmuşdur. Yəni hər bənddə ilk üç misra öz aralarında qafiyələnib. Bəndlərin son misraları isə həmqafiyədir. Verilən bu parçada əsasən sevgi mövzusu əks olunmuşdur. Şair burada sevgilisini vəsf etmişdir. Demək olar ki, qoşmalarının mövzu dairəsini sevgi, məhəbbət əhatə edir. Bu da şairin sevgisinin çoxluğundan irəli gəlir. Başqa bir nümunəyə nəzər salaq:

Baxmaq ilən doymaq olmaz üzündən,
Danışanda şirin-şirin sözündən,
Onun üçün göz kəsmərəm gözündən
Müştağam, ey şəkər kanı, mən sənə.

Qaşa, gözə sürmə nə gözəl çəkdin,
Cilvələnib zülfə həm seyqəl çəkdin,
Sən nə üçün axır məndən əl çəkdin?
Eyləməzdim bu gümanı mən sənə (4, s. 28).

Verilən parçalardan aydın görünür ki, şair sevgiyə böyük dəyər vermiş, həyatını sevgi ilə yaşamışdır. Bu nümunə də qoşma janrına aid olub, 11 heca, 4 misradan ibarətdir. Bu bəndlər aaab şəklindədir. Hər bəndlərdə sevgidən danışılır. Qoşmalarından aydın görmək olur ki, şair ömrü boyu sevgi və gözəllik vurğunu olmuşdur. Onu da qeyd edək ki, şairin əsərlərində "məhəbbət mövzusunda yazılmış şeirlərdə könül iztirabları ilə birlikdə insan gözəlliyinə yüksək bir qiymət verildiyini, gözəlliyin mühüm incəliklərinin, qəlb döyüntülərinin sənət dililə məharətlə ifadə olunduğunu görürük" (1, s. 7).

Şairin qoşmalarının əsas qayəsini sevgi, məhəbbət mövzusu təşkil etsə də o, bununla kifayətlənməyib. Onun qoşmalarını təhlil etdikdə mövzu dairəsinin geniş olduğunun şahidi oluruq. Belə ki, şairin şeirlərində başqa ictimai motivlər də geniş şəkildə yer almışdır. Digər mövzularda yazdığı qoşmalara nəzər salaq:

Bivəfasan, səndən üz döndərmişəm,
Yalançıya, biiqrara baxmaram.
Səni ox kirpiyə həsrət qoyaram,
Bağrın olsa para-para, baxmaram.

Vaqifi derlərdi çox gözəl sevən,
Elə bildim sən də onun kimisən,
Bildim indi, vallah, səndəkini mən:
Bivəfasan, biiqrara baxmaram (4, s. 51).

Bu qoşmanı görkəmli şair sevgidə vəfasız olanlara həsr edib. Qoşmanı oxuduqda Vaqifin vəfasızlara verdiyi yaxşı bir cavabın şahidi oluruq. Şair burada nə qədər çox sevsə də insandakı vəfasızlığı qəbul etmədiyini ifadə edib.

Böyük şairin "Bayram oldu" qoşması da mövzu baxımından diqqət çəkir. Həmin qoşmaya nəzər yetirək:

Bayram oldu, heç bilmirəm neyləyim...
Bizim evdə dolu çuval da yoxdur.
Dügüylə yağ hamı çoxdan tükənmiş
Ət heç ələ düşməz, motal da yoxdur.

Allaha bizmişik naşükür bəndə,
Bir söz desəm, dəxi qoymazlar kəndə.
Xalq batıb noğula, şəkərə, qəndə,
Bizim evdə axta zoğal da yoxdur.

Bizim bu dünyada nə malımız var,
Nə evdə sahib camalımız var.
Vaqif, öyünmə ki, kamalımız var,
Allaha şükür ki, kamal da yoxdur (4, s. 113).

Bir vaxtlar hamının dillər əzbəri olan bu "qoşmanın məzmununda mövcud quruluşun üstünlükləri haqqında ciddi ümumiləşdirmələr aparırdılar" (8).

Vaqif yaradıcılığında aşıq şeirinin əsas şəkillərindən olan təcnisə də müraciət etmişdir. "Təcnis qoşmanın cinas qafiyələr əsasında yaranan bir növüdür" (5). Digər şəkillərlə yanaşı təcnis də aşıq şeiri şəkilləri içərisində geniş yayılmışdır. Təcnisin çox cəhəti qoşma ilə eynidir. Təcnisin bir çox növləri, dodaqdəyməz, ayaqlı, cığalı kimi növləri var. Aşağıda təcnisə aid bir neçə nümunəyə diqqət yetirək:

Ləblərin süsəndən, güldən əladır,
Seyr ilə gülşəndən, güldən əladır,
Tamam ağ bədənin güldən əladır,
Qamətindir sənubərdən bala, qız.

Ömrünə çox dua-səna demişəm,
Suçumu, dərdimi sana demişəm.
Mən canımı qurban sana demişəm,
Ol zaman ki, oldu qalü bəla, qız (4, s. 140)

Və yaxud

Çəkilir sürmələr, qaralı gözlər,
Alır məndən səbri qaralı gözlər,
Yoluna baxmaqdan qaralı gözlər,
Gəl indi bir quru ayaq ilə sən.

Qəmzən qılınc çəkib budar da məni,
Başın üçün, qoyma bu darda məni,
Yetir mətlubuma bu dərdə məni,
Bir busə ləbindən aya qılasən (4, s. 145)

Şair qoşmalarında olduğu kimi təcnislərində də sevgilisini bütün gözəlliklərə bənzədərək vəsf edir.

M.P.Vaqif qələmini aşıq şeirinin şəkli olan müxəmməsdə də xeyli sayda sınamışdır. Onu da qeyd edək ki, hər bəndi beş misradan ibarət şeir şəkli olan müxəmməsin müxtəlif formalarından dastanların sonlarında duvaqqapma kimi də istifadə edilir. Molla Pənah Vaqifin qələmə aldığı müxəmməslərin də mövzu dairəsi genişdir. Görkəmli şairin digər janrlarında olduğu kimi, müxəmməslərində də müxtəlif mövzulara müraciət etməklə oxucuların marağına səbəb olmuş və onların rəğbətini, sevgisini qazanmışdır. Bir neçə nümunəyə nəzər salaq:

Dilbər, nə deyim, sən kimi canan ələ düşməz,
Zülfün kimi heç zülfi-pərişan ələ düşməz.
Ləlin kimi bir ləli-Bədəxşan ələ düşməz,
Bir yerdə belə hakimi-Loğman ələ düşməz,
Biçarələrin dərdinə dərman ələ düşməz (4, s. 172)

Və yaxud

Ey səba, yara de kim, avarə gördüm Vaqifi,
Qəm əlindən bikəsü biçarə gördüm Vaqifi,
Bağrı olmuş sərbəsər sədparə gördüm Vaqifi,
Aqibət salmış özün odlarə, gördüm Vaqifi,
Gecə-gündüz müntəzir didarə gördüm Vaqifi.

Bir yanar atəş salıb pərvanə tək əzasinə,
Oxşayıbdır dəhrdə aşiqlərin risvasinə,
Nalə eylər gecə-gündüz, yalvarır mövlasinə,
Baş qoşub eylə sənin ol zülfünün sevdasinə,
Bir zaman basmaz ayaq bazarə, gördüm Vaqifi (4,s.76)

M.P.Vaqif yaradıcılığında aşıq sənətinə münasibət, aşıq poeziyasından yaradıcılıqla istifadə xüsusilə seçilir. Vaqif yaradıcılığında aşıq şeirinin şəkillərinə müraciət etməklə şifahi xalq ədəbiyyatına olan sevgisini, aşıq sənətinə verdiyi dəyəri bir daha aydın şəkildə göstərmişdir. Vaqifin əsərlərində işlənən aşıq şerinin şəkilləri şairin əsərlərini bədiiləşdirməklə yanaşı zənginləşməsinə də təsir edir.

Görkəmli şairin əsərlərini təhlil etdikdə sonda belə nəticəyə gəlmək olur ki, şair əsərlərində yazılı ədəbiyyatı zənginləşdirən aşıq sənətindən özünəməxsus ustalıqla və yerli-yerində istifadə etmişdir. Nəinki o dövr, həmçinin"aşıq sənəti indi də bütün xalqın musiqi-yaradıcılıq düşüncəsində öz ictimai əhəmiyyətini saxlamaqdadır. Onun mənbələrindən indiki peşəkar bəstəçilər də dəyərlənir və öz yaradıcılıqlarında ondan çox uğur və dəqiqliklə istifadə edirlər" (7).

Böyük şairin təkcə aşıq sənəti baxımından əsərlərinin təhlili göstərdi ki, Vaqifin əsərləri aşıq yaradıcılığının yazılı ədəbiyyata təsiri məsələlərinin öyrənilməsində istinad ediləcək mükəmməl mənbələrdən biridir.

## QAYNAQLAR


1. Azərbaycan aşıq şeirindən seçmələr, iki cilddə, I cild, Bakı: Şərq-Qərb, 2005, 376 s.
2. Əliyev R. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: 2014, 350s.
3. Mahmud A. Aşıq yaradıcılığının inkişaf mərhələləri. Bakı: Elm və Təhsil, 2011, 292 s.
4. M.P.Vaqif, Əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 264 s.
5. http://seadetazerb.com/wp-content/uploads/2014/10/5.-A%C5%9F%C4%B1q-%C5%9Feirinin-%C5%9F%C9%99kill%C9%99ri.pdf
6. http://www.azerbaijans.com/content_111_az.html
7. https://az.wikipedia.org/wiki/A%C5%9F%C4%B1q_s%C9%99n%C9%99ti
8. http://haqqinda.az/%C5%9Eairl%C9%99r+v%C9%99+Yaz%C4%B1%C3%A7%C4%B1lar/197-Molla+P%C9%99nah+Vaqif.html

# VAQİF QOŞMALARINDA FOLKLOR İZLƏRİ

**Elxan Yurdoğlu-Məmmədov**
*filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Naxçıvan Bölməsi*
*elxan.yurdoglu@yahoo.com*

**Özət**

Bu il 300 illik yubileyi YUNESKO, TÜRKSOY, eləcə də Azərbaycanda dövlət səviyyəsində qeyd olunan şair və dövlət xadimi Molla Pənah Vaqifin yaradıcılığında qoşma janrı üstünlük təşkil edir.

Daha çox xalq danışıq dilində şeirlər yazan Vaqifin qoşmalarında bu mənada şifahi xalq ədəbiyyatı nümunələrindən kifayət qədər istifadə olunmuşdur. Belə ki, Vaqifin qoşmalarında atalar sözlərinə, dastanlara, nağıllara və digər folklor nümunələrinə, folklor mövzu və obrazlarına rast gəlmək olur.

Məqalədə Molla Pənah Vaqifin qoşmalarında rast gəlinən folklor nümunələri və folklordan istifadə məsələləri tədqiqata cəlb edilmişdir.

**Açar sözlər:** Vaqif, şair, qoşma, folklor.

**Эльхан Юрдоглу Мамедов**

**Следы фольклора в творцестве (гошма) Вагифа**

**Резюме**

В этом году на государственном уровне а также со стораны ЮНЕСКО и ТЮРКСОЙ будет отмечен 300-летний юибилей видного Азербайджансково поэта и государственного деятеля Молла Панаха Вагифа.

В основном написанных в разговорком стиле стихах (в «гошмах») Вагифа была использовина оразцы устной народной литературы. Так как в его творчестве (в «гошмах») мажно встречисле других фольклорных образцов, фольклорных тем и образов.

В статье вовлечено к исследованию фольклорные образцы и вапросы использования фольклором в творчестве М.П.Вагифа.

**Ключевые слова**: Вагиф, поэт, гошма, фольклор.

**Elkhan Yurdoglu Memmedov**

**Vagif attachment traces of folklore**

**Summary**

This year, the 300-year anniversary of the UNESCO and TURKSOY, the organization, as well as at the state level, which is celebrated poet and statesman Molla Panah Vagif creative genre of attachment prevail.

More and more people speaking in this sense that the attachment is comprised of poems written enough examples of oral literature were used.Thus, the attachment is comprised of proverbs, legends, fairy tales and folklore, folklore themes and images can be found.

The article can be found in the attachment Molla Panah Vagif folklore and has been involved in research on the use of folklore.

**Key words:** Vagif, poet, trailer, folklore.

Azərbaycanın yetişdirdiyi böyük şəxsiyyətlərdən biri də istər şair, istər dövlət xadimi kimi tanınmış Molla Pənah Vaqifdir. XVIII əsrin əvvəllərindən başlayaraq Azərbaycanın söz-saz beşiyi olan Qazax mahalında, daha sonralar Qarabağda yazıb-yaradan Vaqifin günümüzədək gəlib çatan əsərləri içərisində qoşma janrında qələmə aldığı şeir nümunələri daha çox üstünlük təşkil edir.

Qoşma aşıq yaradıcılığının ən məşhur və ən çox istifadə olunan şeir janrıdır. Saz ustadları ilə məşhur olan bir bölgədə doğulması, boya-başa çatması gənclik illərindən bədii yaradıcılığı ilə ad qazanmış Molla Pənah Vaqifin şeir yaradıcılığına da təsirsiz ötüşməmişdir. Bunun nəticəsində də şair digər janrlarla müqayisədə qoşma janrına daha çox müraciət etmişdir.

Bu yerdə bir məqamı xüsusilə diqqətə çatdırıb fikrimizə yön verməyi məqsədəuyğun hesab edirik. Belə ki, Azərbaycan dilinin formalaşmasını tarixi inkişaf dövrü etibarıyla üç mərhələyə bölsək onun birinci mərhələsində Şah İsmayıl Xətayi kimi şah-şairin xidmətini görəcəyik. Dilimizin ikinci inkişaf mərhələsinə qədəm qoyması isə vəzir-şairin – Vaqifin şeirlərində daha aydın gözə çarpır. Təbii ki, Azərbaycan türkçəsinin bugünkü istifadə etdiyimiz yetkin və bitkin halda formalaşması isə XIX əsrin sonlarından başlayır və XX əsrin ikinci yarısına kimi davam edir.

Qeyd etdiyimiz izahdan da göründüyü kimi Molla Pənah Vaqif təkcə şair kimi, ya da böyük bir xanlığın yüksək vəzifəli şəxsi kimi ictimai xadim olaraq yadda qalmamış, həm də Azərbaycan dilinin formalaşmasında özünəməxsus rol oynamışdır. Bu məqamı biz Vaqifdən əvvəlki söz ustadlarının yaradıcılığına nəzər salmaqla daha aydın görə bilərik. Vaqif həm də yazılı ədəbiyyatımızda qoşma janrının təkamülündə böyük rol oynadı. "M.P.Vaqifin Azərbaycan ədəbiyyatı tarixində tutduğu mövqe onun poeziyamıza yeni forma və məzmun gətirməsi, şeirimizin vəzn və dil imkanlarını genişləndirməsi ilə ölçülməlidir. Şifahi poeziyamızın əsas vəzni olan heca vəznindən Vaqifəqədərki yazılı ədəbiyyatımızda, demək olar, çox az istifadə edilmişdi. Məhz buna görə "Vaqif öz şeiri ilə Azərbaycan poeziyasında heca vəzni üçün geniş imkan yolu açdı" (5, s.133), əruzdan hecaya uğurlu tarixi keçid etməyə nail oldu. Buna görə də o "Klassik poeziya ilə xalq şeirini, el-aşıq ədəbiyyatı ilə Şərq müdrikliyini öz yaradıcılığında ustalıqla birləşdirən nəhəng şəxsiyyət" (7, s. 95) kimi şöhrət qazandı. "Yazılı və şifahi xalq poeziyası arasındakı ənənəvi səddi dağıtmaq, folklor poeziyasının sərvətini klassik şeirin də nailiyyətlərinə çevirmək, milli, dünyəvi, nikbin bir şeirin tam qələbəsini təmin etmək mənasında Vaqifin tarixi-ədəbi xidməti misilsizdir" (12, s. 45-46) deyən görkəmli ədəbi-tənqidiçi Yaşar Qarayev də fikirlərində tamamilə haqlı idi. Bu cür istedadı, ağlı və zəkası ilə Vaqif saraya qədər gedib çıxa, vəzir rütbəsinə

qədər yüksələ bilmişdi. Lakin yaddan çıxarmamalıyıq ki, Vaqifin saraya qədər gedib çıxmasına təkan verən əsas qüvvə onun ağlıkamalı idi. Salman Mümtazın fikirləriylə ifadə eləsək "Cavanşir sarayı Vaqifi deyil, bərəks, Vaqif sarayı mənimsəmiş və dilimizə, ədəbiyyatımıza da çox böyük xidmətlər göstərmişdir" (13, s. 74).

Molla Pənah Vaqifin dilimizin inkişafındakı əməyi onun yaradıcılığında birbaşa özünü göstərir. Belə ki, daha çox xalq danışıq dilinə üstünlük verən, öz şeirlərində xalq ədəbiyyatı nümunələrindən istifadə etməklə yazdıqlarının sadə insanlar tərəfindən də asanlıqla anlaşılmasına çalışan şairin qoşmaları bu baxımdan xüsusilə seçilir. "Aydın məsələdir ki, XVII-XVIII əsrlərdə şeirimizin xalq dilinə və xalq ruhuna yaxınlaşması aşıq poeziyasının təsiri ilə mümkün olub. Şair kimi məhz aşıq mühitində yetişən M.P.Vaqif şeirləri yalnız dil-üslub, forma-şəkil baxımından deyil, həm də ruh etibarilə aşıq şeirlərinə yaxındır" (10, s. 3-4).

Vaqif öz qoşmalarında Azərbaycan şifahi xalq ədəbiyyatının müxtəlif nümunələrindən istifadə etməklə həm bədii yaradıcılığına bir rəngarənglik qatmış, həm də dilinin axıcılığına, oxunaqlılığına nail olmuşdur. Təsadüfi deyil ki, Vaqifəqədərki aşıq yaradıcılığının ən mahir ustadı Qurbani sayılırdı. Və sonrakı dövrdə tədqiqatçılar bildirirdilər ki, "XVIII əsrdə Molla Pənah Vaqif yazılı ədəbiyyatda Azərbaycan şeirinin Qurbanisi missiyasını həyata keçirmişdir" (8, s.9). Bu mənada Molla Pənah Vaqifin qoşmalarına nəzər yetirdikdə kifayət qədər atalar sözləri və məsəllərlə qarşılaşır, müxtəlif Azərbaycan nağıl və dastanlarının izlərinə rast gəlir, folklordan gələn mövzuların məharətlə qoşmalarda işlədilməsi hallarını müşahidə edirik. Xüsusilə Vaqifin şeirlərində atalar sözlərinin istifadəsi daha çox diqqəti cəlb edir. Bu məsələyə toxunan Adil Cəmil yazır: "Şair (Vaqif – E.M.) müəyyən bir fikri qətiləşdirmək istəyəndə, eləcə də bədii ümumiləşdirmə aparanda atalar sözünə daha çox müraciət edir. Xalqdan alınmış bu müdrik kəlamlar şeirdə qoyulan fikri, şairin mətləbini xalqa asan bir dildə, anlaşıqlı bir şəkildə çatdırmağa kömək edir" (4, s. 65).

Vaqifin qoşmalarında rast gəldiyimiz atalar sözləri onun poetik dəyərini artırmaqla yanaşı, söylənmək istənilən fikrin açılmasına da köməklik edir:

Siyah zülfün buxaq altda qayrılır,
Ala gözlər can almağa sayrılır.
Canandan ayrılan candan ayrılır,
Xalq içində bir misaldır, sevgilim (14, s. 56).

Göründüyü kimi burada "xalq içində bir misal" olan atalar sözü qoşmadakı fikrin ifadəsinə orijinal bir rəngarənglik qatmışdır. Vaqif atalar sözlərindən istifadə edəndə fərqli üsullar seçir. Belə ki, bəzən o şifahi xalq ədəbiyyatı nümunəsini olduğu kimi işlədir, bəzən isə atalar sözündəki mənanı saxlamaqla nümunənin özünü dəyişərək işlədir:

"Dost dostun yolunda düşər ziyana,
İgid gərək tab gətirə, dayana" (14, s. 18).

Burada "Dost yolunda boran olar, qar olar" (1, s. 94), yaxud "İgid odur atdan düşə atlana, igid odur hər əzaba qatlana" (1, s. 133) və digər atalar sözlərimizin izlərini müşahidə edirik. Bu cür nümunələr Vaqif qoşmalarında tez-tez qarşımıza çıxır: "Vaqifin bağrını döndərdin közə, Yar odur ki, yarın cövrünə dözə" (14, s. 62), "Hicranı çəkməyən dərdimənd olmaz" (14, s. 95), "Göz görməsə dəli könül istəməz" (14, s. 107), "Dost yolunda çovğun olur, qar olur" (14, s. 119), "Qoymaz göz önündən sevən sevəni, Könüldən könülə yollar görünür" (14, s. 120) və s. nümunələrdə xalq arasında mütəmadi olaraq işlənən atalar sözlərinin təsirini duymamaq mümkün deyil. Yuxardakı nümunələri oxuduqca bu fikirlərlə razılaşmalı olursan: "Xalq məişətinə, adət və ənənələrə yaxşı bələd olan şair, eyni zamanda canlı fikri yığcam, obrazlı şəkildə ifadə etmək məziyyətlərini də gözəl mənimsəmişdir. O, atalar sözü və məsəlləri yerli-yerində işlətməyin yeni yollarını sınaqdan keçirmişdir" (6, s.4).

Vaqif qoşmalarında bəzən atalar sözlərindəki kəlimələrin yerdəyişməsinə də rast gəlinir. Düzdür, qoşmanın poetik texniki

qaydalarına əməl etmək üçün edilən bu dəyişiklik atalar sözünə xələl gətirmir, fikri zəiflətmir, əksinə şeirə fərqli bir dil şirinliyi qatır. Beləliklə də atalar sözünun dəyişdirilməsi faktı arxa plana keçir: Məsələn "Arifə bircə işarə də bəsdir" (1, s. 36) atalar sözü Vaqifin şeirində qarşımıza bu cür çıxır:

Getdim ala gözlü yarla danışam,
Dedi, oğlan, dur get, söz vaxtı deyil.
Arif çoxdur, etmək olmaz işarət,
Oynatma qaşını, göz vaxtı deyil (14, s. 50).

Şairin şeirlərində qarşımıza çıxan digər folklor örnəkləri də onun sadə, anlaşıqlı xalq dilində yazmağa daha çox diqqət etdiyini, şeirlərində folklorik ünsürlərə yer verməklə hər kəsin onu anlamasına çalışdığını göstərir. Xalq danışıq dilindəki idiomatik ifadələrdən, hikmətli sözlərdən, alqışlardan, dualardan istifadə də bu baxımdan diqqəti cəlb edir:

Növcavanlar qoy həmişə var olsun,
Amma ki, bizlərdən xəbərdar olsun.
Vaqifin duası sənə yar olsun,
Səni haqq saxlasın ömrü-dövlətdə (14, s.24).

və yaxud

Vaqif bir şeydadır dolanır bağı,
Xəstədir, dərmanı – dilbər dodağı.
O alma yanağı, büllur buxağı,
Allah, bədnəzərdən səlamət eylə (14, s. 26).

Bu bəndlərdəki "Növcavanlar qoy həmişə var olsun", "Sənə yar olsun", "Səni haqq saxlasın", "Allah bədnəzərdən qorusun" kimi ifadələr birbaşa xalq danışıq dilində tez-tez qarşılaşdığımız alqışlardır. Vaqif qoşmalarında bu cür ifadələrə çox rast gəlirik: "Allah muradını versin o yarın" (14, s. 44), "O qədər gəzərsiz əli çıraqlı" (14, s. 138), "Səndən ayrı bağrım kababa dönmüş" (14, s.42), "Mən ki, zalım, adam yeyən deyiləm (14, s. 55)", "Şükr Allaha, deyil adamyeyici; Nolur gəlsən bizə, qurban olduğum (14, s. 69) və s.

Vaqifin qoşmalarında bəzən nağıllardan gələn motivlər, nağıl qəhrəmanları da özünü göstərir. Buna misal olaraq aşağıdakı misrada işlədilən "pəri evladları" ifadəsini göstərə bilərik. Azərbaycan xalq nağıllarının bir çoxunda obrazlar, qəhrəmanlar arasında pərilərə, pəri övladlarına rast gəlirik. Vaqif də öz qəhrəmanını pəri övladına – İlahi varlığa bənzədərək məşuqunun gözəlliyini təsvir edir:

Gərdən çəkib, tənə qılar qulara,
Həsrətindən bağrım dönər sulara.
Pərilər evladı derlər bulara,
Bular da gözəldir ocaqlarından (14, s. 70).

Xalqla bu qədər yaxın olan, onun şifahi ədəbiyyatına bələd olan şair dastanları da çox eşitmiş, onlardan zövq almış, təsirlənmişdir. Şairin qoşmalarında qarşımıza çıxan dastan adları bunu əminliklə deməyə əsas verir. "Şeyx Sənan", "Leyli və Məcnun", "Fərhad və Şirin" və sair dastanların Vaqifin xalq dili ilə zəngin poeziyasının yaranmasında təsirsiz ötüşmədiyini müşahidə etmək olur. Bir qoşmasında Vaqif deyir:

Gülab səpilibən dəyəndə şana,
Qoxusu çuğlaşır cümlə-cahana.
Döndəribdir məni Şeyx Sənana,
Nə din qoyub məndə, nə iman zülfün (14, s. 85).

Başqa bir qoşmasında isə "Fərhad və Şirin" dastanına işarə edir:

İntizar çəkməkdən, yol gözləməkdən,
Könlümün nə tabı, nə taqəti var.
Yazan ola ayrılığın dərdini
Fərhadü Şirincə hekayəti var (14, s. 95).

Aşağıdakı bənddə isə həm Fərhad və Şirin, həm də Leyli və Məcnun rəvayətlərini dilə gətirir:

Bahari ömrünü versə də başa,
Aşiq məşuqədən usanmaz, haşa.
Fərhad Şirin üçün sığındı daşa,
Məcnunun ovlağı Leyli dağıdır (14, s. 111).

Mövzuya aid olaraq gətirdiyimiz nümunələr Vaqifin xalq ruhuna bağlı necə bir lirik şair olduğunu göstərir. Ümumiyyətlə "Vaqif yaradıcılığı lirik poeziyanın artıq müəyyən inkişaf yolu keçib formalaşmaqda olduğu bir dövrə təsadüf edir. Vaqif isə formalaşmaqda olan lirik şeiri yeni realist inkişaf yoluna salaraq, onu xalq ruhuna, xalq zövqünə yaxınlaşdırmış, özünə qədərki fərqli bir yolla istiqamətləndirmişdir. O, xalqdan qüvvət almış, xalq ədəbiyyatının nikbin əhval-ruhiyyəsindən qidalanmışdır (2, s. 5).

Molla Pənah Vaqif nə qədər şifahi xalq ədəbiyyatından yararlanmışsa, bir o qədər də xalqın zəngin söz xəzinəsinə yeni nümunələr qatmağa da nail olmuşdur. Onun bu gün bir çox ifadələri var ki, el arasında zərbi-məsəl, atalar sözü, hikmətli ibarə kimi istifadə edilir. Firudin bəy Köçərli bu məqamı çox dəqiq qiymətləndirir: "Hətta ibtidai təhsili olmayanlar arasında da Vaqifin şirin, duzlu və müdrik kəlamları zərb-məsəl kimi işlədilir. Vaqif haqqında el arasında yaranmış və zaman keçdikcə müdrik məna kəsb etmiş "Hər oxuyan Molla Pənah olmaz" məşhur atalar sözü də həmin xüsusiyyətin bariz ifadəsi olaraq meydana gəlmişdir. Vaqif kəlamında hikmətamiz və ibrətamiz sözlər çoxdur ki, onları şair təcrübi yüzi ilə söyləyibdir" (11, s. 154).

Vaqifin folklora təsirinə nümunə olaraq qoşmalarında işlətdiyi aşağıdakı ifadələri göstərə bilərik:

Başına döndüyüm toy adamları,
Siz də deyin toya gələn oynasın.
Adını demirəm eldən ayıbdır,
Filankəsin qızı filan oynasın (14, s. 89).

Aşağıdakı qoşmanın bu bəndi də tamamilə xalq ədəbiyyatına keçərək insanların dilində istifadə vətəndaşlığı qazanmışdır:

Xumar-xumar baxmaq göz qaydasıdır,
Lalə tək qızarmaq üz qaydasıdır,
Pərişanlıq zülfün öz qaydasıdır,
Nə badi-səbadan, nə şanədəndir (14, s. 110).

Molla Pənah Vaqifin başqa bir qoşmasındakı bu ifadələr də xalq arasında tez-tez işlədilən nümunələrdəndir. Belə ki, bəzi vaxtlarda el arasında müəyyən situasiyalarda fikrin ifadəsi zamanı Vaqif sözləri dilə gəlir:

Vaqif, öyünmə ki, kamalımız var,
Allaha şükür ki, kamal da yoxdu (14, s. 113).

və yaxud:

Kür qırağının əcəb seyrəngahı var,
Yaşılbaş sonası hayıf ki, yoxdur (14, s. 115)

kimi ifadələr bugünkü gündəlik danışığımız zamanı fikrimizi ifadə edərkən karımıza çatır.

Vaqifin folklora təsiri məsələsinə toxunan görkəmli ədəbiyyatşünas alim Həmid Araslı yazır: "Gül bədən", "qönçə ağız", "kəklik yerişli", "maral baxışlı", "sona sığallı", "şahmar saçlı" – bu sifətlərin hamısı kənddən, xalq ədəbiyyatından gəlir. Məhz buna görədir ki, Vaqif yaradıcılığı öz növbəsində şifahi xalq ədəbiyyatına da qüvvətli təsir göstərmişdir (2, s.10).

Vaqif həm də nikbin bir şair idi. Buna görədir ki, M.Kazımoğlu "M.P.Vaqif kimi hədsiz nikbin aşıq tapmaq çətindir" (9, s. 4) söyləyir.

Folklorla iç-içə olan, iç-içə yaşayan və içində olduğu folkloru öz içində yaşadan Vaqif sonrakı mərhələdə şifahi xalq ədəbiyyatına mövzu da olmuşdur. Bu mövzu barədə Barat Vüsal çox yerində bildirir ki, şair "çox şeydən Vaqif olmaqla müasirlərindən fərqlənirdi. Haqqında yaradılmış "Vaqif dastanı" bir daha sübut edir ki, o, doğrudan da şairdən çox aşiq olub" (15, s. 16).

Xalqı üçün yazıb-yaradan görkəmli söz ustadları heç vaxt unudulmurlar. Xalq onlar haqqında müxtəlif rəvayətlər qoşur, əfsanələr düzəldir, onları mahnılarda, dastanlarda yaşadır. Vaqif haqqında da yaranmış rəvayətlərdə o, şair olmaqdan başqa böyük bir alim, müdrik el ağsaqqalı kimi təqdim olunur. Gəncə-Qazax, eləcə də Qarabağ bölgəsində şairin həyatının nağılvari təsvirinə çevrilən "Vaqifin nağılları" bu baxımdan xüsusilə diqqəti cəlb edir. 1930-cu

illərdə Aşıq Hüseyn Seyfəlinin dilindən yazıya alınan, çox sadə şəkildə, yerli ləhçəyə, ifadələrə uyğun olaraq söylənən bu nağılda şairin qoşmalarından da istifadə olunub. Bu nağılda Vaqifin əlyazmalarında və çap edilmiş kitablarında olan qoşmalardan fərqli olaraq misralar, sözlər el variantında, yerli şivədə söylənmişdir.

Vaqifin xalq ədəbiyyatına təsir edən qoşmaları sonradan xalqın musiqi xəzinəsini zənginləşdirməsində də təsirsiz ötüşməmişdir. Belə ki, qoşmaları muğamlarımızın, təsniflərimizin, xalq mahnılarımızın mətni kimi bu gün də oxunur, könülləri oxşayır. Böyük müğənnimiz Bülbülün şairin sözləri ilə oxuduğu bir sıra xalq mahnılarımız ona bəslənən ümumxalq məhəbbətinin təzahürüdür. Eləcə də şairin lirik şeirlərinin ruhunu Fikrət Əmirov orkestr üçün bəstələdiyi ecazkar "Vaqif" pyesində ortaya qoyur. Cahangir Cahangirovun "Durnalar", Əşrəf Abbasovun "Heyran olmuşam", Qənbər Hüseynlinin "Sonalar kimi", Ramiz Mustafayevin "Vaqif" operasından "Vaqifin ariyası" kimi bəstələdiyi "Görmədim" və başqa mahnılar Vaqif şeirlərinin bəstəkarların yaradıcılıq ilhamına çevrilmiş, notlara çevrilib ürəklərə yol tapmış nümunələrdən bir neçəsidir.

Bu gün Molla Pənah Vaqifin anadan olmasının 300 illik yubileyinin Azərbaycanla yanaşı UNESCO və TÜRKSOY miqyasında beynəlxalq səviyyədə qeyd olunması Azərbaycan poeziyasının və Vaqif sənətkarlığının böyüklüyünün ifadəsidir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 12 yanvar 2017-ci il tarixdə imzaladığı "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı da ölkəmizdə sözə, sənətə, milli poeziyaya verilən qiymətin ən böyük nümunəsidir. (16)

Xalq şairi Məmməd Arazın Vaqif haqqında qələmə aldığı bu misraları da, heç şübhəsiz, Vaqif sözünün miqyasını bir daha yada salır:

Hündürlər çox oldu Vaqif dağından,
Sənət ucalığı uca dağ oldu.

Sözü ayaqlara salmadığından,
Özü vəzir oldu, sözü şah oldu (3, s. 182).

İndiyə kimi heç bir sənətkarın adı ilə bağlı folklor nümunəsi meydana çıxmasa da, xalq öz dilinə yüksək səviyyədə vaqif olan Vaqifini bu mənada əbədiləşdirməyi unutmamış, onu dastanda, nağılda, atalar sözündə əbədiləşdirmişdir. Biz də bir daha atalarımızın "Hər oxuyan Molla Pənah olmaz" sözünə bu fikri də əlavə etmək istəyirik: "hər yazan da Vaqif olmaz".

## QAYNAQLAR


1. Atalar sözü. Bakı: Öndər, 2004, 264 s.
2. Araslı Həmid. Şeirimizin fəxri / Vaqif. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 264 s. s. 5-12
3. Araz Məmməd. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı: Lider, 2004, 224 s.
4. Cəmil Adil. Xalq şeirinin Vaqif mərhələsi / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər XLI, Bakı: Elm və təhsil, 2013, 212 s. s.59-70
5. Dadaşzadə A. Vaqif: həyat və yaradıcılığı. Bakı: Azərbaycan EA Nəşriyyatı, 1966, 190 s.
6. Əlibəyzadə E. "Şairin dilində atalar sözü və məsəllər". "Bakı" qəzeti. 5 iyul, 1968.
7. Əlioğlu M. Vaqif sevirdi, Vaqif sevilir: (anadan olmasının 250 illiyi münasibətilə) // Məhəbbət və qəhrəmanlıq. Bakı: Yazıçı, 1979, 406 s. s.94-103
8. Həbibbəyli İsa. Molla Pənah olan şair. "Azərbaycan" qəzeti. 28 Fevral 2017, № 45, s.9.
9. Kazımoğlu Muxtar. M.P.Vaqif: Aşıq şeiri və tənha şairin zövqi-səfası / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər XLI, Bakı: Elm və təhsil, 2013, 212 s. s.3-18
10. Kazımoğlu (İmanov) Muxtar. Portretlər. Bakı: Nurlan. 2013, 184 s.

11. Köçərli F. Molla Pənah "Vaqif" təxəllüs // Azərbaycan ədəbiyyatı. 2 cilddə. I cild. Bakı: AVRASİYA PRESS, 2005, 560 s. - S. 94-103 s.95.) s.154
12. Qarayev Yaşar. Seçilmiş əsərləri. 5 cilddə. III cild. Bakı: Elm, 2015, 908 s. s.45-46
13. Mümtaz S. Molla Pənah Vaqif: məqalə // Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı: Avrasiya Press, 2006, s. 31-74.
14. Vaqif. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 264 s.
15. Vüsal Barat. Vəzirin şahlığı, yaxud müqəddəs həsrət. 525-ci qəzet, 25 fevral 2017, s.16-17
16. http://president.az/articles/22465

# MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR

**Əpoş Vəliyev**
*filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*elyarvelisoy@mail.ru*

**Özət**

Atalar sözləri xalqın müdrik fikirlərindən ibarət olur. Mənaca hikmətli və nəsihətli olduğundan, atalar sözləri və məsəllərdən yazılı ədəbiyyatda da geniş şəkildə istifadə olunur. Yaradıcılığı atalar sözləri və məsəllərlə zəngin olan Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri də XVIII əsr Azərbaycan şairi Molla Pənah Vaqifdir. O, öz yaradıcılığında atalar sözləri və məsəllərə yaradıcı yanaşmış, onlardan səmərəli şəkildə istifadə etmişdir.

**Açar sözlər:** Molla Pənah Vaqif, atalar sözləri, məsəllər, folklor, Vaqif yaradıcılığı.

**Эпош Велиев**

**Пословицы и поговорки в творчестве Молла Панах Вагифа**

**Резюме**

Пословицы состоят из мудрых помыслов народа. Ввиду своей глубокомысленной, наставленческой сущности пословицы и поговорки также широко используются и в письменной литературе. Одним из выдающихся деятелей азербайджанской поэзии, творчество которого обогащено пословицами и поговорками, является азербайджанский поэт XVIII века Молла Панах Вагиф. В своем творчестве он, созидательно отнесся к пословицам и поговоркам, благотворно воспользовался ими.

**Ключевые слова:** Молла Панах Вагиф, половицы, поговорки, фольклор, творчество Вагифа.

**Aposh Valiyev**

**Proverbs and sayings in the works of Molla Panah Vagif**

**Summary**

Proverbs consist of the wise thoughts of the people. Because of its thoughtful, adept nature, proverbs and sayings are also widely used in written literature. One of the outstanding figures of Azerbaijani poetry, whose work is enriched by proverbs and sayings, is the 18th century Azerbaijani poet Molla Panah Vagif. In his work, he was creative about proverbs and sayings, beneficially took advantage of them.

**Key words:** Molla Panah Vagif, proverbs, sayings, folklore, Vagif's creativity.

Atalar sözləri xalqın həyatında sınanmış, müdrik və nəsihətli fikirlərindən ibarət olur və böyük əxlaqi-tərbiyəvi əhəmiyyət daşıyır. Həcmcə kiçik olsa da, mənaca hikmətli və nəsihətli olduğundan, atalar sözləri və məsəllərdən yazılı ədəbiyyatda da geniş şəkildə istifadə olunur. Xalqa bağlı olan, xalq ədəbiyyatını dərindən mənimsəyən sənətkarlar həm əsərlərinə ad seçərkən, həm də əsərlərinin içərisində şifahi xalq ədəbiyyatı nümunələrindən, xüsusilə də atalar sözləri və məsəllərdən bəhrələnir. Şifahi xalq ədəbiyyatının qədim abidələrindən olan "Kitabi Dədə Qorqud"da da çoxlu atalar sözü və məsəllər vardır: "Kül təpəcik olmaz", "Qarı düşmən dost olmaz", "Çıxan can geri dönməz", "Əski bambıq bez olmaz", "Baba malından nə fayda, başda dövlət olmasa" və s. (3,s. 136). Abbas Səhhətin "Yoxsulluq eyib deyil", Nəcəf bəy Vəzirovun "Daldan atılan daş topuğa dəyər", "Yağışdan çıxdıq, yağmura düşdük", "Sonrakı peşmançılıq fayda verməz", Əbdürrəhim bəy Haqverdiyevin "Yeyərsən qaz ətini, görərsən ləzzətini" əsərlərinin adları da şifahi xalq ədəbiyyatından götürülmüşdür. Xalq yaradıcılığındakı bitib-tükənməyən zənginlik H.Arif, H.Kürdoğlu, M.Araz, Z.Yaqub və digər şairlərin yaradıcılığının da təməl daşını təşkil etmişdir. Onların şeirləri, elə xalq bədii

düşüncəsinə köklənmiş poeziyadır. İstər təbiət mövzulu şeirlərində, istərsə də məhəbbət, vətən, doğma torpaq mövzulu şeirlərində də xalq müdrikliyi, xalq düşüncəsi aparıcı istiqamət təşkil edir. H.Arifin kiçik bir şeir parçasına diqqət edək:

Öz kökümün üstündəyəm,
Yatanda da yatacağam
Babalarım yatan yerdə (4, s. 17).

H.Kürdoğlu isə "kök" məsələsi barədə belə yazır:

Kökü saxlar ağacı,
Başında bulud tacı (5, s. 163).

"Ot kökü üstə bitər" (9) kəlamı hər iki nümunədə yalnız zahiri görkəmini dəyişmişdir. "Kököm üstə boy atmışam", "Öz kökümün üstündəyəm" ,"Kökü saxlar ağacı" ifadələri şeirdəki fikrə bir dərinlik və zənginlik gətirmişdir. Bu, folklordan, xalq obrazlı təfəkküründən, konkret olaraq xalq ifadəsindən məqsədəuyğun şəkildə istifadənin təzahürüdür.

Yaxud M.Arazın kişik bir şeir parçasından nümunə göstərə bilərik:

Eh, nə bilim hər bir dərdi taleyinə
İnsan özü gözəmirmi? (7, s. 22)

Burada yenə də xalq kəlamı yada düşür: "Özü-özünə eləyəni el yığışsa edə bilməz" (8).

Yaradıcılığı atalar sözləri və məsəllərlə zəngin olan Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri də XVIII əsr Azərbaycan şairi, məşhur siyasi və ictimai xadim, Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri, Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş qüdrətli söz ustası Molla Pənah Vaqifdir. Azərbaycan poeziyası tarixində, onun yeni istiqamətdə inkişafında Vaqifin böyük xidmətləri olmuşdur. Molla Pənah Vaqif milli keçmişimizə, tariximizə, doğma Vətəninə, dilimizə, mədəniyyətimizə, folklorumuza və yazılı ədəbiyyatımıza dərindən dərin köklərlə bağlı olmuş, bənzərsiz və rəngarəng yaradıcılığı ilə seçilən sənətkarlardan olmuşdur. Onun yaradıcılığı hər

zaman tədqiqatçıların diqqətini cəlb etmiş və tədqiq obyektinə çevrilmişdir. Onun haqqında "Hər oxuyan Molla Pənah olmaz" deyə bir məsəl də yaranmış və bu məsəl xalqın dilində əzbər olmuşdur. Şairin qələminin məhsulu olan qəzəllər, müxəmməslər, müstəzadlar, müəşşərlər kamilliyi və dilinin axıcılığı ilə diqqəti cəlb edir.

Şair özünün faydalandığı məsəl və atalar sözlərini, xalqdan gələn deyimləri, hikmətli kəlamları yeni biçim və formada yenidən xalqa qaytarmış, dillər əzbəri etmişdir. Onun şeir yaradıcılığının əsas şərtlərindən biri xalq nümunələrindən yerli-yerində və ustalıqla istifadə etməsidir. "Toy-bayramdır bu dünyanın əzabı, ağlı olan ona gətirər tabı" deyən Vaqif irsinin bugün daha da dərindən tədqiq edilib, öyrənilməsi aktuallığını qoruyan və həllini gözləyən vacib məsələlərdən biridir.

Ümumxalq danışıq dilinə dərindən bələd olan Molla Pənah Vaqif bu xəzinədən böyük ustalıqla istifadə etmişdir. O, atalar sözü və zərbməsəlləri şeir misralarında bəzən olduğu kimi məharətlə, yerli-yerində, qafiyələrə uyğunlaşdıraraq işlədir:

Keçən işdən mərd igidlər pozulmaz,
Atalar deyibdir: "Tökülən dolmaz".
Qatıq üçün qışda ağlamaq olmaz,
İnşaallah, gələr bahar, ağlarsan! (6, s. 221)

Bu bənddə şair xalqda işlənən "Tökülən çanaq daha dolmaz" (8) atalar sözünü şair ikinci misrada işlətmişdir. Həmin atalar sözünə biz Yusif Vəzir Çəmənzəminlinin də yaradıcılığında rast gəlirik. O, həmin atalar sözünün müəyyən əlamətlərini saxlamaqla əsərlərində istifadə etmişdir:

"Vaqif ciddi bir səslə:

- Şad olmasan daha nə çıxacaq ki, - dedi: - Atalar demişkən "Tökülən dolmaz" (1, s. 91). Yusif Vəzir Çəmənzəminli də "Tökülən çanaq daha dolmaz" atalar sözünü burada "Tökülən dolmaz" formasına salaraq, ifadə olanan fikrin daha yığcamlığına nail olmuşdur. El arasında məşhur olan "İgidin başı qalda gərək", "İgidin başı qovğasız olmaz", "İgidin yaraşığı sınaqdır" (9)

kimi atalar sözlərini isə Vaqif "Keçən işdən mərd igidlər pozulmaz" misrasıyla mənanı saxlamaqla ifadə etmişdir. Üçüncü misrada isə şair "Qatıq üçün qışda ağlamaq olmaz, İnşaallah, gələr bahar, ağlarsan!" şəklində yazdığı misralarda xalqda olan "Xəstə tələsər, armud vaxtında yetişər" atalar sözünün bir bənzərini yaradaraq, həm də el arasında işlənən "Zaman ilə hesablaşmaq gərək" (9) atalar sözündəki mənanı da diqqətə çatdırmışdır. Digər bir bənddə isə Molla Pənah Vaqif xalq arasında tez-tez işlənən "Sonrakı peşmançılıq fayda verməz" (8) atalar sözünü olduğu məzmunda və mənada şeirdəki qafiyələrə ustalıqla uyğunlaşdıraraq işlətmişdir. Atalar sözlərini yerində və uğurla işlədəndə şeirin dili də zənginləşir, xalqdan alınan atalar sözü yenidən xalqa qaytarılaraq yaddaşlarda möhkəmlənir:

Əqlin olsun, on iki imama inan,
Fayda verməz sonra olmaq peşiman,
Yəqin bil ki, qurulacaqdır mizan,
Əməlin qarşında durar, ağlarsan. (6, s. 228)

Bu bəndin son iki misrası isə şifahi xalq ədəbiyyatında rastlaşdığımız "Hər kəs öz *əkdiyini biçər*", "Hər kəs nə eləsə özünə edər", "Nə tökərsən aşına, o da çıxar qaşığına" (9) atalar sözlərinin mənasını saxlamaqla, şair "Yəqin bil ki, qurulacaqdır mizan, Əməlin qarşında durar, ağlarsan" şəklində yeni don geyindirərək, yeni bir ifadə ilə fikri daha da möhkəmləndirmişdir.

Atalar sözlərini və məsəlləri şeirin poetik dilinə uydurmaq və ya fikrin ifadəsində bənzər söz seçimi ilə tarazlaşdırmaq Molla Pənah Vaqifin söz ustalığının, bacarığının göstəricisidir. Şair "Keçənə güzəşt deyərlər", "Olan olub, keçən keçib", "*Atılan ox geri dönməz"(8)kimi atalar sözlərini* yeni bir formada və sadə xalq dili ilə ifadə edərək, öz üslubuna uyğun şəkildə yazır:

Say qənimət diriliyin dəmini,
Keçən həmdəmlərin çəkmə qəmini,
Ağlın olsun sil gözünün nəmini,
Dəxi geri gəlməz onlar, ağlarsan. (6, s. 219)

Molla Pənah Vaqifin yaradıcılığında atalar sözü və məsəllər həm də ona görə xüsusi yer tutur ki, bu folklor nümunələri onun ruhuna çox uyğundur. Xalqınmüdrikcəsinə yaratdığı bu janrdan şair yaradıcılığında yerli-yerində istifadə edir. Hətta şairin elə şeirləri var ki, burada nə atalar sözləri və məsəllər, nə də xalq dilində işlənən hazır müdrik ifadələr var. Ancaq şeiri diqqətlə oxuduqda onda atalar sözündəki qədər kəsərli, müdrik ifadə və mənalı fikir olduğunun şahidi oluruq. Məsələn:

Dost dostun yolunda düşər ziyana,
İgid gərək tab gətirə dayana (6, s. 18)

Gözəl sevən kimsə gərək dayana,
Dost yolunda çovğun olur, qar olur. (6, s. 119)

Hicranı çəkməyən dərdimənd olmaz,
Sevəni sevməyən dilpəsənd olmaz,
Dost-dosta gələndə yolda bənd olmaz,
Eşqin təriqinin bu adəti var. (6, s. 95)

Çünki işin çəp düşübdür əzəldən,
Fayda olmaz işlədiyin əməldən. (6, s. 225)

Dost dost ilə əbəs yerə savaşmaz,
Sevənin sevəndən könlü bulaşmaz.(6, s. 91)

Vaqifi möhnətü fərağa salma,
Əğyarın sözünü qulağa salma. (6, s. 43)

Atalar sözü və məsəllərdən, xalq ifadələrindən istifadə H.Kürdoğlunun yaradıcılığında yüksələn bir xətlə getmişdir. O, şeirlərini xalq dili, xalq ədəbiyyatı hesabına zənginləşdirib, ona incə naxışlar vurmuşdur. Zəngin xalq düşüncəsindən bəhrələnmə sənətkarın imkanları ilə müəyyənləşir. Burada yaradıcının fərdi qabiliyyəti, istedadı əsas şərt kimi görünür. Şair atalar sö-

zünü ya olduğu kimi, ya da xalqdan gələn kəlamı müəyyən dəyişikliklə işlətmişdir:

Getdim ala gözlü yarla danışam,
Dedi oğlan dur det, söz vaxtı deyil.
Arif çoxdur etmək olmaz işarət,
Oynatma qaşını, göz vaxtı deyil. (6, s. 50)

Burada xalq arasında məşhur olan “Arifə bir işarə kifayətdir” məsəli “Arif çoxdur etmək olmaz işarət” formasında ustalıqla islədilmişdir.

“Çün uman yerdən küsərlər” bir məsələdir xalq ara,
Küsdüyüm bica deyildir, aşinadan küsmüşəm.(6, s.154)

Bu nümunədə isə xalq arasındakı “Uman yerdən küsərlər” (9) məsəli olduğu formada işlədilmişdir.

Molla Pənah Vaqifin yaradıcılığında dövrün, zamanın sınağından çıxaraq bu günümüzə qədər gələn atalar sözləri və məsəllərə yaradıcılıqla yanaşılmış, onların üzərində diqqətlə iş aparılmışdır. Onun şeirlərində bədii təfəkkür tərzinə, həyatda tutduğu mövqeyə, söyləyəcəyi fikrə, mühit və şəraitə uyğun olaraq obrazlar öz dolğun ifadəsini tapmışdır. Şair sözlər üzərində elə ustalıqla işləyir ki, onun bir çox misralarının məna tutumu, kəsəri atalar sözləri ilə eynilik təşkil edir. Bu da onun şifahi xalq ədəbiyyatına yaxından bələd olduğunun, xalq yaradıcılığını dərindən mənimsəyərək bəhrələndiyinin bariz nümunəsidir. Şair atalar sözlərindən istər olduğu kimi, istərsə də üzərində dəyişiklik edərək istifadə etdiyi anlarda da sənətkarlıq keyfiyyətini əsas məsələ kimi diqqət mərkəzində saxlamışdır. Keçmişdən bugünədək yaradıcılığı xalqla bağlılıq təşkil edən, canlıxalq danışıq dilini yaxşı bilən,elin adət-ənənəsinə bağlı olan, şeirlərinin dili sadə olan sənətkarların əsərləri oxunaqlı və yaddaqalan olmuşdur. Molla Pənah Vaqif də həmin sənətkarlardandır və buna görə də şeirləri sevilərək oxunur.

# QAYNAQLAR


1. Abdullayev B.A. Yusif Vəzir Çəmənzəminli və folklor. Bakı: "Elm", 1981, 124 s.
2. Atalar sözü /tərt. ed. C.Bəydili(Məmmədov), Bakı: "Öndər", 2004, 264 s.
3. Babayev İ.Ə. Əfəndiyev P.Ş. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: "Maarif", 1970, 263 s.
4. Hacıyeva M.H. Folklor poetikası. Bakı: "Azərbaycan Dövlət Nəşriyyatı", 2006, 240 s.
5. Kürdoğlu H.A. Yaralı torpağım, yaralı sevgim. Bakı: "Sabah", 1997, 248 s.
6. Molla Pənah Vaqif. Əsərləri. Bakı: "Şərq-qərb", 2004, 264 s.
7. Vəliyev Ə.İ. Müasir Azərbaycan poeziyasında folklor motivləri (H.Kürdoğlunun yaradıcılığı əsasında). Bakı, "Elm və təhsil", 2015, 174 s.
8. https://az.wikipedia.org/wiki/Atalar_sözü
9. https://az.wikiquote.org/wiki/Azərbaycan_atalar_sözləri

# MOLLA PƏNAH VAQİF: FOLKLOR, KLASSİK ƏDƏBİYYAT VƏ TARİX

**Fidan Qasımova**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*gasimovafidan@yahoo.com*

**Özət**

Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan şairlərdən biri Molla Pənah Vaqifdir. O, ədəbiyyatımızda öz dəsti-xətti ilə seçilən, yaratdığı əsərlərlə oxucuların rəğbətini qazanan şairlərdəndir. Vaqif yalnız Azərbaycan ədəbiyyatında deyil, tarixində də xüsusi bir mövqeyə malik olmuş, böyük siyasi xadim kimi tanınmışdır.

Şairin yaradıcılığı müxtəlif tərəflərdən tədqiq edilmişdir. Bu məqalədə isə onun yaradıcılığının folklor, klassik ədəbiyyat və tarix əlaqələrinə nəzər salınmışdır. Çünki bu sahələr daima birgə tədqiqatı tələb edir. Molla Pənah Vaqif yaradıcılığında folklor, klassik ədəbiyyat, tarix bəzən ayrı-ayrılıqda, bəzən də əlaqəli şəkildə təzahür edir.

**Açar sözlər:** Molla Pənah Vaqif, folklor, klassik ədəbiyyat, tarix

**Фидан Гасымова**

**Молла Панах Вагиф: фольклор, классическая литература и история**

**Резюме**

Одним из поэтов имевших важные заслуги в развитии азербайджанской литературы является Молла Панах Вагиф. Он является одним из поэтов, отличавшихся своим почерком и завоевавших авторитет читателей созданными произведениями. Вагиф занимал особое положение не только в литературе, а также в истории Азербайджана и был известен как политический деятель.

Творчество поэта исследовано разносторонне. В этой статье рассматривается связь его творчества с фольклором, классической литературой и с историей. Потому, что эти отрасли требуют совместного исследования. Фольклор, классическая литература и история в творчестве Молла Панах Вагифа проявляются как отдельно так и взаимосвязано.
**Ключевые слова:** Молла Панах Вагиф, фольклор, классическая литература, история

**Fidan Gasimova**

**Molla Panah Vagif: folklore, classical literature and history**

**Summary**

Molla Panah Vagif is one of the poets who had important merits in the development of Azerbaijani literature. He is one of the poets who distinguished themselves by their handwriting and won the authority of the readers by the created works. Vagif held a special position not only in literature, but also in the history of Azerbaijan and was known as a politician.

The poet's work has been studied in many ways. This article examines the relationship of his work with folklore, classical literature and history. Because these industries require joint research. Folklore, classical literature and history in the works of Molla Panah Vagif appear separately and interconnected.
**Key words:** Molla Panah Vagif, folklore, classical literature, history

Azərbaycan ədəbiyyatında öz dəsti-xətti ilə seçilən, yaratdığı əsərlərlə oxucuların rəğbətini qazanan şairilərdən biridir Molla Pənah Vaqif. Onun müxtəlif janrlarda yaratdığı şeirləri istər mövzu, istərsə də üslub baxımından diqqəti cəlb edir. O yalnız Azərbaycan ədəbiyyatında deyil, tarixində də xüsusi bir mövqeyə malik olmuş, böyük siyasi xadim kimi tanınmışdır.

Şairin yaradıcılığı müxtəlif tərəflərdən tədqiqata cəlb edilmişdir. Burada isə onun yaradıcılığının folklor, klassik ədəbiy-

yat və tarix əlaqələrinə nəzər salacağıq. Çünki bu sahələr daima birgə tədqiqatı tələb edir. M.P.Vaqif Azərbaycan klassik ədəbiyyatı, xalq ədəbiyyatı məhsullarının mövzu, forma və janrlarından faydalanaraq dil və mövzu cəhətdən daha güclü əsərlər yaradan nümayəndələrdəndir.

Azərbaycan ədəbiyyatının inkişafında zəngin, çoxcəhətli yaradıcılığı ilə mühüm xidmətləri olan M.P.Vaqif folklorun da gözəl bilicilərindən olmuşdur. Bunu yazıçının əsərlərində rast gəldiyimiz folklor nümunələri, yaradıcılığının təbiiliyi, axıcılığı, xalq ruhuna yaxınlığı təsdiq edir. Şairin əsərlərinə nəzər saldıqca adları çəkilən sahələr arasındakı əlaqələrin müxtəlif tərəfləri ilə rastlaşmaq olar.

Kamran Əliyevin də qeyd etdiyi kimi, "yazılı ədəbiyyatın folklorla əlaqəsi sənətkarın dünyagörüşündən, həyat hadisələrinə münasibətindən və daha çox xalqa bağlılığından asılıdır" (4, 15). M.P.Vaqif də xalqın bir nümayəndəsi kimi hər zaman onların arasında olmuş, xalq danışıq dilinə, üslubuna biganə qalmamış, ona bağlı olmuşdur. Onun şeirlərində folklor nümunələrindən istifadə də məhz bu səbəbdəndir. Əgər hər hansı bir şair xalq arasında yaşamasa, onunla daima ünsiyyətdə olmasa, onun yaşadıqlarını bölüşməsə yaratdığı əsərlər də xalq ruhundan uzaq, quru və mənasız olar. Onun istər el gözəllərinin folklorik təsviri, istər müxtəlif folklor personajlarına müraciəti, istərsə də folklor janrlarından şeirlərində məharətlə istifadəsi şeirlərinin cəmiyyətin hər bir təbəqəsi tərəfindən sevilməsinin səbəbidir. "Vaqif əsərlərində, xüsusən qoşmalarında onun bədii dili son dərəcə canlı, sadə və aydındır. Bədii ifadə vasitələri canlı xalq dilindən gələn təbii və səmimi ifadələrdir. O, heca vəzninin müxtəlif şəkillərində yazdığı kimi təqtiləri, qafiyə, rədif və başqa xüsusiyyətlərilə də aşıq qoşmalarından fərqlənməyəcək dərəcədə xalqa yaxındır" (2, 291).

Şairin yaradıcılığında rast gəlinən folklor obrazlarından biri Xızırdır. "Xızır dini əfsanələrdə dirilik suyu içib əbədi yaşayan və darda qalanlara kömək edən əfsanəvi bir şəxsiyyətdir" (6, 245).

Biz Xızır obrazını müxtəlif folklor mətnlərində görə bilərik. Məsələn, “Kitabi-Dədə Qorqud” eposunda da Xızır obrazı iştirak edir. Biz bu obraza “Dirsə xan oğlu Buğac boyu”nda rast gəlirik (5, 137). Dirsə xanın qırx nökəri Buğacın boynuna şər atıb, xanı ona qarşı qızışdırırlar. O da oğlunu oxla vurub yaralayır. Yaralı Buğac yerdə yatarkən Boz atlı Xızır peyda olub, üç dəfə yarasını əli ilə sığallayır və ona dağ çiçəyi ilə ana südünün mərhəm olacağını deyir. Beləliklə, Buğac sağalır və intiqamını alır. C.Bəydili qeyd edir ki, “Xızır əfsanələrə görə qaranlıq dünyadakı dirilik suyunu içib yaşayan və ölüb dirilən təbiəti simvolizə edərək əbədiyyətin rəmzinə çevrilən mifik varlıqdır. Orta Asiya (qırğız) türkləri ona “Kıdır” deyirlər. Adına həmçinin “Xızır Ata” deyilir və ondan yardım istənilir. Sufi inanclarında Xızırın bir vəli (övliya) olduğu düşünülür..” (3, 151).

Bu haqda məlumatı olan Vaqif də bəzi şeirlərində Xızır obrazına müraciət etmişdir. Məsələn,

Səvadi namənin, ey dil, məgər zülmati-heyvandır,
Ki, ruhum Xızır tək ondan bəsa kəsbi-kamal etdi (6, 145).

Şairin müraciət etdiyi digər bir əfsanəvi obraz isə Şeyx Sənandır:

Gülab səpilibən dəyəndə şana,
Qoxusu çulğaşır cümlə cahana,
*Döndəribdir məni Şeyx Sənana,*
Nə din qoyub məndə, nə iman zülfün (6, 81).

Əfsanədən də bildiyimiz kimi Şeyx Sənan gürcü qızını sevdiyindən müsəlman ikən dönüb xristianlığı qəbul etmiş, otuz il donuz otardıqdan sonra sevgilisinə çatmadığı üçün məhv olmuşdur. Bu şeirdə də məhəbbət uğrunda hər şeydən keçməyə hazır aşiq mənasında işlədilir (6, 245).

Folklorun kiçik janrlarından olan atalar sözü və məsəllər də M.P.Vaqif şeirlərində tez-tez istifadə edilən nümunələrdir. Şair bu nümunələrə yaratdığı bədii əsərlərin dilinin lazımlı bədii elementi kimi baxmışdır. O, qəhrəmanlarının xarakterik xüsu-

siyyətlərini, cərəyan edən hadisələrə öz münasibətini ifadə etmək, milli koloritin yaradılmasına imkan yaratmaq üçün onlardan yeri gəldikcə istifadəni labüd saymışdır. Məsələ, şairin şeirlərindən birində oxuyuruq:

Siyah zülfün buxaq altda qayrılır,
Ala gözlər can almağa sayrılır,
"*Canandan ayrılan candan ayrılır*"
Xalq içində bir misaldı, sevdiyim! (6, 52)

Yaxud da:

Keçən işdən mərd igidlər pozulmaz,
Atalar deyibdir: "Tökülən dolmaz".
Qatıq üçün qışda ağlamaq olmaz,
İnşallah, gələn bahar, ağlarsan! (6, 220)

Xalqda "Dost yolunda əzaba düşənin el içində üzü ağ olar" (1, 278) şəklində işlənən atalar sözünü şair "*Dost dostun yolunda düşər ziyana; İgid gərək tab gətirə dayana*" (6,12) kimi işlədir.

M.P.Vaqif şeirləri ilə tanış olan hər bir oxucu bilir ki, onun yaradıcılığında əsas, aparıcı mövzu el gözəllərinin vəsfidir. Qadın bir obraz olaraq müxtəlif sahələrdə aparıcı rola malik olmuşdur. Xüsusilə də keçmiş, indiki və gələcək zamanlarda qadının cəmiyyətin inkişafındakı rolu danılmazdır. Bunu istənilən xalqın tarixi, ədəbiyyatı, folkloru və s. də təsdiq edir. Belə ki, türk xalqları mifologiyasında, ilkin inanc formalarında qadın xüsusi yer tutur. Mifoloji və folklor mətnlərinə nəzər saldıqda qadın yaradıcı, tanrı, əcdad, demiurq, şaman və s. kimi qarşımıza çıxır. Məsələn, mifoloji mətnlərdəki qadın obrazına ən bariz nümunə Ulu Anadır. Mifoloji Ulu Ana bir neçə dəfə transformasiyaya uğrayan, bir neçə statusdan keçən bir kompleksdir. Mifoloji dünya modelində Ulu Ananın yeri yaradıcı, bolluq-bərəkət hamisi olmaq kimi funksiyalarla səciyyələnir... O həyatverici gücə, ölümsüzlüyə malikdir (3, 372-373).

Ümumiyyətlə, qədim zamanlardan qadın həyatın bütün çətinliklərini kişi ilə bölüşür. Əcdadlarımız anlayırdılar ki, yalnız sağ-

lam, təhkimlilikdən azad edilmiş və müstəqil qadın sağlam nəsl saxlaya bilər. Qadına ehtiram və onu ilahiləşdirmək məhz bununla bağlıdır. Fiziki güc və dözümlülük baxımından mifik qadınlar kişilərdən əsla geri qalmır. Buna görə dastanlarımızda qadının yalnız gözəllik və ağılı deyil, həm də güc-qüvvəti də təriflənir.

M.P.Vaqif yaradıcılığındakı qadınların eposlardakı qadınlarla oxşar tərəfləri çoxdur. Şairin aparıcı obrazı olan qadın gözəlliyi ilə dastan qəhrəmanlarından heç də geri qalmır:

*Sərv boylum, bir çıx, görüm boyunu,*
*Onda qurban edim canı mən sənə...* (6, 23)

Şairin digər bir şeirində oxuyuruq:

*Sona cığası tək sərində teli,*
*Ağ gül yarpağı tək ayağı, əli,*
*Cismi dolu, nazik bədəni, beli,*
*Görməmişəm dilbər bu nəzakətdə* (6 18).

Gözəli tərif edən belə sətirlərin sayını artırmaq mümkündür. Bu misralar onu göstərir ki, M.P.Vaqif şeirlərindəki gözəllər dastanlarımızdakı gözəllərin davamıdır:

*Bəri gəl, başımın baxtı, evimin taxtı!*
*Evdən çıxıb yeriyəndə sərv boylum!*
*Toğununa sarmaşanda qara saçlım!*
*Qurulmuş yaya bənzər çatma qaşlım!*
*Qoşa badam sığmayan dar ağızlım!*
*Payız almasına bənzər al yanaqlım!*
*Qadınım, dayağım, döl verənim!* (5, 133).

Şair tərif etdiyi qadını mifoloji varlıqlarla müqayisə edir:

*Ya bədrlənmiş bir mahi-tabansan,*
*Ya cənnət bağında güli-xəndansan,*
*Ya mələksən, ya da huri qılmansan*
*Ey sevdiyim, insan kim deyər sənə?* (6, 24)

Mifoloji mətnlərdə tez-tez rast gəldiyimiz mələk obrazı əsasən xeyirxah olur. Çox vaxt gözlə görünmür və əsasən də xeyirxah personajdır. Buna görədir ki, gözəli də təsvir edəndə mə-

lək ifadəsindən istifadə edilir. Xalq inamında da bir növ qoruyucu ruhdur.

Folklor nümunələrindən əlavə şairin şeirlərinin təsir gücünü artıran cəhətlərdən biri də onun klassik dövr ədəbiyyat nümayəndələrinin ən mühüm əsərlərinin qəhrəmanlarını öz şeirlərinə gətirməsidir. Bunlara nümunə kimi Leyli, Məcnun, Fərhad, Xosrov, Şirin, Şəkər, Vərqa, Gülşa, Yusif və s. obrazları göstərə bilərik:

*Bahari-ömrünü versə də başa,*
*Aşıq məşuqədən usanmaz, haşa!*
*Fərhad Şirin üçün sığındı daşa,*
*Məcnunun ovlağı Leyli dağıdır* (6, 107).

Burada folklor və klassik ədəbiyyatın qarşılıqlı əlaqələrinin də şahidi oluruq. Bildiyimiz kimi adları çəkilən bu obrazlarla bağlı folklor mətnləri də mövcuddur. Belə ki, xalq arasında "Leyli və Məcnun ulduzu" adlı mifoloji mətn var. Bu mətndə qısa şəkildə deyilir ki, Leyli ilə Məcnun sevgili olur. Yay olanda Məcnun Leylini çıxardır dağa, özü gəlir arana. Qış olanda da özü gəlir dağa, Leylini gətirir arana (7). M.P.Vaqif yaradıcılığında klassik ədəbiyyatın bu obrazlarının folklor variantından da istifadə danılmazdır.

Vaqif yaradıcılığının bir də tarixi tərəfi vardır. Onun şeirlərində bir sıra tarixi adlara da rast gəlinir. Məsələn, Qacar sülaləsinin ilk hökmdarlarından Ağa Məhəmməd şah Qacar; XVIII əsrdə Qarabağ xanı olmuş İbrahim xan, Vaqifin müasirlərindən olan Məhəmmədxan bəy, Sarı Çoban oğlu, Hətəmxan ağa və s. Adları çəkilən bu tarixi şəxsiyyətlərə müraciət şairin tarix səhifəmizdə də mühüm yerinin olması ilə də bağlıdır.

Bildiyimiz kimi folklor və tarix əlaqələri folklorun istənilən janrlarında özünü göstərir. Folklor örnəyində müxtəlif tarixi şəxsiyyətlər, hadisələr yer ala bilər. Ona görə də folklor və tarix elmi daima birgə, əlaqəli şəkildə araşdırılmalı, biri digərindən bəhrələnməyi bacarmalıdır. Vaqif yaradıclığında isə bu əlaqənin başqa bir şəklinə rast gəlirik. Belə ki, Vaqif Ağa Məhəmməd şahın qəzəbindən qurtarıb, həbsxanadan çıxdığı zaman dostu Vi-

dadiyə "Bax" rədifli şeirini yazır. Şeirin bir hissəsində şair şah tərəfindən cəzaya məhkum edildiyini, ancaq bundan canının qurtulduğunu da qeyd edir. O, şahın əlindən qurtarmasını bir rəvayətlə müqayisəli şəkildə verir. Rəvayətin qısa məzmunu belədir ki, bir dəmirçini öldürmək isyətən şah, ona bir gecədə qırx min at mıxı hazırlamağı əmr edir. Dəmirçi səhərə qədər yatmır, ölüm saatını gözləyir. Səhər tezdən şahın adamları qapını kəsdirir. Ancaq onlar at mıxı yox, gecə ölmüş şahın tabutu üçün dörd mismar hazırlamağı xahiş edirlər:

*Qurtaran əndişədən ahəngəri-biçarəni*
*Şah üçün ol midbəri təbdil olan mismarə bax!* (2, 289)

Vaqif burada tarixi şəxsiyyətlə folklor nümunəsini əlaqələndirib. Nəticədə folklora müraciət edərək həmin tarixi şəxsiyyət haqqında fikirlərini daha təsirli şəkildə verməyə müvəffəq olmuşdur.

Son olaraq deyə bilərik ki, Molla Pənah Vaqif yaradıcılığında folklor, klassik ədəbiyyat, tarix bəzən ayrı-ayrılıqda, bəzən də əlaqəli şəkildə təzahür edir. Şair bu üsulla şeirlərini daha maraqlı, təsirli şəkildə oxucuya çatdırmağın üstünlüyünü əldə edə bilmişdir.

## QAYNAQLAR:


1. Atalar sözü. Bakı, Yazıçı, 1985, s. 278.
2. Azərbaycan ədəbiyyatı tarixi (XVII-XVIII əsrlər). Bakı 1956, s. 291.
3. Bəydili C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.
4. Əliyev K. Molla Pənah Vaqif relaizmi və folklor. "Kaspi" qəzeti. 10 iyun 2017-ci il, s.15
5. Kitabi Dədə Qorqud / Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə Fərhad Zeynalov və Samət Əlizadənindir. Bakı: Yazıçı, 1988, 265 s.
6. Molla Pənah Vaqif Əsərləri. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1960.
7. Şərur folkloru. Şəxsi arxiv, 2012.

# MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA XƏBƏRLƏŞMƏ MOTİVİ

**Gülnar Osmanova**
*AMEA Folklor İnstitutu*
*gulnar.osmanova05@gmail.com*

**Özət**

M.P.Vaqif poeziyası xalq ruhuna, xalq zövqünə yaxın bir poeziyadır. Onun yaradıcılığında xalqın etnoqrafiyası, adət-ənənələri, mərasimləri öz parlaq əksini tapmışdır. Şifahi xalq ədəbiyyatı üslubunda yazıb-yaradan şairin şeirlərində bir çox xalq ifadələrinə tez-tez rast gəlinir. Məqalədə məhz Vaqif poeziyasında və folklorda özünü göstərən xəbərləşmə motivindən bəhs olunur. Qeyd edək ki, bu motiv şairin yaradıcılığında badi-səba (səhər yeli) və durna obrazları ilə simvollaşır.

**Açar sözlər:** M.P.Vaqif, folklor, xəbərləşmə, simvol, bədii xitab, badi-səba, durnalar

**Гюльнар Османова**

**Мотив общения в творчестве Молла Панах Вагифа**

**Резюме**

Поэзия М.П. Вагифа близка духу, вкусу народа. В его творчестве нашли свое яркое отражение этнография, обычаи-традиции, обряды народа. Часто в стихотворениях поэта, творившего в стиле устного народного творчества встречаются многие народные выражения. В статье речь идет о мотиве общения, который проявляется именно в поэзии Вагифа и фольклоре. Следует отметить, что этот мотив в творчестве поэта, символизируется образами бади-саба (утренний ветер) и журавля.

**Ключевые слова:** М.П. Вагиф, фольклор, общение, символ, художественное обращение, бади-саба, журавли

**Gulnar Osmanova**

## The motif of communication in Molla Panah Vagif's activities

**Summary**

M.P.Vagif's poetry is close to the spirit, the taste of the people. Ethnography, customs, traditions, rituals of the people have found their bright reflection in his works. There are many folk expressions in the poems of the poet who created in the style of oral folk art. The article deals with the motif of communication, which manifests itself in Vagif's poetry and folklore. It should be noted that this motif in the poet's works is symbolized by the images of badi-saba (the morning wind) and the crane.

**Key words:** M.P.Vagif, folklore, communication, symbol, artistic appeal, badi-saba (the morning wind), cranes

Azərbaycan ədəbiyyatı tarixində, xüsusilə də poeziyada realist yaradıcılıq prinsipi, həyatın gerçək bədii təsviri, ilk növbədə, Molla Pənah Vaqifin adı ilə bağlıdır. Şair ilk dəfə olaraq, həyat həqiqətlərini və məhəbbət duyğularını olduqca real və təbii şəkildə təsvir edərək yeni bir ədəbi məktəbin əsasını qoymuşdur. Bu ədəbi məktəbin əsas xüsusiyyəti reallıqla yanaşı, həm də xəlqilikdir. Vaqif poeziyası, ilk növbədə, xalq ruhuna, xalq zövqünə yaxın bir poeziyadır. Prof. K.Əliyevin təbirincə desək: “Yazıçı və folklor əlaqələri təbiiliyə əsaslanmalıdır. Yazıçının folklordan istifadəsi heç vaxt məqsədli xarakter daşımamalıdır” (3, 15). M.P.Vaqif də məhz dövrünün folklora bağlı olan şairlərindəndir. Onun yaradıcılığında xalqın etnoqrafiyası, adət-ənənələri, mərasimləri öz parlaq əksini tapmışdır. Şifahi xalq ədəbiyyatı üslubunda yazıb-yaradan Vaqifin şeirlərində bir çox xalq ifadələrinə, folklorda da özünə möhkəm yer tutan motivlərə tez-tez rast gəlinir. Belə motivlərdən biri də xəbərləşmədir. Bu motiv şairin yaradıcılığında badi-səba (səhər yeli) və durna obrazları ilə simvollaşır.

Badi-səba istər divan ədəbiyyatında, istərsə də xalq şeirində önəmli yer tutur. Qeyd edək ki, ədəbiyyatımızda səbanın aşiq ilə məşuq arasında bir vasitəçi olduğuna dəfələrlə rast gəlirik. Məlumdur ki, səba sevgilisindən ayrı düşən aşiqə xəbər gətirən, onun əhvalını isə məşuqəyə yetirən, sərhəd tanımayan ən mahir qasiddir. Bu mənada "badi-səba", yəni səba yeli ədəbiyyatımızda ən aktiv poetik müraciət, daha doğrusu, bədii xitab ünsürüdür. Məsələn, M.P.Vaqifin "Doldu dimağıma zülfün ənbəri" misrası ilə başlayan qoşmasında belə deyilir:

Doldu dimağıma zülfün ənbəri,
Valeh oldu könül həvadən sənə.
Əlim yetməz – namə yazıb dərdimi
Göndərirəm badi-səbadən sənə (8, 30).

Burada aşiqin badi-səbadan istəyi odur ki, onun yazdığı məktubu sevgilisinə çatdırsın. Belə aydınlaşır ki, deməli, səba yeli sevən, lakin bir-birindən ayrı düşən aşiqlərin tez-tez üz tutduğu obraz olub, onların sözlərini bir-birlərinə çatdırır.

Badi-səba, bir xəbər ver könlümə,
Ol güli-xəndanım neçün gəlmədi?
Xəyalım şəhrini qoydu viranə,
Sərvərim, sultanım neçün gəlmədi? (8, 39).

Bu qoşmada da ayrılıq anlayışını təqdim etmək üçün badi-səba obrazından istifadə edilmişdir. Aşiq səhər yelindən sevgilisinin görüşə gəlməməsinin səbəbini xəbər alır. O, səhər yelindən xahiş edir ki, sevgilisinin pərişan halını soruşsun, onun halını sevgilisinə çatdırsın, sevgilisinin fikrini öyrənsin.

"Göz qaldı yollarda, can intizarda" misrası ilə başlayan qoşmada:

Gör hesabın mən çəkdiyim azarın,
Bu dadü fəryadın, bu ahü zarın,
Badi-səba, əgər düşsə güzarın
Söylə xəlvət bu həmraza bir xəbər (8, 99).

Vaqif burada badi-səbanın əsmək, xəbəri hər yerə çatdırmaq imkanından poetik ustalıqla bəhrələnmişdir. Onun bir sıra qoşmalarında aşiq səhər küləyi ilə dərdləşir, halını ona danışır. Çünki ayrılıq həsrəti ilə yanan aşiqi səhər yelindən başqa anlayan yoxdur. Aşiq badi-səbaya inanır, onu özünə dost sayır, ona görə də sirlərini onunla paylaşır.

"Sevdiyim, ləblərin yaquta bənzər" misrası ilə başlayan qoşmada:

Bir namə yazmışam can üzə-üzə,
Badi-səba, apar sən o gül üzə,
Soruşsa yar ki, bu kimdəndir bizə?
Söyləgilən: – Sizin divanədəndir (8, 110).

Vaqif qoşmalarla yanaşı, bir neçə müxəmməs və müəşşərlərində də badi-səba obrazına müraciət etmişdir. Məsələn, "Əla ey təxtigahi-mədələt sultanı, xoş gəldin!" misrası ilə başlayan müxəmməsində:

Səni badi-səbamı eylədi agah halımdan?
Eşitdin yoxsa bir səs naleyi-bietidalımdan?
Nə müddətdir xəyalın çıxmamışdır xud xəyalımdan,
Fəğanım guşinə yetdi, xəbər verdi məlalımdan,
Kim ərz etdi, gətirdin dərdimə dərmanı, xoş gəldin?!
(8, 189)

"Ey büti-tutizəban, gəl ki, məqalın istərəm" misrası ilə başlayan müəşşərdə:

Ta gəlir gəh-gəh mənə badi-səbadan kağızın,
Canımı mədhuş edər ənbər həvadən kağızın,
Bərgi-gül tək düşməz ol ətri-fəzadan kağızın,
Sanki bir əttardir gəlmiş Xətadən kağızın (8, 212).

Yaxud "Ey rəngi-rüxi-alına heyran gülü lalə" misrası ilə başlayan müəşşərdə:

Bir kərrə düşəndə xəbər al badi-səbadən,
Saçın həvəsi gör ki, məni saldı nə halə? (8, 215).

Şair bu müəşşərlərində də badi-səba obrazından öz qəhrəmanının əhvali-ruhiyyəsi, vəziyyəti haqqında yarına məlumat göndərmək üçün simvol kimi istifadə etmişdir.

Ümumiyyətlə, ədəbiyyatımızda badi-səba bir obraza çevrilib konkret funksiya daşımışdır. Məlumdur ki, sevgililərin bir-biri ilə görüşüb danışması müşkül məsələ idi. Odur ki, şairlərimiz öz şeirlərində gənclərin bir-birinə sözünü, etirafını çatdırmaq vəzifəsini badi-səba üzərinə qoymuşdular. Məsələn, klassik şairimiz M.Füzuli də bu obraza tez-tez müraciət etmişdir.

Səba, əğyaridən pünhan, ğəmim dildara izhar et!
Xəbərsiz yarımı hali-xərabimdən xəbərdar et! (4, 79).

Yaxud,

Qıl, səba, könlüm pərişan olduğun canana ərz,
Surəti-halın bu viran mülkün et sultanə ərz (4, 169).

Badi-səbaya müraciət XIX əsr şairimiz Seyid Əbülqasim Nəbatinin ədəbi irsində daha çoxdur:

Səba, bu məhcuri bir şad eylə sən,
Yetir bu peyğamı canana məndən:
Niyə bu məcnunu etmiş fəramuş?
Nədən ötrü olub biganə məndən? (7, 157).

S.Ə.Nəbati irsindən başqa bir nümunəni – “Gəlsin, gəlməsin” rədifli qoşmanı da göstərə bilərik:

Səba, məndən söylə o gülüzarə,
Bülbül gülüstanə gəlsin, gəlməsin?
Bu hicran düşkünü, illər xəstəsi,
Qapına dərmanə gəlsin, gəlməsin? (7, 147).

XIX əsr Azərbaycan poeziyasının digər bir qüdrətli nümayəndəsi Qasım bəy Zakirin lirik qəhrəmanın – aşiqin dilindən söylənən “Gəlsin” rədifli qoşması da badi-səbaya müraciətlə başlayır. Aşiq səba – səhər yeli vasitəsilə öz sevgilisinə sifariş göndərərək onu gözəllərlə gəzintiyə çağırır:

Badi-səba, söylə mənim yarıma,
Gözəllər çıxıbdır seyranə gəlsin.

Təğafül etməsin, işrət çağıdır,
İçilir hər yerdə peymanə gəlsin (10, 165).

Q.Zakir yaradıcılığından başqa bir nümunə:

Badi-səba, mənim dərdi-dilimi
Ol büti-zibayə dedin, nə dedi?
Ahü naləm asimana yetdiyin
Gərdəni minayə dedin, nə dedi? (10, 164).

Bu qoşmada şair küləyin azadlığını, sərhəd tanımadığını, bir növ ruhani nəfəs olduğunu nəzərə alıb onun üzərinə qasidlik missiyasını qoyur.

Azərbaycan xalq dastanlarında da biz badi-səba obrazına tez-tez rast gəlirik. Məsələn, "Əsli və Kərəm" dastanında Kərəm keşişgilin ardınca gedərkən yolda səhər vaxtı sərin bir meh başlayır. Bu vaxt Kərəm Sofiyə deyir:

– Sofi, dayan mən xan Əslimi bu badi-səbadan xəbər alacağam:

Əylənmir ki, yardan xəbər sorayım,
Əsib-əsib gedən badi-səba hey!..
Qırılsın baisin qolu, qanadı,
Heç kimsə düşməsin yardan cida hey!.. (1, 40).

İstər yazılı ədəbiyyatdan, istərsə də folklordan gətirilən bu cür nümunələrin sayını kifayət qədər artırmaq olar.

M.P.Vaqif yaradıcılığında xəbərləşmə motivinin simvollarından biri də durnadır. Durna qəriblərin müraciət etdikləri həsrət obyekti olan bir obrazdır. Qeyd edək ki, durna həm folklorumuzda, həm də yazılı ədəbiyyatımızda daha çox aşiqin qürbət sıxıntısı ilə bağlı özünə yaxın və həmdərd bilərək üz tutduğu obrazdır. Vaqif də "Durnalar" qoşmasında bu obraza müraciət edərək, durnaların hansı diyardan gəldikləri, həsrətində olduğu cananı görə bildikləri haqqında bir xəbər bilmək istəyir:

Bir zaman havada qanad saxlayın,
Sözüm vardır mənim sizə, durnalar!
Qatarlaşıb nə diyardan gəlirsiz?

Bir xəbər versəniz bizə, durnalar!
Xeyli vaxtdır, yarın fərağındayam,
Pərvanə tək hüsnün çırağındayam,
Bir ala gözlünün sorağındayam,
Görünürmü, görün, gözə, durnalar! (8, 96).

Durnalar mövzusuna M.V.Vidadi və Q.Zakir də müraciət etmişlər. Hər iki şairin qoşmalarında şeirin əsas ideyası vətən məhəbbətinin, qürbət sıxıntısının bədii ifadəsidir. Lakin Q.Zakirin "Durnalar" şeirində ictimai məzmun daha güclüdür.

Bir baş çəkin dərdməndin halına,
Ərzə yazsın, qələm alsın əlinə,
Vidadi xəstədən Bağdad elinə
Siz yetirin bir nişana durnalar! (9, 20).
Laçın yatağıdır bizim məkanlar,
Yavaş-yavaş gedin, səsiniz anlar.
Qorxuram toxuna ötən zamanlar,
Sürbəniz dağılıb çaşa, durnalar! (Q.Zakir) (10, 167-168)

Durnalar poetik müraciət ünsürünə Azərbaycan şifahi xalq ədəbiyyatının nümunələrində də rast gəlinir. Məsələn, "Əsli və Kərəm" dastanında Kərəm keşişin Gürcüstana tərəf getdiyini öyrənəndə elə həmin gün Gürcüstana getməyin binasını qoydu. Bir müddət yol gedəndən sonra Kərəm çölün düzündə göylə gedən bir qatar durna gördü. Kərəm durnaları görən kimi sazını sinəsinə basıb, görək durnalardan nə xəbər aldı:

Qatar-qatar göy üzündə süzürsüz,
Əylən, durnam, əylən, xəbər sorayım.
Bizim yurddan nə xəbərlər bilirsiz?
Əylən, durnam, əylən, xəbər sorayım.
Dərdli Kərəm deyər: hardan gələrsiz?
Xan Əslimin yerin, yurdun bilərsiz,
Görsəz, ona məndən salam deyərsiz,
Əylən, durnam, əylən, xəbər sorayım (1, 27).

Bundan sonra Kərəm üzünü Sofi lələyə tutub deyir:

– Sofi lələ, görürsənmi, bu durnalar bizim ellərə gedirlər. Qoy bunlarnan elimizə bir xəbər göndərim:

Durnam, gedər olsan bizim ellərə,
Yaxşı söylə başdan keçən halları.
Qohum-qardaş, dost, müsahib olanlar
Bundan sonra gözləməsin yolları (1, 28).

Dastandan gətirilən başqa bir nümunədə Kərəm yenə durnalara xitab edərək deyir:

Göydə süzən bölük-bölük durnalar,
Nədir sizin əhvalınız, halınız?
Bir ərzi-hal yazım, yara yetirin,
Dost yanına düşər isə yolunuz (1, 47).

Burada da Kərəm ayrı düşdüyü yarına – Əsliyə məhz durnalar vasitəsilə xəbər çatdırmaq istəyir.

Ümumiyyətlə, "Əsli və Kərəm" dastanında Kərəm badi-səba və durnalardan başqa qurd, qaya, meşə, çay, körpü, ceyran, dağ, xaraba qalmış şəhərlə də xəbərləşir.

"Koroğlu" dastanında da Koroğlunun dilindən durnalara xitab olunur. Burada Koroğlu Eyvazı durnalardan xəbər alaraq deyir:

Gögdən ötən beş durnalar,
Bax gör, Eyvəz görünürmü?
Bir-birindən piş durnalar,
Bax gör, Eyvəz görünürmü? (6, 84)

Azərbaycan türklərinin mifoloji inamına görə, göydən durna qatarı uçan vaxt daşa toxunmazdılar ki, səfləri pozulardı. Prof. C.Bəydili bu barədə qeyd edir ki, "əski, mifopoetik və ənənəvi dünyagörüşdə kainatın öz nizamı, öz sahmanı, düzümü vardır. Bu nizam içində nə isə bir nəsnə yerindən edilsəydi, hansının sırası dağıdılsaydı, bütövlükdə həmin sahmanın da pozulacağına inanılardı" (2, 72). Odur ki, həmin düşüncənin izləri sonrakı çağlarda da inanclarda yaşamağa davam etmişdir.

Xəbərləşmə motivinə biz oğuz türklərinin möhtəşəm salnaməsi olan "Kitabi-Dədə Qorqud" eposunda da rast gəlirik. Məsələn, Qazan xanın su, qurd, yurdu ilə "xəbərləşmə"sini göstərə bilərik. "Qazanın önünə bir su gəldi. Qazan deyir: Su haq didarın görmüşdür, bən bu suyla xəbərləşim – dedi. Görəlim, xanım, necə xəbərləşdi? Qazan aydır:

Çağnam-çağnam qayalardan çıqan su,
Ağac gəmiləri oynadan su,
Ordumun xəbərin bilürmisin, degil mana!
Qara başım qurban olsun, suyum, sana" (5, 47-48).

Beləliklə, istər klassik ədəbiyyatda, istərsə də xalq şeirində badi-səba və durnalar bir obraza çevrilib konkret funksiya daşımışdır. Şairlər, o cümlədən M.P.Vaqif də sevən qəhrəmanlarının bir-birinə etirafını, ürək sözünü məhz badi-səba və durnalar poetik müraciət ünsürləri – bədii xitabları vasitəsilə çatdırmaq istəmişlər.

## QAYNAQLAR:


1. Azərbaycan dastanları. Beş cilddə. II cild. Bakı, "Lider nəşriyyat", 2005, 448 s.
2. Bəydili (Məmmədov) C. Xaos anlayışı mifologiyada // "Ortaq Türk Keçmişindən Ortaq Türk Gələcəyinə" II Uluslararası Folklor Konfransının materialları. Bakı: 2004, s. 71-77
3. Əliyev K. Molla Pənah Vaqif realizmi və folklor. "Kaspi" qəzeti, 10-12 iyun 2017, s. 15
4. Füzuli M. Əsərləri. Altı cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2005, 408 s.
5. Kitabi-Dədə Qorqud Ensiklopediyası. 2 cilddə. I cild. Bakı: Yeni Nəşrlər Evi, 2000, 624 s.
6. "Koroğlu" dastanı. Bakı, "Səda", 2005, 752 s.
7. Nəbati S.Ə. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 216 s.
8. Vaqif M.P. Əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 264 s.
9. Vidadi M.V., Vaqif M.P. Əsərləri. Bakı, "Çaşıoğlu", 2004, 328 .
10. Zakir Q. Seçilmiş əsərləri. Bakı, "Avrasiya Press", 2005, 400 s.

# MOLLA PƏNAH VAQİFİN BAYATI OVQATLI QOŞMALARI

**İslam Sadıq**
*filologiya üzrə elmlər doktoru,*
*AMEA Folklor İnstitutu*
*islamsadiq1953@yahoo.com*

**Özət**

Vaqif böyük ustalıqla xalq ədəbiyyatından bəhrələnmişdir. Belə mənbələrdən biri də bayatılardır. Vaqifin bir sıra qoşmaları bayatılarla yaxından səsləşir. Müəllif məqalədə bu səsləşməni konkret nümunələr əsasında araşdırır.

**Açar sözlər:** Vaqif, qoşma, bayatı, bəhrələnmə, bənzərlik

**Ислам Садыг**

**Кошмы М.П.Вагифа созвучившихся с баяты-четверостишиями**

**Резюме**

Вагиф с большим мастерством питался устного народного творчества. Один из таких источников были баяты-четверостишия. Ряд кошмы Вагифа очень близко созвучатся с баяты-четверостишиями. В данной статье автор исследовал этих созвучий на конкретных примерах.

**Ключевые слова:** Вагиф, кошма, баяты, питание, сходство

**Islam Sadig**

**Molla Panah Vagif goshmas's (form of an Azerbaijani poem) alike bayati**

**Summary**

M.P.Vagif very skillfully derived advantage from folk-lore. One of his derived advantage sources is bayati. Some of goshmas is alike bayati. In the article were discovered these alikes.

**Key words:** Vagif, goshma, bayati, alike, derived advantage.

Molla Pənah Vaqifin araşdırıcıları, hər şeydən əvvəl, onun yaradıcılığındakı xalq ruhundan, dilinin saflığından, axıcılığından və gözəlliyindən, fikrin ifadə aydınlığından danışırlar. Bu da təsadüfi deyil. Vaqif körpəliyindən xalqın yaratdığı zəngin söz xəzinəsi ilə tərbiyələnmiş, onun ilhamı bu çeşmənin gözündən su içmişdir. Vaqif sözlü ədəbiyyatın digər janrları ilə yanaşı, bayatılardan da bəhrələnmişdir. Şairin qoşmalarındakı bayatı şirinliyi, duzluluğu, qafiyələrin poetik düzümü, ayrı-ayrı misra və bəndlərin canına hopmuş xalq ruhunun varlığı bu fikri söyləməyə əsas verir. Məhz bütün bunlara görə, Vaqifin qoşmalarını bir dəfə eşitməklə yadda saxlamaq, bir dəfə oxumaqla əzbərləmək olur.

Vaqifin bir çox qoşmalarında bayatıların təsiri açıq-aydın duyulur. Məsələn, onun "Gəlin" rədifli qoşmasından aşağıdakı bəndə baxaq:

Səni sevən əqli, kamalı neylər,
Dəxi görmüş özgə camalı neylər,
Bu dünyada mülkü, o malı neylər,
Hər kim olsa sənin ilən yar, gəlin! (1, s. 86)

Şairin bu bəndi ilə çox yaxından səsləşən bir bayatımız var:

Qara at nalı neylər,
Qara qaş xalı neylər.
Vəfalı yarı olan
Dövləti, malı neylər. (2, s. 68)

Qoşmada və bayatıda eyni fikir ifadə olunmuşdur. Hər iki dördlükdə deyilən əsas fikir budur ki, bir gözəl, vəfalı yarı olanın dünyada mal, mülk, dövlət nəyinə lazımdır. Bayatıda "vəfalı yar" ifadəsi işlənsə də, qoşmada belə deyim yoxdur. Lakin Vaqifin "Gözəlin" rədifli qoşmasındakı "Vaqifəm, qaçaram mən bivəfadan, Qurbanıyam bir vəfalı gözəlin" (1, s. 82) misralarına söykənib deyə bilərik ki, yuxarıdakı bənddə şair də vəfalı yardan danışır. Burada şairin və bayatı ustasının duyğuları, düşüncələri üst-üstə düşdüyü kimi, onları ifadə etmək üçün seçdikləri sözlər də az qala bir-birinin eynidir. Sözlər arasındakı azacıq fərqlər fikirlərin ifadəsindəki

eyniliyi gizlədə bilmir. Hər iki örnəkdə “Sənin kimi gözəl, vəfalı yarı olan dövləti, mülkü, malı neylər” fikri açıq-aydın duyulur.

Aşıq Ələsgərin “İncimərəm” rədifli qoşmasında da eynilə bu fikrə rast gəlirik:

Əlli yol çapılam, yüz yol talanam,
Bir şey deyil dövlət, mal, incimərəm. (3, s. 10).

Aşıq Ələsgər də Vaqif və bayatı ustası kimi, düşünür ki, bir vəfalı yarın yanında dövlətin, malın heç bir dəyəri yoxdur. Ona görə əlli yol çapılsa da, yüz yol talansa da, itirdikləri onu qorxutmur.

Burada bayatıdan bəhrələnmənin iki yolu mümkündür:

1. Vaqif də, Ələsgər də birbaşa bayatıdan bəhrələnmişdir;
2. Vaqif bayatıdan, Aşıq Ələsgər isə Vaqifdən bəhrələnmişdir.

Hər iki halda ilkin qaynaq bayatıdır.

Bir bayatıda aşiq öz yarına başqa qurbanı layiq bilmir, özünün ona qurban olmağına hazırdır:

Mən aşiq sözüm qurban,
Qoy olsun gözüm qurban.
Yara qurban nə lazım,
Ona mən özüm qurban. (2, s. 49)

Vaqifin şeirlərində biz bu fikrə tez-tez rast gəlirik. Onun şeirlərində “Vaqifəm, qaçaram mən bivəfadan, Qurbanıyam bir vəfalı gözəlin” (1, s. 82). “Durub qurban olmaq sən tək qonağa, Nuşdur canımıza, qurban olduğum” (1, s. 74) kimi misralar yetərincə çoxdur. Lakin şairin “Ağlayır” rədifli qoşmasından götürülmüş aşağıdakı misralar yuxarıdakı bayatı ilə daha yaxından səsləşir:

İnsaf deyil, qurban deyəm qoyundan,
Ona qurban canım, neçün ağlayır?” (1, s. 127)

Göründüyü kimi, Vaqif də, bayatı qoşan da deyir ki, yara özüm qurban olan yerdə başqa qurban nə lazımdır?! Sevgilisinə qurban olmaq sevən üçün bax bu qədər xoşdur.

Vaqifin qoşmalarında və baytılarımızda gözəllər huriyə, qılmana, mələyə bənzədilir, bəzən onlardan da yüksək tutulur.

Bu ucalıq gəlib o həddə çatır ki, sevənlər öz sevgililərini qiblə sayırlar, onların səcdəsinə dururlar. Bunu aşağıdakı bayatılarda aydın görmək olur:

Gözlərim axdı sənə,
Axdıqca baxdı sənə.
Mən səni qiblə bildim,
Qıldım beş vaxtı sənə (2,s.27).

Dağ başında əsən, dur,
Yollarımı kəsən, dur.
Aləm Kəbəyə dönsə,
Mənim qibləmə sən dur (2,s.72)

Vaqifin qoşmalarında bu fikirlə yüklənmiş misralar yetərincə çoxdur. Şair də öz sevgilisini qiblə yerində görür və onu özünün Kəbəsi, Məkkəsi, Mədinəsi adlandırır. "Hər kəsin dünyada bir qibləsi var, Mən də yönüm sənin sarı tutmuşam" (1, s. 56), "Mən Vaqifəm, kuyin mənə Kəbədir, Şükrilillah, müsəllaya dönmüşəm" (1, s. 62), "Mollalar məskəni səri-kuyundur, Onu görən dönər Kəbədən, gəlin!" (1, s. 85), "Mənim yarım deyil ol Kəbədən kəm, Xal həcərül-əsvəd, dəhanı zəm-zəm" (1, s. 91), "Kəbəyi-kuyini görən kimsənə Nə zaman qibləyi ziyarət eylər" (1, s. 109), "Ey Kəbəm, Kərbəlam, Məkkəm, Mədinəm, Bir zaman kuyində ziyarətimdir" (1, s. 113), "Didarını görmək iman tazələr, Qaşı qiblə, üzü Kəbə gərəkdir" (1, s. 126), "Bir Kəbə ziyarət, qiblə nümalı" (1, s. 144) misralarının hamısında gözəlin üzü Kəbə adlandırılır, özünün heç də Kəbədən kəm olmadığı vurğulanır. Hətta gözəlin gözəlliyi onu görəni Kəbədən döndərə bilir. Bütün bu hisslər, duyğular xalqın yaratdığı bayatılardan süzülüb Vaqifin qoşmalarına hopmuşdur.

Bayatılarımızda gözəlin ağzı, dili şəkərə, dodağı bala bənzədilir. Hətta bəzi hallarda gözəlin dodaqlarının şirinliyi şəkəri, qəndi unutdurur. Məsələn:

Aşıq dolandı bəndi,
Gəzdi mahalı, kəndi,

Ləblərindən kam alan
Neylər şəkəri, qəndi? (2, s. 34)

Üzündə xal kimindi?
Başında şal kimindi?
Ləblərin şəhdi-şəkər,
Dodağın bal kimindi. (2, s. 35)

Əziziyəm en bəri,
Dolan dağdan en bəri.
Ləblərin görən neylər
Görə bir də ənbəri. (2, s. 39).

Bu hisslərlə, duyğularla yoğrulmuş misralar Vaqifin qoşmalarında həm çoxdur, həm də onlara bir bayatı şirinliyi, kövrəkliyi aşılanmışdır. Şairin "Dodağı şəkərdir, göftarı şərbət" (1, s. 24), "Ləbiyin ləzzətin bənzətdi qəndə, Dəhanını şəhdü şəkkər eylədi" (1, s. 41), "Danışanda qəndü şəkkər tökülür, Dilin, dodaqların baldı, sevdiyim" (1, s. 60), "Nə şəhdi-şəkkərdə, nə nəbatda var Ləblərində olan ləzzət, sevdigim!" (1, s. 68) misraları bayatılarla yaxından səsləşir.

Vaqifin bir sıra qoşmalarında seçilmiş qafiyələr, sözlərin düzümü bayatıları xatırladır. Onları oxuyanda yaddaşımızda istər-istəməz bir bayatı baş qaldırır, qulaqlarımıza oxşar səslər gəlir. Bunlar təsadüfi deyil, bayatılar körpəlikdən Vaqifin ruhuna, iliyinə, qanına hopmuşdur və onlardan da şairin misralarına süzülüb onun qoşmalarına bir şirinlik, duzluluq, gözəllik aşılamışdır.

## QAYNAQLAR

1. Molla Pənah Vaqif. Əsərləri (Tərtib edəni Həmid Araslı). Azərbaycan Dövlət Nəşriyyatı. Bakı. 1968.
2. Bayatılar (Toplayanı və tərtib edəni Həsən Qasımov). "Azərnəşr". Bakı. 1960
3. Aşıq Ələsgər. Gözüm bir alagöz xanıma düşdü (Toplayanı İslam Ələsgər, Tərtib edəni Muxtar Qaradaşlı). "Yazıçı". Bakı. 1993.

# MOLLA PƏNAH VAQİF VƏ QAZAX AŞIQ MÜHİTİ

**İlhamə Cəlal qızı Qəsəbova**
*filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*ilhame92@mail.ru*

**Özət**

Məqalədə Qazax aşıq mühitinin aşıq və el şairlərinin yaradıcılığında M.P.Vaqifin rolu və təsiri araşdırılmışdır. M.P.Vaqifin adı ilə bağlı olan "Vaqif Gözəlləməsi" aşıq havası haqqında yazılmış və havanın müəllifinin kimliyinin hələ də bəlli olmaması söylənilmişdir. Qazax aşıq və el şairlərinin şeirlərində M.P.Vaqifin adının fəxarətlə qeyd edilməsi və durna motivinə qoşulan şeirlər öz əksini tapmışdır.

**Açar sözlər:** M.P.Vaqif, Qazax, aşıq, Vaqif gözəlləməsi

**Илхама Гесебова**

**Молла Панах Вагиф и ащугское среда Газахского района**

**Резюме**

В статье рассматривается роль и влияние М. Вагифа в работе ашугского искусства и поэзии Газахского района Азербайджана. Была обсуждена песня ашуга под названием «Вагиф Гозалламаси» («Восхищение Вагифа»), которая связана с именем М. Вагифа и заявилас, что личность автора до сих пор не ясна. Газахские ашуги гордятся упоминанием имени Вагифа в своих стихах и часто используют мотив лебедя.

**Ключевые слова:** М.П. Вагиф, Газах, ашуг, «Вагиф Гозалламаси» («Восхищение Вагифа»)

**Ilhama Gasabova**

## Molla Panah Vagif and the of Gazakh ashug atmosphere

**Summary**

The article examines the role and influence of M. Vagif in the work of the ashug art and poetry of Gazakh region of Azerbaijan.The ashug song called "Vagif Gozallamasi"("Vagif's way of praising"), which is related with the name of M. Vagif has been discussed and stated that the author's identity is still unclear. Gazakh ashugs take pride in mentioning Vagif's name in their poems and use swan motive oftenly.

**Key words:** M.P.Vagif, Gazakh, ashug, "Vagif Gozallamasi"("Vagif's way of praising")

Azərbaycan mədəniyyətinin və ədəbiyyatının inkişafında bütün bölgələrin fəal rolu olduğu kimi, Qazax mahalının da rolu böyükdür. XX yüzili Qazax aşıq mühitinin kamilləşmə dövrü adlandırmaq daha doğru olar. Əsrlər boyu Qazax bölgəsi sazın-sözün, şeirin sənətkarlıq qüdrətini özündə qoruyub saxlaya bilib. M.P.Vaqif, M.V.Vidadi və onların müasiri olan Səməd Vurğun, O. Sarıvəlli poeziyası, ədəbiyyata yenilik gətirdiyi kimi aşıq yaradıcılığına və el şairlərinin əsərlərinə də müsbət təsir göstərmişdir. Bu baxımdan M.P.Vaqifin Qazax aşıq mühitinə təsiri böyükdür. Saz öz tarixi etibarilə çox qədim musiqi aləti olub bugünkü mənasında və formasında XVI əsrdən sonra görünməyə başlayıb. Klassik poeziyamızın nümayəndəsi olan M.P.Vaqif də saz haqqında öz əsərlərində müəyyən məlumatlar vermiş, onu hörmətlə xatırlamışdır. M.P.Vaqif Azərbaycan poeziyasının ideya-sənətkarlıq və janr-üslub cəhətdən yeni nəaliyyətlər qazanmasında öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkar olmaqla yanaşı əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirərək milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan verib. Azərbaycan şeiri Vaqifin sayəsində

özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur ki, bu da öz təsirini Qazax aşıq mühitində də biruzə verib. Aşıqlar məclislərdə ifa etdikləri “Vaqif gözəlləməsi”, “Vaqifi” havaları buna nümunədir. M.Allahmanlı və bəzi aşıqlar bu havaların M.P.Vaqif tərəfindən yaradıldığını söyləsələr də düşünürük ki, bu fikir olduqca yanlışdır. (1,74,75) "Vaqif gözəlləməsi" havasına aşıqlar arasında "Köhnə gözəlləmə" deyənlər də vardır. Təbiidir ki, havacatlar aşıq mühitlərində fərqli adlarla ifa edilə bilir. Məsələn Borçalıda “Hüseyni” havası, Gəncəbasarda xüsusən də Qazaxda “Dastanı” adı ilə ifa olunur. Borçalıda “Minə gəraylısı” Qazax mahalıda “Sallama gəraylı” kimi ifa olunur.(4,174)

"Vaqif gözəlləməsi" aşıq havası istər Qazax aşıqlarının istərsə də digər mühitin aşıqlarının günümüzdə də ifa etdikləri havalardandır. Bu havanın ustad aşıqlarla yanaşı sevindirici haldır ki, gənc aşıqlarımız da böyük şövqlə ifa edirlər. İllərdi bu havanın ustündə M.P.Vaqifin qoşmaları ifa edilsə də daha çox Aşıq Ələsgərin "İncimərəm" qoşması oxunur.

M.P.Vaqif dili olduqca oynaq rəvan olduğundan onun şeirlərinə asanlıqla müsiqi yazılıb. Şərq poeziyasının klasssik formalarından istifadə edən şair qoşma, müxəmməs, qəzəl, müstəsad, müəşşəra və s. şeir növlərində yazıb-yaratmışdır. Onun yaradıcılığının böyük qismi əsasən aşıq yaradıcılığında daha çox istifadə edilən qoşma təşkil edir.

Vaqif təkcə aşıq yaradıcılığına deyil S.Vurğun yaradıcılığına da böyük təsir etmişdir. S.Vurğunun "Vaqif" dramı buna misal olmaqla yanaşı həm də şairin özünün yazdığı kimi, şair hələ uşaq ikən Vaqif yaradıcılığının təsiri altında olmuş, Vaqifin gözəl şeirləri, aydın dili onun yaradıcılığına böyük təsir göstərmişdir. Səməd Vurğun ilk şeirlərini də Vaqifin təsiri altında yazmışdır. Vurğunun fikrincə, Vaqif gözəllik şairidir. Lakin onun gözəlləri "hurilər", "pərilər" deyil, yerli qızlarıdır, həm də Azərbaycan qızlarıdır. Başı kəlağayılı, toylarda kəklik kimi süzən qız-gəlinlər, real insanlardır. Akademik İsa Həbibbəyi də Va-

qifin şeirlərini yaşadığı dövrün təkcə real mənzərəsi yox, nəbzi, ruhu kimi əks etdirilmişdir. Onun tərənnüm etdiyi gözəllər şair xəyalının obrazları olmayıb, həyatda mövcud olan "ellər yaraşığı, ölkə gözəli"nin həqiqi və təbii obrazlı ifadəsindən ibarətdir. Vaqifin şeirləri təsvir etdiyi gözəllər kimi, bədii ifadə vasitələri ilə də yenidir. Şairin yanağı laleyi-baharı kimi, ləbləri yaqutun kənarı kimi, bir dənə nasüftə mirvari kimi, zülfü ya bənəfşə, ya səmən kimi ilhamla vəsf etdiyi Azərbaycan gözəli həm də ağıllı-kamallı,"işarə anlayıb, hal biləndir"

Tavus kimi cilvələnə hər səhər,
Bəzək verə camaına sərbəsər.
Dindirməmiş verə könüldən xəbər,
İşarə anlayıb, hal bilən gərək.

Molla Pənah Vaqifin şeirlərində tərənnüm edilən "gərdəni minadan", "ağ əlləri əlvan hənadan", "şəkər gülüşlü", "sinə meydan, zülf pərişan, bel nazik", "ənniksiz-kirşansız", "ellər yaraşığı - ölkə gözəli" olan Azərbaycan gözəli ədəbiyyatımızda yeni bədii obraz idi. Vaqifin Azərbaycan gözəllərinə aid etdiyi "yaşılbaş sona" obrazı gözəlliyin ümumiləşmiş bədii ifadəsidir. Vaqif "yaşılbaş sona"nı "əcəb seyrəngahı" olan Azərbaycan milli-mənəvi varlığının əsas siması kimi tərənnüm etmişdir. Bu, böyük Füzulinin "qönçə ağızlı, sərv boylu, səməni üzlü" gözəlindən fərqli olan, real həyatdan gələn, xalq düşüncəsi ilə təsvir edilən gözəlliyin ümumiləşmiş bədii obrazı idi.

Aşıq Canallı Məmməd, Ağköynək Məmmədyar, Aşıq Avdı, Aşıq Məhəmməd, Aşıq Bəhram, Şair Temraz, Şair Qulu, Şair Həvəskar və bir çox aşıq və el şairləri yaradıcılığında M.P.Vaqif təsiri böyükdür. Qazax aşıqlarının məhəbbət mövzulu lirik şeirlərində klassik sənətdən gələn, Vaqifin də dediyi kimi "qəddi çinar", "beli nazik", "gümüş kəmər", "qələm qaşlı", "xumar gözlü", "bəxtəvər" kimi ifadələr daha çox işlənir. Aşığın məhəbbət şeirində təsvir sevdiyi gözəl bal dodaqlı, lalə yanaqlı, dili dərmandır. Aşıq belə bir gözəlin eşqinə görə minnət hissi keçirir.

Aşağıdakı qoşma bu baxımdan klassik aşıq şerinin gözəl nümunələrindən biri sayıla bilər:

Hüsnün mərhəmətinə ziyarətim var
Üzü lala, yanaxları al gülüm
Hökmün var, daha oldum beyqərar
Dili dərman, dodaqları bal gülüm.

Soruşum əhvalını sıxım əlini
Qoy bilim məqsədini, xiyalını
Xəstənəm təbibim, kəsmə yolunu
Hərdən dolan bu yanlara gəl gülüm.

Bilirəm deməzsən necoldu Avdı
Onun cəsədini yandırdı odu
Kənar gəzmə bircə sənsən muradı
Sinəsinin sazı, tarı ol, gülüm. (2, 220)

Qazax aşıqlarının şeirlərində daha çox məhəbbət motivi özünü göstərir. Aşıqlar şeirlərində sevgiliyə olan saf məhəbbəti özünəməxsus boyalarla təsvir etməklə gözəlləri asta yerişli, kəklik gülüşlü, ceyran baxışlı, gül camallı, şirin dilli, ismətli, həyalı adlandırır, onların sevgisini uca tuturlar. Burada maraqlı nüans aşıqların çox vaxt sevgililərinin adını gizli saxlamaları, onlara İsmi Pünhan, Leyli, Mehriban, Sarıtel və ya ümumi bir sifətlə ay gözəl, laləm, bənövşəm deyə xitab etmələridir. Bu cəhətdən Aşıq Avdı Qaymaqlının yaradıcılığı spesifikdir:

Sən bağımsan, bağbanımsan,
Sən olubsan, gülüm, Sənəm.
Görürsən ki, mehmanınam,
Sizə düşüb yolum Sənəm. (2, 52)

Vaqifin şeirlərində isə daha real – Pəri, Zeynəb, Fatimə, Yetər, Safiyə kimi adlar, XVIII əsrdə ədəbiyyata gələn yeni milli obrazdır.

Saçın zəncirinə könül bağladım,
Məcnun kimi düşdüm dağa, Fatimə.
Neçin məni görcək sərxoş ötürsən,
Bir baxmazsan sola-sağa Fatimə! (6)

Klassik aşıq poeziyasında ceyranla bərabər durna, kəklik, turac motivi kimi quşlara da şeirlər qoşulmuşdur. Ancaq hər bölgənin, aşıq mühitinin özünəməxsus mövzu repertuarı olduğundan təbiətin gözəl heyvan və quşları müxtəlif səviyyələrdə təmsil olunmuşdur. Təbii burada bölgəyə spesifik olan heyvan və quşların da mühim yeri vardır. Klassik aşıq poeziyasının, məhəbbət dastanlarımızın ayrılmaz mövzusu olan durna motivi həsrətin, sevginin, vüsalın simvolu, gözəlliyin rəmzidir. M.P.Vaqif yaradıcılığında durna motivi sanki poçtalyon, xəbər daşıyandır.

Bir zaman havada qanad saxlayın,
Sözüm vardır mənim sizə, durnalar!
Qatarlaşıb nə diyardan gəlirsiz?
Bir xəbər versəniz bizə, durnalar!

Ancaq bu məlum mövzu Qazax aşıqlarının və el şairlərinin yaradıcılığında yeni çalarlarla təsvir olunmuşdur. Şair Həvəskar "Göyçəyə" qoşmasında durnaya belə müraciət edir:

Ay önü Göyçəyə uçan durnalar,
Polat libasını geyməmiş olma.
Alı xatirinə, İmam eşqinə,
Ələsgər qəbrinə dəyməmiş olma. (3,464)

Hər bir bölgədə olduğu kimi Qazax aşıqları da doğma yurdum şairləri, mütəfəkkirləri ilə öyünür və onların şəninə şeirlər yazırlar.

Vidadi, Vaqif gətirən,
Ətirli güllər bitirən.
Vurğunu xalqa yetirən,
Vətənimdi, vətənimdi (3, 212).

Şair Hacı Qaymaqlının yaradıcılığında da Vaqif, Vidadi və Vurğun adı fəxrlə çəkilir.

Vidadı vətəni, Vaqif diyarı,
Vurğun tək oğlu var fəxri-vüqarı.(5,85)

M.P.Vaqif yaradıcılığı ümumilikdə XX yüzil Qazax aşıq mühitinə çox böyük təsir etmişdir.

## QAYNAQLAR


1. Allahmanli M. Azərbaycanın qərb bölgəsinin mənəvi mədənıyyətindən. Bakı: Nurlan, 2011,173s
2. Avdı Qaymaqlı, İncəgülü, Bakı: İncə nəşriyyat evi, 2009
3. Qəsəbova İ, XX əsr Qazax aşıqları və el şairləri, Bakı: Nurlan, 2009
4. Qəsəbova İ, XX əsr Qazax aşıq mühıtı, Bakı: Elm və təhsıl, 2015
5. Qaracayev H, Dağ Ceyrana, Ceyran dağa yaraşır, Bakı: Nurlan, 2008, Toplayıb tərtib edən İ.Qəsəbova
6. Əlioğlu M. Məhəbbət və qəhrəmanlıq, Bakı:Yazıçı, 1979

# MOLLA PƏNAH VAQİF VƏ AŞIQ YARADICILIĞI

**Mahmud Allahmanlı**
*filologiya elmləri doktoru, professor*
*Azərbaycan Dövlər Pedaqoji Universiteti*
*m.allahmanli@mail.ru*

**Özət**

Molla Pənah Vaqif XVIII əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsidir. Şairin yaradıcılığında diqqəti cəlb edən problemlərdən biri onun aşıq yaradıcılığından istifadəsidir. O, xalq ədəbiyyatından, xalq ədəbiyyatı ustalarının yaradıcılığından məharətlə istifadə etmişdir.

Sonrakı dövrlərdə onun şeirlərinin təsiri altında poetik nümunələr yaradılmışdır. Aşıqlar onun yaradıcılığından bəhs edən "Vaqif" dastanını yaratmışlar.

**Açar sözlər:** Molla Pənah Vaqif, Azərbaycan ədəbiyyatı, aşıq yaradıcılığı, dastan.

**Махмуд Аллахманлы**

**Молла Панах Вагиф и ашугское творчество**

**Резюме**

Молла Панах Вагиф является самым выдающимся представителем Азербайджанской литературы XVIII века. Одним из исследуемых проблем в его творчество – это уровень использования им ашугской литература. Он искусно использовал народную литературу, творчество мастеров народной литературы.

Под воздействием его стихотвореней выдающимся мастерами последуюшего периода были созданы поэтические образцы. Ашугами был создан дастан «Вагиф», повествующией о его творчестве.

**Ключевые слова:** Молла Панах Вагиф, Азербайджанская литература, ашугское творчество, дастан.

**Mahmud Allahmanli**

**Molla Panah Vagif and ashug creativity**

**Summary**

The most prominent representative of the Azerbaijani literature of the 18th century is Molla Panah Vagif. One of the investigative problems in his creativity is the utilization of ashug creativity. He masterfully mastered the masterpieces in his folk literature. In the subsequent period, outstanding artists of ashug creativity created poetic examples under his poems. The auguries about M.P.Vagif created the epic "Vagif".

**Key words:** Molla Panah Vagif, Azerbaijani literature, ashug creativity, dastan.

XVIII əsr Azərbaycan ədəbiyyatının görkəmli sənətkarı M.P.Vaqifin yaradıcılığında sistemli təhlil olunmalı, araşdırılmalı kifayət qədər ciddi problemlər var ki, onlardan biri də Vaqif və aşıq yaradıcılığıdır. S.Mümtaz, Ə.Abid, Ə.Müznib, Y.V.Çəmənzəminli, F.Köçərli, H.Araslı, A.Dadaşzadə, P.Əfəndiyev, N.Cəfərov və başqaları bu kontekstdə məsələyə diqqət yetirmiş və lazımı qədər gərəkli mülahizələr yürütmüşlər. Onun zəngin yaradıcılığı genetikası etibarilə milli düşüncənin hadisəsi olaraq etnos ruhunun əsas qaynağına bağlanır. Məhz bu səbəbdən də XVIII əsrə qədərki ədəbiyyatda M.P.Vaqif qədər xalqa yaxın sənətkar olmamışdır. Aşıqların könül dostu kimi uca tutulmuşdur. Ona görə də elə ilk vaxtlardan şeirləri el-el, oba-oba ustadların repertuarında dolaşmış, məclislərin bəzəyinə çevrilmişdir. Çünki Vaqif yaradıcılığının enerji qaynaqlarının başlanğıcında xalq poeziyası, xalqın zəngin yaradıcılığı, ozandan, aşıqdan gələnlər dayanır. Klassik poeziyaya da məhz oradan gəlmişdir. Ustad sənətkarların məclisində olub onların çalıb oxuduqlarını mənimsəməklə ədəbiyyatda ilk addımlarını atan M.P.Vaqif sonralar özü də aşıqlar üçün bir örnək, istinad mənbəyi olmuşdur.

Vaqif zənginliyinin millilik modeli, bədii əksetdirmənin funksional səciyyəsi bütün təfərrüatı ilə ozandan aşığa təbii proses kimi özünü göstərir. Dədə Qorquddan üzü bəri olanları Vaqifə gələn yolda həm daha milli olan, həm də daha təbii görünən kimi təhlildən keçirmək gərəyi yaranır. Bunu tipoloji müqayisələrdə də aydın şəkildə görmək olur. Məsələn, XVII əsrin ustad sənətkarı Abbas Tufarqanlı ilə M.P.Vaqifin "Öp" rədifli qoşması müstəvisində yaxınlıqlara diqqət yetirək:

Könül, Məcnun kimi yayın dağlara,
Əyil, bu lalənin budağından öp!
Pərvanə tək dolan yarın başına,
Arala tellərin qabağından öp!

Kitabda oxunan sina yaxşıdı,
Seyrağıb gərdəni sına yaxşıdı,
Mən dedim, öpməyə sinə yaxşıdı,
Könül ha yalvarır, buxağından öp! (6, 82-83).

Aşıq yaradıcılığı milli düşüncənin elə möhtəşəm qaynağıdır ki, bütünlükdə mənəvi yaddaşın, arxetiplərin genetik kodları, ilkin elementləri burada özünə yer alır və əhatəlilik anlamında bir sonsuzluqla müşahidə olunur. Onun sistemi isə yaddaş mexanizmlərinə, sazın ecazkar ritminə hesablanır. Vaqif poeziyasının müdriklik, əzəmət və çılğınlıq qaynağı elə sazdır, "sazlar elində bəslənən könlü" elə bu müstəvidə də zirvələrə qalxmış, bədii düşüncəmizə əlavə ovqat qatmışdır. Bu yaxınlığın faktik nümunəsi timsalında Vaqifin eyni rədif üstündə yazılmış qoşmasına baxmaq kifayətdir.

Bir mina gərdənli, gül üzlü yarın,
Hər axşam, hər səhər yanağından öp.
Durub dolan pərvanə tək başına,
Sığalla tellərin qabağından öp.

Bir gözəl görmüşəm bu gələn kəştə,
Fərağı başında, sevdası başda,

Hər axşam, hər səhər sultanı çaşda,
Qaldırıb çənəsin, buxağından öp (18, 83).

Göründüyü kimi, bu iki nümunə, mətn məzmunu, poetik strukturun ümumi proyeksiyası, ahəngi, arxitektonik sistemi ilə eyni anlamı verir və Vaqif yaradıcılığının ümumi sistemini, qaynaqlarını aydınlaşdırmaq üçün geniş imkanlar yaradır. "Sazlar elində" bəslənən ruhun qidası, mahiyyətinin faktı olaraq geniş təhlilləri aktlaşdırır. Məlum olduğu kimi, poeziya elə düşüncə formasıdır ki, orada etnosun ümumi təsəvvürlər sisteminin qəlibləşmiş formulları, bilgi və ruhu, duyğular aləmi bir bütöv olaraq özünə yer tapır. Ona görə də poetik mətnin əlahiddəliyi, işarələdiyi potensiya sırf etnos mədəniyyətinə hesablanır, hansı mədəniyyət ki, o dil, bədii-estetik qəliblərin hərəkəti, əxlaq kadeksləri, davranış elementlərinin hansı səviyyədə görünüşü ilə təzahür edir. Doğurdan da "sözün ifadəliliyi yalnız onun ifadə etdiyi mənadan yox, yəni yalnız onun leksik mənasından yox, həm də onun stilistik siqlətindən, eləcə də sözün akustik çalarından tutmuş assosiativ-emosional çalarlarına qədər başqa sözlərlə müxtəlif əlaqələrindən də asılıdır" (17, 61). Buna aşıq yaradıcılığı, ozandan aşığa gələnlər timsalında diqqət yetirdikdə daha çox tipoloji yönümdə təhlil gərəyi yaranır. Əlbəttə "Dədə Qorqud kitabı" bütün müstəvilərdə möhtəşəm abidədir, onun poetik sistemi, bütünlükdə arxitektonikası həm şifahi, həm də yazılı ənənədə ciddi təhlilləri aktuallaşdırır və bu inkişafın ümumi məzmununu aydınlaşdırmaq üçün ən əsaslı mənbə hesab oluna bilər.

"Kitabi-Dədə Qorqud"dan "Koroğlu"ya, "Abbas və Gülgəz"ə, "Əsli-Kərəm"ə, "Aşıq Qərib"ə, "Əmrah"a, "Tahir və Zöhrə"yə, "Valeh və Zərnigar"a gələn yol özünün möhtəşəmliyi, fakt zənginliyi, müxtəlifliyin təzahürü ilə son dərəcədə böyük əhəmiyyət kəsb edir. Vaqifə gələn yol bir istiqamətdə dastan müstəvisində "Kitabi-Dədə Qorqud"dan gələnlərlə səciyyələnir. Dədə Qorquddan Qurbaniyə, Abbas Tufarqanlıya, Qaracaoğlana, Lələyə, Sarı Aşığa, Xəstə Qasıma və s. olanlar kontekstində aydınlaşdırma-

ğın gərəkliyi görünür. Çünki M.P.Vaqif yaradıcılığı bütün tərəfləri ilə bu özül əsasında dayanmışdır. Onun əzəməti, sirri, ecazkarlığı buradan boy göstərir və bizi bu zənginliyə kökləməklə əsir edir.

"Kitabi-Dədə Qorqud" dastanları elə bir əzəmət nümunəsidir ki, ciddi təhlillərə, sinxron və diaxron yanaşmalara və lazımı nəticələrin ortaya qoyulmasına imkan yaradır. Burada mətnin fonopoetik sistemi özündə məzmunyaradıcı funksiyasında çıxış edir. Və "Koroğlu"ya gələn yolun genetikasını, dinamik mənzərəsini müşahidə etməyə, texnoloji sistemini müəyyənləşdirməyə imkan yaradır. Bu qəhrəmanlıq nümunəsi bizi təkcə məzmun baxımından təsirdə saxlamır, həm də bu məzmunun örtüyünün səciyyələndiyi sistemin məzmun yaratmada nələrlə təmsil olmasını aşkarlayır. Məlum olduğu kimi, "tarixi poetikamızda ənənəvi struktur tipləri formalaşmış və onlar getdikcə cilalanaraq kanonik bədii qəliblərə çevrilmişdir. Folklorda kanonik strukturun əhəmiyyəti o qədər güclənmişdir ki, o yalnız məzmuna xidmət edən yardımçı vasitə kimi qalmamış və əsərin mənasına təsir etməyə başlamışdır. Nağıl, dastan, qoşma, bayatı istilahlarının artıq özləri dinləyicidə müəyyən assosiativ mənalar doğurmuşdur. Yəni folklorda bədii struktur yalnız keyfiyyət deyil, həm də mahiyyətdir" (11, 15). "Dədə Qorqud kitabı", "Koroğlu", "Abbas və Gülgəz", "Əsli və Kərəm", "Aşıq Qərib", "Tahir və Zöhrə", "Qul Mahmud", "Səməd bəy" və s. bir dastan kimi poetik sistemi ilə təkcə məzmunu ifadə ilə yekunlaşmır, həm də bədii sxemin mahiyyət ölçüləri ilə təmsil olunur. Ona görə də türk dastan düşüncəsində kanonik sistemin mükəmməlliyi bütünlükdə bədii düşüncəni, onun arxaik yaddaşdan, ilkin qatlarından bu yana olanları təkcə özündə ehtiva etməklə kifayətlənmir, həm də təsirdə, hərəkətdə görünür. "Kitabi-Dədə Qorqud"dan "Koroğlu"ya, eləcə də "Kitabi-Dədə Qorqud"dan "Aşıq Qərib"ə gələn yol təkcə Azərbaycan dastan düşüncəsində olanlarla yekunlaşmır, burada daha geniş müstəvidə türk dastan yaradıcılığı təmsil olunur. "Yaradılış"dan "Kitabi-Dədə Qorqud"a gələnlər isə daha

əski təsəvvürə, ilkin olana, yaradılışın özündə görünənlərlə, mifə və daha əski olana bağlanır. Ona görə də bədii düşüncə o qədər laylı, həm də təfərrüatlı mədəniyyət hadisəsidir ki, orada etnos özlüyündə bütün olanları ilə ümumiləşir. Əfsanələr, rəvayətlər, nağıllar, atalar sözü və məsəllər, nə varsa hamısı ancaq məzmun ifadəsilə yekunlaşmır, burada formanın mükəmməlliyi məzmun yaratmanın, bədii şərtləndirmənin faktı olaraq nəzərə çarpır.

M.P.Vaqifin yaradıcılığı da təbiiliyin, xalqa ruh etibarilə yaxınlığın nümunəsi idi ki, faciəli ölümündən sonra yaddaşlarda onilliklər ərzində dolaşmağa başladı, sevilə-sevilə əzizləndi və təzədən yaddaşdan yazıya gəldi. Necə ki, biz dastan repertuarında, "Kitabi-Dədə Qorqud"da, "Koroğlu"da, "Qurbani"də, "Lətifşah"da, "Abdulla və Cahan"da, "Şah İsmayıl"da, "Şahzadə Əbülfəzl"də, "Məsum və Diləfruz"da, "Məhəmməd və Güləndam"da, "Avdı və Mehriban"da və başqalarında görürük. Xalqın təbiətində olan sahiblik missiyası onun ruhu, mənəviyyatı, bütünlükdə həyat tərzi, dünyagörüşü ilə bağlı olanlarla əlaqələnir. Ustad sənətkarlar el-el, oba-oba gəzərək məhz bu missiyanı yerinə yetirmək məqsədində olmuşlar. "Kitabi-Dədə Qorqud" dastanlarında vurğulanan "eldən-elə, bəydən-bəyə ozan gəzər, ər comərdin, ər nakəsin ozan bilər" formulu bütünlükdə ozanlığın mahiyyətini ifadə edir və bir düstur olaraq aşıqlığı, aşıqlığa gələn yolu və ondan sonranı da şərtləndirir. Burada bir məsələyə də diqqət yetirmək lazımdır ki, bu da folklor mətnində semantik informasiya qatı ilə bağlıdır. Belə ki, "semantiklik bədii strukturun digər xüsusiyyətini – qapalılığını tarazlayan açıqlıq və çevikliyini əsaslandırır: öz mahiyyətini saxlayacaq qədər qapalı və sərt olan bədii struktur, həm də tarixi təbəllüata, yeni mənalara uyuşacaq qədər açıq və mütəhərrik olmalıdır... Poetik struktur - məna potensiyası, yaradıcı təxəyyülü istiqamətləndirən bədii model, dünyaya baxış bucağıdır. Belə mənayaradıcı fəallıq bütün quruluş qatlarında – fonetik, morfoloji, leksik, sintaktik ünsürlərdə aşkarlanır" (11, 15). Ona görə də dastan yaradıcılığı bir

mədəniyyət layı kimi poetik potensiyası ilə bütün komponentlərin məcmusu olaraq bir bütövə, etnosu ifadəyə xidmət edir. Bədii modelin konstruksiyası mənayaradıcı tipində çıxış etməklə məzmunun təsir axarını şərtləndirir. "Dədə Qorqud kitabı"ndakı "on min ərdən yağı gördümsə, oyunum dedim, yigirmi min ər yağı gördümsə, yılamadım" təsəvvürü ancaq poetik struktur daxilində bütövləşir və onun uğurluluğundan aslı olaraq yaşam haqqı qazanır. Ozandan aşığa gələn yolda bu potensiya tamam başqa formada (əslində üzdə belədir, mahiyyətində, alt qatın dərinliklərində elə də fərqli deyildir), bədii modelin mükəmməl, biçimlənmə tiplərinin sabitləşməsi ilə səciyyələnir.

Mərd dayanar, namərd qaçar,
Meydan gumbur-gumburlanı.
Dəlilərim meydan açar,
Düşmən gumbur-gumburlanı (14, 336).

"Dədə Qorqud kitabı"ndan "Koroğlu"ya gələn dinamikanın mənzərəsi məhz bu nümunələrdə, ozan və aşıq söyləmələrində, dinləyici auditoriyasının ehtiyaclarında müəyyənləşir. S.Vurğun vurğulayırdı ki, hansısa vaxt gələr, Koroğlunun qəhrəmanlığının bəziləri unudular, ancaq Koroğlunun nəğmələri xalqın qəlbində əbədi yaşayacaqdır. Bu əbədiliyin sirri isə məna potensiyasının, bədii mətn strukturunun uğurluluğu ilə bağlıdır. Məsələnin mahiyyəti bundan ibarətdir ki, bu şedevrlər məhz xalq düşüncəsindəki təbii bir proseslə, sirri bir struktur sistemlə ozan düşüncəsindən ozan repertuarına istiqamətlənmişdir. Burada əriş-arğac yollar, xətlər görünür və bu isə şaquli və üfiqi yanaşmaları zəruri edir. Məsələn, folklorşünas P.Əfəndiyev "Molla Pənah Vaqif və Molla Cümə" adlı məqaləsində bu zənginliyi müşahidə edərək yazır: "Mən aşığın şeirləri üzərində işləyəndə hər dəfə hansısa bir sənətkarın şeirlərinin izi, təsiri, rayihəsi məni narahat edirdi, həvəsləndirirdi və həm də hər gün düşündürürdü. Nəhayət bu yaxınlarda böyük şairimiz Molla Pənah Vaqifin əsərlərini təzədən oxudum. Ulu Tanrı, Böyük Allah, bu nə möcüzədir!? M.P.Vaqif və

Molla Cümənin iki nəhəng, titanik sənətkarların yaradıcılığı arasında bağlar, tellər, oxşarlıqlar gördüm. Bunlar məni valeh elədi, əməlli-başlı müşahidələr apardım" (10, 290). Belə bir heyrətamizlik bütünlükdə aşıq yaradıcılığı boyu özünü göstərir. Dünya şöhrətli "Koroğlu" dastanından bir nümunəyə diqqət yetirək:

Bugünkü məclisdə bir gözəl gördüm,
Gözəllər səfində sana yaraşır.
Geyinib sallanan gözəllər çoxdur,
Tərlan kimi süzmək ona yaraşır.

Tutini bənd eylər şirin dilləri,
Şümşad barmaqları, nazik əlləri,
Gülabatın saçı, qara telləri,
Töküləndə dal gərdənə yaraşır (14, 71).

M.P.Vaqif yaradıcılığında buna bənzər nümunələr kifayət qədərdir və onun şeirlərinin mahiyyətini, enerji qaynaqlarını aydınlaşdırmaq üçün lazımı qədər əsas verir. Əlbəttə, "öz üslubunu təyin etmək və ona daim sadiq yaşayıb yaratmaq şair üçün səadətdir" (S.Vurğun) məsələsində M.P.Vaqif bütünlükdə özü üslub yaradıcısıdır. Məhz ədəbi-nəzəri fikirdə səslənən Vaqif məktəbi anlayışı bu üslub yaratmanın faktı kimi daha əhatəlidir, onun aydınlaşması isə sistemli araşdırmaları, ciddi təhlilləri zəruri edir. Vaqif yaradıcılığı ucu-bucağı görünməyən bir xəzinədir.

Söz yox danışanda şirin sözünə,
Nərgiz qurban olsun xumar gözünə,
Buxağına, gərdəninə, üzünə,
Xırda tellər danə-danə yaraşmış.

Ağ sinəndir təxti-Süleyman kimi,
Sallanırsan sultan kimi, xan kimi,
Pərişan zülf sənə yaraşan kimi,
Nə mələyə, nə insanə yaraşmış (18, 120).

"Koroğlu" dastanından verdiyimiz nümunə ilə Vaqif şeiri arasındakı yaxınlıq təkcə formal xarakteli ilə maraq doğurmur,

burada aşıq yaradıcılığından, sazın sehrli cingiltilərində hopub daşlaşmış bir ritm, simvolika nəzərə çarpır. Saz xalqın ruhunun səsi, onun qəlb pulsunun döyüntüləridir. Koroğludan Vaqifə, Vaqifdən Ələsgərə, bayatıdan qoşmaya, qoşmadan təcnisə, divaniyə qədər bir zənginliyi sərgiləyir. Bu zənginliyin kökləri çox əski zamanlardan başlamış və sonrakı çağlara gəlişi etnosun ruhu, düşüncəsi ilə birgə addımlamışdır. Mətndəki bənzətmələr, gözəlin camalının müxtəlif metaforik formullarla işlənməsi, paralellər, simvolik məzmunun işarələdiyi mahiyyət bizim diqqətimizi bədii mətnin füsunkarlığında ovsunlayır. Daha təfərrüatlı təəssüratın yaranması üçün XIX əsrin görkəmli sənətkarı Aşıq Ələsgərdən təxminən bu ruhda yazılmış bir nümunəyə diqqət yetirək.

Könlüm mayil olub siyah telinə,
Nazik barmağına, şümşad əlinə,
Əcəb qurşanıbdı incə belinə,
Gümüş kəmər qəddi-dala yaraşır.

Olmaz sənin kimi bir qönçə dəhan,
Behiştdən gəlibsən, ay huri, qılman!
Tutubsan dəstində bənövşə, reyhan,
Gülgəz yanağına lala yaraşır (2, 100).

Bu üç nümunə, "Koroğlu"dan, M.P.Vaqifdən və Aşıq Ələsgərdən verdiyimiz poetik mətn bizə fikirlərimizi aydınlaşdırmaq üçün lazımı qədər material verir. Bunların sayını daha da artırmaq olardı, ancaq bu nümunələrin müqayisəsi imkan verir ki, Vaqif yaradıcılığının mahiyyətini, ənənənin hansı səviyyədə yaddaşda təkrarlanmasını, dövriyyədə keçirdiyi prosesi izləyək. Əlbəttə, hər bir nümunə lazımı qədər poetik sistemin, mükəmməl bədii modelin üzərində qurulmuşdur və onun sistemi janr məzmununu, etnos mədəniyyətini, fonopoetik sistemin işləkliyini və dayanıqlığını, xarakterini müəyyənləşdirməyə əsas olur. Vaqifin qüdrəti, böyük sənətkar kimi ədəbiyyata töhfəsi, milli mədəniyyətin bütün komponentlərini məzmun və formul ele-

mentləri ilə birgə elə xalqdan götürüb xalqın olanı kimi təqdimidir. Bu onun bacarığının, fərdi qabiliyyətinin mühüm tərəfi kimi elə güclü olandı ki, öz dövründə və sonrakı çağlarda milli düşüncə kontekstində bütünlükdə intibahı şərtləndirdi. Vaqif milliliyin, milli olanın klassikidir və bütün olanları ilə burada təmsil olunur. Biz bədii mühitdə zaman // məkan müstəvisində məsələlərin şərhini və prosesin mütəhərrikliyini, siyasi mühitin nələrlə təmsil olunmasını və yazıçı təxəyyülündə və düşüncəsində hansı səviyyədə realizəsini bir tam olaraq görürük.

Vaqif yaradıcılığı bu mənada bədii-estetik düşüncənin meyarı olaraq Vidadi ilə həmahəngdir. Əlbəttə, münasibətlər səviyyəsində nə qədər baxış fərqlilikləri varsa, bir o qədər də, bəlkə də, ondan qat-qat da çox olan yaxınlıqları vardır. Heç şübhəsiz M.V.Vidadi Vaqif üçün ağsaqqal, böyük idi və ona məhz bu meyarla, dəyrlə yanaşırdı. Yaradıcılıq anlamında da bu belə görünür. Və hər ikisi də xalq ruhu üstündə köklənir, daha doğrusu, qaynağını "sazlar elindən alır, elə şeirlərini də bu sazlar üstündə kökləyir.

Gözəl boylu, gözəl xoylu, gözəl yar,
Nə gözəlsən, geyinibsən alı sən.
Gözəl gözün hər bir qıya baxanda,
Gözəl canı gözəl təndən alısan.

Gözəl qamət, gözəl gərdən, gözəl üz,
Gözəl olmaz sən tək olsa, gözəl yüz,
Gözəl canı munca yetər, gözəl üz,
Gözəl deyil, etmə, gözəl, alı sən (18, 130).

Burada fonopoetik simmetriya əvvəldən axıra qədər qorunur və şairin məram-məqsədinin ifadəsi, daha doğrusu çatdırılması üçün məzmunyaradıcı funksiyadan çıxış edir. Mətnin morfopoetik, sintaktik məzmunu da məhz eyni düşüncənin simvolikasını işarələyir, mətn // mətn, mətn // subyekt, mətn // mühit münasibətləri bir bütöv olaraq əvvəldən axıra qədər mahiyyətə yüklənir. Burada aparıcılıq və düşüncənin ağırlıq mərkəzi fono-

semantikliklə təzahür olunur. Eyni sistemi biz aşıq yaradıcılığının ustad sənətkarlarında da görə bilirik. Məsələn, Xəstə Qasımın "Tər gülər, sənəm" qoşmasına diqqət yetirək:

Tər getdim tər yarın tər xanəsinə,
Tər mehman, tər eylər, tər gülər Sənəm.
Tər xubdur, tər şuxdur, tər nazənindir,
Tər deyər, tər söylər, tər gülər Sənəm.

Tər zülfün, tər burmuş tər buxağında,
Tər bəyaz, tər əhmər, tər yanağında,
Tər şəkər, tər damar, tər dodağında,
Tər tutub, tər dişlər, tər gülər Sənəm (13, 33).

Əlbəttə, bu tip şeirlər yaradıcıdan xüsusi bacarıq, istedad tələb edir. Aşıq yaradıcılığında xüsusi bir forma kimi özünü göstərən bu cür nümunələr ustadların diqqətini həmişə cəlb etmişdir. M.P.Vaqif də, göründüyü kimi, bu zənginlikdən yaradıcılığında bəhrələnmiş və onun orijinal nümunələrini yaratmışdır. Vaqifin "gözəl", X.Qasımın "tər" sözü üstündə şeiri qurması və əvvəldən axıra qədər buna qanunauyğunluq kimi əməl etməsi bədii mətnin poetik sisteminə bir ahəngdarlıq gətirmişdir. Molla Cümənin, Mikayıl Azaflının yaradıcılığında da bu nümunələr kifayət qədər özünə yer tapır.

Bir zülfü ənbərə, qaşı peykərə,
Bir gözü xumara canım peşkəşdir.
Bir yanaq əhmərə, üzü qəmərə,
Bir dişi gövhərə canım peşkəşdir.

Bir ləbi sükkərə, dili şəkərə,
Bir sinə mərmərə, bəxti əxtərə,
Bir qəddi ər-ərə, təzə nübkərə,
Bir belə dilbərə canım peşkəşdir (9, 140).

Mikayıl Azaflının da yaradıcılığında bu tip nümunələr var ki, bunların hamısı aşıq yaradıcılığında özünü orijinal nümunə kimi göstərir və maraqlı fakt zənginliyi, formul müxtəlifliyi ilə mühüm əhəmiyyət kəsb edir.

Kimi həyat gəzir, kimi dövranı,
Kimi haqqı gəzir, kimi divanı,
Kimi qulluq gəzir, kimi cahanı,
Kimi saray, bağça-bağa aşiqdi.

Kimi dostu gəzir, kimi hörməti,
Kimi səxavəti, kimi mürvəti,
Kimi ədaləti, kimi sənəti,
Kimi vətən, namus, ara aşiqdi (5, 411).

Bunlar M.P.Vaqifdən sonra da, əvvəl də olmuşdur, sadəcə olaraq bu böyük sənətkar olanlardan yararlanmaqla, mükəmməl nümunələr yaratmış və yazılı ənənədə onun yaşamına yardımçı olmuşdur. M.P.Vaqif və Molla Cümə yaradıcılığı kontekstində müqayisələr aparan folklorşünas P.Əfəndiyev yazır: "İlahi, hər iki sənətkarın nə qədər də oxşar, yaxın əsərləri var. Elə bunların özü də sübut edir ki, Molla Cümə Vaqifi, onun dünya şöhrətli yaradıcılığını, xüsusilə də qoşma, təcnis və deyişmələrini yaxşı tanıyır və ürəklə bəhrələnirdi. Hər iki sənətkarın eyni bir şeiri üzərində müşahidələr aparmaq uğurludur.

**Vaqif:**

Gözəl qamət, gözəl gərdən, gözəl üz,
Gözəl olmaz sən tək olsa, gözəl yüz,
Gözəl canı munca yetər, gözəl üz,
Gözəl deyil, etmə, gözəl alı sən.

**Molla Cümə:**

Gözəlbircə, gözəl, dayanburada,
Gözəldərdimgözəldeyimsənəget,
Gözəlgünümgözəlqoydunqarada,
Gözəl, rəhmingözəleyləmənəget.

Vaqif Azərbaycanın aşıq sənətinin ənənələri üzərində pərvəriş tapmışdır. Onun bütün şeirləri öz köklərini Azərbaycan aşıqlarının şeirlərindən götürür. Beləliklə, Vaqif böyük ustad sənətkar, müəlim kimi formalaşmışdır. Bunun ikinci bir tərəfi də

var. Azərbaycan aşıq sənətinin ənənələrindən güc-qüvvət alan Vaqif sonralar özündən sonra yetişən aşıqların, ən böyük ustadları da daxil olmaqla ustadı olmuşdur. Vaqifdən sonra elə bir Azərbaycan aşığını tapmaq olmaz ki, o, böyük sənətkarın yaradıcılığından bəhrələnməmiş olsun" (10, 294-295).

Böyük sənətkarın Azərbaycan xalqının zəngin mədəniyyət hadisəsi olan aşıq yaradıcılığından yüksək ustalıqla bəhrələnməsi, onun həm də son olaraq aşıq yaradıcılığına güclü təsirini aktuallaşdırmışdır. M.P.Vaqif aşıq yaradıcılığından təkcə məzmunu, formanı, müəyyən klişeləri mənimsəməklə kifayətlənmədi, bundan daha əsas və öncə ruhu, sənətin genetikasını, simvolik sistemini, etnosun iç dünyasını mənimsədi. Ustad sənətkarların yaradıcılığı üzərində aparılan tipoloji təhlillər M.P.Vaqif şeirinin ənəndə hansı keyfiyyətlərlə səciyyələnməsini və özündən sonra gələnlərdə nələrlə özünü göstərməsini aydınlaşdırır. Ə.Abid xüsusi bir məqama toxunur və vurğulayır ki, "müqayisə edildiyi təqdirdə Qafqaz və Azərbaycan xanları sarayında heca vəzni daha qüvvətli bir inkişafa nail olmuşdur. Vaqifin qüvvətli şairliyi nəticəsində heca vəzni müasirlərinin haman həpsi tərəfindən kullanıyordu" (1, 165). Ona görə də "müasirlərinin haman həpsi" Vaqifin açdığı yolun davamçısı kimi milli oyanışın inkişafına və aydınlığına yardımçı olurdular. Məsələn, Vaqif təsirini aydınlaşdırmaq üçün "Oynasın" rədifli qoşması əsasında yaranmış nümunələrə diqqət yetirək. Vaqifdə oxuyuruq:

Başına döndüyüm toy adamları,
Siz də deyin toya gələn oynasın.
Adını demirəm eldən ayıbdı,
Filankəsin qızı, filan oynasın.

Nə müddətdi ona güvənən bizik,
Həsrətin çəkməkdən canımız üzük,
Hər əlinə alıb bir dənə üzük,
Üzüyü dəstinə alan oynasın (18, 79).

XIX əsr aşıq yaradıcılığının görkəmli ustad sənətkarı Aşıq Hüseyn Şəmkirlinin (1811-1891) eyni rədif üzərində yazdığı qoşma Vaqifin "qüvvətli şairliyi"nin təsiri altında yaranmışdır. Bu təsir M.P.Vaqifin bütünlükdə aşıq yaradıcılığına olan təsirinin nümunəsidir.

Aşıq Hüseyn Şəmkirlidə:
Bir tuba boyludu, zülfləri dəstə,
Dərdini çəkməkdən olmuşam xəstə,
Əhdindən dönməyən ucuz söz üstə
Dostunun qədrini bilən oynasın.

Duman gəldi, bu dağları bürüdü,
Ortalıqda olan pünhan sirr idi,
Bu məclisdə əyləşənin biridi,
Yaşmağın altından gülən oynasın (4, 15).

Axıska aşıq mühitinin ustad sənətkarlarından sayılan Xəstə Hasanın (1762-1848) yaradıcılığında da "Oynasın" rədifli şeirinin təsiri ilə yaranmış nümunəyə rast gəlirik.

Geyinib-kecinib toya gələnlər,
Amanat-amanat yar oynamasın.
Cavandı oynamaq ona xoş gedər,
Yüngüllük eyləyib tez oynamasın.

Dostla düşmən yığılıban baxallar,
Ağ əllərə əlvan həna yaxallar,
Töhmət edər, başımıza qaxallar,
Kələğay altından göz oynamasın (16, 108).

Aşıq Hüseyn Bozalqanlının eyni rədifli şeirinə də diqqət yetirək:

İltimas eyləyib nazlı dilbərə,
Mən demirəm ona, yox, oynamasın.
Görən cavanların xiyalı çaşır,
Oynasa da barı çox oynamasın.

Hərçəndi oynamaq ona yaraşır,
Siyah zülfü qamətinə dolaşır,
Açılır rübəndi, gözlər qamaşır,
Yayılır aləmə şox, oynamasın (7, 129-130).

Dədə Ələsgər də məhz bu rədifdə qələmini sınamış və öz istedadı ilə ənənənin davamlılığını göstərmiş, eyni zamanda Vaqif qüdrətinin böyüklüyünün təqdiminə yardımçı olmuşdur.

İltimas eyləyib gedən canlardan,
Dost-düşmən içində yar oynamasın.
Cavandı, oynamaq ona xoş gəlir,
Bizə əysikliyi var, oynamasın.

Xudam, mərdin işin salma müşkülə,
Əhli-dili yetir sən əhli-dilə,
Bülbülü gülə yaz, gülü bülbülə,
Qönçənin üstündə xar oynamasın (3, 120).

Göründüyü kimi, bu yaxınlıqlar bütün tərəfləri ilə üst qatda olanlardı və Vaqif təsirində olmanın birbaşa nümunəsidir. Onu da deyək ki, Vaqif yaradıcılığı elə zəngin ədəbiyyat, mədəniyyət hadisəsidir ki, orada etnosun əxlaq, mənəviyyat dəyərləri, etnoqrafik mədəniyyəti bir bütöv olaraq özünə yer alır.

Azərbaycan xalqının qədimdən müəyyənləşmiş mərasim folkloru bütünlükdə yazılı ədəbiyyat üçün bir mənbə olmuşdur. Ayrı-ayrı dövrlərdə yaşayıb-yaratmış şairlərimiz bu folklor mədəniyyətindən yararlanmaqla özlərinin əbədiyaşar əsərlərini yaratmışlar. Onların isə folklordan bəhrələnməsi müxtəlif səviyyələrdə nəzərə çarpır. Vaqifdə bunun görünüşü daha təfərrüatlı və əhatəlidir. Məhz bunun nəticəsidir ki, bu şeirin təsiri ilə bir-birindən maraqlı nümunələr yaranmışdır. Müsbət tərəfi ondadır ki, burada M.P.Vaqifi təkrarlamaq yox, onun möhtəşəm sənət nümunəsi təsirində bir-birindən maraqlı nümunələrin yaranmasıdır.

Vaqif böyüklüyü elə sirli mənəviyyat hadisəsidir ki, onun uğurluluğunda ədəbiyyat bir boy da zənginləşir. "Oynasın" rədifli qoşmasının təsirilə yazılanlar buna nümunədir. Məsələyə, yəni poetik nümunənin mətninə bir küll halında yanaşdıqda onun poetik sistemi bütün komponentləri ilə məzmun yaratmaya, bədii məzmunun uğurluluğuna xidmət edir. Səslərarası, sözlərarası, misralararası simmetriya, mətnin semantik məzmunu bütünlükdə müəllif qayəsinin təqdiminə yönləndirilir.

Xalqın qəlibləşmiş dəyərləri, əxlaq, mənəviyyat sxemləri, yaddaş etiketləri elə sirli məsələdir ki, onun formalaşması, qəlibləşməsi uzun zamanlara hesablanır və fərqləndirici dəyər kimi etnosu işarələyir. M.Cümə İsmi Pünhanında olanlar məhz Vaqifin "filankəsin qızı filan oynasın" xatırlatması ilə eyni qaynaqdan qidalanır. Ona görə də M.P.Vaqif yaradıcılığına adi, sıradan bir hadisə kimi baxmaq çox azdır, onun mahiyyətində gizlənənlər, böyük sadəliyində tapınanlar elə göründüyündən daha çox alt qatda olanlara bağlanır.

Hər yetən gözələ gözəl deməzəm,
Gözəldə bir qeyri əlamət olur.
Zülf bir yana düşə, gərdən bir yana,
Özün bilməz, bir özgə babət olur.

Gərdəninə müşkin tellər düzülür,
Hər qıya baxanda canlar üzülür,
Sürmələnmiş siyah gözlər süzülür,
Oturub durmağı qiyamət olur (18, 107).

Vaqifin qüdrətini təkcə dil möcüzəsi ilə yekunlaşdırmaq və onun prinsipləri əsasında təhlilə cəlb etmək məsələnin bir tərəfidir, digər tərəfində olan onun fikir fəlsəfəsi ilə bağlı olanlardadır, daha doğrusu, bu dillə çatdırdıqlarındadır. "Mənə elə gəlir ki, müğənni öz səsi ilə doğulduğu kimi, şair də özünəməxsus dili ilə doğulur, zil, yaxud pəs səsə malik olmaq müğənnidən asılı deyil və bu səsi yenidən qurmaq qeyri-mümkündür... Onu yalnız

təkmilləşdirmək, diapazonunu genişləndirmək olar” (19, 59). M.P.Vaqif də öz fitri istedadı, boyası qabiliyyətləri ilə dünyaya göz açmışdır və onun missiyası bədii düşüncəni və bütünlükdə milli düşüncədə pozulmuşu bərpa etmək, milli intibahın nümunəsinə çevrilmək olmuşdur. Daha doğrusu, xalqın olanı və yüz illər boyunca təbii sıxışdırmalara məruz qalanı elə öz layiq olduğu səviyyəyə qaldırmaqdır. Ədəbiyyatın, mədəniyyətin, dilin Vaqif mərhələsi məhz bununla səciyyələnir və düsturu da elə bundan ibarətdir. Pozulmuş nizamın bərpası fövqəlgüclülük işidir və bunun sıradan olanla reallaşması, bərpası olmur. Ədəbiyyatın Vaqif missiyası zaman-zaman bu sirri açmağa üz tutacaq və özünüdərki bir istiqamətdə onunla gücləndirəcəkdir.

Vaqifin şeirlərinin təsiri ilə sonrakı dövr ustad sənətkarların şeir düzüb-qoşması təsadüfin hadisəsi də deyildir və buna təsadüf kimi baxmaq yanlışlıqdır. Görünür M.P.Vaqif yaradıcılığı öz sağlığından Azərbaycanı başdan-başa dolaşmış, ustadların məclis şənliklərində əsas yerlərdən birini tutmuşdur. Vaqif aşıqların, bütünlükdə məclislərin “könülk dastanına” çevrilmişdir. Ustad aşıqlar onun şeirlərini könüllərinə yığıb el-el, oba-oba gəzmişlər. XVIII əsrin ortaları XIX əsrin əvvəllərində yaşayıb yaratmış İrfani yaradıcılığında da M.P.Vaqifin adı xatırlanır, hətta şeirlərinin təsir yaxınlığı misra, bənd, məzmun faktları ilə diqqəti cəlb edir. Vaqifin “Ey Kəbəm, Kərbəlam, Məkkəm, Mədinəm” misrası ilə başlayan şeirinə diqqət yetirək:

Ey Kəbəm, Kərbəlam, Məkkəm, Mədinəm,
Bir zaman kuyində ziyarətimdir.
Qiblə deyib, qaşlarına baş əymək,
Gecə-gündüz mənim ibadətimdir (18, 97).

İrfani yaradıcılığında məhz bu şeirin təsirində yazılmış nümunə xüsusi önəm daşıyır. Eyni zamanda belə deməyə əsas verir ki, M.P.Vaqif yaradıcılığı hələ sağlığında Azərbaycanın indiki sərhədlərindən çox-çox böyük əraziləri dolaşmaqda idi. Xəstə Hasanın, İrfaninin yaradıcılığı bunun bariz nümunəsidir.

Kitabım Kərbəlam, Məkkəm, Mədinəm,
Hələ dostun köyü ziyarətimdir.
Qibleyi-ves qaşlarına boyun əyməyim,
Gecə zikrim,gündüz ibadətimdir (15, 110).

İrfani yaradıcılığından Vaqif təsiri və adı bir xətt kimi keçir və bu da heç şübhəsiz hansısa təsadüfin hadisəsi deyildir.

Yan İrfan dərdinə, bəxti siyahın,
Yara yaxın eylə o qibləgahın,
Şikəstə Vaqifin – Molla Pənahın,
Hayıf oldu Mədinəsi yıxıldı (15, 86).

Bütün bunlar özlüyündə ciddi faktları, Vaqif şeirinin təsir faktını izləmək üçün əsas verir və aşıq yaradıcılığından gələnlərin eyni düşüncə hadisəsi olaraq klassik ənənədə də davamlılığını ortaya qoyur. Onu da əlavə edək ki, "M.P.Vaqif dövrün poetik gərdişini klassik janrlarda verə bilməzdi, eyni dərəcədə də klassik janrlardan imtina da edə bilməzdi, - bu bir neçə əsrlik mədəniyyətə etinasız yanaşmaq olardı. Ş.İ.Xətainin, daha ardıcıl şəkildə M.V.Vidadinin təcrübəsi kara gəldi" (8, 140). Fikrimizcə, "dövrün poetik gərdişi" bütün ictimai, siyasi, mədəni mühitdə olanlar səviyyəsində yeniləşməni bir zərurət kimi qoyurdu, artıq qoca dünyanın qoca məfkurəsi milli intibahın, yaddaş arxetiplərinin hərəkətini və aparıcı xətdə çıxmasını qaçılmaz edirdi.

Vaqif məhz sazın və aşıq düşüncəsinin normativləri əsasında yaratdıqları ilə eyni zamanda sonrakı dövr bədii mühit üçün əlçatmazlıq nümunəsinə çevrilmişdir. Xalq şeiri strukturu müstəqil mahiyyət kimi çoxqatlıdı və semantik mahiyyətdən tarixi təbəddüatlara qədər ciddi çalarlarla əhatələnir. Vaqif isə bu zənginlikdə aparıcı mahiyyəti əsas tutaraq bir forma kimi qoşmaya üstünlük verdi və sazdan, aşıqdan götürdüklərini yeni normativlərlə təkrarən mühitə təqdim etdi, bir növ qoşma strukturunda yatan mənaların əlahiddəliyini ortaya çıxardı. Bunun nəticəsi olaraq böyuük şairin qoşmaları dillər əzbəri oldu və onun təsiri ilə çoxlu nümunələr yazıldı. Məsələn, M.P.Vaqifin həyatının Qarabağ mühitinə

gəlincəyə qədərki vəziyyəti ilə bağlanan "bayram oldu heç bilmirəm neyləyim" misrası ilə başlayan şeiri öz poetik sistemi, məzmun qatı, müəllif mövqeyinin mükəmməlliyi ilə əvəzsizdi və yarandığı gündən ədəbiyyatın, etnosun böyük əksəriyyətinin mənəvi ehtiyacının ifadə hadisəsinə çevrilmişdir. Aşıq Hüseyn Bozalqanlı da bu qoşmanı təkcə məclislərdə söyləməklə kifayətlənməmiş, həm də onun təsirində özünün gözəl bir nümunəsini yaratmışdır ki, bu yaxınlıqlar əvvəldən axıra qədər nəzərə çarpır.

**Vaqif:**

Bayram oldu heç bilmirəm neyləyim,
Bizim evdə dolu çuval da yoxdu.
Dügiylə yağ hamı çoxdan tükənmiş
Ət heç ələ düşməz motal da yoxdu.

**Hüseyn Bozalqanlı:**

Nə odun var evdə ocaq qalayaq,
Nə yağ var ki, plov üstə calayaq,
Gedək kimin sinisini yalayaq,
Ölmürük, itmirik əcəl də yoxdur.

Vaqif yaradıcılığı bütünlükdə ədəbi-bədii mühit üçün mövzuya çevrilmiş və ifadəlilik baxımından bir növ meyar rolunu oynamışdır. Göründüyü kimi, bu nümunələr arasında ən azı yüz illik zaman fərqi olmasına baxmayaraq, yaxınlıq üst qatdadır, ruhun, real mənzərənin təqdimi ilə əlçatmazdır. Vaqif yaradıcılığı ənənə üzərində elə pərvəriş tapmış yaradıcılıqdır ki, etnos təsəvvürlərinin bütün layları bu və ya digər dərəcədə özünə yer tapır. Qopuzdan, sazdan, milli yaddaşın əski laylarından qaynaqlanan bu yaradıcılıq sonrakı çağlar üçün bir yaradıcılıq dərsliyinə, nümunəyə çevrilmişdi. Ustadlar ondan oxumaqla, dərs almaqla özlərinin yaradıcılıq yolunu başlamışlar. Aşıqlar onun şeirlərinin təsirində bir-birindən maraqlı, həm də rəngarəng poetik nümunələr yaratdılar. Ayrı-ayrı ustadların yaradıcılığından verdiyimiz müqayisələr bunun parlaq nümunəsidir. Vaqifin hər yetən gözələ gözəl demərəm" misrası ilə başlayan qoş-

masının təsirində Aşıq Ələsgər "Ola rədifli qoşmasını düzdü qoşdu və ədəbiyyatımıza digər bir original nümunəni bəxş etdi.

**Vaqif:**

Hər yetən gözələ gözəl demərəm,
Gözəldə bir qeyri-əlamət olur:
Zülf bir yana düşər, gərdən bir yana,
Özün bilməz, bir özgə babət olur (18, 107).

**Aşıq Ələsgər:**

Hər yetən gözələ gözəl demərəm,
Gözəldə gərəkdi işvə-naz ola.
Buxağından ətri-bənövşə gələ,
Qoynu gülşən ola, bahar, yaz ola (2, 121).

Məlum olduğu kimi, "şeir dili və üslub prosesləri olduqca çoxcəhətli və mürəkkəb səciyyəlidir. Daim dəyişmədə,hərəkət və zənginləşmə prosesində olması poeziya dilinin özünəməxsus keyfiyyətidir. Bədii dilin elə mühüm estetik kateqoriyaları vardır ki, onlar poetik prosesin inkişaf qanunauyğunluqlarını xarakterizə etməklə bərabər, onun spesifik meyillərinin aşkarlanmasında əhəmiyyətli rol oynayır" (12, 324). Vaqif yaradıcılığı dil potensiyasının imkanlarını, bədii-estetik gücünü göstərmək və aydınlaşdırmaq üçün olduqca geniş imkanlılığa malikdir. Bu imkanlılıq özünəqədərki və özündən sonrakı ədəbi proses üçün örnək olacaq hadisədir və məhz Aşıq Əlinin "bu əsrdə şairlərin xanısan" deməsi həmin qüdrətin izahına hesablanmışdır**.** Bədii dil elə sirli, ecazkar, möcüzəli hadisədir ki, onun imkanlılıq dərəcəsi ancaq və ancaq bədii mətnin axarında, yaradıcı istedadında müəyyənləşir. Burada sözün imkanlılığını və ecazkarlığını təmin edən əsas məsələlərdən biri məhz bədii strukturun uğurluluğudur. Vaqif də böyük istedad sahibi kimi bu imkanlılığın şaquli və üfiqi qatlarını mətn daxilində hərəkətə gətirmişdir. Bütün bunlar Vaqif yaradıcılığının ozan // aşıq müstəvisində enerji qaynaqlarını, fundamental düşüncə hadisəsi kimi milli ənənəyə kökləndiyini və onun fövqündə olanların nələrlə səciyyələndiyi-

ni, milli yaddaş fondunun əzəmət və sonsuzluğunu aşkarlayan bir hadisə olduğunu düşünməyə əsas verir.

## QAYNAQLAR


1. Abid Ə. Azərbaycan türklərinin ədəbiyyat tarixi. Bakı, Elm və təhsil, 2016, 240 s.
2. Aşıq Ələsgər. 2 cilddə, I c., Bakı, Elm, 1972, 326 s.
3. Aşıq Ələsgər. 2 cilddə, II c., Bakı, Elm, 1972, 326 s.
4. Aşıq Hüseyn Şəmkirili. Bakı, Gənclik, 1971, 94 s.
5. Azaflı M. Qoca Azaflıyam. Bakı, Nurlan, 2008, 760 s.
6. Azərbaycan aşıqları və el şairləri. II cilddə, I c., Bakı, Elm, 1983, 374 s.
7. Azərbaycan aşıqları və el şairləri. 2 cilddə, II c., Bakı, Elm, 1984, 544 s.
8. Cəfərov N. Klassiklərdən müasirlərə. Bakı, Çaşıoğlu, 2004, 272 s.
9. Cümə Molla. Əsərləri. Bakı, Maarif, 1995, 493 s.
10. Əfəndiyev P. Molla Cümə 9həyat və yaradıcılığı. Bakı, Ləman, 2017, 364 s.
11. Hacılı A. Bayatı poetikası. Bakı, Elm, 2000, 162 s.
12. Hüseynov M. Dil və poeziya. Bakı, Elm, 2008, 434 s.
13. Qasım Xəstə. 46 şeir. Bakı, Gənclik, 1975, 63 s.
14. Koroğlu. Bakı, Elm, 1956, 454 s.
15. Şamil Ə. Çıldırlı Aşıq İrfani. Bakı, Elm və təhsil, 2016, 152 s.
16. Şamil Ə. Axısqalı Xəstə Hasan. Bakı, Elm və təhsil, 2012, 248 s.
17. Шмелйов Д. Н.Слово и образ. Москва, Наука, 1964, 120 с.
18. Vaqif Molla Pənah. Əsərləri. Bakı, Azərnəşr, 1957, 248 s.
19. Залыгин С. Интервью у самого себя. Москва, Советский писатель. 1970, 239 с.

# MOLLA PƏNAH VAQİFİN QOŞMALARINDA VƏ FOLKLORDA QADININ MƏNƏVİ GÖZƏLLİYİNİN TƏRƏNNÜMÜ

**Nazilə Abdullazadə**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*nazile.s.m.d@mail.ru*

**Özət**

Azərbaycan şifahi xalq ədəbiyyatının söz çeşməsindən qaynaqlanan sənətkarlardan biri də XVIII əsr şairi Molla Pənah Vaqifdir. Yeni dövr ədəbiyyatını nikbin, xəlqi və realist notlarla səciyyələndirən Vaqifin yaradıcılığı məzmun və sənətkarlıq baxımından folklorla sıx bağlı olmuşdur. Xalqın deyim-duyumları, müdriklik fəlsəfəsi, hislərin real təsviri onun şeirlərinin, xüsusilə də qoşmalarının əsas məzmununu təşkil edir.

Yaradıcılığının aparıcı janrı olan qoşmalarında əsasən gözəlliyi tərənnüm edən şair sevgilinin – qadının təkcə zahiri gözəlliyini deyil, mənəvi zənginliyini, malik olduğu əxlaqi-estetik normaları önə çəkmiş, şirin dilini, xoş rəftarını, səmimi davranışını yüksək qiymətləndirmişdir. Vaqif folklorun atalar sözü, bayatı, tapmaca və digər janrlarında əksini tapan deyimləri cilalayaraq yazılı ədəbiyyata gətirmiş, xalq ədəbiyyatının yazılı ədəbiyyatla vəhdətini yaratmağa müvəffəq olmuşdur.

**Açar sözlər:** folklor, yazılı ədəbiyyat, Vaqif yaradıcılığı, qoşma, gözəllik, mənəvi zənginlik

**Н.А.Абдуллазаде**

**Воспевание морального богатства женщиныв фольклореи стихотворениях с парными рифмами Молла Панах Вагифа**

**Резюме**

Молла Панах Вагиф один из знаменитых поэтов XVIII века, питавший из родника азербайджанской народной ли-

тературы. Характеризующий новый период литературы реалистичными, народными и оптимистичными нотами, творчество Вагифа сильно связано фольклором с точки зрения содержания и мастерства. Философия мудрости народа, всестороннее изображение чуствсоставляет основу его стихотворений с парными рифмами.

М.П.Вагиф воспевал не только внешную красоту женщины, также ее моральное богатство, сладкоречие, искреннее поведение, изысканность в обращении. Вагиф добился создания синтеза народной литературы с письменной литературы.

**Ключевые слова:** фольклор, письменная литература, красота, моральное богатство

**N.A.Abdullazadeh**

## Approval Of The Women's Legacy In Molla Panah Vagif's Insertions And Folklore

**Summary**

One of the masterpieces of Azerbaijani folklore is the 18th century poet, Molla Panah Vagif. He secured the new era literature with its optimistic, realistic and native notes, at the same time his creativity was closely linked to folklore. The people's idioms, philosophy of wisdom, and the real picture of perceptions was the main contents of his poems and insertions. Essentially Vagif sweared beauty in his insertions which these insertions were the main genre in his creativity , in his opinion outwardness is not the important thing , the vital subject is spiritual wealth, esthetic values, besides with it he estimated half-way behavior, original behavior in people 's character. Vagif polished the the people's statements from the riddles, proverbs and has succeeded in uniting the folk literature with written literature.

**Keywords:** folklore, written literature, Vagif's creativity, beauty, moral wealth

Yeni dövr Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi olan Molla Pənah Vaqif klassik şeirin yeni istiqamətdə inkişafına xəlqilik, reallıq, nikbinlik notları gətirən ilk sənətkarlardan biridir. Onun şeirlərini hələ sağlığında gözəllər bəyazlarına köçürmüş, gözəlləmələri aşıqların dilində məclislərin bəzəyi olmuşdur. M.P.Vaqif həyat gerçəkliklərinin real təsvirini vermiş, şifahi xalq ədəbiyyatının ovqatını yazılı ədəbiyyatda yaradaraq inkişaf etdirmişdir. Təsadüfi deyil ki, onun yaradıcılığının əsasını xalq şeiri tərzində yazdığı qoşma və gəraylılar təşkil edir. Həyatilik, nikbinlik və sadəlik şairin birbaşa xalq ruhundan, xalq yaradıcılığı nümunələrindən qidalanması ilə bağlıdır.

Hələ XIX əsrdə yazıçı, mütəfəkkir M.F.Axundzadə onun yaradıcılığını yüksək qiymətləndirmiş, şeirlərindəki realist meyillərin qüvvətini qeyd etmişdir. M.F.Axundzadənin türk dilində mənzumatına heyran olduğu iki şairdən birincisi Molla Pənah Vaqif olmuşdur. "Mən əyyami-səyahətimdə səfheyi-Qarabağda Molla Pənah Vaqifin bir para xəyalatını gördüm ki, zikr etdiyim şərt bir növ ilə onda göründü... Mənim əqidəmə görə, tarixi-hicridən indiyədək türk arasında şair münhəsirdir məhz bu iki şəxsə" [1, s.126] (ikinci şəxs dedikdə şair Q.Zakirə işarə edilir – N.A.).

F.Köçərli Vaqif kimi ana dilində, sadə və danışıq üslubunda yazan çox az sayda milli şair olduğunu, onun kimi "gözəl və açıq kəlam söyləməkdə aciz qaldıqlarını" göstərir: "Vaqif ziyadə zövqü səfa əhli olduğu üçün gözəl mədhində xeyli mərğub və nazik şeirlər yazmışdır ki, onların cümləsi qəlbdən nəşət edən hissiyyatdır ki, oxuyanlara dəxi sirayət edib, onlara zövq və həvəs gətirir" [8, s.126].

Klassik ədəbiyyatla xalq şeirinin sintezini poetik detallarla verməyə müvəffəq olan şairin yaradıcılğının əsas mövzusu məhəbbət, gözəllik və qadın olmuşdur. Məhəbbət və gözəllik xiridarı Vaqifin yaradıcılığı bütünlüklə xalq ədəbiyyatından, aşıq şeirindən qaynaqlanmış, həyatilik, ideya-məzmun reallığı, xalq ruhu aparıcı motiv olmuşdur. Yaradıcılığının əsasını təşkil edən qoş-

malarında gözəlliyə, qadına pərəstiş hisslərinin tərənnümü ilə o, poeziyada yeni bir səhifə açmış, əsrlər boyunca gözəlliyin real təsvirinin gizli ismarışlarına realist tərənnümü ilə son qoymuşdur.

"Yüksək zövq, incə hisslər, dərin və nikbin duyğular şairi" [2, s. 6] qadın və gözəllik anlayışlarını bir-birindən ayrı təsəvvür etmir. Sələflərindən və müasirlərindən fərqli olaraq, Vaqif qadını səmalardan yerə endirir, onu təbii boyalarla, xarici məlahəti və daxili zənginliyi ilə birlikdə təqdim edir. Onun şeirlərində zahiri gözəlliklə yanaşı, əxlaqi dəyərlər, mənəvi zənginlik, saflıq önə çəkilir.

Bildiyimiz kimi, "xalqa məxsus etnik-psixoloji xüsusiyyətlərin məcmuyu, təmərküzləşmiş faktları ilk növbədə həmin xalqın folklor və bədii ədəbiyyat materiallarında "maddiləşir" [5, s. 44]. Odur ki, yazılı ədəbiyyatda obrazın dolğun simasının yaradılmasında folklor materialları xüsusi əhəmiyyət kəsb edir. Vaqifin obrazını yaratdığı gözəllərin malik olduğu xüsusiyyətlər – "qönçə ağız", "kəklik yeriş", "maral baxış", "şahmar saç", "sona sığal" el qızlarında gördüyü xüsusiyyətlər, xalq ədəbiyyatından süzülüb gələn deyimlərdir.

Türkün ana kitabı olan "Kitabi-Dədə Qorqud"da böyüyə hörmət, ata-anaya məhəbbət, namus və qeyrət, ailəyə, torpağa, vətənə sədaqət kimi mənəvi keyfiyyətlərlə yanaşı, qadın haqqı, qadın əxlaqı və namusu kimi keyfiyyətlər də əksini tapmışdır. Qadına hörmət, ana haqqının Tanrı haqqına bərabər tutulması, oğuz qadınının at oynatmağı, hünəri, dar gündə kişilərlə bərabər vuruşması, oğuzların – türkün qadında görüb yüksək qiymətləndirdiyi məziyyətlər idi. Təsadüfi deyil ki, dastanın müqəddiməsində Dədə Qorqud qadınları [7, s. 21]. 4 soya bölmüş, xoşqılıq, səxavətli, ailə namusunu uca tutan qadını yüksək qiymətləndirmişdir.

*Qadınlar dörd dürlüdür:*
*Birisi solduran soydur,*
*Birisi dolduran toydur.*
*Birisi evin dayağıdır,*
*Birisi, necə söylərsəm, bayağıdır* [7, s. 22].

Gördüyümüz kimi, qadınların xarakteristikasında xalqa məxsus etnik xüsusiyyətlər – qonaqpərvərlik, ailə qayğısına qalma, sədaqət, vəfa, etibar əsas yer tutur. Vaqifin vəsf etdiyi qadın da Dədə Qorqudun seçib qiymətləndirdiyi qadın kimi təmiz əxlaqlı, yüksək davranışlı, sevgilisinə sədaqətli olmalı, aşiqinin digər gözəlləri "xəyal etdiyinə" yol verməməlidir.

Qadının xarici gözəlliyinə daha çox qiymət verən Vaqifin qoşmalarında bu gözəllik daxili zənginliklə tamamlanır; elmli, mərifətli, "qafiyə-qəzəldən" başı çıxan qadınları şair yüksək qiymətləndirir:

*Özgə ilə hərgiz olmaya işi,*
*Qafiyə qəzəldən həm çıxa başı,*
*Bulaqtək qaynaya həm gözü, qaşı,*
*Artıq ola həm kəmalı gözəlin.*

Şairin nəzərində qadın yalnız zahiri gözəlliyi, bəzəyi, libasına görə deyil, əxlaqı, mədəniyyəti, davranışı, səliqəsi, bir sözlə, etik-əxlaqı keyfiyyətləri ilə də sevilməlidir. "Qaşındavü gözündə, qabağında eyib yox" qadının bürünməyinə, çadraya qarşı çıxan şair onu hal əhli, anlaya bilən, şirin dilli, məkrdən-hiylədən uzaq biri kimi görmək istəyir:

*Tovus kimi cilvələnə hər səhər,*
*Bəzək verə camalına sərbəsər,*
*Dindirməmiş verə könüldən xəbər,*
*İşarə anlayıb hal bilən gərək.*

*Qövli sadiq ola, hər feili həlal,*
*Bilməyə kim, fitnə nədir, məkrü al,*
*Şam kimi qabaqda dura nitqi lal,*
*Kəsilsə də başı, dinməyən gərək* [10, s.47].

Vaqifin qadında yüksək qiymətləndirdiyi mənəvi keyfiyyətlərdən biri, bəlkə də başlıcası ünsiyyət qura bilmək, şirindillilikdir. Söz sərrafı dilin, nitqin insan üçün önəmli olduğuna qaynaqlardan süzülüb gələn fikirlərdən tanış idi. Atalar sözləri, tap-

macalar, bayatılarda dilin – insan nitqinin gözəlliyi, sirri poetik boyalarda əksini tapmışdır:

*O yanı mərmər, bu yanı mərmər,*
*Altı mərmər, üstü mərmər*
*İçində bir nazəninpərvər*
*İçində bir bülbül oynar* [8, s.108]

*Altı inci, mirvari,*
*Üstü inci, mirvari,*
*Arasında bir yarpaq* [9, s.100] –

kimi tapmacalarda xalq dili cəh-cəh vuran bülbülə, nazəninpərvər sənəmə bənzətmişdir. Vaqifin vəsf etdiyi gözəl də şirin dilli, xoş qılıqlı biridir. O gözəl danışığı, tuti nitqi ilə insanın könlünü məst edir, gözəlliyin əsiri olan şair onun şirin dilindən doymur.Yaşa dolduqca daha da gözəlləşən bu dilbər danışıb güldükcə nəfəsindən neçə canlar dincəlir. Şairə görə, bu gözəlin şirin dili onun bütün eyiblərini, hətta qəzəbini belə söndürür. F.Köçərli belə gözəli "məhbubi-müntəxəb" adlandıraraq yazır: "Bir dilbərin ki əsli-nəsəbi ali olsa, qəmzəsində qəzəb görünə və o qəzəbdən Allah özü saxlaya, rüxü gül yarpağı kimi lətif, nazik və sürxə mayil ola, ləbi qönçəyə bənzəyə, çənəsi turunc misal müdəvvər və müəttər ola və lisanından xoş avaz ilə əcəb hekayətlər cari ola, əlbəttə, ancaq belə dilbərə məhbubi-müntəxəb demək olar" [9, s.150].

*Məhbubi-müntəxəb, bir alinəsəb,*
*Qəmzəsində qəzəb, sən saxla, ya rəb!*
*Gül rüxlü, qönçələb, turuncu ğəbğəb,*
*Lisanında əcəb hekayəti var* [10, s.94].

Vaqif qadının – tərənnüm etdiyi el qızlarının "şərbət göftarını" yüksək qiymətləndirir. Hər görüşdə onun şirin dilindən, "şəkər parçasından", "ləbi-balından" doymadığına təəssüflənən şairin ovçusu olduğu maral şirin ixtilatı, məzəli sözü ilə ellər yaraşığıdır.

*İxtilatın şirin, sözün məzəli,*
*Şəkər gülüşündən ellər təzəli,*

*Ellər yaraşığı, ölkə gözəli,*
*Nə gözəl doğubsan anadan, Pəri!* [10, s.41]

Bəzi qoşmalarında Vaqif qadını naz etdiyinə, aşiqini incitdiyinə görə qınayır. Gözəllərdə naz-qəmzənin bir adət olduğunu şair gözəl bilir, lakin gözəlliyinə güvənib başını dik tutan qadınları da bəyənmir. Şairin fikrincə, qadın nə qədər gözəl isə, bir o qədər yumşaqtəbiət, rəhmli olmalı, yeri gəldikdə sevgisi yolunda əyilməyi bacarmalıdır.

*Xublarda adətdir, nəzakət satar,*
*Genə xəyalını xəyala qatar,*
*Gözəl olan məgər başın dik tutar?*
*Aşiqinə doğru heç əyilməzmi?*

*Eşq oduna yandı canım sərasər,*
*Allaha bax ey zalimü sitəmkər,*
*Aşiqinə qanlar ağladan dilbər*
*Rəhmə gəlib göz yaşını silməzmi?* [10, s.45].

Gözəlliyinə güvənən sevdiginə şair yersiz qürurdan çəkinməyi, yol-ərkan gözləməyi tövsiyə edir; yar şirin dili, xoş rəftarı ilə aşiqinin izzəti-nəfsini qorumalı, onun ruhunu oxşamalıdır.

Vaqifin fikrincə, zahiri görünüşcə gözəl qadın səliqəsi, təmizkarlığı, şən əhval-ruhiyyəsinə görə də sevilməlidir. Özü gözəl qadının ev-eşiyi də sahmanlı, səliqəli olmalı, künc-bucaq belə gül ətri verməlidir.

*Keçmə o dilbərin şən otağından,*
*Tət bənəfşə qoxar hər bucağından,*
*Sanki bir guşədir cənnət bağından*
*Açılıbdır güli-əlvan evində.*

*Təmizliyə ola meylü həvəsi,*
*Olmaya aşiqə nazü qəmzəsi,*
*Gül təki qoxuya nitqü nəfəsi,*
*Zülfü ya bənəfşə, ya səmən gərək* [10, s.47].

“Yazılmamış müqəddəs kitabın ayələri tək qavranan atalar sözləri” xalqın hikmət xəzinəsinin ən dürlü incilərindəndir. Folklorun atalar sözü janrında adın insan həyatında önəmi, təmiz adı qorumağın şərəfi yüksək qiymətləndirilir. Şair el qızlarını “həyası üzündə, əqli başında” görmək istəyir. “Yaxşı saxla adını, bədnamçılıq el gəzər”, “Yan mənə, yanım sənə, qurbandır canım sənə” və s. bu kimi [3, s.235-237] atalar sözləri yetərincədir. Vaqif gözəlin adını gövhərə bərabər tutur, əsilzadə gözəl adını uca tutduğu kimi, mehr məhəbbətini də aşiqindən əskiltməz:

*Bir gözəl ki, şirin ola binadan,*
*Yüz il getsə onun dadı əksilməz.*
*Təzəliyi, köhnəliyi bir olur,*
*Gövhər tək qiymətdə adı əksilməz.*

*Gözəllikdən düşməz heç əsilzada,*
*Günbəgün qaməti dönər şümşada,*
*Mehrü məəhbbəti olur ziyada,*
*Etibarı, etiqadı əksilməz* [10, s.34].

“Gözəl görünər, çirkin bürünər”, “Gözəl kamallı gərək”, “Gözəl göz üçün, ağıllı könül üçün” atalar sözlərinin məna tutumu Vaqifin qoşmalarında bir daha əksini tapır. Üzü-gözü göyçək olanın nə yaşmağa, nə də yaylığa ehtiyacı olmaz, - deyir şair.

*Əvvəl gözəllərdə gərəkdir çağlıq,*
*Ondan sonra ola sadəlik, ağlıq;*
*Nə ağzında yaşmaq, nə üzdə yaylıq, -*
*Çirkinlik üzünü bürüyəndədir* [10, s.109].

Vaqifə görə, kamallı gözəl xəta etməz, aşiqinə dönük çıxmaz, ona vəfalı həmdəm olar, ağılsız gözəlin əlindən bal yemək “ağu” yemək kimi bir şeydir.

Vaqif qoşmalarında qadının mənəvi zənginliklərindən biri də onun abır-həyasını gözləməyi, utancaqlığıdır. Şair

*Bülbül güldən küsəndə*
*Küsər gedər Süsən də.*

*Bir söz dedim qızardın,*
*Nə qaydadır bu səndə?*

bayatısına cavab olaraq qızarmağın gözəlin təbiətində olduğunu vurğulayır:

*Xumar-xumar baxmaq göz qaydasıdır,*
*Lalə tək qızarmaq üz qaydasıdır,*
*Pərişanlıq zülfün öz qaydasıdır,*
*Nə badi-səbadan, nə şanədəndir.*

Vaqif qoşmalarında folklordan gələn ifadələr də yetərincədir: "qarıçqay cilvəli", "tavus bəzəkli", "çəhrayı çarqat", "kipriyi peykan", "sinəsi meydan", "ağzı piyalə". Bütün bunlar şeirə məzmun aydınlığı, milli intonasiya, lakoniklik verməklə yanaşı, şairin yaratdığı obrazın daxili aləmini duymağa imkan yaradır.

## QAYNAQLAR


1. Axundzadə M.F. Nəzm və nəsr haqqında. Əsərləri. Bakı: "Şərq-Qərb", 2005, 376 s.
2. Araslı H. Şeirimizin fəxri. Vaqifin əsərlərinə ön söz. Bakı: "Şərq-Qərb", 2004, 264 s.
3. Atalar sözü. Bakı: "Öndər nəşriyyat", 2004, 264 s.
4. Azərbaycan bayatıları. Bakı: "XXI - Yeni Nəşrlər Evi", 2004, 304 s.
5. Dədə Qorqud dünyası. Bakı: "Öndər nəşriyyat", 2004, 240 s.
6. El çələngi. Bakı: "Şərq-Qərb", 2004, 248 s.
7. Kitabi-Dədə Qorqud. Bakı: "Öndər nəşriyyat", 2004, 376 s.
8. Köçərli F. Azərbaycan ədəbiyyatı. Bakı: "Avrasiya Press", 2005, 260 s.
9. Tapmacalar. Bakı: "Şərq-Qərb", 2004, 205 s.
10. Vaqif. Əsərləri. Bakı: "Şərq-Qərb", 2004, 264 s.

# MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA DEYİŞMƏ FORMASI

**Sevda Qasımova**
*AMEA Folklor İnstitutu*
*sevdaqasimova61@gmail.com*

**Özət**

XVIII əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Azərbaycan ədəbi dilinin inkişafında müstəsna rol oynamış Molla Pənah Vaqif yaradıcılığının ölməzliyinin əsil sirri, onun fitri istedadı ilə yanaşı bu böyük şairin xalq yaradıcılığına bağlılığında öz ifadəsini tapır. O, öz poeziyasının bütün qatları ilə xalq yaradıcılığının içindədir.

Deyişmə ilə bağlı Azərbaycan filologiyasında qəti bir fikir yoxdur. Bizcə, deyişmə aşıq şeirinin xüsusi janrı deyildir və deyişmənin aşıq şeirinin hansı janrında aparılmasından asılı olmayaraq, o, ifaçılıq hadisəsisdir. Yəni deyişmə ifaçılıq sahəsinə aid olub, aşıqlar arasında yarışmanın formalarından biridir.

Deyişməyə Vaqif yaradıcılığında da rast gəlirik. Vaqifin öz müasiri Molla Vəlli Vidadi ilə deyişməsi ədəbiyyat tariximizin unudulmaz səhifələrindən biridir. Bu iki böyük sənətkar arasındakı deyişmə bu ifaçılıq forması üçün xarakterik olan folklor poetikasının bütün göstəricilərini özündə ehtiva edir.

**Açar sözlər:** Vaqif, folklor, deyişmə, xalq şeiri, janr, forma, şəkil

**Севда Касумова**

**Деишме (диалог), как форма литературного повествования в творчестве Молла Панаха Вагифа**

**Резюме**

Секрет бессмертия творчества выдающегося азербайджанского поэта 17 века Молла Панаха Вагифа, сыгравшего исключительную роль в развитии литературного языка, за-

ключается как в природном даровании поэта, так и в его приверженности народному творчеству. Творчество Вагифа это яркий пример неразрывной связи с народом.

В азербайджанской филологии не существует единого мнения относительно литературной формы деишме (диалог). По нашему мнению здесь речь идет не столько о форме ашугской поэзии, сколько о форме выражения и исполнения произведения. Такая форма литературного повествования встречается и у Вагифа. К примеру, стихотворный диалог Вагифа со своим современником поэтом Молла Вели Видади является ярким примером, отражающим всю глубину литературной поэтики.

**Ключевые слова:** Вагиф, фольклор, деишме, народный поэт, жанр, форма.

**Sevda Gasimova**

**Dialogue form in the Mollah Phanah Vaghif's creativity**

**Summary**

The prominent representative of the Azerbaijani XVIII century, Molla Phanah Vaghif's immortal creativity's secret is his innate talent and commitment to the folklore . He had an exceptional role in the development of the Azerbaijani literature and is in the folk creativity with  all layers of his poetry .

There is no definite idea in the Azerbaijani philology about dialogue. The dialogue is not the special genre of the ashug's poem, and it is the performing form. Dialogue belongs to the performing field and is the  poem competition among the ashugs.

The dialogue between Vaghif and with his  contemporary Mollah Velli Vidadi is indelible pages of Azerbaijan literature history. The dialogue  between two great poets include all characteristic features of the folklore poetry.

**Key words:** Vaghif ,folklore, dialogue, genre, form

XVIII əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Azərbaycan ədəbi dilinin inkişafında müstəsna rol oynamış Molla Pənah Vaqif yaradıcılığının ölməzliyinin əsil sirri, onun fitri istedadı ilə yanaşı, heç şübhəsiz, bu böyük şairin xalq yaradıcılığına bağlılığında öz ifadəsini tapır. O, öz poeziyasının bütün qatları ilə xalq yaradıcılığının içindədir. Əslində, yazılı ədəbiyyatının görkəmli nümayəndəsi olan şairin poeziyasını, hətta, yazılı ədəbiyyat janrları, əruz janrları səviyyəsində belə xalq yaradıclığından, xalq poeiziyasının poetik ruhundan ayrılıqda təsəvvür etmək mümkün deyildir. Bu, eyni zamanda XVIII əsr milli ədəbiyyatımızın inkişaf tarixi ilə bağlı məsələdir. Belə ki, İzzəddin Həsənoğlu ilə başladığımız anadilli şeir ənənəsi Qazi Bürhanəddin, Şah İsmayıl Xətai və digərlərinin simasında xalq poeziyası, xalq poetik janrlarına doğru ciddi istiqamət götürür və artıq M.P.Vaqifin zamanında xalq şeiri özünün janr sistemi ilə yazılı ədəbiyyatın üzvi tərkib hissəsinə çevrilir.

Əlbəttə, M.P.Vaqif və folklor problemi çox geniş, əhatəli, zəngin və mürəkkəb məsələləri əhatə edir. Təbii ki, bir məqalə həcmində bu mürəkkəb məsələlərə bütövlükdə nəzər salmaq mümkün deyildir. Odur ki, biz burada Vaqif yaradıcılığında xalq poeziyası üçün xarakterik olan deyişmə formasından istifadə məsələsinə toxunacağıq.

Qeyd edək ki, deyişmə ilə bağlı Azərbaycan filologiyasında qəti bir fikir yoxdur. Yəni "deyişmə bir janr hadisəısi kimi nədir?" sualı hələ öz cavabını dəqiq şəkildə tapmamışdır.

Prof. Azad Nəbiyev deyişməni qoşma janrının şəkillərindən biri hesab etmişdir. O, deyişmənin üç formasının olduğunu müəyyənləşdirmişdir:

1. Aşığın özü, könlündə tutduğu xəyali obraz və ya sevgilisi, yaxud əli yetmədiyi bir adamla deyişməsi;

2. Aşığın hansısa sənətkara, aşiqə bir neçə bənd qıfılbənd yollayıb ondan cavab istəməsi;

3. Məclislərdə, yığnaqlarda aşıqların bir-biri ilə deyişməsi (7, 249).

Prof. Paşa Əfəndiyev deyişməni aşıq şeirinin şəkillərindən biri hesab etmişdir (1, 182).

Prof. Vaqif Vəliyev deyişmələri Azərbaycan xalq poeziyasında maraqlı sahələrdən biri adlandırmışdır (9, 204).

Prof. Mürsəl Həkimov özünün aşıq şeir şəkilləri kitabında deyişmələrdən, sadəcə aşıq yaradıcılığında xüsusi yer tutan şeirlər kimi bəhs etmişdir (4, 210).

Prof Maarifə xanım Hacıyeva və fəlsəfə doktoru Mehmet Rıhtım yazırlar: "Aşıqlar arasında yarış, müsabiqə şəklində keçirilən şeirləşməyə deyişmə deyilir. Deyişmənin xüsusi forması və qafiyəsi yoxdur. Adından da göründüyü kimi deyişmədə əsasən iki aşıq bir mövzuda qarşılıqlı şeir söyləyir. Deyişmədə əsas məqsəd sənətkarlığı, bilik və bacarığı isbat etməkdir. Öz bilik və bacarığını isbat etmək üçün aşıqlar söz meydanına getmiş, qarşılıqlı şeir söyləmişər. Azərbaycan aşıq ədəbiyyatında daha yayğın olan deyişmənin bir neçə mərhələsi var. Birinci mərhələ "dəvət", ikinci mərhələ "hərbə-zorba", üçüncü mərhələ aşıqların bacarığını nümayiş etdirən "ayaq vermək" mərhələsidir. Dördüncü mərhələ "qıfılbənd" adlanır (3, 42).

Fəlsəfə doktoru Sevinc Əlləzova Növtrəs İmanın yaradıcılığından bəhs edən tədqiqatında deyişmələri Azərbaycan aşıq poeziyasının son dərəcə maraqlı aparıcı şeir formalarından biri hesab etmişdir. O yazır ki, deyişmələr öz məzmun və forma xüsusiyyətlərinə görə xüsusi bir janr avtonomiyasına malik müstəqil forma deyil. Aşıq şeirinin müxtəlif janrlarında, xüsusən də qoşmada iki şəxsin poetik dialoqundan, sual-cavabından ibarət olan bu formada dialoq müxtəlif məqsədlərə xidmət edə bilər (2, 118).

Fəlsəfə doktoru Nigar Hüzeynova el şairi Miskinli Vəlinin yaradıcılığından danışarkən qeyd edir ki, hər hansı aşığı ustad sənətkar kimi səciyyələndirən əsas xüsusiyyətlərdən biri də onun deyişmələri və qıfılbəndləridir. İlk öncə ona görə ki, deyişmə artıq aşığın söz meydanına girməyə hazır olduğunu, özünə, sözünə, sazına və sənətinə inamlı olduğunu göstərməkdədir. Belə bir söz yarı-

şına girmək aşıqdan yüksək hazırlıq və hazırcavablıqla yanaşı böyük bir istedad tələb edir. Deyişmə meydanına girən aşıq həm ənənəvi bilikləri, həm də dini, təsəvvüfi və ürfani məlumatları dərindən bilməlidir. Bədahətən aşıq tərzində şeir demək qabiliyyəti, yəni şairliyin də burada çox önəmi vardır... Qeyd edək ki, deyişmə şeir şəklinin tarixi qədim dövrlərə qədər gedib çıxır.Yəni aşıq sənəti yaranmamışdan öncə də deyişmə formasında olan şeirlərə rast gələ bilirik. Bunun ilk yazılı nümunələrini biz Mahmud Kaşğarlının "Divanü-lüğət-it-türk" əsərində görürük. Bu abidədə "qışla yazın deyişməsi"nə həsr olunmuş dörd misralı şeir formaları verilmişdir. Üslubundan və deyim tərzindən daha çox xalq şeirini xatırladan bu nümunələrdə hər iki tərəf (yaz və qış) özünü tərifləyir və qarşı tərəfi pisləyir. Bundan sonra istər qədim türk ədəbiyyatında və ya orta əsrlər Azərbaycan ədəbiyyatında deyişmə şəkillərinə rast gəlirik. Məhəmməd Füzulinin "Söhbətül əsmar" (Meyvələrin söhbəti) əsərində də meyvələr arasında deyişmə təqdim olunmuşdur (5, 133).

Qeyd edək ki, türk xalq şeirində də deyişmə ənənəsi vardır və atışma adlanır. Prof. Umay Günay göstərir ki, Şərqi Anadoluda yaşayan aşıq qarşılaşmaları aşağıdakı mərhələlərdə olur: xoşlama, xatırlama, təkəllüm. Təkəllüm isə 8 qrupa ayrılır: ayaq açma, öyüdləmə, bağlama, müəmma, sicilləmə, yalanlama, daşlama və ya takılma, tükətməcə, uğurlama və s. (8, 46-60).

Deyişmə haqqındakı bu fikirləri ümumiləşdirdikdə aşağıdakı mənzərə meydana çıxır:

a) Deyişmə qoşma janrının şəkillərindən biridir (A.Nəbiyev);

b) Deyişmə aşıq şeirinin şəkillərindən biridir (P.Əfəndiyev).

c) Deyişmə aşıqlar arasında yarış, müsabiqə şəklində keçirilən şeirləşmədir, yəni ifaçılıq janrıdır (M.Hacıyeva və M.Rıhtım);

d) Deyişmələr öz məzmun və forma xüsusiyyətlərinə görə xüsusi bir janr avtonomiyasına malik müstəqil forma deyil (S.Əlləzova);

e) Deyişmə ifaçılıq janrıdır (N.Hüseynova).

Göründüyü kimi, Azərbaycan filologiyasında deyişmənin janr təbiəti haqqında yekdil fikir yoxdur. Bizim şəxsi fikrimizə gəldikdə, belə hesab edirik ki, deyişmə aşıq şeirinin xüsusi janrı deyildir və deyişmənin aşıq şeirinin hansı janrında aparılmasından asılı olmayaraq, o, ifaçıqı hadisəsisdir. Yəni deyişmə ifaçılıq sahəsinə aid olub, aşıqlar arasında yarışmanın formalarından biridir.

Qeyd olunduğu kimi, deyişmə çox qədim tarixə malik şeirləşmə formasıdır. Buna Vaqif yaradıcılığında da rast gəlirik. Vaqifin öz müasiri Molla Vəlli Vidadi ilə deyişməsi (6, 476-491) ədəbiyyat tariximizin unudulmaz səhifələrindən biridir.

Vaqifin Vidadi ilə deyişməsi "Vidadi ilə müşairə" adlanır. "Müşairə" - ərəb sözü olub, şeirləşmə mənasındadır.

Bu deyişmə hər iki şairin dünyaya baxışını, poetik üslublarını parlaq şəkildə ifadə etməklə yanaşı, folklor ruhunu əks etdirməsi baxımından da diqqəti cəlb edir.

Vaqif öz müasirinə üz tutaraq deyir:

Ey Vidadi, sənin bu puç dünyada
Nə dərdin var ki, zar-zar ağlarsan?
Ağlamalı günün axirətdədir,
Hələ indi səndə nə var ağlarsan?

Vidadi ona belə cavab verir:

Vaqif, nə çox yan, baş-ayaq atarsan,
Mənə dersən, nə bu qədər ağlarsan?
Sənin başında məhəbbət beyni
Əgər olsa, eylər əsər, ağlarsan! (6, 476-477)

Göründüyü kimi, Vaqif Vidadini pessimist ovqatına görə, yəni kədərli olmaqda, dünyanın dərd-qəmini çox çəkməkdə, Vidadi isə onu aşırı optimizmdə, yəni dünyaya biganəlikdə, həyatpərəstlikdə, dünyanın problemlərinə barmaqarası baxmaqda qınayır. Bununla da sanki bu iki şair bir-birlərinin poetik üslublarını müəyyənləşdirirlər. Doğrudan da, Vaqif optimizt, realist şairdir: günlə, zamanla yaşayır, həyatdan, onun maddi və mənəvi gözəlliklərindən bacardıqca zövq almağa çalışır. Vidadi isə, ək-

sinə, dünyada baş verən eybəcərliklərin, sosial ədalətsizliklərin ağrısını çəkir.

Qeyd edək ki, bu iki böyük sənətkar arasındakı deyişmə bu ifaçılıq forması üçün xarakterik olan folklor poetikasının bütün göstəricilərini özündə ehtiva edir. Bu cəhətləri belə ümumləşdirmək olar:

a) Vaqiflə Vidadi arasındakı bu deyişmə özünün poetik göstəriciləri etibarilə xalq şeirinin ənənələrinə əsaslanır. Belə ki, hər iki şair qoşma üstündə deyişirlər.

b) Deyişmə xalq şeirinin dil ənənələrini özündə parlaq şəkildə təcəssüm etdrir. Xalq şeiri ilk növbədə xalq dilinin bütün linqvopoetik gözəlliklərinin təcəssüm etdiyi bədii dil xəzinəsidir. Hər iki şair deyişmədə bədii dilin xalq kodundan qırağa çıxmır. Həyatın, dünyanın, gerçəkliyin bütün özünəməxsusluğu, eyni zamanda poetik fəlsəfəsi məhz xalq dilinin ifadələri vasitəsilə təcəssüm olunur.

c) Bu iki şair arasında olan şeirləşmə deyişmə formasının bütün ifaçılıq xüsusiyytələrini də özündə təcəssüm etdirir. Belə ki, deyişmə yarışma, müsabiqə üslubunda olur. Burada hər bir sənətkar öz poetik istedad və qabiliyyətini nümayiş etdirməyə çalışır. Bunu biz deyişmədə aydın şəkildə görürük. Digər tərəfdən, bu deyişməyə ümumən deyişmə şeiri üçün xarakterik olan şən, şux notlar da hakimdir.

Deyişmə şeirini fərqləndirən keyfiyyətlərdən biri onlarda dərin məna və məzmunun ifadə olunmasıdır. Bunu biz Vaqiflə Vidadi arasındakı deyişmənin hər bir bəndində görürük:

Vaqif:

Say qənimət diriliyin dəmini,
Keçən həmdəmlərin çəkmə qəmini,
Əqlin olsun, sil gözünün nəmini,
Dəxi geri gəlməz onlar, ağlarsan!

Vidadi:

Ağlamaq möminin əlamətidir,
Nəbinin dininin xoş adətidir,

Əgər bilsən, həqqin kəramətidir,
Ta gedincə nuri-bəsər, ağlarsan! (6, 477)

Bu deyişmədə Vaqif sanki dərd-qəmsiz bir insan təsiri bağışlasa da, əslində, belə deyildir. Bu böyük sənətkar həyatın hər bir üzünə bələd idi. "Mən dünya mülkündə mütləq doğru halət görmədim" deyən sənətkar yer üzündə ideal ədalətin olduğuna inanmır. Vaqifə görə, ədalət hər bir insanın öz içində olmalı və insan öz ürəyini Allahı ilə düz etməlidir. İlk baxışdan çox sadə təsir bağışlayan bu fəlsəfə xalq düşüncəsindən gəlir. Bu da Vaqifin bütün varlığı ilə xalq düşüncəsinə, onun poetik ifadə kodu olan folklor şeirinə bağlılığından doğurdu.

## QAYNAQLAR


1. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif. 1981
2. Əlləzova S.B. Növrəs İmanın həyat və yaradıcılığı / Filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı: 2013
3. Hacıyeva M., Rıhtım M. Folklor və təsəvvüf ədəbiyyatı sözlüyü, Bakı: Nurlan, 2009, 330 s.
4. Hüseynova N.N. El şairi Miskinli Vəlinin poetik irsi / Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı: 2010
5. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı. Altıncı sild. Bakı: Elm, 1988
6. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı: 2 cilddə, II c., Bakı: Elm, 2006
7. Umay G. Türkiyede Aşık Tarzı Şiir Geleneği ve Rüya Motifi. Ankara: 1993.
8. Vəliyev V.Azərbaycan folkloru. Bakı: Maarif, 1985

# MOLLA PƏNAH VAQİF POEZİYASINDA XALQ İFADƏLƏRİ

**Sevinc Əliyeva**
*AMEA Folklor İnstitutu*
*sevincaliyeva80@rambler.ru*

**Özət**

Məqalədə M.P.Vaqifin poeziyasında xalq ifadələrinin (atalar sözləri və aforizmlər) məzmunu, ideyası nümunələr əsasında təhlil edilir. Eləcə də M.P.Vaqifin Azərbaycan ədəbiyyatının inkişafındakı xüsusi xidmətlərindən bəhs edilir

**Açar sözlər:** M.P.Vaqifin poeziyası, folklor, yazılı ədəbiyyat, xalq ifadələri, atalar sözləri və aforizmlər.

**Севидж Алиева**

**Народные выражения в поэзии Молла Панах Вагифа**

**Резюме**

В статье анализируется содержание, идея народных выражений (пословиц и афоризмов) в поэзии М.П.Вагифа. А также излагаются особые заслуги М.П.Вагифа в развитии азербайджанской литературы.

**Ключевые слова:** поэзии М.П.Вагифа, фольклор, письменная литератур, народных выражений, пословиц и афоризмов.

**Sevinc Aliyeva**

**Folk phrases in Molla Panah Vagif's poetry**

**Summary**

The content and the idea of the sayings (the proverbs and aphorisms) in the poetry of M.P.Vagif are analysed on the basis of examples. It is also about the particular services of M.P.Vagif in the development of the Azerbaijan literature.

**Key words:** the poetry of M.P.Vagif, folklore, written literature, the sayings, the proverbs and aphorisms

Azərbaycan poeziyası o qədər əzəmətli və mənalıdır ki, zaman-zaman öz dühalarını yetişdirmişdir. XVIII əsrin poeziyası zirvəsinə qalxmış M.P.Vaqif də bu kök üzərində yetişmiş, bu poeziya havası ilə nəfəs almış sənətkarlarımızdandır. M.P.Vaqif əsərlərindən folklorumuzun ətri duyulur. Çünki onun poeziyasında əksini tapmış xalq ifadələri istək və arzularımızın, düşüncələrimizin əks-sədası kimi səslənərək özümüzü özümüzə göstərir, keçmişimizi bizə tanıdır. Xalq ifadələri M.P.Vaqif poeziyasına nüfuz etmiş, şeirlərinin hərarətini artırmışdır. Dəyərli sənətkarın poeziyasında bir sətir də ürəksiz yazılmadığına görə istifadə olunan xalq ifadələri də ürəkdən gəlmiş, səmimi səslənmişdir. Qeyd etdiyimiz kimi, M.P.Vaqif yaradıcılığı boyu şifahi xalq ədəbiyyatı nümunələrimizə, əsasən xalq ifadələrinə - andlara, dualara, alqış və qarğışlara, atalar sözləri və zərbi-məsəllərə xüsusi diqqət yetirmişdi. Bu xalq ifadələrində hər şeydən əvvəl insan var, insan taleyi var, dünyaya, bəşəriyyətə, tarixə fəlsəfi baxış var. Məhz buna görə də, M.P.Vaqifin ədəbiyyat tariximizdə olan bu yüksək mövqeyini onun öz yaradıcılığında xalq ifadələrinə geniş yer verməsi ilə izah edə bilərik. Bütün varlığı ilə xalqına bağlı olan, qəlbi xalq və vətən eşqi ilə alovlanan şair xalq üslubunda yazıb-yaratdı, düşüncələrini öz xalqına xalq ifadələri ilə söylədi və məhz bu yolla öz poeziyasını real həyatla bağladı. Belə ki, M.P.Vaqif yaradıcılığında ümumxalq təfəkkürünün məhsulu olan idiomlara, ibarə və aforizmlərə, atalar sözü və zərbi-məsəllərə, hətta alqış və qarğışlara geniş yer verdi. Ona görə də M.P.Vaqif yaradıcılığında qarşımıza çıxan hər bir xalq ifadəsinə ehtiyatla yanaşmalı, onların ümumxalq əsasını axtarmalı və olduğu kimi mənalandırmalıyıq. Onun fikrincə ağıl, kamal, mərifət insanın tükənməz var-dövləti, başının ucalığıdır. O, xalq ifadələrinin gücünə inanmaqla yuxarıda qeyd etdiyimiz fikirlərini bir çox qoşma, qəzəl, deyişmə və müxəmməslərində, müstəzad və müəşşərlərində ifadə etməyi zəruri saymışdır. Çünki ədəbiyyat insana real həyat hadisələrinə düzgün münasibət

bəsləməyi, yaxşını pisdən seçməyi öyrətməkdə ən kamil vasitədir. Şairin aşağıdakı qəzəlində istifadə etdiyi atalar sözü bu fikirlərin bariz nümunəsini əks etdirir:

Çün "uman yerdən küsərlər" bir məsəldir xalq ara,
Küsdüyüm bica deyildir, aşinadən küsmüşəm (2, 154).

Və ya Vidadi ilə deyişməsində Vaqifin söylədiyi atalar sözü də insanların bir-birinə olan qarşılıqlı inamını ifadə edir:

Əqlin olsun, on iki imama inan,
Fayda verməz sonra olmaq peşiman,
Yəqin bil ki, qurulacaqdır mizan,
Əməlin qarşında durar, ağlarsan (2, 228)

Onun bir çox şeirlərində atalar sözü və aforizmlərlə bərabər, alqış və dualarla da sevgiyə dözümlülük, saflıq, qarşılıqlı güzəşt hissləri tərənnüm olunur və gəncləri bu ruhda yaşamağa, məhəbbətlə dolu ailə həyatı qurmağa səsləyir.

Bəlalərdən səni saxlasın xuda,
Sən tək gözəl eldən olmasın cüda,
Xəstə Vaqif ölsə, başına fəda,
Təki olsun sənin canın sağ, gəlin! (2, 79)

M.P.Vaqifin fikrincə, insani münasibətlərin yaranması var-dövlətə deyil, ağıla, kamala söykənməlidir. Çünki lovğalıq, özündən razılıq kimi mənfi keyfiyyətlər insanlar arasında anlaşılmazlıq yaradır və onları dəf etməyi əsərləri vasitəsilə gənclərə məsləhət görürdü. "Hər kəsin dünyada bir qibləsi var" (2, 52), söyləyən şair bütün bu və bunun kimi nəcib keyfiyyətlərin insanlarda, xüsusən gənclərdə aşılanmasının da şifahi xalq ədəbiyyatı nümunələrinin köməyi ilə baş tutduğunu düşünürdü:

Öyünməsin kimsə, gözələm, deyib
Ayrı təhər olur halı gözəlin.
Gülər üzlü, şirin sözlü xoşqılıq,
Ləblərindən axar balı gözəlin (2, 77).

M.P.Vaqif igidlik, dostluq, inam, etibar, vətənpərvərlik, xeyirxahlıq, düşmənə qarşı mübariz olmaq kimi mənəvi sifətləri

də yaradıcılığında xalq ifadələri ilə tərənnüm edərək həqiqi insanın yetişməsi üçün vacib şərtlər hesab edir. Ümumi yaradıcılığında geniş yer verdiyi "Uman yerdən küsərlər", "Fayda verməz sonra olmaq peşiman" və ya aşağıdakı şeirlərdə öz əksini tapan "Söz danışmaq olmaz əğyar içində", "Dost dosta gələndə yolda bənd olmaz" kimi zərbi-məsəlləri insan mənəviyyatına təsir edən, əsil dostluq nümunəsi göstərən tərbiyəvi amillərdir:

Vaqif səni sevdi xublar içində,
Bir təzə qönçəsən gülzar içində,
Söz danışmaq olmaz əğyar içində,
Gəl çəkilək bir qırağa, Fatimə! (1, 13)

Və ya

Hicranı çəkməyən dərdimənd olmaz,
Sevəni sevməyən dilpəsənd olmaz,
Dost dosta gələndə yolda bənd olmaz,
Eşqin təriqinin bu adəti var (2, 95).

Gördüyümüz kimi, yaradıcılığında dostluğa yüksək qiymət verən şair əməli fəaliyyətində də əsl dostluq nümunəsi göstərmişdir.

M.P.Vaqif həyatda olduğu kimi, poeziyasında da insanlara qarşı biganəliyi, laqeydliyi, eqoistliyi ən çirkin sifətlər adlandırır və zəmanəyə qarğış edərək insanları bu iyrənc keyfiyyətlərdən kənar olmağa çağırır:

Bilməm nə nəhs gündə çıxdım bu dağa,
Bir lalə üzündən düşdüm irağa,
Yana-yana qaldım belə fərağa,
Bərbad olsun ol zamanlar, əfəndi! (2, 40).

Aşağıdakı müxəmməsində "Saqqalı ağ olanın qiymətidir bir qara pul", zərbi-məsəlini söyləməklə insanlara dözümlülük, mərdlik, mübarizlik kimi mənəvi keyfiyyətlər aşılayır:

Etməyə bir sənəmin kim, səni heç könlü qəbul,
Sən ona istər isən eyləyəsən canını qul,
Canına rəhm eləməz, yanasan oda yüz yol,

Saqqalı ağ olanın qiymətidir bir qara pul,
Gərçi girsən bəzənib gündə yaşıl, al içinə. (2, 169)

M.P.Vaqifin yaradıcılığı ilə tanış olduqca hiss edirik ki, şifahi xalq ədəbiyyatı nümunələrinə söykənmək, xalq ifadələrinə istinad etmək xalqımızın varlığını müəyyən edən tükənməz qüvvə mənbəyidir. Şairin əsərləri bu gün də ictimai tərbiyə vasitələri kimi gənc nəslin əxlaqına, dünyagörüşünə müsbət təsir göstərir, bədii-estetik zövq mənbəyi kimi gənclərdə yüksək mənəvi-əxlaqi keyfiyyətlər aşılayır.

**QAYNAQLAR:**


1. M.P.Vaqif. Əsərləri. Redaktor: M.Arif. Bakı: Azərnəşr, 1937.
2. M.P.Vaqif. Seçilmiş əsərləri. Tərtib edəni və ön sözün müəllifi: Həmid Araslı. Bakı: Şərq-Qərb.

# MOLLA PƏNAH VAQİF POEZİYASINDA FOLKLOR MOTİVLİ MƏHƏBBƏT

**Səməngül Qafarova**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Slavyan Universiteti*

**Özət**

Klassik Azərbaycan poeziyasının ən qüdrətli nümayəndəsi, həyatın gerçək üzünü bədii cəhətdən təsvir edən Vaqif, folklorçuluğun inkişafına güclü təsir göstərmişdir. Yaradıcılığı insanın, həyatın, dünyanın mənəvi gözəlliklərindən bəhs edən şeirləri ilə zəngindir. Bunlar Vaqif dünyasının maraqlı səhifələrini yaradır.

**Açar sözlər:** poeziya, folklor, şifahi ədəbiyyat, məhəbbət, gözəllik

**Семенгюль Гафарова**

**Любовь как фольклорный мотив в поэзии Молла Панах Вагифа**

**Резюме**

Один из самых выдающихся представителей азербайджанской классической поэзии Вагиф оказал огромное влияние на развитие фольклороведения. Показывающие истинное лицо жизни стихотворения Вагифа повествуют о духовныхкрасотах мира, людей и т.д. Все это создает интересные картины духовного мира поэта.

**Ключевые слова:** поэзия, фольклор, устная литература, любовь, красота

**Samangul Gafarova**

**Love with folk motif in Molla Panah Vagif's poetry**

**Summary**

One of the most prominent representatives of the Azerbaijani classical poetry Vagif had a huge impact on the development of

folklore. Showing the true face of life poems by Vaqif describes the spiritual beauty of the world, people, etc. So all of those poems create an interesting picture of the spiritual world of the poet.

**Key words:** poetry, folklore, oral literature, love, beauty

Faciə ilə bitən ömrün sahibi, sözü məzəli, ixtilatı şirin, ellər yaraşığının, ölkə gözəlinin sorağı ilə gözəllik axtarışında idi. İlk sevdasından qazanmayan, saf məhəbbətin işığında pərvanə kimi yanan, elinə, dostuna sadiq xalq incilərindən bəhrələnən bir şair idi – Vaqif. Xalq dəyərlərindən bəhrələnən, qazandığı saf inciləri yerli-yerində sapa düzən Molla Pənah, dünənin, bugünün, sabahın söz qoşanı idi. Çünki saf məhəbbət bugün də var, dünən də var idi, sabah da olacaqdı. Həyata real baxışla baxan, incim-incim incilərini gerçəklikdən qazanan şairin ruhu mənən elə-obaya, xalq dərgahına bağlı olduğundan əsərləri – xalq yaradıcılığı, şifahi ədəbiyyat, yəni folklorçuluğa meyllidir. Burada həm sevgi, eşqlə bağlı arzuları, həm sevinc və kədər, həyəcan və iztirab, həm də dövrün mühüm hadisələrinə qoşduğu qoşmaları mühüm əhəmiyyət kəsb edir. Daxili nikbinliyi, həyatsevərliyi yaradıcılığında özünü qabarıq büruzə vermişdir. Qadınlara olan hüsn-rəğbəti, məhəbbəti, bu günahsız, məzlum, hüquqsuz zərif cinsin tərənnümü ilə özünü büruzə verir.

«Gərək», «Zeynəb», «Pəri», «Şamama», «Ola» kimi şeirləri fikirlərimizi əsaslandırır:

Boyun sürahıdır, bədənin büllur,
Gərdənin çəkilmiş minadan Pəri.
Sən bir sonasan, cüda düşübsən
Bir bölük yaşılbaş sonadan, Pəri.

Və ya

Səhər dura sürmə çəkə gözünə.
Birçəklərin həlqə qoya üzünə.
Cilvələnə, sığal verə özünə,
İşi, gücü gülüb oynamaq ola və s.

Vaqif həm gözəllik, sığal-tumar, həm də zəriflik, bənzərsizlik, etiklik arzulamışdır. Qadınlara həsr etdiyi əsərlərində önəmli yerdə humanistlik, mütərəqqi baxışlar, hörmət və ehtiram görürük. Şeirlərində Azərbaycan qadınına ürək arzularını ifadə etmiş, XVIII əsr üçün o qədər də real olmayan həyat tərzi arzulamışdır.

Yalnız saraylarda yaşayan, yüksək mədəniyyət, təhsil görən qadınlara deyib. Onun nəzərində hər bir qadın səliqəsi və yüksək davranışı, şən və gülərüz olması, təbii gözəlliyi, şuxluğu ilə fərqlənməlidir. Arzulamışdı ki, hər bir ailənin belə səviyyəli, günəşə bənzəyən qadını olsun:

«Ənliyi, kirşanı neylər camalın,
Sən elə gözəlsən binadan, Pəri».

* * *

«Günəş təki hər çıxanda səhərdən,
AlırsanVaqifin əqlini sərdən».

Vaqif Azərbaycan qadınını dövrün ideya-estetik maraqlarını nəzərə almadan, öz düşüncəsi, öz tərzi ilə şeirlərinin qanadında yaşatmışdı. Vaqifə məxsus zahiri maraq əslində çox qədim, dərin qatlara məxsusdur. Görə bilmədiyi, görmək istədiyi etik mədəniyyəti, şeirlərinin həyatında yaşatmışdır. Arzulayıb, amma görə biləcəyinə heç də ümid etmir. Ancaq yorulmadan, usanmadan vəsf etməkdə davam edir. Güman edir ki, dünyanın ümidsizliyi, qan-qaraldıcı işləri gözəlliklərin, sadəcə azlığındadır. Gözəllik aşiqi hər yerdə səmimiyyət, hər yerdə etibar, sadiqlik axtarır. Lakin tapa bilmir. Özünə:

«Vaqifa, göz yum, cahanun bax maxubüziştinə
Üz çevirəli-əbayə, Əhmədi-Muxtarə bax!» - təskinlik verir.

Vaqif yaradıcılığı təzadlıdır. Onun könül quşu gah qəmdən bəhrələnir, gah da bəmdən. Ətraf mühitin, doğulub boya-başa çatdığı doğma yurdun gözəlliklərini, gözəllərini can aşiqi tək vəsf edir, könül mizrabını bəmə, nikbinlliyə, dahdadəmə –

bədbinliyə vurur. Çünki «Vaqif» adlı bir dünyanın ənginliklərində həyati, dünyəvi gözəlliyə, gözəlliklərə pərəstiş hissləri qüvvətlidir. Bundan da onun şeirlərinə yeni nəfəs, təravət və bədii gözəllik verir. Bu dünyanın – «Vaqif» dünyasının yeni səhifələrini yaradır. Hansı ki, bu səhifələr müxtəlif, maraqlı, mənalı söz və ifadələrlə zəngindir. Bunlar sıxıcı, çətin, anlaşılmayan söz yığını deyil. Bunlar axıcı, aydın, dəqiq, yeknəsəklikdən uzaqdır. Bunlar ifadə gözəlliyi yaradan, poetik sözlər, hiss və həyəcanların emosionallığını qüvvətləndirən nümunələrdir:

Ya mələksən, ya hürisən, ya pəri,
İnsanda sən təki can görməmişəm (5, 63)

Nazlı-nazlı danışıban güləndə
Dönürsən şəkərə, qəndə, bala qız (5, 140)

Ölməzliyni əsrlərcə yaşadın, bənzərliyi olmayan «Vaqif» dünyasının nümunələri, istər tək, istərsə də cüt mənalarda işlənsin, məna zənginliyinə xələl gətirməyən fikirlərinin ifadəliliyini yüksəklərə qaldıran poetik gerçəkliklərlə dopdoludur. Tükənməyən, azalmayan, solmayan, mənasızlığa düçar olmayan təfəkkürün məhsuludur.

Siyah tel görmədim Kür qırağında,
Məgər heç yaşılbaş olmaz, bu yerdə?
Tərlan könlüm yenə uca dağlara
Havalanıb hərgiz qonmaz bu yerdə.

«Vaqif öz istedad və doğruluğu sayəsində o qədər izzətü etibar qazanır ki», (S.M.) dövrunun mütəfəkkir ziyalılarından biri kimi hörmət-izzət sahibi olur. Tanınmış, insaflı, xalqın, elin-obanın tərəfdarı kimi şöhrətləni. Necə ki, sevimli şairimiz S.Vurğunun Vaqifi, şair Vaqifi xarakterizə edir:

«Qudurub yolunu azdığı zaman,
Mənəm zəncirindən tutub saxlayan».

Bu adi etimaddan irəli gəlmir.
Bunu tarixçilər yazır.

Mir Mehdi Xəzani «Kitabi-tarixi-Qarabağ»da yazır: «... Qarabağda İbrahim xanın hüzurunda izzət və şöhrət xüsusiyyət hasil etmişdir ki, xanın ondan kənar məsləhəti olmazdı. Onun vəziri və mötəmidi idi. Və hərümuri-hökumət və qeyridə Axund Molla Pənahın tədbiri və müşavirəsi ilə rəftar edərdi. Hər necə düşmüşdüsə, ona yaxşı inanıb etimadi-külli etmişdi ki, hamı övlad və əqrabalarından artıq onun xatirin və hökumətin mənzur edirdi. Və külli-ixtiyarın ona vermişdim» (4, 11).

Səməd Vurğunun Xuramanı da onun haqqında demişdi:

«Buna da bir böyük vəzir dedilər,
Başımı, beynimi alıb yedilər».

M.P.Vaqif həyat imtahanının ona hazırladığı bəzən xoş, bəzən orta, bəzən də acı olaylarından baş çıxarmağa çalışmışdı:

«Sübh söndü, şəb ki, xəlqə qiblə idi bir çıraq,
Gecəki iqbalı gör, gündüzdəki idbara bax».

Vaqif yaradıcılığı şirinliyi, axıcılığı ilə yaddaqalan, tez əzbərlənən bədii irsdir. Əsərlərinin dili sadə xalq dilidir. Yaradıcılığı da xalq deyim və ifadələrinə bənzətmələri ilə zəngindir.

Evi yandırılan, əsərləri it-bata düşən Vaqifin yaradıcılığı bəlkə də bu səbəbdən bugünə qədər yaşamışdır. Çünki xalqını sevən, ona qiymət verən, onun gözəlini – yəni Azərbaycan qadınının ismət, mərifət, gözəllik sahibi olmasını bütün şeirlərində canlandıran Vaqif yaradıcılığı bugün də yaşayır. Yəni o, xalqın dilində, xalqın könlündədir.

Vaqifin hansı məzmunda yazmağından asılı olmayaraq, orada şifahi xalq yaradıcılığının birincisini tapmamaq mümkün deyil. Bunu biz gözəllərin vəsfində də, təbiətin təsvirində də bunları müşahidə etmək mümkündür. Şair dostluğu, sevgini də, etibarlılığı, səxavətliliyi də şeirlərinin dilində xalqa çatdırmağa çalışmışdır. Hər bir əsər şairin qəlb dünyasının və sadə xalq deyim və inanclarının məhsuludur. Belə gözəl, mənalı, hər bir misrası

bir xalq sözünə və məsəlinə bağlı olan şeirlərin müəllifi də yalnız sevgi, istək, həyata məhəbbət, insanlara izzət və ehtiram dolu olan bir şəxsiyyətdir. Məsələn, onun Məhəmməd xan bəyə həsr elədiyi «Saxla» adlı şeirində bunları müşahidə edirik: «Əgər səyyadisən, bərəni saxla», və ya «Bostandan gələn dərəni saxla».

Burada xalq arasında «yaxşı ovçu bərəni gözlər» deyiminə,

«Evlərdə məst, başmaqsatanı qoyma,
Çaxır içib sərxoş yatanı qoyma,
Özünə qardaşlıq tutanı qoyma,
Qonaq üçün çörək verən isaxla» (5, s.18).

«qapısı hamının üzünə açıq», «çörək verən», amma «hər yoldan ötəni evə buraxma» xalq ifadələrinə, «özgənin yurdunda o damı tikmə» (5, s.18), «özgə torpağına göz dikən evsiz qalar» atalar sözünə əsaslanır. Vaqifin «Ayrılıq» şeirində «Eşq atəşinə yanan pərvanələr» deyiminə isə başqa bir şəkildə rast gəlirik:

«Dönmədik başına pərvanələr tək,
Eşq oduna yanışmadıq, ayrıldıq» (5, s.19).

Molla Pənah Vaqifin hər hansı bir məqsədlə Məhəmmədə həsr etdiyi «Məhəmməd» adlı şeirində də «Gözəl səsindən göydə uçan quşlar qanad salar» - fikrinə bənzədilir:

«Sərxoş oturanda əlində sazı
Bənd edir, quşları göydə avazı.
Yeni yetən igidlərin şahbazı
Sana sanki, bir sonadı Məhəmməd» (5, s.21).

Aşıq yaradıcılığında çox zaman işlədilən «Dililə desəm, dilim yanar» ifadəsini Vaqif belə işlətmişdir:

«Deməli, çox gizlin dərdi-dilim var,
Qorxuram ki, deyim, eşidə əğyar.
İstərəmki, yazam, göndərəm, eyyar,
Səhər oğrun əsən yelilən sənə!» (5, s.27).

Həmişə el arasında işlətdiyimiz «Allah səni hər bəladan qorusun»u isə:

«Yetişməsin, yarəbb, bəladan sənə» (5, s.28) – kimi öz ifadəsini tapmışdır.

El arasında ən çox işlədilən «Taylı-tayın tapmasa, günü ah-vayla keçər» atalar sözünü Ustad Vaqif belə incələmişdi:

«Layiq deyil sənə nakəsübi qəm,
Adam gərək ola, adama həmdəm» (5, s.32).

Molla Pənah Vaqifin həyat yolundan çox məğləblər açılır, təhlil olunur. Bir daha təsdiqləyirlər ki, Vaqif Qazax elindən, anadolu türklərinin kökündəndir. Vaqif – gözəl simalı, ucaboy, xoş ovqatlı bir oğuldur. Vaqif – realist poeziyanın ən qüdrətli nümayəndəsidir. Vaqif – savadlı, hazırcavab, elmli bir müəllim idi. Vaqif həm klassik üslubda qəzəl və müxəmməs, həm də xalq şeiri tərzində qoşma və təcnis yazmışdır. Vaqif lirik şairdir, məhəbbət və gözəllik tərənnümçüsüdür. Vaqif təbii, gerçəkliyi sevən, səmimi duyğularla bərabər, hadisələrin dəqiqliyindən çıxış edəndir. Vaqif həyatsevərlik, şadlıq, sevinc hisslərinin təbliğatçısıdır. Vaqif haqqın, ədalətin carçısıdır. Vaqif həyatın acısını, şirinini dadmış, dünyagörmüş, ictimai həyatla bağlı düşüncələrinin təmsilçisidir.

Vaqif ədəbiyyat tariximizdə yeni bir ənənənin – realizm və xəlqiliyin banisidir, Vaqif ədəbiyyatımızda novator, yenilikçi sənətkardır.

Vaqif – Y.V.Çəmənzəminlinin «İki od arasında» və S.Vurğunun «Vaqif» əsərlərinin baş obrazıdır.

Vaqif – güclü diplomatdır, siyasətçidir.

Vaqif – Azərbaycan ədəbi-ictimai fikir tarixində özünə möhkəm yer tutmuş, obraza, simvola çevrilmiş, Vidadi- Vaqif dostluğunun qəhrəmanıdır. Vaqif – adi bir Azərbaycan kəndində yetişmiş, özünəməxsus həyat fəlsəfəsi, intellektual maraqları olan intibah təfəkkürünün, xalq ruhunun daşıyıcıdır.

Vaqif – yaradıcılığını folklora kökləyən, əsərləri xalq deyimlərinə çevrilən folklorşünasdır.

Vaqif – ideya-estetik təfəkkürün filosofudur.

Vaqif – hər zaman xalqının oğludur.

Vaqif – milli təəssübkeşliyini qoruyan, daxili və xarici intriqalardan qorumağa çalışan siyasətçidir.

Klassik Azərbaycan realist poeziyasının ən qüdrətli nümayəndəsi, xəlqiliyin inkişafına güclü təsir göstərən, həyatın gerçək üzününən gözəl bədii təsirinin yaradıcısı, ədəbiyyatımızdakı mövqeyi ilə onu uca zirvələrə yüksəldən, şifahi xalq ədəbiyyatı ilə bağlılığı, ona dərindən bələdliyi ilə qoşmalarında yerli-yerində işlətməklə gözəlliyinə, bədii təsir gücünə heyran qaldığımız Vaqif yaradıcılığı hər zaman aktualdır.

«Vaqifin dünyagörüşü (və fəlsəfəsi!) də elədir.
Göz görməsə, dəli könül istəməz,
Durub qabağında baxmağın nədir? - deyir» (4, 68).

## QAYNAQLAR


1. Azaflı A. Klassik Azərbaycan ədəbiyyatı. Bakı: Şərq-Qərb, 2004.
2. Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Ozan, 2008.
3. Hacıyev F. Molla Pənah Vaqifin söz xəzinəsi. Azərbaycan dili və ədəbiyyatının tədrisi. Bakı, 2011.
4. Cəfərov N. Vaqifin dövrü, həyatı və dünyagörüşü. Azərbaycan, 2017, № 2-3.
5. Vaqif M.P. Əsərləri. Bakı, 2004.

# MOLLA PƏNAH VAQİF POEZİYASINDA GÖZƏLLİYİN VƏSFİ
## (folklor və yazılı ədəbiyyat materialları əsasında)

**Şəbnəm Məmmədli**
*AMEA Folklor İnstitutu*
*shebnem.memmedova1981@mail.ru*

**Özət**

Çeşidli lirik janrın şəkillərindən (həm şifahi xalq yaradıcılığı, həm də klassik ədəbiyyat) şeirlər yazmış M.P.Vaqif yaradıcılığında gözəlliyin vəsfinə daha böyük yer ayırmışdır. Təqdim olunmuş məqalədə biz Vaqifin poeziyasında gözəlliyin vəsfi ilə bağlı mövzu ətrafında təhlillər aparmışıq. Onun şifahi xalq yaradıcılığı və klassik ədəbiyyat örnəklərindən istifadə etməklə bu istiqamətdə əldə etdiyi uğurlara nəzər salır, probleme öz münasibətimizi sərgiləməyə çalışmışıq.

**Açar sözlər:** Vaqif, poeziya, gözəllik, poetik obraz, təsvir, folklor, yazılı ədəbiyyat

**Шабнам Мамедли**

**Воспевание красоты в поэзии Вагифа (на материале фольклорной и письменной литературы)**

**Резюме**

Писавший свои произведения в разных поэтических жанрах, Вагиф в своем творчестве, пользуясь жанрами устного творчества и письменной литературы, достаточно большое место отводил воспеванию красоты. В представленной статье мы намереваемся провести наблюдения над поэзией Вагифа относительно названной тематики, ибо именно такое обращение и эта тема наряду с прочими являются одной из магистральных в его лирическом творчестве.

**Ключевые слова:** Вагиф, поэзия, красота, поэтический образ, изображение, фольклор, письменная литература

**Shabnam Mammadli**

## Expressing the beauty in Vagif's poetry
## (On the base of the folklore and written literature materials)

**Summary**

Writing his works in different poetic genres Vagif in his work using the genres of oral creativity and written literature, devoted the sufficiently large place to the expressing of the beauty. In the given article we intend to carry out the observations on Vagif's poetry on the subject matter, for it is this treatment, and this topic, among others, which is one of the main lines in his lyrical work.

**Key words:** Vagif, poetry, beauty, poetic image, image, folklore, written literature

Müxtəlif poetik janrlarda (qoşma, təcnis, qəzəl, müxəmməs, müstəzad və s.) yazıb-yaratmış Molla Pənah Vaqif milli poeziya kəhkəşanımızın parlaq ulduzu, qüdrətli söz sərraflarındandır. Vaqif yaradıcılığı əsas etibarı ilə folklor və klassik ədəbiyyat janrlarından səmərəli istifadə etmə müstəvisində araya-ərsəyə gəlmişdir. Vaqif lirikasının əsasını dilin sadəliyi, təbiliyi, aydınlığı və ifadəliliyi təşkil edir. Tofiq Hacıyev haqlı olaraq Vaqifin yaradıcılığının folklor zəminində durub, xalq dilini Füzuli məktəbinin səviyyəsinə qaldırıb yazılı ədəbi dil mövqeyinə yetişdirib yeni ədəbi məktəbin əsasını qoyduğunu söyləmişdi. Doğrudan da Vaqifin əsərlərinin məzmununa nəzər saldıqda biz onun folklor şəkillərindən istifadə edib, aşıq yaradıcılığı realizmindən qidalanaraq klassik poeziyamızda realizmin banisi olduğunu görə bilərik. Vaqif şifahi xalq yaradıcılığının mövzu və motiv, janr və şəkillərindən, atalar sözləri və zərbi məsəllərdən, fəlsəfi-ekspressiv formullardan uğurla yararlanmışdır. Onun qoşma janrında qələmə aldıqlarında aşıq qoşmalarının poetik biçimləri xüsusilə nəzər-diqqəti cəlb etməkdədir.

Mövzu baxımından yaradıcılığı rəngarəng olan sənətkarın əsərlərinin xeyli qismi gözəlliyin vəsfinə həsr olunmuşdur. “Gözəllik” dedikdə Vaqif bu anlayışa yalnız dar çərçivədə nəzər salmır, o, “gözəllik” dedikdə insanın daxili, mənəvi aləmi ilə zahirinin həmahəngliyini başa düşür. Bununla belə, Vaqifdə gözəllik əsasən qızla, qadınla, xanımla bağlanır. Bu baxımdan Vaqifin “O şux qəmzələrin, xəncər kirpiyin”, “Bir sənəmin sinəsinə müştağam”, “Bu gün bir əcayib gözəl sevmişəm”, “Ey süsən sünbülüm, al zənəxdanım”, “Sənsən ey nazənin, gözəllər şahı”, “Sığallanıb-sığallanıb siyah zülf”, “Boyun sürahıdır, bədənin büllur”, “Bir fitnə fellinin, üzü xallının”, “Ey maral baxışlı, sona sığallı” və s. kimi şeirlərində gözəllər və gözəllik müxtəlif yönlərdən çoxsaylı bədii-poetik ifadə vasitələrinin, epitetlərin, bənzətmələrin, müqayisəli, qarşılaşdırıcı ibarələrin köməyi ilə təsvir obyektinə çevrilir. Vaqif nəinki folklorda, həm də klassik ədəbiyyatımızda gözəlliyi mücərrədlikdən xilas edib, A.Dadaşzadənin təbirincə desək, “ülvilik səltənətindən endirir”. Vaqifdə gözəlliyin məkanı da mücərrəd yox, konkretdir. O, gah Qarabağda, gah Kür qırağında, gah da Tiflisədədir və s. və i.a. Vaqifdə gözəli və gözəlliyi özündə əks etdirən nə varsa, diqqət mərkəzinə çəkilir. Gözəlin təsviri ilə (üzünün, alnının, qaşlarının, burnunun, ağzının, boy-buxununun, baxışının, yerişinin, duruşunun, qamətinin) onun pal-paltarının əksər tərəfləri elə incə müşahidəliliklə verilir ki, buradakı milli ornamentlərlə bəzədilmiş poetik obraz oxucunu ovsunlayır.

Vaqif yaradıcılığının incisi, cövhəri onun lirikasıdır. Onun şeirlərindəki təhkiyə üsulu lirik özünüifadəyə xidmət etməkdədir və bu, şairin hisslərini oxucuya, dinləyiciyə uğurlu çatdırmaqla bağlıdır. Bununla belə Vaqif yaradıcılığının mayasında şifahi xalq yaradıcılığı örnəklərinin dayandığını da yaddan çıxarmaq olmaz. Vaqif şeirlərini xalq obrazlılığının dili ilə daha çox çatdırmağa səy göstərmişdir. Şifahi ədədbiyyat əsasən dinləyənlə fikri söyləyənin canlı əlaqə qurduğu mətndir. Burada söyləyənlə dinləyən arasında ünsiyyət olduqca vacibdir. Şifahi sözün

yazılı sözdən, fikirdən yayılma imkanları dəfələrlə çoxdur (4, 18). Şifahi ədəbiyyat xüsusilə poeziya nümunələri hansı böyük sürətlə yayılırsa, Vaqifin də xalq ədəbiyyatı üslubunda yazdığı qoşmaları oxucular arasında elə böyük sürətlə yayılmışdır. Azərbaycan şifahi poetik janrında çoxsaylı bədii bənzətmələr olduğu kimi, Vaqif poeziyasının da dilində həmin ibarələrdən (bəzən onları yetərincə zənginləşdirməklə) istifadə edilmişdir. Vaqifdə "ala göz", "yar", "aşna", "bivəfa", "cəfa", "səfa", "yanağı lalə", "ağzı şəkər", "dili bal", "şamama", "qəmzə", "gülü reyhan", "camalından yağan nur", "ağ gül", "nazik bədən", "zülfləri qara", "müjgan ox", "baxışı şirin", "qəm evi", "eşq atəşi" və s. ibarəli ifadələr öz kökləri etibarı ilə şifahi poeziya ənənələrimizə dirənirsə, digər bir tərəfdən, klassik ədəbiyyatımızın xüsusiyyətlərini də özündə inikas etdirməkdədir.

Məlum olduğu kimi, Vaqif poeziyası XVIII əsrin ortalarından sonralar daha böyük vüsət almışdır. Eyni zamanda bu da məlumdur ki, Vaqif dövrünə qədər həm Azərbaycan şifahi xalq yaradıcılığı, həm də klassik poeziyamız böyük uğurlara imza atmışdır. Ədəbiyyatımızın inkişafının hər iki qolundan Vaqif uğurlu və yaradıcı şəkildə istifadə etmişdir. Vaqif yaradıcılığı o qədər xəlqidir ki, sanki onun poeziyasında xalq ədəbiyyatının variantlılığı yaradılmışdı. Etnik-milli, ədəbi-poetik örnəklərdən və köklərdən daha geniş şəkildə yararlanmağa çalışan Vaqif də xalqa bağlı olmaqla sanki şifahi ədəbiyyatın poetik imkanlarını öz poeziyasında genişləndirməyə və zənginləşdirməyə xüsusi səy göstərmişdi:

Sürmələnsin ala gözlər şux olsun,
Siyah kiprik ucu almaz ox olsun,
Səg rəqiblər aralıqdan yox olsun,
Gəzək bir fərağət ikimiz belə (8, 15)

Parçadan göründüyü kimi şifahi yaradıcılığımızda geniş yer almış poetik nümunələr Vaqif poeziyasının mayasına hopmuşdur. Vaqif başdan ayağa xalq ruhu ilə nəfəs alırdı. Onun bu

cəhəti qələmə aldığı şeirlərinin hamısının içində boy göstərməkdədir. Vaqif xalq yaradıcılığı örnəklərinə heç də təsadüfən, yaxud söz gəlişi müraciət etmirdi. Əksinə o, bu nümunələrin köməyi ilə öz ideallarını poetik fikrinin naxışlı olmasını, ibarələrini xalqa daha anlaşıqlı çatdırmaq üçün mühüm vasitə kimi götürürdü. Eyni zamanda o, xalq yaradıcılığından xalqın dünyagörüşünü, əhval-ruhiyyəsini, arzu və istəklərini daha dərindən əks etdirmək üçün istifadə edirdi:

Kür qırağının əcəb seyrəngahı var,
Yaşılbaş sonası, hayıf ki, yoxdur!
Ucu tər cığalı siyah tellərin
Hərdən tamaşası, hayıf ki, yoxdur!

Qış günü qışlağı Qıraqbasanın,
Gözüdür Aranın, cümlə-cahanın,
Belə gözəl yerin, gözəl məkanın,
Bir gözəl olası, hayıf ki, yoxdur! (8, 63)

Vaqif yaradıcılığına dərindən diqqət yetirdikdə aydın görmək olur ki, o, xalq yaradıcılığı nümunələrindən ustalıqla yararlanmaqla yazdığı şeirlərinin ahənginə uyğun olaraq əsərlərində işlətmişdir. Baxaq görək Vaqifin xalq yaradıcılığı nümunələrində geniş istifadə olunmuş "intizar", "yol gözləmək", "könül tabı", "ayrılıq" və s. kimi ifadələri şeirin infrastrukturuna ustalıqla oturdur:

İntizar çəkməkdən, yol gözləməkdən,
Könlümün nə tabı, nə taqəti var.
Yazan ola ayrılığın dərdini,
Fərhadü Şirinə hekayəti var.

Bir kimsə ki, müştaq ola cəmala,
Görənlər bilir ki, düşər nə hala,
Ol qamətini hər gələndə xəyala,
Görəsən ki, necə qiyaməti var. (8, 53)

Bu parçalar göstərir ki, Vaqif şifahi xalq ədəbiyyatı nümunələrindən yaradıcı şəkildə faydalanmışdır ki, bu da onun lirikasının palitrasının, rənglərinin, naxışlarının formalaşmasına güclü təsir göstərmişdir. Prof. Paşa Əfəndiyev Molla Pənah Vaqif yaradıcılığına şifahi xalq ədəbiyyatının təsirindən xüsusilə söhbət açır. Folklorşünas haqlı olaraq göstərir ki, Vaqif daim el içərisində böyüdüyündən, onun dilini, ədəbiyyatını, əfsanə və rəvayətlərini hələ lap kiçik yaşlarından hafizəsində toplamışdı. Elə buna görə də müstəsna təbə malik olan M.P.Vaqif sonralar yaradıcılığa başlayarkən el ədəbiyyatının təsiri onun bütün yaradıcılığında özünü göstərmişdir (5, 583). Təsadüfi deyildir ki, Vaqifin qoşmaları həm onun dövründə, həm də sonrakı dövrlərdə yetişmiş ustad aşıqlarımızın qoşmaları ilə yaxınlıq təşkil etməkdədir. Bu eyni zamanda həm də onu göstərir ki, Vaqif, bir tərəfdən, şifahi xalq ədəbiyyatından, ikinci bir tərəfdən, ona qədər ki ustad aşıqların yaradıcılığından (Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım, Aşıq Valeh), üçüncü bir tərəfdən, Q.Bürhanəddin, Ş.İ.Xətai, M.Əmani və başqaları tərəfindən başlanan klassik ənənəni daha yüksək pillələrə qaldırmışdır. Buna görə də Vaqif yaradıcılığını şifahi xalq yaradıcılığı, el şairliyi və klassik ədəbi nümunələri yarada bilən sənətkarlar müstəvisində nəzərdən keçirmək lazımdır. Vaqif el şairləri üslubunda yazıb-yaratmaqla dövrün ab-havasına uyğun olaraq klassik üsluba da müraciət etməyi vacib hesab etmişdi. Məlumdur ki, aşıq sənəti yarandığı gündən daim inkişafda və formalaşmaqdadır. Dövrdə yaşanan aparıcı halları aşıq yaradıcılığında da daim özünü əks etdirmiş, dünyagörüşündən asılı olmayaraq, aşıq təzadlarla barışmaz mövqedə dayanmış, intibaha meyilliliyini ortaya qoymuşdur (6, 35). XVII-XVIII əsrlərdə yazıb-yaratmış aşıqların belə yaradıcılıq xüsusiyyəti Vaqif poezisiyasında xüsusilə qiyamçı mövqedə dayanırdı. Buna görə də Vaqifi heç də həyata aludə olan bir sənətkar kimi nəzərdən keçirmək düzgün olmazdı. Onun yaradıcılığında həm də sosial motivli mövzular oxucunun

diqqət mərkəzinə çəkilirdi. Bu baxımdan “Bayram oldu”, “Kür qırağının əcəb seyrəngahı var”, “Siyahtel görmədim Kür qırağında”, “Görmədim” və s. kimi poetik nümunələrinin adlarını çəkmək kifayətdir. Ədəbiyyat tarixçilərimizin fikrincə “böyük bədii təsir və ümumbəşəri gücünə malik olan “Görmədim” müxəmməsi poeziyamızın ən nadir incilərindən biri kimi yaşamaqdadır”. Bu fikrin təsdiqini və həmişəyaşarlığını biz Elçinin 2015-ci ildə işıq üzü görmüş “Baş” romanında tapa bilərik (4, 368). Belə ki, romanın çoxsaylı səhifələrində müəllif oxucularını bədii fərziyyələrinin doğruluğuna inandırmaq üçün Vaqifin “Görmədim” müxəmməsinin müxtəlif parçalarını əsərin mətninə ustalıqla daxil etmişdir:

Mən bu cahan mülkündə doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim... (7, 127)

“Görmədim” müxəmməsində şair nəinki şikayətlənir, o, həm də yığcam hədəfə tuşlanan ifadələrlə dövrün ictimai-sosial mənzərəsinə qarşı çıxır, yalana, riyaya, ədalətsizliyə, sosial ziddiyyətlərə, haqsızlıqlara qarşı vuruşur, qanunsuzluğu qamçılayır, fırıldaqçıları, nadanları ifşa edir.

Vaqifin folklor, aşıq yaradıcılığı və klassik ədəbiyyatdan bəhrələndiyi onun qoşma, təcnis, qəzəl, müxəmməs, müstəzad və s. kimi janrlara yaradıcılıqla yanaşması da yaxşı sübut edir. Məlum olduğu kimi, adlarını çəkdiyimiz janrlardan qoşma, təcnis, müxəmməsdən başqa qalanlar klassik poeziyamızın şeir şəkilləridir. Yazılı ədəbiyyata aid janrlarda onun poeziyası məzmun, ifadə tərzi, ideya-bədii keyfiyyəti ilə sələflərindən xeyli fərqlənsə də, orijinallıq keyfiyyəti baxımından o, ənənəçi kimi çıxış etmişdir. Yəni buna görə də Vaqifin bədii söz xəzinəmizə xüsusi önəm gətirdiyi janr onun qoşmalarıdır. Yəni qoşmalardakı bədii məram, fikir, məzmun, ifadə üsulu, dil əlvanlığı və üslub tərzi Vaqif ədəbi məktəbinin əsas nüvəsini təşkil edir (2, 721). Vaqifin bədii təfəkkürünün başlıca cəhəti ondan ibarətdir

ki, o, ənənəvi klassik ədəbiyyatın həm forma-şəkil əlamətlərini, həm də mahiyyət-məzmun çalarlarını nəzərə çarpacaq dərəcədə dəyişə bilmişdi. O, klassik poeziyanın ənənəvi janrlarını qoşma janrı ilə ustalıqla əvəzləyə bildi. Janrın deyim tərzinə yeni real məzmun verdi, onun şəkil təravətini zənginləşdirdi:

Vaqif, yad et səni yad eyləyəni,
Mən sevirəm mənə yarım deyəni.
Qoymaz göz önündən sevən sevəni,
Könüldən könülə yollar görünür. (7, 86)

Vaqif yaradıcılığının mayası, bu nümunədən göründüyü kimi, millilik, xəlqilik, realizm və sadəlikdən yoğrulmuşdur. Parçadan göründüyü kimi, Vaqifin lirikasında portret işarələri, xarakteristikası aparıcı olmaqla poeziyasının dominantasını folklor janrları ilə klassik ədəbiyyat janrları təşkil etməkdədir.

## QAYNAQLAR


1. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. Üçüncü cild. Bakı, "Elm", 2009, 736 s.
2. Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). Ali məktəblər üçün dərslik. Bakı, "Elm və təhsil", 2014, 760 s.
3. Bayat F. Folklor dərsləri. Bakı, "Elm və təhsil", 2012, 424 s.
4. Elçin. Baş. Roman. Bakı, "Qanun nəşriyyatı", 2015, 368 s.
5. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, "Elm və təhsil", 2013, 600 s.
6. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. (II hissə). Bakı, "Elm", 2006,648 s.
7. Vaqif. Əsərləri. (Tərtib edəni A.Dadaşzadə). Bakı, 1988.
8. Vaqif. Qurban olduğum. Bakı, "Gənclik", 1994, 120 s.

# MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA BƏŞƏRİ DƏYƏRLƏRİN İFADƏSİ

**Zümrüd İbrahim qızı Mənsimova**
*filologiya üzrə fəlsəfə doktoru*
*AMEA-nın İctimai Elmlər*
*Bölməsinin elmi katibi*
*zumrudibrahimqizi@gmail.com*

**Özət**

Məqalədə Molla Pənah Vaqif yaradıcılığında əks olunan multikultural və bəşəri dəyərlər araşdırılmışdır. Yeri gəldikcə şairin özündən sonra yaşayıb yaradan sənətkarların yaradıcılığına təsiri tədqiq edilmişdir. Eləcə də şairin yaradıcılığı onunla eyni dörlərdə yaşayıb yaradan Zaqatalalı aşıq Məhəmməd yaradıcılığı ilə müqayisə edilmişdir. Burada həm də Vaqif yaradıcılığında yer almış, dini dünyagörüş, özgə xalqlara münasibət, özgə xalqların gözəllərinə, özgə dinlərə münasibət, dostluq, sülhsevərlik, barış kimi bəşəri ideyalar araşdırılmışdır.

**Açar sözlər:** Vaqif, multikultural dəyərlər, bəşəri ideyalar, Aşıq Məhəmməd, dini dünyagörüş, tolerantlıq, özgə xalqlar

**Зумруд Мансимова**

**Выражение общечеловеческих ценностей в творчестве Молла Панах Вагифа**

**Резюме**

В статье исследуются мультикультуральные и общечеловеческие ценности, отраженные в творчестве Молла Панах Вагифа. По мере необходимости рассматривается влияние поэта на творчество тех личностей, кто жил и творил после него. Кроме того, проведены сравнения с творчеством закатальского ашуга Мухаммеда, который являлся современником Вагифа. В ней также проанализированы идеи общечеловеческих ценностей, религиозного мировоззрения,

отношения к чужим народам, их красавицам и религиям, а также дружбы, миролюбия и примирения.
**Ключевые слова:** Вагиф, мультикультуральные ценности, общемировые идеи, ашуг Мухаммед, религиозное мировоззрение, толерантность, чужие народы

**Zumrud Mansimova**

**Expression of universal human values in the creation Molla Panah Vagif**

**Summary**

The article reflects multicultural and human values in the creation of MollaPanahVagif. As nuded, was considered the poet influence of the poet on those, who lived and created after him.

Moreover, a comparison was made in the works of Zagatalyashig (folklore singer) Muhammads, who was Vagif`s contemporary. Also, in the article are analysed such human values as religious word view, attitude to other peoples, their beauties and religious friendship, reconciliation.

**Key words:** Vagif multicultural value, human ideas, Ashig Muhammad, religious wordview, foreing peoples tolerance.

Böyük Azərbaycan şairi, görkəmli ictimai, siyasi xadim Molla Pənah Vaqif Azərbaycan ədəbiyytında özünəməxsus çəkisi olan şairlərimizdəndir.

Azərbaycan realist ədəbiyyatının yaradıcısı, xalq ruhuna, aşıq ədəbiyyatına doğma olan, poeziyasında gerçəkliyi əks etdirməyə bacaran Molla Pənah Vaqifin anadan olmasının 300-illiyi tamam olur. Bu məqsədlə Azərbaycan Respublikasi Prezidenti cənab İlham Əliyevin Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında 12 yanvar 2017-ci il tarixli Sərəncamı yerinə düşən və əsaslıdır.

20 faiz vətən torpaqlarının düşmən tapdağında olduğu bir dönəmdə Azərbaycanın tanınmış simalarının, xalq ruhunda ya-

zıb-yaradan, xalqa xidmət etməyi özündə bir misya hesab edən görkəmli şairlərimizi bu şəkildə yad etmək təbii ki, ölkə rəhbərinin milli mənəvi dəyərlərimizə sənətə, sənətkara verdiyi yüksək dəyərdən irəli gəlir.

Bu da həqiqətdir ki, Molla Pənah Vaqifin şeirlərində xalq ruhuna yaxınlıq, insana dəyər vermək, ədalətə, sülhə çağırış kimi bəşəri dəyərlər və insani keyfiyyətlər yüksək şəkildə öz əksini tapmışdır. Baxmayaraq ki, böyük şairimizin həyat və yaradıcılığı XVIII əsr Azərbaycan xanlıqlar dövrünə təsadüf edir, onun yazdığı şeirlər xalq ruhunda olduğundan hər kəs onu anlaya, dərk edə bilir. Onun şeirlərində bu dəyərlər müxtəlif mövqedən gözələ, gözəlliyə, insana, bütün bəşər övladına, dərdə, çarəsizliyə, nəfsə qalib gəlməyə, milli düşüncə tərzinə, azərbaycançılığa münasibətdə görünür.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev, Molla Pənah Vaqif haqqında qeyd etmişdir ki: "Böyük şairimiz Molla Pənah Vaqif XVIII əsrdə şeir dilini xalq dilinə daha da yaxınlaşdırdı. Onun yazdığı şeirləri xalqın bütün təbəqələri həm anlaya, həm də qavraya bildi, həm də sevdi. Beləliklə, o, Azərbaycan şeirində yeni bir yol açdı" (5, s. 23),

Məqaləni yazmaqda əsas məqsədimiz Molla Pənah Vaqif poeziyasında bəşəri (barış, ədavət, mərhəmət,insanların dininə, dilinə görə deyil, dəyərinə insani kefiyyətlərinə görə qiymət vermə və s.), polikonfessional (İslam dini ilə yanaşı, özgə dinin nümayəndələrinə münasibət), polietnik (öz-özgə xalqların gözəllərinə, sənətkatrlarına münasibət və s.) dəyərləri araşdırmaqdır. Bu dəyərləri Molla Pənah Vaqif necə yaşadıb? Onun özgə xalqlara, ümumiyyətlə dinlərə, dillərə münasibəti necə olub?

Molla Pənah Vaqif hər şeydən öncə sevgi, məhəbbət, təbiət şairidir. O poeziyasında əxlaqi və gözəlliyi bir olan gözəlləri, hətta özgə xalqların gözəllərini də vəsf etmişdir. Doğrudur onun şeirlərinin böyük əksəriyyəti demək olar ki, xalq ruhundadır. Amma bununla yanaşı o bu gözəlliyi ülviləşdirmiş, yerindən,

məkanından aslı olmayaraq, həqiqi, real, onu daim qəlbində, diqqətində saxlayan ruhən yaxın olan sevgiyə önəm vermişdir.

Vaqif, yad et səni yad eyləyəni,
Doğru sanma hər bir yaram deyəni.
Qoymaz göz önündən sevən sevəni.
Könüldən könülə yollar görünür (8).

Bu nümunədən göründüyü kimi, o yad et səni yad eyləyəni deməklə sanki, sərhəd bilməyən doğru, gerçək insana dəyər verən sevgisinin nə olduğunu anlatmaq istəyir. Eşqə verdiyi dəyər gənclərin əxlaqına, mənəviyyatına təsir edir, və onları mənən daha da zənginləşdirməyə xidmət edir.

Akademik İsa Həbibbəyli məqalələrinin birində qeyd edir ki, "Azərbaycan şeiri Vaqifin sayəsində tarixinin növbəti mərhələsinə qədəm qoymuşdur. Onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir" (5, s. 24)

Ümumiyyətlə götürdükdə Azərbaycan ədəbiyyatının bütün dövrlərində yazıb-yaradan sənətkarların əsərlərinə diqqət etsək görərik ki, multikultural dəyərlərə və tolerantlığa müəyyən şəkildə yer ayrılmışdır. Diqqət etsək görərik ki, tarixi salnaməmiz olan "Kitabi Dədə Qorqud"da və bir çox oğuz dastanlarında, Azərbaycan ədəbiyyatında multikultural dəyərlərə əsrlərdən bəri mühüm yer verilib. Biz multikultural münasibətlərə daha çox "Kitabi-Dədə Qorqud" dastanında təsadüf edirik. Qanlı Qoca oğlu Qanturalı" boyunda Qanturalının evlənmək üçün Trabzonun xristian başçısının qızı sarı donlu Selcan xatunu seçməsi xalqımızın bu dəyərləri hələ tarixən yaşatdığını və qoruduğunu göstərir (3, s.82). "Əsli və Kərəm"də bu onu bir daha isbat edir ki, o zaman oğuz bəyləri üçün heç bir dini mənsubiyyət və özgəlik deyilən bir anlam olmamışdır. Biz öz özgə prinsipinə sonrakı dövrlərdə yaşayıb yaratmış bir çox şairlərimizin poeziyasında çox geniş şəkildə təsadüf edirik. Multikultural, tolerant və bəşəri dəyərlər Azərbaycan xalqının milli, mənəvi və mədəni sər-

vətidir. Hələ XVIII əsrdə yaşayıb yaratmış görkəmli şair, siyasi xadim Molla Pənah Vaqif yaradıcılığında da bu ənənə bir çox qoşmalarında, müxəmməslərində mükəmməl şəkildə verilmişdir. Bu əsərlərin bəzilərində sevgi və dini münasibətlər baxımından ayrı dinlərə və xalqlara mənsub olan gözəllərin vəsfi verilir və onlara səmimi sevgi etirafı və bu yoldakı çətinliklər, cəfalar çəkmiş Qanturalı, Kərəm, Şeyx Sənan, Bahadır və s. kimi qəhrəmanların həyatı çox zaman faciəvi sonluqla bitsə belə yenə də bu münasibətlərin fikirdə, düşüncədə həkk olunması özü ayrılıqda gözəl, saf bir anlama tapınır.

Müxtəlif dinlərə, dillərə mənsub xalqlara qarşı hörmətlə yanaşmaq, bu xalqların adını çox böyük sevgiylə yada salmaq, onlara səmimi dostluq və saf sevgi münasibəti nümayiş etdirmək Molla Pənah Vaqif şeirlərinin əsasını təşkil edir. Onun poeziyasında islam dini ilə yanaşı özgə dinlərlərə də münasibət bildirilmiş, bütün dinlərə böyük hörmət və sevgi ilə yanaşılmışdır. Polietnik və çox konfessiyalı ölkəmizdə tarixən mövcud olmuş multikulturalizm dəyərlərinə dini müstəvidə yanaşdıqda bu dəyərlərin köklərini Molla Pənah Vaqif irsində aydın görmək olar.

Əlqissə ki, yüz kafər ola, yüz də müsəlman
Tövrat ilə İncil, Zəbur, ayəti-Quran,
Tiflis, İrəvan, Şamü Cəbəl, cümlə Trabzan,
Dərbənd, Quba, Bakı, Şamaxilə Sifahan,
Yüz seyr oluna külli-Dağıstan ələ düşməz (8).

Folklorşünas alim Həmid Araslı qeyd edir ki, şifahi xalq şerindən gələn və Vaqifin yaradıcılığında yüksək bir zirvəyə qalxan həyatsevərlik XVIII əsr Azərbaycan poeziyasının ən böyük niyyəti və üstünlüyüdür (6, s. 10). Elə şairin yaradıcılığına həyatsevərlik, dünyavilik prinsipindən yanaşdıqda, onun saray şairi olmazdan öncə xalqa bağlılığı, insanlara, bəşər övladına sevgisi, onun canında, ruhunda olan bir əvəzsiz hiss olduğu öz təsdiqini tapır.

Uzun illər Qarabağ xanlığının vəziri vəzifəsində çalışan Vaqif özünü layiqli dövlət xadimi, müdrik və uzaqgörən bir siyasətçi kimi göstərə bilmişdir. Bu siyasi iş onu yaradıcılığının əslində o siyasi mühitdə daha da gücləndirmiş, xalqla daha geniş təmas onun yaradıcılığına rəng qatmışdır. Multikultural dəyərləri onun demək olar əksər şeirlərində izləmək mümkündür. Baxmayaraq Molla Pənah Vaqif saray şairi olub onun dünyaya baxışı fərqli idi. O şeirərində tez-tez özgə yerlərin, Çinin Yəmənin Ərəbistanın, Misirin adını çəkir, sevdyi gözəli bütün gözəllərdən üstün tutur. Şair şeirlərində dünyəvi, cismani məhəbbəti tərənnüm edir. Professor Fazil Qaraoğlu qeyd edir ki, Vaqif dünya və dünyəvi ideallar şairidir. Nikbinlik, həyatsevərlik onun poeziyasının ümdə xüsusiyyətidir. Onun şeirlərində ictimai ədalətsizlik və bərabərsizliyə nifrət ifadə olunur (3)

Mən aşiq idim, şövqi onun var idi məndə,
Öz aşiqinin gərdənini saldı kəməndə,
Kişmir, Xəta, Misr, Buxaravü Xütəndə,
Movsul şəhəri, Çin ilə Maçinü Yəməndə,
Gərçi gəzələr Rum, Ərəbistan, ələ düşməz.

Və yaxud

Zövqüm, səfam, seyrim, bağım, çəmənim,
Süsənim, sünbülüm, laləm, səmənim,
Xətavü Xütənim, Çinim, Yəmənim
Hindustanım, Rumum, Iranım mənim (8).

Molla Pənah Vaqifin diplomatik təcrübəsi, yaşadığı mühitdəki ictimai-siyasi, sosial proseslərə təsir imkanları, ədalətli və sülhsevər mövqeyi onu yüksək zövq, incə hislər, dərin və nikbin duyğular şairi olduğunu isbatlayır. Onun poeziyasında eşq, dünyəvi gözəlliyin öz xüsusi yeri vardır. Bu xüsusiyyətləri Vaqiflə yaxın dövrlərdə yaşayıb yaratmış Zaqatalalı Aşıq Məhəmməd şeirlərindədə özgə yerlərə, özgə xalqlara, dövlətlərə, özgə gözəllərə münasibət, bəşəri dəyərlər yüksək şəkildə tərənnüm

olunmuşdur. Bu da təbii ki, Vaqifin özündən sonra gələn el sənətkarlarının yaradıcılığına təsirindən irəli gəlir.

Zaqatalalı Aşıq Məhəmməd şeirlərində özgə yerlərə, özgə xalqlara, özgə gözəllərə münasibət bəşəri dəyərlər yüksək şəkildə əks olunmuşdur. Bu da təbii ki, Vaqifin özündən sonra gələn sənətkarların yaradıcılığına açıq şəkildə təsirindən irəli gəlir.

Məhəmmədə qəsd elədim, bu cümlə cahanı gəzib,
Xoy, Sərab, Marağa, Təbriz, Tehranı gəzib.

Və yaxud

Adəm Həvvadan yarandı, nə qədər ki, bəndə var.
Üryangəlib, üryangedən sultan da var, xan da var.
Bu divan o divan döyil, birulu divan da var.
Qurularmizan-tərəzidivani, pərvərdigar (8).

Göründüyü kimi aşıq bütün bəndələrin varından, yoxundan, şahlığından, sultanlığından, dilindən, dinindən aslı olmayaraq, Allahın dərgahında eyni qatda olduğunu bildirir. “Xalqımız, onun öncül yaradıcı şəxsləri özündə milli, dini təəssübkeşlik hissləri ilə yanaşı, bəşəri dəyərləri də yaşatmağı bacarmış və “özününkü” saydığını “özgəninki” olandan çox zaman fərqləndirməmişdir” deyən akademik Kamal Abdulanın fikirləri yerinə düşən və əsaslıdır (1, s. 4).

Molla Pənah Vaqif şeirlərində özündən əvvəlki sənətkarlara onların yaradıcılığına çox böyük hörmət və sayqı ilə yanaşmışdır. Əgər böyük klassik şairimiz Füzuli bəşərin dərdini-qəmini Məcnunun timsalında cəm edib bütün dünyanı bu bəşəri qəmdən, dərddən xilas eləməyi arzulayırdısa, Nizami Gəncəvi ona hədiyyə göndərilmiş dili və məzhəbi ayrı olan bir kənizə vurulur, onun hüquq və haqlarına, dilinə və dininə hörmətlə yanaşırdısa, Vaqif də yaşadığı dövrünün acılarını görür və onları öz nikbinliyi, insanlara bağlılığı, həyatsevrliyi ilə üstünləməyə çalışırdı.

Yəni Tiflisin əcəb dilbəri-zibaları var,
Ey könül, seyr elə kim, türfə tamaşaları var.

Və yaxud

Mərhəba, Tiflis imiş cənnəti dünya yerinin,
Yığılıbdır ona cəmiyyəti huri pərinin.

Və yaxud

Kəsrəti-hüsn ki, xoş mortəbodir insana,
Bəxş edibdir onu haqq dilbəri Gürcüstana (8).

Molla Pənah Vaqif öz şeirlərində bu eşqə bəşəri yanaşmışdır.

Vaqifəm, ta ki, gözüm sataşdı onun qaşına,
İstədi mehrabü mənbərdən xəyalım daşına
İndi bildim kim, nə gəlmiş Şeyx Sənan başına,
Ya budur kim, Tiflisi qərq eylərəm göz yaşına,
Ol sənəm vasli mənimçün ya kəlisadan çıxar (8).

Molla Pənah Vaqif şeirlərində yaşadığı dövrün böyük Qafqazdakı regional və multikultural mühitini yeri gəldikcə dolğun şəkildə əks etdirməyə çalışmışdır. Kamal Abdulla redaktoru olduğu Azərbaycan multikulturalizmin ədəbi bədii qaynaqları kitabında göstərilir ki, Vaqifin əsərlərində Qafqazdakı multikultural mühit öz dolğun bədii əksini tapmışdır. Haqq, həqiqət, məhəbbət, ülviyyət carçısı olmuş Molla Pənah Vaqif öz poeziyasında humanist fikirlərini bədii şəkildə ifadə etmiş, bəşər övladını sülhə, əmin-amanlığa səsləmişdir. Ümumiyyətlə, ümumbəşəri və tolerant xarakter daşıyan multikulturalizm şairin əksər şeirlərində vardır.

Valinin çeşmi-çırağı, vəh nə türfə can imiş,
Külli-Gürcüstanın üstə sayeyi-sübhan imiş,

Və yaxud

Yusifin, yoxsa ki, Yəqubə gələn pirəhəni?
Çeşmi-tarə çəkilən pərdeyi-pürxunə dəyər (8).

Misradan da göründüyü kimi Azərbaycanda hər zaman müxtəlif millətlərə, mədəniyyətlərə, dinlərə xoş münasibət var. Ölkəmiz tarixən istər xanlıqlar, istərsə sonrakı postsovet məkanında yaşadığı dövrlərdə, istərsə də müstəqil dövlət kimi formalaşdığımız zamanda sülh, barış ədələt, həmrəylik, əmin-amanlıq

və qarşılıqlı anlaşma kimi yüksək dəyərləri özündə ehtiva etmişdir. Molla Pənah Vaqif şeirlərində belə nümunələrə çox təsadüf etmək mümkündür.

Kamal Abdullayevin, "Biz doğru olaraq belə düşünürük və belə deyirik ki, bu gün xalqımıza xas olan tolerant, multikuitural dəyərlər əsrlər boyu əcdadlarımızın canında, qanında yaşayıb" (1, s. 6). Onun şeirlərində başqa ölkələrin adları hörmət və sevgi ilə xatırlanır. İlahi, mistik və mifoloji dəyərlərə böyük sayqı qorunur. Bu da təbii ki onun həm də xalq ruhuna bağlılığından irəi gəlir.

Verdi ağa mənə bir çuxa ki, min dona dəyər,
Qeysəri-Rum geyən rəxti-humayinə dəyər (8).

Professor Mirzəağa Quluzadə qeyd edir ki, "Vaqif bütün varlığı, ilhamı ilə həyata, insan gözəlliyinə vurğun, həyat aşiqli, vətənpərvər bir sənətkardır" (6)

Vaqifin özündən sonra yaşayan sənətkarların yaradıcılığına təsirinə gəldikdə, Zaqatalalı aşıq Əzim şeirlərində barış, sülhə səsləyən nümunələrə təsadüf edirik.

Əzim, sənin nəğmələrin ötür bülbül sayağı.
Bu cahana işıq salır azdlığın bayraqları
Dünya bilir məhəbbətdir sülhün möhkəm dayağı
Zəhmətkeşə dəyər verən bir gözəl eldən danış (2, s. 16)

Yüksək bəşəri ideallarıın, humanist duyğuların təbliğatçısı olan Molla Pənah Vaqif şeirlərində bütün dünya insanlarının taleyi ilə bağlı maraqlı fikirlər səsləndirmişdir. Ümumiyyətlə, o poeziyasında yüksək mənəvi, bəşəri, əxlaqi dəyərlərə üstünlük verir.

İxtilatı şirin, sözü məzəli,
Ellər yarasığı, ölkə gözəli.

O, tez-tez şeirlərin dünyanın dərdindin söz açır:

Vaqif, gərçi əzabı var dünyanın,
Sən neçün xovfini çəkərsən, anın,

Və yaxud

Toy-bayramdır bu dünyanın əzabı
Əqli olan ona gətirər tabı (8).

Dünyanın əzabını, dərdini toy bayram bilən şairin üstünlüyü də məhz bunda idi. Minilliklər keçəcək Vaqif poeziyası yada düşəndə hər kəsin xatirinə gələn ilk növbədə onun həyatsevər, nikbin, dünyavi şair olması olacaqdır. Uzun illər keçsə belə Vaqif məhz bu xüsusiyyətləri ilə insanların yaddaşında daha dərin iz buraxacaqdır.

## QAYNAQLAR


1. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları. Bakı, 2016.
2. Aşıqsansa söz deməyə haqlısan. Bakı, Nurlan, 2010.
3. Fazil Qaraoğlu. Tarixdə iz buraxanlar: Molla Pənah Vaqif. http://www.baki-xeber.com/sosial/37877.html
4. Kitabi-Dədə Qorqud dastanı, səh 82, http://masalli.cls.az/-front/files/libraries/2206/books/877191401.pdf
5. Molla Pənah Vaqif–300, Bakı, 2017.
6. Molla Pənah Vaqif əsərləri, Bakı, Şərq-Qərb nəş.
7. Mirzəağa Quluzadə. Gözəllik və həqiqət şairi. Bakı, 2016. http://www.clb.az/files/mv/Vaqif 300.pdf
8. Molla Pənah Vaqif əsərləri. https://www.azadliq.org/a/24311514.html

# MÜNDƏRİCAT


## *Konfransın açılış məruzələri*

**İsa Həbibbəyli**
QÜDRƏTLİ NOVATOR SƏNƏTKAR ............................... 7

**Muxtar Kazımoğlu (İmanov)**
VAQİF ŞEİRİNİN ÜZÜ VƏ ASTARI ................................ 11

**Kamran Əliyev**
MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA
REALİST BƏDİİ TƏFƏKKÜR VƏ FOLKLOR.................. 30

**Nailə Rəhimbəyli**
MOLLA PƏNAH VAQİF VƏ MUSİQİ FOLKLORU ......... 37

**İslam Sadıq**
MOLLA PƏNAH VAQİF İRSİ VƏ XIX ƏSR
AZƏRBAYCAN AŞIQ ŞEİRİ (AŞIQ HÜSEYN
ŞƏMKİRLİ, AŞIQ ƏLƏSGƏR VƏ AŞIQ HÜSEYN
BOZALQANLININ YARADICILIĞI ƏSASINDA)............ 44

## *Məruzələr*

**Almaz Həsənqızı**
MOLLA PƏNAH VAQİFİN RƏVAYƏTLƏRDƏ
YAŞAYAN ŞƏXSİYYƏTİ................................................. 63

**Atif İslamzadə**
MOLLA PƏNAH VAQİFİN "DURNALAR"
QOŞMASININ FOLKLOR SPESİFİKASINA UYĞUN
MOTİVASİYASI................................................................. 75

**Aynur İbrahimova**
MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA
ETNOQRAFİK DETALLAR.............................................. 82

**Aytac Abbasova**
MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA VƏ FOLKLORDA PƏRİ OBRAZI ........................................... 91

**Aytən Quliyeva**
MOLLA PƏNAH VAQIF YARADICILIĞINDA MƏNZUM MƏKTUBLAŞMA........................................... 98

**Çinarə Rzayeva**
MOLLA PƏNAH VAQIF YARADICILIĞINA AŞIQ ŞEİRİNİN TƏSİRİ.................................................. 106

**Elxan Yurdoğlu-Məmmədov**
VAQİF QOŞMALARINDA FOLKLOR İZLƏRİ ................ 114

**Əpoş Vəliyev**
MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR............................... 126

**Fidan Qasımova**
MOLLA PƏNAH VAQİF: FOLKLOR, KLASSİK ƏDƏBİYYAT VƏ TARİX ................................................ 134

**Gülnar Osmanova**
MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA XƏBƏRLƏŞMƏ MOTİVİ................................................. 142

**İslam Sadıq**
MOLLA PƏNAH VAQİFİN BAYATI OVQATLI QOŞMALARI...................................................................... 151

**İlhamə Qəsəbova**
MOLLA PƏNAH VAQİF VƏ QAZAX AŞIQ MÜHİTİ...... 156

**Mahmud Allahmanlı**
MOLLA PƏNAH VAQİF VƏ AŞIQ YARADICILIĞI........ 163

**Nazilə Abdullazadə**
MOLLA PƏNAH VAQİFİN QOŞMALARINDA VƏ FOLKLORDA QADININ MƏNƏVİ GÖZƏLLİYİNİN TƏRƏNNÜMÜ ........................................ 184

**Sevda Qasımova**
MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA DEYİŞMƏ FORMASI ........................................................ 193

**Sevinc Əliyeva**
MOLLA PƏNAH VAQİF POEZİYASINDA XALQ İFADƏLƏRİ ........................................................... 201

**Səməngül Qafarova**
MOLLA PƏNAH VAQİF POEZİYASINDA FOLKLOR MOTİVLİ MƏHƏBBƏT .................................. 206

**Şəbnəm Məmmədli**
MOLLA PƏNAH VAQİF POEZİYASINDA GÖZƏLLİYİN VƏSFİ (folklor və yazılı ədəbiyyat materialları əsasında) ......................................................... 214

**Zümrüd Mənsimova**
MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA BƏŞƏRİ DƏYƏRLƏRİN İFADƏSİ .................................................. 222

**“Molla Pənah Vaqif və folklor”**
**mövzusunda Elmi Konfransın materialları.**
Bakı, Elm və təhsil, 2017

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Gülnar Osmanova**

Kompyuterdə yığdı:
**Nigar İmaməliyeva**

Korrektoru:
**Gülnar İsmayılova**
**Şəbnəm Məmmədova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 236 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Redaksiya-nəşr bölməsinin Kompüter Mərkəzində yığılmış,
“Elm və təhsil” NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.